ŞƏMİSTAN NƏZİRLİ

ƏFSANƏVİ MİXAYLO

Qələm

Şəmistan Əmiraslan oğlu Nəzirli
Əfsanəvi Mixaylo
Bakı-2013

Elmi məsləhətçi:
General-leytenant Kərim Vəliyev

Nəşrin rəhbəri:
Pərviz Eyyubov

Redaktor:
Rəşid FAXRALI

Korrektor:
Çinarə Dadaşova

Bədii tərtibat:
Seymur Eyyubov

Üz qabığı tərtibat:
Ömər Məmmədov

© Qələm

Qələm yazanı qılınc pozmaz
www.qalemneshr.com

Sorağını alsam belə bu gün sənin uzaqlardan,
Məhəbbətə hasar çəkməz nə ayrılıq, nə də zaman…
Can qardaşım! Sən mənimsən, sən mənim partizanımsan,
Yeni günlər yaradanım, yeni tarix yazanımsan!

Səməd Vurğun,
Xalq şairi

Yazıçı-jurnalist Şəmistan Nəzirli bu dəfə oxucuların görüşünə əfsanəvi qəhrəman Mehdi Hüseynzadə (Mixaylo) haqqında yeni kitabı ilə gəlib. "Əfsanəvi Mixaylo" əsərində Mehdinin cəsurluğu, qeyri-adi igidliyi yeni arxiv materialları və nadir sənədlər əsasında yazılıb. Təkcə vətənimizdə deyil, İtaliya, Yuqoslaviya, Fransa və başqa Avropa ölkələrində də yenilməz qəhrəman kimi tanınan Mixaylo - Mehdi Hüseynzadə xalqımıza baş ucalığı gətirib. Ş. Nəzirli yeni kitabında həm də Mehdinin ilk gənclik illərindən - bacılarının, məktəb və tələbə dostlarının xatirələrinə xüsusi yer verib. Vaxtilə Mehdinin çoxlu partizan dostları ilə görüşən müəllif onların da xatirələrinə geniş yer verib. Cəmi 26 il yaşayan Mehdi şair və rəssam, hazırcavab bir gənc idi. Əsərdə onun ilk gəncliyində və əsirlikdə olanda "Qürbətzadə" imzası ilə yazdığı şeirlər və 1935-ci ildə qələmə aldığı poemada ilk dəfə oxuculara təqdim olunur.

Əsərin işıq üzü görməsində "Qələm" nəşriyatına təşəkkür edirik

MEHDİ HƏNİFƏ OĞLU HÜSEYNZADƏYƏ SOVET İTTİFAQI QƏHRƏMANI ADI VERİLMƏSİ HAQQINDA SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Böyük Vətən müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
K.Voroşilov
SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi
M.Georqadze
Moskva, Kreml. 11 aprel 1957-ci il

MÜƏLLİFDƏN

Dinlə ana torpaq, ey Vətən eşit,
Xoş xəbər yayılsın dost ellərinə!
Xəzər sahilində doğulan igid
Qayıtdı Xəzərin sahillərinə.

İllərin üstündən o qanad çaldı,
Bir ömrün ilqarı, əhdi qayıtdı.
Orda əfsanəvi "Mixaylo" qaldı,
Bura əfsanəvi Mehdi qayıtdı.

Nəbi Xəzri
Xalq şairi

Mehdi 1942-ci ilin noyabr ayında Stalinqrad döyüşlərindən kiçik bacısı Hürriyyət xanım Əzizbəyovaya yazırdı: "Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldağacam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur!"

Azərbaycandan minlərlə kilometr uzaqda adı əfsanəyə dönmüş eloğlumuz Mehdi Hənifə oğlu Hüseynzadənin qeyri-adi qəhrəmanlığı unudulmazdır. Onun haqqında söhbət düşəndə əksəriyyət əsil adı və soyadından çox faşistlərin canına lərzə salan *"Mixaylo"* təxəllüsünü daha çox işlədirlər. Onda hansı Mehdidən, hansı qəhrəmandan danışıldığı dərhal məlum olur.

Oğullar var ki, düşdüyü şərait onun qəhrəmanlığına meydan açır. Oğullar da var ki, anadan qəhrəman doğulur. İnamla demək olar ki, Mehdi ikincilərdəndir. Stalinqrad cəbhəsində odlu döyüşlərin iştirakçısı gənc leytenant Mehdi 1942-ci ilin

noyabr ayında kiçik bacısı Hürriyyət xanım Əzizbəyovaya yazırdı: *"Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldağacam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur!"*

İllər keçdi və onun misilsiz qəhrəmanlığını təkcə anamız Azərbaycan yox, bütün dünya eşitdi. Cəbhədən qayıdan Mehdinin sadiq silahdaşları onun qorxmazlığından dastana bənzər epizodlar danışdılar. Mixaylonun - Mehdi Hüseynzadənin qəhrəmanlığı bir ailəyə, bir obaya yox, keçmiş sovetlər ölkəsinə başucalığı gətirdi. İyirmi beş yaşında həlak olan rəssam, şair Mehdi və faşistlərə qənim kəsilən gözəgörünməz kəşfiyyatçı Mixaylonun varlığı çox keçmədi ki, Bakıda qranit mərmərdə heykəlləşdi.

Paytaxtımızın Abbasqulu ağa Bakıxanov küçəsinin yaxınlığındakı bağçada əlində qumbara sıxmış döyüşçü cəsarətlə irəli şığıyır. Çiynindəki plaş-çadır tunc qırışlarda əbədi donmuşdur. Qartal qanadları gərilən igid, düşmən üzərinə növbəti hücum zamanı xalq rəssamı Fuad Əbdürrəhmanov tərəfindən məharətlə təsvir olunmuşdur.

Xalqımızın əbədiyaşar qəhrəmanına Tokay Məmmədovun və Rəhim Quliyevin həsr etdikləri heykəllər, Lətif Feyzullayevin, Cahangir Rüstəmovun, Hüseyn Kərimovun, Tağı Tağıyevin, Cabbar Quliyevin və başqa rəssamların cəsur partizan *"Mixaylo"*nun cəbhə həyatına dair portret əsərləri yaradıcı ziyalıların qəhrəman Mehdi Hüseynzadənin xatirəsinə bəslədikləri dərin hörmət və məhəbbətin bariz nümunəsidir. Adına qəsəbə, küçə, məktəb, kolxoz, savxoz və qəmi var.

Təkcə təsviri sənətdə deyil, xatirəsini son dərəcə əziz saxlayan şairlərimiz də Mehdinin rəşadətinə poemalar həsr edib, şeirlər yazıblar. Bəstəkarlarımız onun şəninə nəğmələr qoşublar. Hər il Novxanı kəndindəki Mehdi Hüseynzadə adına məktəbdə *"Mehdi günü"* keçirilir. Mehdinin qohumları, uşaqlıq dostları və keçmiş silah yoldaşları onu ehtiramla yad edirlər.

Qədirbilən xalqımız igid partizan-kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəni qəlbində əbədi yaşadır.

"Əsirlikdən vətənə qaytarılmışlar. Dünya müharibəsi tarixinin naməlum səhifələrini açaraq və ona aydınlıq gətirərək, mətbuat səhifələrində şahidi olduqları hadisələr haqqında danışmaq imkanı qazandılar. 1956-cı il mayın 31-də "Krasnaya Zvezda" qəzeti kezmiş partizan V.Sokolovun xatirələrinə əsaslanaraq "Partizanın qəhrəmanlığı" adlı məqaləni dərc etdi. Bu məqalə bütövlükdə "Mixaylo" təxəllüsü ilə Yuqoslaviya və İtaliyada qəhrəmanlıq möcüzələri göstərmiş Mehdi Hüseynzadənin şücaətlərinə həsr olunmuşdu. Tarixçilərin və jurnalistlərin axtarışları əfsnələri gerçəkliyə çevirdi. 1956-cı ilin oktyabrında keçmiş partizan Q.A.Jilyayev 39 səhifədə "Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr"ini qələmə aldı və Azərbaycan SSR-in E.A.Tarix İnstitutuna verdi. İnstitutut tərəfindən toplanmış materiallarda Mehdi Hüseynzadənin qəhrəmanlıqlarını təstiqləyən "İgidlik nişanı" Yuqoslav medalı ilə təltif olunmuş sovet partizanlarının siyahısının fotosürəti, həmçinin Rus Zərbə briqadasının Yuqoslaviya ordusunun IX korpusunun qərargahına təqdim etdiyi hesabat da vardı. Bu qəhrəmanın ikinci dünya müharibəsi illərindəki şücaətləri haqqında büyük sayda materiallar əsasında İmam Mustafayev 1956-cı ilin noyabrında ilk dəfə məktubla Sov.İKP-nin MK-nə müraciət etdi. Sov. İKP-nin MK-nin göstərişi ilə Nazirlər Soveti yanında Düvlət Təhlükəsizlik Komitəsi M.Hüseynzadənin Yuqoslaviya və İtaliya ərazisində alman-faşist işğalçılarına qarşı göstərdiyi şücaətlərini təstiqləyən məxfi təhqiqat apardı. Müvafiq arayış 9 vərəqdə İmam Mustafayevə təqdim olundu. F.Kopılov Sov.İKP–nin MK-nə yazırdı: "Yuqoslaviyadakı SSRİ səfirliyi Yuqoslav səlahiyyətli orqanlarına Hüseynzadənin Yuqoslav partizan birləşməsindəki fəaliyyətini əlavə olaraq yoxlamaq və sənədləşdirmək xahişi ilə müraciət etmişdir. "Təhqiqat göstərdi ki, Azərbaycan incəsənət məktəbinin məzunu olmuş, sonralar isə Leninqrad Xarici Dillər institutunda və V.İ.Lenin adına APİ-də təhsil alan M.Hüseynzadə 1941-ci ildə So-

vet Ordusu sıralarına çağırılmışdır. 1942-ci ildə Tbilisidə piyada məktəbini bitirmiş və elə həmin ildə də Stalinqrad döyüşlərində iştirak etmişdir. 1942-ci ilin avqustunda Kalaç şəhərciyi uğrunda döyüşdə ağır yaralanmış və əsir düşmüşdür. Ukraynada, Polşada, İtaliyada, Yuqoslaviyada hərbi əsirlər üçün düşərgələrdə olmuşdur. 1944-cü ildə İtaliyanın Udineze şəhərində onun rəhbərliyi altında keçirilmiş əməliyyat nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsgəri və zabiti azad edilmişdir. DTK-nın arayışı və yeni sənədlərə əsaslanaraq İmam Mustafayev 1957-ci ilin 15 yanvarında təkrarən Sov.İKP-nin MK-nə müraciət etdi. Nəhayət ki, onun cəhdləri uğurla yekunlaşdı. Yuqoslaviyadan əlavə sənədlər alındıqdan sonra 1957-ci ilin 11 aprelində Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Respublika komsomolunun lideri Nazim Hacıyevin təşəbbüsü ilə yazıçılar İ.Qasımova və H.Seyidbəyliyə qəhrəman-partizana həsr olunmuş bədii əsər yazılması tapşırıldı. Onların yaratdığı "Uzaq sahillərdə" povesti oxucular arasında büyök uğur qazandı.1958-ci ildə isə "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırıldı." (Sitat professor Cəmil Həsənlinin "Xruşov "mülayimliyi" və Azərbaycanda milli məsələ" (1954-1959) kitabından götürülüb. Moskva, İzd. «Flinta» 2009 səh. 305-306)

1973-cü il mayın 9-da Bakıdakı heykəlinin açılışında unudulmaz Heydər Əliyev demişdir:

"Azərbaycan Pedaqoji İnstitutunun tələbəsi Mehdi Hüseynzadə hərarətli qəlbinin çağırışı ilə ölkəmizin müda-

fiəçilərinin sıralarına qoşuldu. Stalinqrad ətrafındakı vuruşmada ağır yaralanan Mehdi əsir edildi. Lakin nə tikanlı məftil, nə Hitler həbs düşərgəsinin azğın keşikçiləri cəsur döyüşçünün iradəsini qıra bilmədi. O, faşist zindanından qaçdı və Yuqoslaviya partizanları sırasında düşmənlə mübarizəni davam etdirdi.

Doğma torpaqdan uzaqlarda, Adriatik dənizi sahillərində həmyerlimiz onlarla cəsarətli əməliyyatlar aparmış, kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmişdir. Mehdi Hüseynzadə yüzlərlə hitlerçini məhv etmiş, qatarları yoldan çıxarmış, körpüləri dağıtmış, avtomaşınları və təyyarələri partlatmışdır. Bütün bunlar faşist işğalçıları üzərində qələbəyə qəhrəman Mehdinin döyüş köməyi idi.

Azərbaycanın qəhrəman oğlunun xatirəsini sovet adamları ilə bərabər Yuqoslaviya və İtaliya xalqlarının da yad etmələri bizi sevindirir. Qəhrəmanın məzarı doğma torpaqdan çox-çox uzaqlardadır. Lakin partizanın döyüş yoldaşları hər il, Mehdinin həlak olmasının ildönümü günündə onun məzarı üstünə gül-çiçək dəstələri qoyurlar. Onlar Mehdi Hüseynzadənin əziz xatirəsi qarşısında baş əyməklə bütün Azərbaycan xalqına ehtiramlarını bildirirlər.

Yuqoslaviya-İtaliya müqavimət hərəkatı sıralarında vuruşarkən azərbaycanlı Mehdi Hüseynzadə özünü "Mixaylo" adlandırmışdır. Faşistləri vahiməyə salan bu mübariz ad altında Mehdi Hüseynzadə tarixə əbədi daxil olmuş, onunla çiyin-çiyinə vuruşmuş insanların qəlbində məskən salmışdır. Bu ad müasirlərinin və gələcək nəsillərin hafizəsindən heç vaxt silinməyəcəkdir".

***

Mənim hələ yetmişinci illərdən Mehdinin partizan yoldaşları ilə çoxsaylı görüşlərim olub. Onların Mehdi haqqında xatirələrini yazıb yığmışam. İyirmi ildən çox Azərbaycan televiziyasının *"Hünər"* proqramında redaktor olduğum vaxtda verilişlərə dəvət etdiyimiz istər keçmiş partizanlar, istərsə

də Mehdinin həmkəndliləri və tələbə yoldaşları onun insani keyfiyyətləri ilə yanaşı şeir-sənət aləmində, rəssamlıqda qeyri-adi istedada malik olduğunu xüsusi qeyd edərdilər. Onun elə bir partizan yoldaşı yox idi ki, Mehdini ən çətin, böhranlı anlarda belə özünü itirən və ruhdan düşən görsün. Hər bir keçmiş döyüşçü-partizan xüsusi qeyd edirdi ki, çətin anlarda Mehdi düşmənə qarşı heyrətamiz dərəcədə qorxmaz və soyuqqanlı olurdu. Hər bir əməliyyata əvvəlcədən dəqiq proqnoz verir və qiymətləndirməyi məharətlə bacarırdı.

Ona görə də təsadüfi deyil ki, partizan Mixaylonun-Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin misilsiz döyüş şücaətləri yalnız Azərbaycanda deyil, bütün Avropa xalqlarının dilində dastan olmuşdur.

Xüsusi kəşfiyyatçılar qrupuna başçılıq edən Mehdinin-Mixaylonun cəsurluğu qısa vaxtda bütün Adriatik dənizi sahillərinə yayıldı. Mixaylonun başı üçün faşistlər böyük mükafat təyin etmişdilər. Qorxmaz kəşfiyyatçı, heç şeydən çəkinməyən Mehdi Hüseynzadə gah alman zabiti formasında, gah da yoxsul kəndli paltarında Adriatik dənizi sahillərindəki şəhər və kəndlərdə görünür, partizanlar üçün məlumatlar toplayır, onların ərzaqla təmin olunması üçün cəsarətli əməliyyatlar aparırdı.

Partizanlar arasında Mehdi qeyri-adi igidliyi, cəldliyi, iti zehni, dərin biliyi ilə fərqlənir və seçilirdi.

Mehdi beş dildə - fransız, alman, ispan, italyan və rus dillərində sərbəst danışırdı. Mehdi bu dilləri Leninqrad Xarixi Dillər İnstitutunda oxuyanda öyrənmişdi.

Məharətlə maşın sürən Mehdi, istehkam işini də əla bilirdi…

Əziz oxucu, bu kitabda siz unudulmaz və yenilməz qəhrəman Mehdi Hüseynzadənin uşaqlıq, gənclik illəri ilə yanaşı, Böyük Vətən Müharibəsi illərində göstərdiyi, indiyədək sizə məlum olmayan maraqlı epizodları ilə tanış olacaqsınız.

***

Год рождения 1918, азербайджанец.

В боях на Волге в августе 1942 года взвод лейтенанта Мехти попал в окружение. Раненый, в бессознательном состоянии Мехти Гусейнзаде попал в плен. Трижды пробовал бежать. Третья попытка увенчалась успехом он пробился к партизанам Адриатики и под именем Михайло продолжал воевать против гитлеровских захватчиков на югославской земле.

Неуловимый разведчик, прекрасно владеющий немецким языком, Мехти уходил из-под носа самых опытных фашистких ищеек. О нем ходили фантастические легенды. Имя его наводило панический страх на фашистов и вселяло уверенность в сердца порабощенных людей в скорее избавление от фашизма.

В ноябре 1944 года в тяжелом наравном бою лейтенант Мехти Ганифа оглы Гусейнзаде погиб, до конца выполнив свой солдатский долг.

Посмертно ему было присвоено звание Героя Советского Союза.

QƏHRAMAN PARTİZAN

SSRİ Ali Soveti Rəyasət Heyətinin bu gün dərc olunan Fərmanı ilə Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Azərbaycan xalqının şanlı oğlu Hüseynzadə Böyük Vətən Müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə qəhrəmanlıq və rəşadət göstərmişdir.

Müharibə başlanarkən Mehdi tələbə idi. Təhsilə ara verib kitabı döyüş silahı ilə əvəz etmək lazım gəldi. Stalinqrad ətrafındakı döyüşdə ağır yaralanmış iyirmi dörd yaşlı leytenant Hüseynzadə faşist əsirliyinə düşür. Lakin ilk fürsətdəcə Mehdi hitlerçilərin pəncəsindən qurtulur və bir qrup hərbi əsirlə IX Yuqoslav-İtalyan partizan korpusuna qoşulur.

Çox keçmədən Adriatik dənizi sahilindəki Sloveniya kəndlərində Mixaylonun - dostları Huseynzadəni belə çağırırdılar[1] - başçılıq etdiyi partizan qrupunun cəsur əməliyyatları haqqında geniş xəbər yayılmışdı. Kənd sakinləri bu qrupun partlatdığı faşist anbarları, hərbi sursat aparan eşelonlar, dişlərinə qədər silahlanmış hitlerçilər üzərinə bir dəstə igid tərəfindən edilən cəsarətli hücumlar haqqında eşidib heyrətə gəlirdilər. Partizanlar təyyarə meydanlarından birində iki alman təyyarəsini məhv etmişdilər. Triyestdə çıxan bir faşist qəzetinin redaksiya və mətbəəsi mina ilə partladılaraq, uzun müddət fəaliyyəti dayandırılmışdı. Partizanlar dəmir yollarını minalayır, alman avtomaşınlarını məhv edir, zabitləri əsir alırdılar. Mehdinin döyüş hesabında yüzlərlə öldürülmüş faşist vardır.

Bir dəfə, 1944-cü ilin yay günlərindən birində, cəsur partizan faşistlərin Qorileya şəhəri kənarındakı benzin anbarlarına yaxınlaşır. Mehdi yavaş fəaliyyət göstərən mina ilə bu anbarı partladır. Üç həftədən sonra yaxınlıqdakı ikinci bir yanacaq anbarı da yandırılır.

Silah dostları qeyri-adi rəşadətə, çevikliyə, zirəkliyə və böyük biliyə malik olan mərd azərbaycanlı partizanın həyatından çoxlu döyüş əhvalatlarını öz yaddaşlarında saxlamışdılar. Hüseynzadə dəfələrlə alman zabiti, yaxud əsgəri, italyan karabineri, yaxud kəndli libasını geyərək düşmən yuvasına girmişdir. O, bir neçə dildə yaxşı danışır, istehkamçı işini bilirdi, avtomaşını çox yaxşı sürürdü. Lakin ən başlıcası o idi ki, bu qəhrəmanın sinəsində sovet Vətəninə məhəbbətlə və faşist işğalçılarına qarşı nifrətlə dolu qızğın və nəcib bir ürək döyünürdü.

Qəhrəmanı tutmaq üçün olduqca böyük mükafat təyin olunmuşdu. Cəsur partizan düşmən mövqeyinə gedir, qiy-

1.Tarixi faktlardan məlum olur ki, 1500-cü ilin ortalarında Yuqoslaviyada hakim istilaçılara qarşı mübarizə aparan 12 nəfər mərd komandir olub. Onlardan biri də hərbiçi ailəsindən çıxmış xalqının azadlığı uğrunda vuruşan Mixaylo Quşetiç Matiya (?-1574) idi. Heç şübhəsiz ki, Mehdi yerli əhalidən bu qəhrəman barədə məlumatlanmış "Mixaylo təxəllüsünü həmin igidin şərəfinə qəbul etmişdir.Ş.N.

mətli məlumat toplayırdı. 1944-cü ilin sonlarında Mehdi yeni bir cəsarətli əməliyyatı yerinə yetirdi.

...Faşistlərin kef çəkdikləri zabit meyxanası yanında bir maşın dayandı. Maşından Hitler ordusu kapitanı libasında, əlində çamadan olan Hüseynzadə düşdü. O, salonda göründü. Mehdi içib dəmlənən məclisi salamlayaraq gətirdiyi çamadanı divarın yanına qoyub stola yaxın oturdu. Bir qədər keçdikdən sonra yalançı zabit buranı tərk edib getdi. Öz sloveniyalı yoldaşı ilə dağlara doğru gedən yolda Mehdi partlayış səsi eşitdi. Bu dəfə çoxlu faşist zabiti ölmüş və yaralanmışdı.

1944-cü il noyabrın 16-da Hüseynzadə növbəti döyüş tapşırığını yerinə yetirmək üçün yola düşdü. O, almanların döyüş sursatı anbarını partlatmalı idi. Bu tapşırığı müvəffəqiyyətlə yerinə yetirən Mehdi korpusun qərargahına qayıdırdı. Vitovlye kəndində Mehdi faşist pusqusuna rast gəldi. Qəhrəman bütün güllələri qurtarana qədər atışdı. Son gülləsini isə öz ürəyinə sıxdı. Partizanlar öz döyüş yoldaşlarını böyük ehtiramla dəfn etdilər. Çepovani kəndində qəhrəmanın qəbir daşının üstündə bu sözlər həkk olunmuşdur: *"Rahat yat, Azərbaycan xalqının qəhrəmanı, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır."*

Azərbaycan zəhmətkeşləri öz həmyerlisinə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilməsini böyük sevinclə qarşılayırlar.

"Pravda" qəzeti,
12 aprel 1957-ci il

GEQ KÜÇƏSİNDƏ[2]

Triyestin sarayları və qüllələri Adriatik dənizinin mavi sularına baxan qədim və qələbəlik liman şəhərinin Geq küçəsində köhnə, zaman-zaman rəngi solmuş üçmərtəbəli bina ucalır. Triyest konservatoriyası burada yerləşir. Onunla yanaşı banklar, mağazalar, müxtəlif kontorlar və firmalar səf-səf düzülmüşdür. Maşınlar şütüyür, piyadalar harasa tələsirlər. Lakin çox vaxt üçmərtəbəli qədim evin yanından keçən adamlar papağını çıxarıb bir neçə dəqiqə sükut içərisində dayanaraq divara bərkidilmiş qızılı-bürünc rəngli əklilə baxırlar.

Konservatoriya direktorunun müavini, İtaliyada məşhur bəstəkar mayestro Bruno Çervenka bizə dedi:

- Bu əklil sovet adamlarının igidliyi ilə əlaqədardır. Zəhmət olmasa keçin, bu əhvalatın harada baş verdiyini sizə göstərim...

Hakimiyyəti ələ keçirdikdən sonra qaraköynəklilər burada zabit klubu adı altında gecə barı düzəltdilər, sonra onları polişlər əvəz etdilər: axı Mussolini devrildikdən sonra Hitler öz cəlladlarını Triyestə göndərmişdi.

Qapılarında *"İtalyanlara daxil olmaq qadağandır"* sözləri yazılmış zabit restoranı burada yerləşirdi.

Soyuq fevral axşamlarından birində restorana başqaları ilə birlikdə iki zabit də daxil oldu. Onlardan biri əlində brezent çanta tutmuşdu. Bu zabitlər özlərini bir qədər qəribə aparırdılar: nə haqda danışmaq üçünsə pilləkəndə gözlənilmədən dayandılar. Gestapoçular o zaman diqqət yetirsəydilər, görərdilər ki, yoldaşının arxasında daldalanmış bir zabit çantadan çıxartdığı ampulu dişləri ilə sıx-

2. Jurnalist Y.Kornilov və A. Krasikov Adriyada, qədim Triyestdə də olmuşlar. Onlar Azərbaycan xalqının qəhrəman oğlu, Böyük Vətən Müharibəsi illərində doğma yurdundan didərgin düşdümüş Mehdi Hüseynzadənin faşist quldurlara qarşı mərdliklə vuruşduğu yerləri gəzmiş və öz təəssüratlarını *"Oqonyok"* jurnalının 1965-ci il 42-ci nömrəsində dərc etdirmişlər.-Ş.N

dı: bir az da diqqətli olsalar, mis örtük altında şüşənin necə cingildədiyini eşidərdilər. Budur, kimyəvi tərkib qurğunun yayını saxlayan nazik məftili qırdı, mina işə düşdü. Zabitlər isə heç bir şey olmayıbmış kimi restorana keçib qəhvə tələb etdilər. Onlar şərab içir, ara-sıra gülüşürdülər. Sonra zabitlər masa altındakı çantanı unudub qeyb oldular. Partlayış səsləri Triyest sakinlərinə xəbər verdi ki, vətənpərvərlər fəaliyyət göstərir...

Restorandakı partlayış bütün gestaponu, Hitler kəşfiyyatını ayağa qaldırdı, faşistlər onlarca şəhər sakinini həbsə alıb girov saxladılar. Tuthatut başlandı, nə başlandı. Esesçilər prefektura nümayəndələrinin və yerli faşistlərdən olan casusların müşayiəti ilə burunlarını bütün evlərə soxdular. Axtarışlar heç bir nəticə vermədi. Lakin düşmənin fikrincə, *"alaqetmə əməliyyatı"* təxribat imkanını tamamilə aradan qaldırmalı idi. Elə bu zaman, restorandakı partlayışdan cəmi bir ay sonra, alman libası geymiş həmin iki nəfər yenə də şəhərdə, bu dəfə Obçinada, Triyestin kənarında, yalnız alman zabitləri və əsgərləri üçün filmlər nümayiş etdirilən kinoteatrın qabağında göründülər. Seans başlandıqdan sonra onlar salona daxil oldular. Boş yer tapmayıb sıranın arxasında uzun müddət dayandılar və diqqətlə ekrana tamaşa etdilər. Görünür, film xoşlarına gəlmədiyi üçün onlar salonu tərk etdilər. Tamaşaçılardan heç kəs buna diqqət yetirmədi, gec partlayan minanın içərisinə qoyulmuş saat mexanizminin necə işə düşdüyünü heç kəs eşitmədi. Partlayış nəticəsində 150 hitlerçi öldü. Alman libası geymiş həmin iki nəfər isə yoxa çıxdı. Sanki gecənin qaranlığı onları uddu. İki qəhrəman - onların adları indi də bizim xatirəmizdə və qəlbimizdə yaşayır - yoldaş Mixaylo və yoldaş İvan idi.

Biz Triyestin kənarında dənizdən yüksəkdə, günəşin od ələdiyi dağın sıldırım qayalıq yamaclarında yerləşən dənizçilər və gəmiqayıranlar qəsəbəsində olduq. Qoca Triyest dənizçisinin arvadı Slava Çebulets burada kiçik bir evdə yaşayırdı. Müharibə illərində onun *"Katra"* - deyə çağırıldığını az adam bilirdi. Bu ad Triyest sahillərində əf-

Rəsm Oqtay Sadıqzadənindir

sanəvi şöhrət qazanmışdır. Toxucu qadın o illərdə qorxmaz kəşfiyyatçı idi. Gestapo onu uzun müddət axtarmış, lakin ələ keçirə bilməmişdi. Katra dağlardan və düzənlərdən, minalanmış sahələrdən, hitlerçilərin işğal etdikləri şəhərlərdən və kəndlərdən qorxu nə olduğunu bilmədən keçib gedir, Yuqoslaviyanın partizan birləşmələri ilə Triyestin gizli təşkilatı arasında müntəzəm əlaqə yaradırdı. Mixayloya və İvana kömək edən də o idi. Katra söhbətə başlayıb dedi:

-Yoldaş Mixaylonun əsl adı Mehdi Hüseynzadədir. O, sovet leytenantı idi. 1943-cü ilin qışında Don sahillərində[3] faşistlər tərəfindən əsir alınmış, uzun məşəqqətlərdən sonra Avstriyanın cənubuna, İtaliya-Yuqoslaviya sərhədinə gəlib çıxmışdı. O zaman Mehdi sahil boyu Sloveniya partizanlarının

3. Müəlliflər səhv edir, Mehdi Hüseynzadə 1942-ci ilin avqust ayında Stalinqrad yaxınlığındakı Kalaç şəhərciyi uğrunda döyüşlərdə ağır yaralanıb əsir düşüb. - Volqa sahillərində - Ş. N.

yanına qaçdı. Yuqoslaviyanın partizan briqadalarında yeni adamları diqqətlə, hərtərəfli yoxlayırdılar. Mehdi dedi ki, istehkamçı peşəsinə bələddir, müharibədən əvvəl Leninqrad Xarici Dillər İnstitutunda oxumuş, almanca, fransızca danışır. Bundan sonra ona faşistlərin Qoritsiya yaxınlığındakı təyyarə meydanını partlatmağı tapşırdılar. O, alman forması geyib təyyarə meydanına getdi. Zənnimcə, bu, Mehdinin düşmən yuvasına ilk cəsarətli hücumu idi. Qoritsiyadakı partlayış partizanların qəlbini fəth etmək üçün ən yaxşı, ən düzgün vasitə idi. Meşədə yaşayan adamlar Mehdini öz ailələrinə qəbul etdilər. O vaxtdan Mehdi briqadada hamının sevimlisi oldu. Əgər siz Yuqoslaviyaya gəlsəniz, əlbəyaxa vuruşmada Mehdinin həlak olduğu Çepovani adlı Sloven kəndində bir abidə görərsiniz, abidəni Mehdinin şərəfinə döyüşçülər ucaltmışlar. *"Rahat yat, Azərbaycan xalqının qəhrəmanı, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır".* Bu sözlər abidənin daşına həkk edilmişdir. Abidənin üzərində həmişə tər çiçəklər görmək olar.

Döyüş dostumuza ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildiyini 1957-ci ildə eşitdik və biz partizanlar hamımız ürəkdən sevindik. Lakin Mehdi heç də təkcə Sovet ölkəsinin qəhrəmanı deyildi. Onu haqlı olaraq həm Sloveniyada, həm də bizim Triyestdə qəhrəman adlandırırdılar. Geq küçəsindəki qızıl əklil Mehdinin göstərdiyi hünərləri hamıya xatırladır.

O, susdu. Yoldaş Mixaylonun və onun dostu rus İvanın döyüş hünərlərindən çox danışmaq olar. Onlar Triyestdə faşistlərin *"İl Pikkolo"* qəzetinin redaksiyasını partlatmış, faşist cəlladı Paul Gertneri ağır yaralamış, Udina şəhərindəki həbsxanaya hücum çəkərək onlarca sovet hərbi əsirini azad etmişdilər... Lakin Mehdi heç də təkcə misilsiz hünərlər, böyük igidliklər göstərən şəxs olaraq qalmırdı. Sovet Vətəninə, vətəni Azərbaycana Mehdinin dərya məhəbbəti bizi valeh və heyran etmişdi. Mehdi hərtərəfli, son dərəcə istedadlı bir şəxs idi. Ara-sıra sakit vaxtlarda partizan

kəşfiyyatının mübariz rəisini tez-tez əldəqayırma molbertin qarşısında görmək olardı: o, yaxşı rəsmlər çəkirdi, dağların rəsmini isə daha tez-tez çəkdiyini görmək olardı. Dağlar ona doğma diyarını xatırladırdı. Yaxşı da şeirlər yazırdı. Yadımdadır, bir dəfə küknar ağaclarının yanında tonqal başında o, bizə tutqun bir səslə, lirik və təsirli şeir oxudu:

Gecə ay üzünə salırkən işıq,
Verir camalına hərdən yaraşıq.
Adria! Bil, sənə olmaram aşiq,
Mən öz Xəzərimə vurğunam, a dost!

1958-ci ildə sovet ekranlarında *"Uzaq sahillərdə"* filmi göstərildi. Bu filmdə müharibə illərində Adriatik dənizi sahillərindəki sovet adamlarından, o cümlədən, vətən və qələbə naminə bir sıra şanlı hünərlər göstərmiş Mixaylo adlı cəsur kəşfiyyatçı partizandan danışılırdı.

...Biz bütün bunları Geq küçəsindəki köhnə evə gedərkən xatırladıq. Köhnə modalı qara lentli pencək geymiş maestro Çervenka bizimlə birlikdə küçəyə çıxdı. Divardakı qızılı-bürünc əklilə xeyli baxdı.

- Bizim İtaliyada rus balası qəhrəman Fyodor Politayevin adına yaxşı bələddirlər. O, İtaliyada vuruşmuş və öz həyatını faşizm üzərində qələbə naminə qurban vermişdir. Təəssüf ki, Mixaylonun və İvanın adları bir çoxlarına məlum deyildir. Onlar necə də mətin insanlar idilər...

Y.Kornilov, A. Krasikov

"MİXAYLO"NUN SİLAHDAŞLARI

Soldan: Cavad Həkimli, Mehdi Hüseynzadə-Mixaylo və Anjelikanın qardaşı Aleksandr, 1943-cü il, İtaliya

1975-ci ildə televiziyanın "Heç kim unudulmayıb... verilişində Naxçıvanın Zeynəddin kənd orta məktəbinin müəllimi Əsgər Əliyevin göndərdiyi belə bir sorğunu elan etmişdik: *"Həmkəndlimiz Sadıq Nadirli İtaliyada əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin yaxın dostu və silahdaşı olub. Mehdi Hüseynzadənin sağ qalan dostlarının hamısı - Cavad Həkimli, Mikayıl Qulubəyov, Fərrux Sultanov, Qədir İsgəndərov, Rza Orucov və başqaları öz xatirələrində Sadıq Nadirlinin adını dönə-dönə çəkir, onun gizli təşkilatlardakı mübariz fəaliyyətindən qısaca bəhs edirdilər. Ümid edirik ki, Nadirlinin sağ qalan partizan dostları onun haqqında əlavə məlumatlarla redaksiyanıza müraciət edəcəklər."*

Sorğudan bir neçə gün sonra Tovuzdan zəng edib bizə şad xəbər verdilər. Həmin gizli təşkilatın fəal üzvlərindən

biri olan Fərrux Sultanov hazırda Tovuzda yaşayır. Fərrux Sultanovla görüşmək, onun xatirələrini dinləmək üçün mən həmin rayona ezam olundum.

***

Bizimlə birgə çalışan, deyib-gülən adamlardan bəzən kədərli, məşəqqətli söhbətlər eşidəndə heyrətə gəlirik. Onların müharibə illərində nələr çəkdiyinə, əfsanəvi qəhrəmanlıqlarına heyran qalırıq. Belə adamlar istər-istəməz gözümüzdə böyüyür, qəhrəman kimi şərəfli ada layiq olur.

Tovuzlu partizan
Fərrux Sultanov

Müharibə başlayanda Fərrux Kirovabaddakı Tibb texnikumunda son kurs imtahanlarını verirdi. Ona diplom almaq, bircə gün belə dörd il həvəslə oxuduğu sənətdə işləmək qismət olmadı. Bir neçə gün sonra vətəni düşməndən qorumaq üçün dəstə-dəstə, alay-alay cəbhəyə gedən könüllülər sırasında Fərrux da vardı. Tbilisidə ay yarımlıq hərbi-tibb kursu keçdikdən sonra 386-cı atıcı diviziyanın tərkibində Sevastopol döyüşlərinə göndərildi.

Leytenant Sultanov şiddətli güllə yağışı altında yaralıları arxa cəbhəyə çəkir, təcili tibbi yardım göstərirdi. 1941-ci ildə Simferopol yaxınlığındakı üç günlük ağır döyüşlərdə o, bir qrup yaralının həyatını xilas etdiyinə və döyüş tapşırığını əla yerinə yetirdiyinə görə Sevastopol Ordu komandanı general İ.Y.Petrovun şəxsi təşəkkürünü qazandı. Həmin günlərdə onu odlu səngərdə partiya sıralarına qəbul etdilər və baş leytenant rütbəsi verdilər.

1942-ci il noyabrın 7-də *"Kommunist"* qəzeti *"Şiddətli atəş altında"* adlı məqalədə baş leytenant Fərrux Sultanovun mərdliyindən yazırdı:

"N" hissəsinin hərbi feldşeri, Kirovabad Tibb texnikumunun keçmiş tələbəsi Fərrux Sultanov həmişə qabaq mövqedə olur. O, döyuşçülərlə birlikdə faşistlərin hücumlarını dəf edir, döyüşçülərlə birlikdə əks-hücumlara keçirdi. Sultanov güllə, qumbara, süngü və qundaqla az hitlerçi qırmamışdır.

Bir yaşayış məntəqəsinin yanında qızğın vuruşma gedirdi. Hitlerçilər özlərini dəlicəsinə müdafiə edirdilər. Döyüşçülərimiz inamla irəliləyirdilər.

Sultanov gah bir tərəfdə, gah da digər tərəfdə görunürdü. O, yaralılara ilk tibbi yardım göstərirdi. Həmin gün hərbi feldşer Fərrux Sultanov düşmənin atəşi altında iyirmi doqquz yaralı döyüşçünü və komandiri, habelə onların silahlarını vuruşma meydanından çıxartdı.

Fərrux Sultanov hökumət tərəfindən təltif edilmək üçün təqdim edilmişdir".

Həmin il azğın düşmən böyük bir qüvvə ilə mühüm əhəmiyyətli dəniz şəhəri olan Sevastopolu sudan və havadan atəşə tutdu. Baş leytenant Sultanovun vzvodu da füsunkar Krım torpağı uğrunda güclü tank dəstəsinə qarşı şücaətlə vuruşaraq düşmənin iki tankını məhv etdi. Diviziya komandiri podpolkovnik Skutelnik qəhrəmanlıq nümunəsi göstərərək həlak oldu.

Sapun dağının şərq yamacında Fərrux və səkkiz nəfər döyüş dostu ağır yaralanır. Ayılanda özünü düşmən əhatəsində görür. Həmin dəqiqədən də həyatının məşəqqətli, əzablı günləri başlanır.

Əsirlik həyatından danışmaq, dəhşətli günləri bir daha xatırlamaq Fərrux Sultanov üçün çox ağırdır. Tale onu vətəndən uzaqlarda çox adamlarla görüşdürüb, həyatın minbir məşəqqətinin acısını dadıb.

Tez-tez vaxtsız həlak olan silah dostlarını xatırlayır, onların vətən üçün əvəzsiz xidmətini kədər və qürur hissi ilə yad edir. Ötüb keçən illər bu kövrək insanın hafizəsindən hələ

çox şeyi qoparda bilməyib. Faşistlər onu yeddi ay Simferopol həbsxanasında müalicəsiz saxladıqdan sonra hərbi əsirlər dəstəsində Almaniyaya göndərirlər. Ştrans qəsəbəsindəki əsirlər düşərgəsində o, ilk dəfə cəsur Mehdi Hüseynzadə ilə tanış olur.

- Mehdi ilə ilk dəfə 1943-cü ilin sentyabr ayında həmin həbs düşərgəsində tanış oldum.

Fərrux susdu, onun kədərli üzü sanki daşa dönmüşdü. Biz onunla Tovuzdakı kiçik həyətində oturmuşduq. Üzü günəşə baxan evin kölgəsində. Dama qədər dırmaşan meynəliyin kölgəliyi çox sərin idi. Müsahibimin alnında, üzündə tər damcıları almaz dənələri kimi parıldayırdı. Ara vermədən papiros çəkən Fərrux bizə tərəf uzanan budağı tutub dedi:

- İndi mən bunu sındırsam, gövdəsindən ayırsam, göz yaşı axıdacaq. İnsan da belədi. Kim onu vətəndən, anadan ayırsa, kədərlənib göz yaşı tökəcək. İlk vaxtlar günlərimiz çox kədərli keçirdi. Elə ki Mehdiylə tanış olduq, bu nikbin və şən oğlan hamımızı ələ aldı. Əsir düşən ağlamaz, -dedi, -gəlin burdan çıxmaq üçün bir çarə axtaraq. Düşərgədəki iyirmi üç min əsir arasında möhkəm təbliğat apardıq. İlk dəfə olaraq almanlara qarşı gizli təşkilat yaratdıq. Təşkilatın ümumi rəhbəri Mehdi, qrup rəhbərləri isə Cavad Həkimli, Sadıq Nadirli, Mikayıl Qulubəyov, Qasım Əmrahov və başqaları oldu.

O vaxtlar almanlar yerli əhalini də çox incidirdilər. Odur ki, onlardan bəziləri partizanlıq edirdilər. Biz də imkan axtarırdıq ki, faşist gözətçilərini məhv edib, onlara qoşulaq. 1943-cü ilin noyabrında bizi vaqonlara doldurub Şimali İtaliyanın Triyest şəhəri yaxınlığındakı Opçina qəsəbəsinə istehkamlar qurmaq üçün gətirdilər. Burada işlədiyimizə görə nisbətən *"azadlıq"* qazanmışdıq. Hətta almanlar Mehdiyə, Cavada etibar edib qəsəbəyə getmələrinə də icazə verirdilər. Onlar partizanlarla əlaqə yarada bilmişdilər. Gizli təşkilatımızın qərarına əsasən Mehdi, Cavad və Əsəd Qurbanov partizanlığa göndərildi. Sadıq Nadirli, Qasım Əmrahov və mən Mehdinin göstərişi ilə əsirlikdə fəaliyyət göstərməli, almanların hərəkətı haqqında onlara müntəzəm məlumat verməli və əsirlərin kütləvi partizanlığa qaçmasına

şərait yaratmalı idik. Bizim göstərişlərimizlə Mehdigil kinoteatrları, körpüləri, fahişəxanaları, restoran və barları dağıdırdılar. Ümumiyyətlə, bizim əsas vəzifəmiz faşist əsgər və zabitinin çox olduğu yeri nişan vermək idi.

-Fərrux müəllim, Mehdigillə harada, necə görüşürdünüz, bəs faşist nəzarəti?

- Bizi gündüzlər çox işlədib yorsalar da, gecələr gözətçini yuxuya verəndən sonra yatmırdıq. Nəyin bahasına olursa olsun, təşkilatın tapşırığı yerinə yetirilməli idi. Axı təşkilatın əsas rəhbərlərindən biri cəsur sovet kapitanı Cavad Həkimlinin dəmir kimi möhkəm andı vardı: *"Lazım gələrsə, vətən yolunda həlak olmalı!"* Təşkilat yaranan günü bu anda son nəfəsimizə qədər sadiq qalmağa söz vermişdik. Gecələr Mehdigillə qabaqcadan müəyyən olunmuş yerlərdə-restoranlarda (əlbəttə, alman formasında) qoca bir qarının evində və ayrı-ayrı tinlərdə görüşüb məlumat alıb-verirdik.

-Mehdinin nəsillərə nümunə olan əfsanəvi qəhrəmanlığı haqqında haqlı olaraq mətbuatımızda çox yazılıb. Bəs cəsur dostunuz Sadıq Qasım oğlu Nadirlinin fəaliyyətindən necə, yadınızda qalan bir epizod varmı?

-Mən inamla deyərdim ki, Mehdi kimi, Sadıq Nadirli də misilsiz rəşadət göstərmişdir. 1943-cü il, payızın son ayları idi. Bir gün mən Mehdinin buraxdığı *"Hüququnu itirmiş dostuma"* sərlövhəli vərəqələri başqa bir düşərgəyə çatdırmalı idim.

Vərəqələr alman faşistlərinin yaxın vaxtlarda darmadağın olunmasından, Sovet qoşunlarının bütün cəbhə boyu müvəffəqiyyətli hücumundan bəhs etməklə bərabər, həm də əsirləri intiqama səsləyən mübariz bir ittihamnamə idi. Onun son sətirləri "Alman faşistlərinə ölüm! cümləsi ilə qurtarırdı.

Azərbaycan dilində olan bu vərəqə *"Qürbətzadə Mixaylo"* imzası ilə buraxılırdı.

Mən Mehdidən iki yüzdən çox vərəqə götürüb, əlavə tapşırıqlar da aldım. Düşərgələr bir-birindən xeyli aralı idi.

Həmin gün bizim parolumuz *"Xəzər dalğası"* idi. Onu da deyim ki, ehtiyat üçün hər görüşdə bir parolumuz olurdu.

Qaranlıq, çiskinli bir gecə idi. Pencəyimin sağ qolunda gizlətdiyim tapançamı hazır vəziyyətdə saxlamışdım. Görüş

yerinə lap az qalmış qəfildən gözümə gur işıq salındı. Bir səs *"hendi hox"*-deyə bağırdı. Faşist patrulları ilə üzbəüz gəldiyimə şübhə etməyib yerimdən tərpənmədim. Kiçicik bir hərəkətimdən, tərpənişimdən məni yerimdəcə güllələyə bilərdilər. Sağ və solumda avtomat şaqqıldadı. Almanca gecənin adını soruşduqda, dinmədim.

Üstümdəki vərəqələrdən birisi kimdə tapılsaydı, onun ən yüngül cəzası asılmaq idi. Məndə isə bu vərəqələrdən iki yüzdən çox idi.

Son dəqiqələrim olduğunu hiss edib, xəyalımdan min bir fikir keçirdim. Faşist cəlladlarının dəhşətli, dözülməz cəzalarını xatırlayıb burada özümü məhv etmək qərarına

Sağdan ikinci Mehdi Hüseynzadə partizan dostları arasında, əlindən tutduğu qız Anjelikadır

gəldim. Yavaş-yavaş əllərimi yuxarı qaldırıb tapançadan möhkəm yapışdım. Faşist yenə *"Parol!"*-deyə bağırdı. Bu vaxt arxadan kimsə, *"Xəzər dalğası"* deyib bir anda faşistləri yerə sərdi. Mən qorxudan donub qalmışdım. Güllə atılan tərəfdən:

-Fərrux, mənəm, Nadirliyəm, özünü ələ al, - sözləri eşidildi. Sadıq faşist avtomatlarını soyuqqanlılıqla yerdən götürdü. Sonra:

-Hələ özünə gəlməmisənmi? -deyə soruşdu. Mən onda xatırladım ki, bura həmişə Nadirli ilə görüşdüyümüz yerdir. Sadıq Nadirli də Mehdi kimi faşistlərin qənimi idi. Sloveniyada və Yuqoslaviyada adı dillərdə gəzirdi. O, Naxçıvanın Zeynəddin kəndində anadan olmuşdu. Bu cəsur vətənpərvər həbs düşərgəsində əsirlərə olmazın cəza verən faşist zabiti Rabeni və baş feldfebel Ştiki aldadıb bara aparmış və orada məhv etmişdi.

- Nadirlinin son taleyi necə, yadınızdadırmı?

- Artıq 1944-cü il, mart ayının sonlarında düşərgədəki iki mindən çox azərbaycanlının partizanlığa qaçmaq planını hazırlamışdıq. Hər şey əvvəlcədən müəyyənləşdirilmişdi. Əməliyyat necə olursa olsun, yerinə yetirilməli idi. O vaxt faşistlər bizdən bir az şübhələnib ayrı-ayrı düşərgələrə bölmüşdülər. Düşərgələr bir-birindən iyirmi beş-otuz kilometr aralı idi. Bir gün Qasım Əmrahov xəbər gətirdi ki, Nadirli həbs olunub, silahdaşlarını da darmadağın ediblər, təşkilatın uzun müddət hazırladığı plan təhlükə qarşısındadır. O, vətənpərvərlərdən ibarət gizli bir dəstə toplamışdı. Onun ən böyük arzusu gizli fəaliyyətə son qoyub silahdaşları ilə birgə Mehdinin partizan dəstəsinə qoşulmaq idi. Həmin gecə səhərə yaxın Nadirli sloven qızı Savvanın (*"Uzaq sahillərdə"* filmindəki Anjelikanın əsl adı) yanına gedib, məxfi məlumatları və partizanların göndərdiyi buraxılış vərəqələrini alıb qayıdanda bir satqın tərəfindən ələ verilir. Axtarış zamanı onun portfelindən məxfi sənədlər çıxır. Satqın Nadirlinin öz dəstəsində imiş. Bir neçə gün sonra hamını Nadirlinin olduğu düşərgəyə gətirdilər. Ona dəhşətli

əzab, işgəncə vermişdilər. Müavini Məmmədağa ilə ikisini də düşərgədə əsirlər qarşısında dirəyə bağlayıb vicdansızcasına döydülər. Onu bu vəziyyətdə tanımaq çox çətin idi. Lakin o, bütün əzablara mərd bir sovet zabiti kimi dözərək nə təşkilat, nə də onun üzvləri haqqında heç bir şey demədi.

Son sözləri indi də qulaqlarımda səslənir: *"Əlvida, qardaşlar, məndən arxayın olun, sağ qalsanız anama, Vətənə çoxlu salam deyin!"*.

Boğula-boğula danışan müsahibim hıçqırtıdan özünü saxlaya bilmirdi. Mən donmuş halda onun üzünə baxırdım. Amma göz yaşlarını görə bilmirdim. Hardansa nənəmdən eşitdiyim bir fikir yadıma düşdü: *"Dost üçün ağlayan gözün yaşı qəlbə axar"*. Bəlkə insan öz daxilindəki odu, atəşi, yanğını söndürmək üçün gözünün yaşını qəlbinə axıdır. Adam ancaq onda nisbətən rahatlıq tapır, öz əzabı özünü dincəldib sakitləşdirir. Dərdini danışmaqla rahatlıq tapmasan, ürəyin varsa, gərək mütləq ağlayasan.

Bundan sonra azərbaycanlı əsirlərdən ehtiyat edən faşistlər onları ciddi nəzarət altında vaqonlara doldurub Tirren dənizi sahillərinə göndərdilər. Yolda Fərrux Sultanovun başçılığı ilə yüz yetmiş nəfər həmyerlimiz nəzarətçiləri məhv edib, vaqonları dağıtmışdılar.

Meşələrə çəkilən əsirlər gecə-gündüz yol gedərək Orta İtaliyanın Qrozetta şəhəri yaxınlığındakı amerikan ordusu ilə birləşərək almanlara qarşı vuruşmuşlar.

Fərrux Sultanova 1943-cü ildə partizan təşkilatının verdiyi bir sənədlə tanış oluram. *"Verilir 1923-cü ildə Tovuz rayonunda anadan olmuş Fərrux Sultanov yoldaşa. O, gizli təşkilat sıralarında özünü intizamlı, qorxmaz və cəsur kimi tanıtmışdır. Bütün tapşırıqları vicdanla və səliqə ilə yerinə yetirir. Mübarizəmizin məqsədini yaxşı anlayır. Buna görə də dəfələrlə mükafatlandırılmışdır"*.

Atalar yaxşı deyib: *"Ot kökü üstə bitər"*.

Görkəmli partiya və dövlət xadimi Həmid Sultanovun nəslindən olan Fərruxun şücaətləri heç də təsadüfi deyil. Onun böyük qardaşı Xanoğlan da Böyük Vətən Müharibəsi

illərində könüllülər dəstəsində qəhrəman Stalinqrad və dost Polşa torpağı uğrunda vuruşmuşdur. Baş leytenant Xanoğlan Sultanov müharibədən əvvəl respublika çempionu olmuşdur.

- Bəs sonra Mehdi Hüseynzadə ilə əlaqə saxlaya bildinizmi?

- Xeyr, mənə Mehdi ilə bir daha görüşmək qismət olmadı. Mehdinin bundan sonrakı taleyini Cavad Həkimli daha ətraflı bilir. Son günlərə qədər onlar birgə olublar. Həyatda elə şəxsiyyətlər, elə insanlar var ki, onlar haqqında danışmamaq, yazmamaq mümkün deyil. Böyük proletar yazıçısı Maksim Qorki haqlı deyib ki, *"Susmağa haqqın olmayan şeylərdən yaz"*. Belə adamlar həyatda çox şey görüb, çox sınaqlardan çıxıb, bir sözlə, elə maraqlı həyat yolu keçiblər ki, bugünkü gənclərimizə onlar nümunə olmağa layiqdirlər.

Göyəzənin yanından keçən yol meşəli dağların ətəyinə qədər uzanır, sonra sağa burulub bir daha dumanlı, çiskinli aşırımlardan, gədiklərdən keçib Lori dərəsinə çatır. Batmaqda olan günəşin son şəfəqləri Ləlvər dağı arxasında *"can verəndə"* maşın bizi Qaraqaya zirvəsinə çatdırdı. Burdan sıra dağların, geniş dərələrin və yamyaşıl zəmilərin gözəlliyindən göz çəkmək olmur.

***

Lori dərəsinin girəcəyindəki - Gürcüstanla Ermənistanın sərhədində yerləşən Ləmbəli kəndilə bizi on-on beş kilometr ayırırdı. Amma adama elə gəlir ki, bu ucdan əl uzatsan çatarsan. Aşağılarda - Kür üstündəki pənbə buludlar şairanə bir nazla sürünə-sürünə harasa baş alıb gedir.

Mixaylo və Cavad - hər iki ad uşaqlıqdan mənə tanış və doğmadır. Yadımdadır, 1957-ci ildə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilməsi xəbəri ildırım sürətilə ölkəmizin hər bucağına yayıldı. Onda biz məktəblilər tənəffüsdə bildiyimizi dil boğaza qoymadan birbirimizə əfsanə kimi danışardıq. Hətta ən tələbkar riyaziyyat müəllimimiz Qiyas Hacıyev də dərsini həmkəndlisi Cavadın Mehdi ilə dostluğuna qurban verərdi. Bizim təsəvvürümüz-

Mehdi Hüseynzadə və C. Həkimli
rəsm Y. Əsədovundur

də Mixaylo və Cavad dünyanın ən cəsur, ən nəhəng qəhrəmanları idi.

Yolda Fərrux Sultanovdan dönə-dönə Cavadın boy-buxunu soruşdum:

- Ortaboylu, yerişdən və dildən iti bir adamdır,- dedi. Sonra gülə-gülə əlavə etdi: - O da mənim kimi qara qıvrım tellərini qürbət küləklərinə verib.

Doğrudan da Cavad Həkimli ilk baxışdan qeyri-adiliyi ilə heç kimdən fərqlənmir. Yalnız cəsur dostu Mehdidən danışanda adam onun yaddaşına, təvazökarlığına qibtə edir. Babalarımız gözəl deyib ki, dost qədri bilmək hər kişinin işi deyil, ər kişinin işidir. Cavadın özü haqqında ondan söz qopartmaq da hər oğulun işi deyil. Nədən danışırsan, hansı suala cavab istəyirsənsə, o, istər-istəməz Mehdi və partizan dostları ilə bağlı xatirələrinə qayıdır. Etiraf edirəm, ilk görüşümdə onun söhbətinə o qədər aludə oldum ki, qayıdanda yolda dəftərçəmə baxıb xəcalət çəkdim. Mehdi ilə bağlı ancaq bir neçə qeyd götürə bilmişdim. Onu da xatırladım ki, partizanın zəngin hafizəsilə yanaşı, zəngin də arxivi var.

Cavadda Mehdinin əsirlikdə çəkilmiş nadir fotoşəkilləri, əlyazması və şeirləri saxlanılır.

Üzərində qədim milli naxışlar işlənmiş kitab taxçasından çıxartdığı qovluqlardan birində saralıb-solmuş bir vərəqə diqqətimi cəlb edir. Partizanın icazəsilə alıb oxuyuram: *"Əziz yoldaşlar!"* Çoxdan səbirsizliklə gözlədiyiniz azadlıq və intiqam vaxtı çatıb. İndi söz sizindir. Digər yoldaşlarla bütün qüvvənizi toplayıb şərtləşdiyimiz yerə dəqiq təyin olunmuş vaxtda gəlin. Yığışacağımız yeri və saatı sizə bu məktubu verən çatdıracaq. Qaçışı hər hansı şəkildə ləngitmək və ya sonraya qoymaq ölümlə qurtaracaq.

Zəruri olduqda partizanların tərəfinə keçməyimiz partizan birləşmələrinin bölmələri tərəfindən təmin olunur.

Oxu sonra yoldaşına ötür.
Həmyerlilərəriniz.
Faşizmə ölüm-xalqa azadlıq!.

- Bu vərəqəni ilk dəfə 1943-cü ilin əvvəllərində əsirlikdə olanda Mehdi ilə mən tərtib etdim. Vərəqə rus və Azərbaycan dilində yazılıb paylanırdı.

Mehdi hələ əsirlikdə olanda ətrafına çəsur adamlar toplayıb, öz istədiyi təxəllüslə də onları çağırırdı. Tağı Əlizadəyə İvan Çornı (bu həm də Mehdinin qrup təxribatçısı idi), Cavad Həkimliyə Qarasaqqal əmioğlu, Fərrux Sultano-va Fedya adını Mehdi vermişdi. Yuqoslaviyalı Mario, Sap (Mehdinin müavini) və alman Fris onun çox sevdiyi partizanlar olub.

- Fəqət mən Frisdən çox ehtiyat edirdim, - deyə Cavad Həkimli mərd dostları haqqında söhbətini davam etdirir,- odur ki, Mehdiyə deyərdim:

- Əmioğlu, (biz bir-birimizə həmişə belə müraciət edərdik. Hamı da bizi qohum bilirdi. Mehdi dəfn olunan günü qohumu hesab etdiklərindən çıxış üçün ilk sözü mənə verdilər) qurdu nə qədər əhliləşdirsən də yenə meşəyə baxacaq. Frisdən qorxuram.

Mehdi isə özünəməxsus şəkildə, xırdaca-xırdaca gülümsünüb:

-Əyə, belə oğlandır, - deyib şəhadət barmağını dik tutardı.

Doğrudan da Fris axıra qədər bizə sadiq qaldı. Sonralar öyrəndik ki, onun atası Avstriya kommunisti olmuşdur.

- Cavad müəllim, deyilənə görə Mixaylo özü İvan Çornının-Tağı Əlizadənin, Ənvər Məmmədovun göstərdiyi şücaətlərlə fəxr edərmiş. Bəs onların son taleyindən bir şey bilirsinizmi?

- Düzdü, Mehdi xüsusilə İvan Çornının qəhrəmanlığı ilə fəxr edərdi. Tağı çox gənc idi. Bakıda anadan olmuşdu. İyirmi-iyirmi bir yaşı ancaq olardı. Kəşfiyyat-diversiya qrupunun bu əsgəri qorxu nə olduğunu bilməzdi. Ən təhlükəli tapşırıqları təkbaşına yerinə yetirərdi. Körpüləri partlatmaqda, gecələr faşist gözətçisini səssizcə aradan qaldırmaqda ən mahir partizan idi.

Faşistlər Mixaylo kimi, İvan Çornının da başı üçün böyük mükafat ayırmışdılar. Nə az, nə çox beş yüz min lirə. Fəqət düşmən onu heç cür tuta bilmirdi. O, doğrudan da zirəkliyi və cəsurluğu ilə hamını heyran qoymuşdu. Dağ keçisi kimi cəld və faşistlərə qarşı hədsiz kinli idi.

1944-cü ildə Şimali Yuqoslaviyanın Qoritsiya şəhəri yaxınlığındakı Rençe kəndində faşistlər növbəti əməliyyatda olan Tağının izinə düşüb, onu təqib edirlər. Bu vaxt bir tərəfdən vlasovçular, digər tərəfdən faşistlər qəfildən kəndi mühasirəyə alır. Tağı vlasovçuları özümüzünkü bilib onlara yaxınlaşır. Lakin vətən xainləri onu faşistlərin əlinə verirlər. Yerli əhalidən kimi *"oğlumdur",* kimisi də *"ərimdir"* deyirsə, faşistlər inanmırlar, igid partizana olmazın əzab-əziyyət verib partizanların, Mixaylonun yerini soruşurlar. Tağı Əlizadə isə nə dostları, nə də Mehdi haqqında bir kəlmə deyir. Bir gün sonra bizə Tağının tutulması haqqında xəbər çatdı. Hücum edib onun meyidini zorla faşistlərin əlindən aldıq. Cəsur dostumuzun dəfni böyük bir nümayişə çevrildi.

Ənvər Məmmədov isə Qudoviç və Vitovli əməliyyatlarında xüsusilə yaxşı vuruşurdu, Mehdinin ölümündən sonra

rota komandiri Ənvər oldu. Yadımdadır, bir vuruşmada Ənvər qırxa yaxın faşist məhv etdi. Ənvərlə indi də görüşürük. O, Ağdamın Umudlu kəndində yaşayır.

- Bəs həbs düşərgəsində gizli iş aparan, tağım komandiri kimi böyük etibar qazanmış igid Sadıq Nadirlini necə, xatırlayırsınızmı?

- Baş leytenant Nadirli ilə mən hələ 1942-ci ilin axırlarında Ukraynada tanış olduq. Tale bizi ikinci dəfə Almaniyanın Ştranst şəhərindəki əsir düşərgəsində görüşdürdü. Düşərgəmizdə ukraynalı Jenya Zoporojets adlı bir qız vardı. O, alman qərargahında işləyirdi. Özünü *"Folks doln",* yəni *"alman qatışığı, almana məxsus"* adlandırırdı. Qızın Nadirliyə xüsusi hörməti, rəğbəti vardı. Bir neçə dəfə onu sınadıq. Etibarlı qız idi. Biz, xüsusilə, Sadıq Nadirli bu qızdan təxribat işini öyrəndik.

- Xoşum gəlir, - deyərdi, - etibarlı adamdan, müharibədən sonra harada olsa Jenyanı tapıb əbədi dostluq edəcəm.

1943-cü ilin yanvarında Mehdinin, Əsəd Qurbanovun və mənim partizanlığa keçməyimizə şərait yaradan Nadirli oldu. Gizli təşkilatın rəhbərləri arasında aparılan vəzifə bölgüsünə görə Nadirli düşərgədə qaldı. Azərbaycanlı əsirlərin partizanlığa qaçmasını təşkil etdi. Sadıq Nadirli həm də alman komandanlığının hərəkət planları, döyüşçü və hərbi sursat daşıyan qatarların, avtomobillərin hərəkət cədvəli haqqında əvvəlcədən biz partizanlara məlumat verirdi. Bu cəsur oğlan belə çətin və qorxulu işin öhdəsindən şərəflə gəlirdi. Nadirli partizanların buraxdığı xüsusi vərəqələri əsirlər arasında yayırdı. Bu vərəqələr partizanların yanına keçmək üçün etibarnamə, buraxılış vərəqəsi idi.

Həmin il martın 14-də əsirlik həyatına son qoymaq istəyən Nadirli öz tağımı ilə birlikdə partizanların tərəfinə keçmək üçün plan hazırlayır. Partizanlarla görüşəcəyi yeri və vaxtı dəqiqləşdirib, yaxın adamlarını planla tanış edir. Martın 16-da səhər tezdən əsir döyüşçülərinə məşq üçün həyəcan siqnalı verir. Döyüşçülər silahlanıb partizanlar olan

tərəfə *"hücuma"* keçməli, özlərilə alman keşikçilərini də aparmalı idilər. Almanlar duyuq düşsə, vuruşa-vuruşa, duyuq düşməsələr, sakitliklə partizanlar tərəfə keçməli idilər.

Lakin bu plan baş tutmur. Həmin gecə Nadirli özü partizan rabitəçisi ilə görüşüb müxtəlif sənədləri və buraxılış vərəqələrini alıb geri qayıdarkən düşərgədə yaxalanır. Axtarış vaxtı onun hərbi çantasından çıxan bu sənədlər onun gənc həyatına son qoydur.

- Bayaq söhbətinizdə dediniz ki, Mixaylo əməliyyata çox vaxt tək gedərdi. Az-az hallarda özünə köməkçi götürərdi. Bəs siz necə, heç Mehdi ilə birgə əməliyyatda olmusunuzmu?

- Bəli, cəmisi iki dəfə. Bir dəfə Triyest əməliyyatında məlumat toplayıb, təhlükəli zonadan keçdik. Bir çəmənliklə Dutovli kəndinə tərəf gəlirdik. Gözəl, güllü-çiçəkli dağ yamacında Mehdi dayandı, *"Ah," - deyib, kövrək-kövrək uzaqlarda batmaqda olan günəşə baxdı. Uzanıb yaşıl otları, çiçəkləri sığalladı. Vicdansız faşistlər belə gözəlliyi qanla suvarmaq istəyir"*. Sonra üzünü mənə tutub əlavə etdi: *"İndi vətəndə də beləcə zərif güllər açıb, ətir saçır. Möhtərəm Qarasaqqal əmioğlu, faşistləri məhv edəndən sonra sağ-salamat Vətənə qayıdarıqsa, vətən və onun oğul-qızları, qocaman Xəzər bizi əziz övladı kimi qarşılayar. Əgər qayıtmasaq, taleyin acı rüzgarı qayığımızı bu yad ellərdə müdhiş qayalara vurub çilik-çilik edər. Onda bəlkə çəkdiyimiz əməyin əks-sədasından bir parçası gedib Azərbaycana çıxar. O vaxt adımızı Azərbaycan tarixinin bir səhifəsində qeyd edərlər. Ayə, səni qəmə qərq etdim, əmioğlu, gəl sənə bir şeir oxuyum..."*

Sonra *"Ay qız"* şeirini oxudu.

Cavad Həkimli şeri indiyədək hafizəsində qoruyub saxlayıb. Şeir heç yerdə çap olunmayıb.

Mən sənə aşiqəm, gəzmə aralı;
Nazlı baxışından oldum yaralı,
Bu zümrüd yamacın sənsən maralı,
Mən sənin heyranın olaydım, ay qız!

Gözlərin can alan, qaşın qaradır,
Qəlbimin çöhrəsi sənsiz yaradır,
Bir düşun, zavallım, bura haradır,
Mən sənin qurbanın olaydım, ay qız!

Mənə üz verəcək yenə yüz kədər,
Çəkdiyim zəhmətlər olarsa hədər,
Yazığın gələydi mənə bir qədər,
Yanında mehmanın olaydım, ay qız!

Uzaq bir üfüqdə günəş batanda,
Sənsə evə gəlib yorğun yatanda,
Üstünə bir güllü yorğan atanda,
O güllü yorğanın olaydım, ay qız!

Vəfasız dünyaya uyma, yalandır,
Tanrı verdiyini geri alandır,
Dünyada yaxşılıq bircə qalandır,
Mən sənin qadanı alaydım, ay qız!

Düşmən vətənimizə xaincəsinə basqın edəndə Cavad Həkimli də mübarizə yoldaşı Fərrux Sultanov kimi Krım torpağının azadlığı uğrunda vuruşurdu. Batalyon qərargahının rəisi kapitan Cavad Həkimlinin xidmət etdiyi polk Perekop boğazını mərdliklə müdafiə edirdi. Faşistlər iki Sovet polkuna qarşı yeddi diviziya buraxmışdı, bunlardan ikisi *"SS"* diviziyası idi. Perekop uğrunda gedən ağır döyüşlərin birində – 1942-ci il martın on dördündə ağır yaralanan qərargah rəisi həm də kontuziya alır.

-Yadımdadır, - deyə keçmiş partizan ötüb keçən mübarizə günlərinə qayıdır. - Hələ Almaniyada əsirlik düşərgəsində olanda faşistlər bizi gündəlik qəzet məlumatı ilə tanış edirdilər. Hər gün bir nəfər alman zabiti qəzeti oxuyur, Mehdi də fransız və alman dillərini yaxşı bildiyinə görə tərcümə edirdi. Mehdi o məlumatları əksinə tərcümə edirdi. Məsələn,



Mehdi Hüseynzadə 1938-ci il

alman oxuyurdu ki, faşistlər bir tankla rusların on beş tankını yandırıb. Bir təyyarə ilə beş təyyarəsini vurub, bir rota ilə bir batalyonu məhv ediblər. Mehdi də bu məlumatları tərcümə edərək, axırda deyirdi: *"Yoldaşlar, siz buna inanırsınızmı?"*.

Mehdinin və döyüş dostlarının əfsanəvi qəhrəmanlığı əsrlər boyu yaşayacaqdır. Sağ qalan keçmiş partizan yoldaşları bu gün onun haqqında maraqlı xatirələr danışırlar. Onlardan biri David Dmitriyeviç Tatuaşvili Tbilisi şəhərində Paster küçəsində yaşayır. İkinci vzvodun komandiri Tatuaşvili ağır partizan əməliyyatlarında Mixaylo ilə birgə fəaliyyət göstərib. Ləmbəlidən qayıdanda yolüstü Tbilisidə onunla görüşüb söhbət etdim. O, illəri xatırlayan keçmiş partizan dedi:

– Müharibədən əvvəl ölməz insan, ölməz qəhrəman sözlərini ancaq kitablarda oxuyub, ağızlardan eşitmişdim. Düzü, o qədər də inanmamışdım. Elə ki, partizanlıqda Mehdi ilə tanış oldum, onda gördüm ki, bu qıvraq, qarabuğdayı azərbaycanlı balası nələrə qadirdir. Onun bütün Avropanı lərzəyə salan igidliyi kimə bəlli deyil. Mən Mehdi ilə birgə çox olmuşam. Partizan dostlarımın yaxşı yadındadır, onda xarici qəzetlərin demək olar ki, hər nömrəsində Mixaylonun igidliyindən və ona qarşı hədə-qorxudan danışılırdı. Çox qəribə xasiyyəti vardı Mehdinin. Bu tərifləri oxuyandan sonra çox etinasız gülümsünərək qəzeti kənara atıb *"boş şeydi"* - deyərdi.

Həyat elədir ki, insan insana hardasa, nədəsə borclu olur. Mən də sizin xalqın yenilməz oğluna – Mixayloya borcluyam. Dönə-dönə məni ölümdən qurtarıb. Bəzi döyüşlərdə, əməliyyatlarda onun güllə yağışı altından sağ-salamat çıxıb gəldiyini gözümlə görmüşəm. Yadıma düşəndə indi də məni heyrət bürüyür.

Təkcə sizin – bir xalqın deyil, böyük bir ölkənin iftixarı olan Mixayloya qəbirüstü ilk abidəni Cavad Həkimli, tabutu isə mən bu əllərimlə düzəltdim. Ağlaya-ağlaya nə vaxt ulduz yonub hazırladığıma göz yaşı içində özüm də təəccüb elədim. Elə onda hiss etdim ki, Mixaylo artıq sönməz, parlaq ulduza çevrilib. Kəhkəşanda sönməz ulduz idi Mixaylo. Heyf, çox heyf...

Cavad Həkimlidən sağ qalan keçmiş partizanlarla indi görüşüb-görüşmədiyini soruşdum. O, eynəyini gözünə taxdı. Özünəməxsus cəldliklə stolun üstündəki qovluqları kənara qoyub:

– Bax, – dedi, – bu qovluqda silah dostlarımın ünvanlarını saxlayıram.

Vərəqləyib baxıram. Müxtəlif ünvanlar, şəhərlər, kəndlər.

Moskva vilayətinin Lyübersi şəhərindən Qriqori Jilyayev, Nikolayev şəhərindən Anatoli Dyaçenko, Kirovabaddan Mikayıl Qulubəyov, Bakıdan Rza Orucov, Krımdan Viktor İvanoviç Ponomarenko, Göyçaydan Qədir İsgəndərov, Qazaxdan Vəli Ləzgiyev və onlarla keçmiş partizan Cavad Həkimlinin dəmir kimi möhkəm, əvəzsiz yaddaşından *"pay"*, kimisi də həqiqətən partizanlıqda olmaları haqqında zəmanət istəyir.

Yerevandan Hayik Qriqoryeviç Balasanyanın məktubu böyük qəlb səmimiyyətilə yazılıb: *"Hörmətli Cavad Ataxəlil oğlu! Yadınızdadırmı, dörd yüz on yeddinci atıcı diviziyasında qulluq edəndə siz mənə təzə çəkmə verdiniz. Mən rabitəçi vzvodunda qulluq etdiyimə görə mənə çəkmə vermirdilər. Çəkməni ancaq artilleristlərə verirdilər. Ağır günlərdə mənə etdiyiniz yaxşılığı hələ də unutmamışam. O vaxt mən kiçik*

serjant idim, indi podpolkovnikəm. Yerevan zavodlarının birində məsləhətçi işləyirəm. Çox sağ olun, sizə dunyanın ən gözəl neməti olan can sağlığı arzulayıram".

Yaşıl cildli bir dəftərdə beş yüzdən çox partizan haqqında məlumat var. Hansı partizan harada, neçənci ildə yaralanıb, harada dəfn olunub, adı, familiyası, təvəllüdü və s. Bu dəftəri qərargah rəisi Cavad Həkimli partizanlıqda olanda tərtib etmişdir. Sərhədlər, şəhərlər keçib gələn dəftərin üstündə müxtəlif qeydlər, icazə möhürləri var.

Dəftərdən qeydlər: Firudin Hüseynov, Naxçıvanda anadan olub. Təvəllüdü 1908-ci il. Smolensk şəhəri uğrunda vuruşarkən ağır yaralanıb, əsir düşüb. Anatoli Dyaçenkonun rotasında bölmə komandiri. Avça faşist düşərgəsini və avtomobil dəstəsini məhv etmişdir. 1944-cü il iyulun 21-də Vipava dərəsindəki ölüm-dirim vuruşmasında həlak olub. Qəbri Solla kənd qəbiristanlığındadır.

– Ötən il Naxçıvanda olanda Firudinin oğlu Tofiq və Vaqiflə görüşdum – deyə Cavad müəllim silah dostunun oğlanları ilə təsadüfi tanışlığından həyəcanla söhbət açır. – Atalarının unudulmaz qəhrəmanlığı haqqında onlara məlumat verdim. Bu igidin qeyri-adi şücaətindən rota komandiri Anatoli Dyaçenkonun danışdığı epizodlarla onları tanış etdim. Tofiqlə Vaqif el-obamızda fəxrlə, başı uca gəzməyə haqlıdırlar. Mərd atanın oğulları buna layiqdirlər. Bu təsadüfi görüş məni otuz beş illik xatirələrə qaytardı. Onları heç kəs mənə təqdim etmədi. Atalarına oxşayan bu gəncləri içəri keçən kimi tanıdım.

Şamil Üryanov. Borçalının Kürdlər kəndində anadan olub. Qorxmaz və cəsur partizan idi. 1944-cü il martın iyirmi beşində Lovka kurortu uğrunda vuruşarkən yaralanıb, 1945-ci il martın on dördündə Rovonnişi- Voyska kəndində həlak olubdur. Aşağı Rovonnişi kənd qəbiristanlığında dəfn etdik.

Alim Əliyev. 1912-ci ildə Şamaxıda anadan olub. Rütbəsi baş leytenant. Moldaviya, Odessa, Sevastopol uğrunda vuruşub. Beş dəfə yaralanıb, üç dəfə kontuziya olub. Qərargah işini əla bilir. Krımda əsir düşüb. 1942-ci ilin fevralından

tanıyıram. Birinci vzvodun komandiridir. Əməliyyatlardan həmişə üzüağ qayıdıb. Hazırda Cəlilabad şəhərindəki *"8 Mart"* küçəsində yaşayır.

Cabbar Əliyev. 1917-ci il Tovuz rayonunda anadan olub. Partizanlığa 8 noyabr 1943-cü ildə gəlib. İntizamlı, qorxmaz və cəsurdur. Tapşırıqları dərhal yerinə yetirir. Doqquzuncu korpusdakı rus rotasında pulemyotçudur. Qoritsiya, Optlisa, Triyest, Çepovani və başqa şəhərlərin azadlığı uğrunda vuruşub.

Dəftərdə belə maraqlı qeydlər çoxdur. Burda neçə-neçə mərd partizanın son taleyi, əbədiyyətə qovuşduğu yer haqqında məlumat var.

– Cavad müəllim, cəsur dostunuz Mehdi Hüseynzadənin həlak olmasının şahidisinizmi? Bu hadisə nə vaxt olub?

-1944-cü il noyabrın ikisində növbəti əməliyyata gedən Mehdinin dəstəsi gecəni Sloveniyanın Qoritsiya şəhəri yaxınlığındakı Vitovli kəndində qalmalı olur. Kənddən bir nəfər satqın Mixaylonun bir dəstə partizanla Vitovli kəndində gecələdiyini xəbər verir. Gecə saat iki radələrində altı yüz nəfərlik vəhşi alman əsgəri kəndi mühasirəyə alır. Mehdigil zirzəmidə yatıblarmış. Sol pəncərəni sındırıb, Vitovli vadisi ilə üzu aşağı gedirlər. Birdən hamıdan arxada gedən sloven partizanının əlindəki ingilis pulemyotunun maqazini yerə düşur. Almanlar səs gələn tərəfi güllələyirlər. Onda Mehdi ağır yaralanır. Dəstə bir az getdikdən sonra Sar *"Mixaylo",* - deyə çağırır. İgid dostunu darda qoymaq istəməyən cəsur Sar şiddətli güllə yağışı altında geri qayıdır. Lakin Sar Mehdiyə çatmamış onu əsir tuturlar. Yaralı Mehdini əsir almağa yüyürüşən quduz almanlar qumbara partlayışından yerlə-yeksan olurlar. Səhərə qədər düşmənlə atışan cəsur Mixaylo onlara təslim olmaq istəmir. Son gülləsilə özünü həlak edir.

Qəhrəmanlığı ilə bütün faşist Almaniyasına, ölümü ilə partizan dostlarının sinəsinə dağ çəkən Mixaylo uzaq Sloveniyada belə həlak olub. Heç kəs, hətta faşistlər belə əfsanəvi qəhrəmanın ölümünə inanmayıb. Almanlar onu –

Mixaylonu Vitovli kənd qəbristanlığında dəfn edib, yanına gözətçi qoyurlar. Bir gün sonra, gecə ikən Şamil Üryanovun on yeddi nəfərlik dəstəsi alman gözətçisinin gözü qabağında Mehdinin meyidini qaçırıb gətirir. 1944-cu il noyabrın on doqquzunda Çepovani kənd qəbiristanlığında əsgəri hörmətlə dəfn edirlər.

Söhbətinə azacıq ara verən C. Həkimli durub işığı yandırdı. Divarda ürək kimi aramsız döyünən saata baxdım. Artıq səkkiz idi. Beş saatdan çox vaxtın necə gəlib-keçdiyini hiss etməmişdim. Gözucu qeyd dəftərçəmi vərəqlədim. Onun özü haqqında ara-sıra məlumatlara rast gəldim. Bir daha onun təvazökarlığına qibtə etdim. Rota komandiri Cavad Həkimli rota komissarı Mehdi Hüseynzadə qədər gözümdə əfsanələşdi. Bir daha yəqin elədim ki, iyirmi il qabaq Qiyas müəllim biz şagirdlərə nahaqdan bu qoşa tərlanlar haqqında yorulmadan, fəxrlə danışmırmış. Keçmiş partizan Cavad Həkimlinin döyüş xidmətlərini dövlət və partiyamız bir neçə orden və medalla qiymətləndirib. O, həm də azadlığı uğrunda vuruşduğu dost Yuqoslaviyanın *"Nadir igidliyə görə"* ordeninə və *"İgidliyə görə"* medalına layiq görülüb.

PARTİZANIN HƏDİYYƏSİ

Adam yaxşı insana rast gələndə qeyri-ixtiyari onunla kəlmə kəsmək, həyatı, işi-gücü ilə maraqlanmaq istəyir. Ondan xatirində, yaddaşında ömürlük bir nişanə saxlamağa çalışır.

İllər ötəcək, bu gün bizimlə birgə yaşayan müharibə veteranlarını barmaqla saymalı olacağıq. Elə indi Azərbaycanın əfsanəvi oğlu Mehdi Hüseynzadəni görən, onunla çiyin-çiyinə vuruşan insanlar respublikamızda çox azdır.

Cavad Həkimli bu veteranlardan biridir. Harda cəld, dəmir yaddaşlı, ya da narahat adamdan söz düşəndə mən istər-istəməz Cavadı xatırlayır, onun hərəkətlərini gözüm önündə canlandırıram... Həkimli əsl mənada narahat insandır.

Hər dəfə partizanla görüşəndə cəsur Mixaylonun bitib-tükənməyən epizodları, əməliyyatları, xatirələri ürəyimizi fərəh və fəxr hissiylə doldurur.

Yuqoslaviyadan aldığı iki yeni kitabda da cəsur Mixaylodan və onun silah dostlarının qəhrəmanlığından müəyyən epizodlar verilib.

Yuqoslav dilində sərbəst oxuyan Cavad Həkimli bu iki kitabın hər səhifəsində nədən danışıldığını əzbər bilir desək, mübaliğə olmazdı.

– Bax, bu kitab,– deyə əlini Novo-Qoritsa şəhərində gözəl tərtibatda çap olunmuş kitabın üzərində gəzdirən partizan *"Qradnikovo Briqada"*nı vərəqləyir, – tərkibində vuruşduğumuz üçüncu Sloveniya zərbə briqadasının döyüş yoluna həsr olunub. Müəllifi Stanko Petelindir. Mehdi kimi onun da partizanlıqda təxəllüsü vardı. Görürsünüzmü, mötərizədə *"Voyko"* yazılıb. Sağ olsun yuqoslaviyalı dostlar, nə Mehdini, nə də onun döyüş dostlarını unutmurlar.

Diqqətlə partizana qulaq asıram. Kitabda onun haqqında da xoş sözlər və müxtəlif illərdə çəkilmiş şəkilləri verilsə də öz adını dilinə gətirmir. Kitabın 201, 212, 222, 225, 408, 485-ci və başqa səhifələrində onların vuruşduğu rus rotasının döyüş yolu maraqla təsvir olunub.

Partizanlıq illərində çəkilmiş nadir fotoşəkillər çap olunub. 222-ci səhifədə verilmiş şəklin altında oxuyuruq:

"İvan Qradnik" adına Üçüncü zərbə briqadasının tərkibindəki rus rotasının komandiri Cavad Həkimli, batalyonun siyasi komissarı Ninko Vilar ilə birgə."

225-ci səhifədə verilən nadir fotoşəkil bizim üçün daha əzizdir, doğmadır. *"Mehdi Hüseynzadə və Cavad Həkimli əsirlikdən qaçandan sonra"*.

– Bu şəkillər bizim üçün doğrudan əzizdir, – deyə partizan həsrətlə şəkilə baxa-baxa söhbətini davam etdirir. – Mən yaddaşdan nə qədər möhkəm olsam da, bu şəklin nə vaxt, harada çəkildiyindən xəbərim yoxdur. Şəkilə ilk dəfə bu kitabda rast gəldim. Otuz beş ildən çox keçən bir müddətdən sonra necə deyərlər, elə bil əzizim Mehdi ilə

görüşdüm, özümə rast gəldim. Tapıb çap etdikləri üçün çox sağ olsunlar. Kitabın müəllifi Stanko Petelinin özü Üçüncü zərbə bridaqasının siyasi komissarı idi. Görünür şəkil onda saxlanılıb.

- Cavad müəllim, bu briqadanın tərkibinə nə vaxt daxil olmusunuz? - deyə ondan soruşuram.

- Bir nəfər slovenin yaxından köməkliyilə əsirlikdən qaçdığımız gün. Heç vaxt yadımdan çıxmaz. Qarlı-çovğunlu bir havada biz bu briqadaya gəldik. Mehdi, Göyçaylı Əsəd Qurbanov və mən.

1943-cü ilin yanvar ayı idi. Bizi xeyli yoxladıqdan sonra *"Qradnikovo briqada"*ya qəbul etdilər. Mehdi ilə sovet əsirlərindən ibarət *"Rus rotası"* yaratdıq. Mən rota komandiri, Mehdi isə komissar oldu. Onda Mehdi alman zabiti forması geyinib əsirlərin kütləvi qaçmasını təşkil edirdi.

Partizanın ünvanına gələn ikinci kitab isə *"Bozavişko briqada"* 1970-ci ildə Lüblyanada çap olunub. Müəllifi Franyo Baves Brankodur. On səkkizinci briqadanın döyüş fəaliyyətindən ətraflı söhbət açan müəllif özü də keçmiş briqada komandirinin müavini olub. Kitabın *"Sovet hərbi missiyasının başçısı"*, *"İkinci batalyon haqqında söz"* fəsillərində Triyestdə aparılan partizan döyüşlərindən və 88 nəfər sovet partizanının Yuqoslaviyanın yüksək orden-medalı ilə təltif olunmasından söhbət açılır.

Sloveniya Respublikası Mübarizlər İttifaqının katibi Marian Lenarçiç partizana göndərdiyi məktubda yazır:

*"Qradnikovo Briqada"*nın və *"Bozavişko Briqada"*nın tərkibində həmyerliniz cəsur Mixaylo ilə birgə göstərdiyiniz şücaətlərə görə ittifaqımız adından sizi alqışlayırıq. Və hər iki kitabı sizə yadigar göndəririk. İnanırıq ki, kitab rəfinizə bu ən gözəl hədiyyə olacaq.

Cavad Həkimliyə belə bir sualla da müraciət etdim.

– Bu kitablarda sizin tanıdığınız partizanların döyüş fəaliyyəti düzgünmü işıqlandırılıb? Sizcə, artırılıb – əskildilən bir şey yoxdur ki?

–Burda göstərilən faktların doğruluğuna heç bir şübhə ola bilməz. Bu, Mehdi Hüseynzadənin, Ənvər Məmmədovun,

Tağı Əlizadənin (İvan Çornı), Qriqori Jilyayevin, Fərrux Sultanovun, Əsəd Qurbanovun, Rza Orucovun və başqalarının ağır və çətin partizan əməyinin olsa-olsa yarısını təşkil edər. Cəsarətlə və fəxrlə demək olar ki, bu cəsurların cəsuru, əfsanəvi Mehdinin etdiklərinin hələ az bir qismidir.

Bir dəfə yazıçı dostum Mahmud Mahmudov məni Salyan rayonunda Rahib adlı orta yaşlı bir kişi ilə tanış edib ona dedi:

-Şəmistan Nəzirli xalqımızın qəhrəman oğlu Mehdi Hüseynzadə haqqında kitab yazır. Mənə dediklərini bir də danış, qoy sənin öz dilindən eşitsin.

Rahib dedi ki, "Atəşkəsdən əvvəlki dövrlərdə Dağlıq Qarabağ uğrundakı döyüşlərin könüllü iştirakzısı idim. Erməni vəhşiliyini, qəddarlığını öz gözümlə çox görmüşəm. Ancaq bir dəfə eşitdiyim sözləri hez unuda bilmirəm. Əsirləri dəyişmək üzün müəyyənləşdirilmiş əraziyə gəlmişdik. Vaxta hələ xeyli vardı. İstər-istəməz müxtəlif məsələlərdən danışırdıq. Söhbət *"*Uzaq sahillərdə*"* adlı bədii filimdən düşdü. Ermənilərdən hansısa dedi ki, mənim dayım o vaxt Mehdi Hüseynzadə ilə birlikdə vuruşub. Həmin filmə baxandan sonra söylədi ki, filmdə göstərilənlər Mehdi Hüseynzadənin qəhrəmanlığının hez yüzdə biri də deyil.

Həmin ermənin dayısı o sözləri kim bilir neçə illər bundan qabaq deyib. Həm də elə bir qətiyyətlə, elə bir inamla deyib ki, bacısı oğlu günahsız insanlarımızın qanını axıtdığı bir dövrdə də dilinə gətirməyə bilməyib. Mehdi Hüseynzadənin qəhrəmanlığını etiraf etdi.

Bu, Mehdi Hüseynzadənin əfsanəvi qəhrəmanlığının, zənnimcə ən yaxşı sübutudur.

Partizanla söhbət edəndə, onun yerə-göyə sığmayan sevincini görəndə qəribə hisslər keçirirdim. Fikirləşirdim ki, insanlar arasında ən çətin məsuliyyətli iş xalqlar arasında dostluq yaratmaqdır. Özü də necə dostluq? Otuz beş il bundan əvvəl olmuş ağır günlərin dostluğunun davamı. Ucsuz-bucaqsız Sovetlər ölkəsinin al-əlvan xəritəsində adı zorla tapılan balaca Ləmbəli kəndini Yuqoslaviya ilə məhz belə bir dostluq körpusü birləşdirirdi.

BACILARLA GÖRÜŞ

Mən onun vasitəsilə çox adamlarla görüşüb söhbət etmişəm, hətta bir neçəsi ilə yaxın dost da olmuşam. Mehdinin bacıları, qohumları, partizan yoldaşları – göyçaylı Qədir İsgəndərovla, tovuzlu Fərrux Sultanovla, tbilisili David Tatuaşviliylə, cəlilabadlı Alim Əliyevlə, bakılı Rza Orucovla indi də tez-tez əlaqə saxlayıram. Bu görüşlərdə də əfsanəvi Mixaylo haqqında maraqlı epizodlar, faktlar mənim cib dəftərçəmin ağ səhifələrini doldurur. Xüsusilə, Cavad Həkimlinin özü ilə görüşəndə mərd Mehdi haqqında epizod və əməliyyatları daha çox eşidirəm. Hər dəfə Cavad Həkimli ilə görüşəndə, onun yadına düşən bir əməliyyatı dəftərçəmə qeyd edəndə fikirləşirəm ki, yəqin bu, sonuncu olar. Yox, Mehdi Hüseynzadənin qısa və şərəfli ömrünün bitib-tükənməz səhifələri Cavad Həkimlinin hafizəsindən qurtarmır...

...Tədbir saat 1-də Novxanı məktəbinin klubunda başlamalı idi. Çağırılan qonaqların hamısı gəlmişdi. Mehdinin böyük bacısı Bikəxanım tez-tez məndən Cavad Həkimlini soruşur,

Mehdi Hüseynzadənin böyük bacısı Bikəxanım Əlizadə və jurnalist Şəmistan Nəzirli, 1985-ci il

mənim də *"gözləyək, uzaq yoldu, bəlkə gecikir, ola bilsin teleqram gec çatıb, bəlkə də qatar ləngiyib"*– deməkdən başqa əlacım qalmırdı. Novxanı məktəbinə Mehdi Hüseynzadənin adının verilməsinin iyirmi illiyinə, bir də Sovet İttifaqı Qəhrəmanı kimi şərəfli ad alması gününə –11 aprel 1985-ci ildə keçirilən bu tədbirə bacılar Cavad Həkimlini də dəvət etmişdilər.

Vaxt ötürdü, amma Mehdinin silahdaşından bir xəbərətər yox idi. Bikəxanım səbrlə dözür, tədbiri başlamağa tələsmirdi. Saat üçə işləyəndə camaatın narahat olduğunu görüb əlacsız qalan Bikəxanım tədbiri başlamağa icazə verdi. Əvvəlcə Mehdinin tələbə yoldaşları çıxış etdi. Arada Bikəxanıma söz verildi.

O, yenicə çıxışa başlamışdı. Bir də gördüm, Cavad Həkimli sakitcə içəri girdi, keçib arxa cərgələrdən birində əyləşdi, hiss etdim ki, onu heç kəs tanımadı. Yanaşı oturduğum məktəb direktoruna dedim ki, Cavad Həkimli gəldi, odur, arxada əyləşib.

Bu vaxt görüşdə çıxış edən Bikəxanım deyirdi:

– Əvvəla sizdən çox üzr istəyirəm, tədbirin gec başlanmasının səbəbkarı mən oldum. Ona görə ki, qardaşım Mehdinin sadiq silah dostu, bizim ailənin əzizi Cavadı gözlədik, – fəxrlə qardaşım Cavadı dedi. –Təəssüf ki, o da gəlib çıxmadı, uzaq yoldu, görünür teleqram çatmayıb...

Bu vaxt məktəbin direktoru Taliyə Paşayeva ayağa durub Bikəxanımdan üzr istədi: – Cavad Həkimli gəldi – dedi.

Hamı təşvişlə dönub boylanırdı. Cavad Həkimli camaatı narahat görüb, utancaq-utancaq ayağa durdu. Onu səhnəyə çağırdılar. Mənim diqqətim Bikəxanımda idi. Cavadı görən kimi üz-gözü açıldı, qəddi düzəldi.

– Xoş gəldin, qardaş, sənin gələn qədəmlərinə qurban olum, iki-üç dəfə, qurban olum,– deyib kürsüdən aralandı, Cavadla bacı-qardaş kimi öpüşüb-görüşdü.

Bu görüş, bu hadisə o qədər təbii, o qədər təsirli oldu ki, çox adam kövrəldi. Oturanlar uzun zaman əl çaldılar. Bikəxanım nəmli gözlərini silə-silə:

– İndi ürəyim rahat oldu, indi sakit danışa bilərəm, – deyib söhbətinə Cavadın onlara, 1946-cı ildə ilk gəlişinin qısaca tarixcəsini həyəcanla danışdı.

Tədbirdən sonra mən Cavad Həkimliyə yaxınlaşıb, soruşdum ki, bacılarla ilk görüşün yadındadırmı?

– Bah, səni sağ olasan, – dedi, – əlbəttə, gedək, axşam sənə danışaram...

...Doqquzuncu partizan korpusu cəsur Mixaylo həlak olandan sonra da dəniz sahili Sloveniyada bir çox müvəffəqiyyətli əməliyyatlar apardı. Mehdinin silahdaşları qardaş ölkələrdən faşistlərin murdar ayağını kəsmək üçün mübarizəni dayandırmamışdılar. Korpus 1945-ci ilin qışında Triyesti, Qoritsiyanı, Triqlavanı, Postoyna və Rieki şəhərlərini düşməndən təmizlədi.

1945-ci il mayın ilk günlərində Opçina uğrunda gedən döyüşlərdə Cavad Həkimli yüngül yaralandı, on gün Dutovli kəndindəki qospitalda müalicə olundu.

Faşistlərin tam təslim olması bütün dünyaya yayıldı. Döyüşən əsgər də, əzab çəkmiş yerli əhali də azad nəfəs aldı. Doqquzuncu korpusun *"Rus bölməsi"*nə Şempas kəndində istirahət verdilər, müvəqqəti qərargah yaradıldı. Partizan dəstəsində iştirak edənlərə rəsmi sənəd təqdim olundu ki, həqiqətən Doqquzuncu partizan korpusunda xidmət ediblər. Az sonra onları avtobuslarla Lüblyana şəhərinə gətirdilər. Ağır yaralıları şəhər qospitalına qoydular. Şəhər əhalisi partizanları hədsiz dərəcədə mehribanlıqla qarşıladı. Yerli əhali *"Bratya ruski, spasibo vam"*– deyə qalib əsgərlərə gül-çiçək atırdılar. Burada onlar silahları – motosiklləri və partizanlara məxsus hərbi ləvazimatın hamısını təhvil verdilər.

Belqradda isə iki yüz yetmiş nəfər cəsur partizana Yuqoslaviyanın orden və medalını təqdim etdilər. Rotanın qərargah rəisi Cavad Həkimli də *"Nadir igidliyə görə"* ordeni və eyni adlı medalla təltif olundu. Sonra on beş günlük polad yollar üstündə keçən səfər Moskva ətrafındakı

Podolsk şəhərində başa çatdı. Burada Doqquzuncu partizan korpusunun düşmənə keçilməz meşələrdə qəfil zərbələr vurduğuna görə təltif olunduğu üç Sovet, iki Yuqoslaviya bayrağını təhvil verdilər. Az sonra qaliblərin yolunu Orta Asiya respublikalarından saldılar. Hər dayanacaqda, hər stansiyada əvvəl kupelər, sonra vaqonlar boşalırdı. Qafqaza gedən eşelon Aşqabadı keçib Nebit-Dağda dayandı. Şəhər zəlzələdən dağılmışdı. Təbii fəlakət neçə-neçə ailəni evsiz-eşiksiz qoymuşdu. Yerli təşkilatlar partizanları köməyə çağırdı. Hərə bir işdən yapışdı. Dörd il silah tutan əllər qurub-yaradırdı. Qərargah rəisi Cavad Həkimli indi manqabaşçısı idi. Ağır işdən sonra axşamlar barakların həyətində oturub söhbət edərdilər. Hərə öz başına gələn əhvalatı danışardı. Kimi əsirlikdə keçirdiyi ağır işgəncəli günlərdən, həlak olmuş partizan dostlarının igidliyindən danışar, kimi də evini, ailəsini xatırlayar, min dörd yüz on səkkiz günün ayrılığında yanıb-yaxılardı.

Fəhlələr ən çox Cavad Həkimlinin başına toplaşar, gecədən keçənə kimi Mehdi Hüseynzadədən, onun silah yoldaşı *"İvan Çornı"* –Tağı Əlizadənin, Firudin Hüseynovun faşistlərə qəfil zərbə vurmalarından danışmasını xahiş edərdilər. Cavan bir oğlan Mehdi Hüseynzadənin necə həlak olmasını soruşdu. Cavad Həkimli təfsilatı ilə danışdı. Oğlan həyəcanlanıb kövrəldi. Sonra özünü saxlaya bilməyib:

– Mən Mehdinin məktəb yoldaşıyam hələ qohumluğumuz da var, – deyə fəxrlə bildirdi.

Cavad özü də bilmədən:

– İnanmıram, – dedi, – çoxları belə deyir. Əgər qohumusansa de görüm, Mehdinin əmisi oğlunun adı nədir?

Oğlan fikirləşmədən:

– Ələkbər – dedi, üstəlik də Ələkbərin xarici görünüşünü təsvir etdi.

Cavad Ələkbəri görməsə də Mehdinin söhbətlərindən onun zarafatcıl olmağını, şən və hazırcavablığını çox yaxşı bilirdi.

"Yox, deyəsən artıq Bikəxanıma məktub yazmağın vaxtı çatıb. Birdən burda başıma bir iş gələr... həm də dözə bilmirəm" deyə fikirləşən Cavad Həkimli həmin axşam Mehdinin bacıları Bikəxanıma və Hürriyyətə belə bir məktub yazdı: *"Baxmayaraq ki, bu xeyir xəbər deyil, mən Mehdi ilə bağladığım əhdi-peymanı yerinə yetirirəm. Biz əsirlikdə olanda çox yaxın dost olduq. Belə əhd etdik ki, kim sağ qalsa, ailəsinə xəbər versin. Məni bağışlayın ki, sizə belə ağır xəbəri yazmağa məcburam".*

Məktubu alıb oxuyan Bikəxanım imzanın Mehdi yox, Cavad olmağına bərk şübhələnir. Hətta məktubu ekspertə aparır. Onlar da baxıb guya Mehdi özü yazıb deyə bacıları inandırırlar. Onda Bikəxanım geriyə cavab məktubu yazır ki, *"qardaş, bu nə haqq-hesabdır, ad-familiyanı niyə dəyişibsən, biz səni başa düşürük, qorxma, gəl, şikəst də olsan gəl, səni gözümüz üstə saxlayacağıq. Əsirlikdə olmusan, onu da bilirik, başa düşürük, heç nədən ehtiyat etmə, qayıt evimizə gəl, sənin quruca nəfəsin biz bacılara bəsdir. Uşaqlıqdakı kimi yenə zarafatlarından qalmırsan, ay saqqalı ağarmış... Biz səni gözləməkdən lap üzülmüşük, sən isə... Bibi gecə-gündüz ağlaya-ağlaya səni gözləyir, sən isə zarafat edirsən. Açıq yaz, bəlkə şikəst olduğuna görə xəcalət çəkirsən? Bircə qayıt gəl, mütləq qayıt gəl!*

Var qürbətdə qalanımız,
Bir dinimiz, imanımız.
Ey fələk, gəl qıyma bizə,
Bircə qardaşa gümanımız".

Cavad Həkimli məktubu alıb fikrə getdi. Hiss elədi ki, bacılar onu başa düşməyiblər. Onda qeyri-ixtiyari olaraq Mehdinin Qoritsiya yaxınlığında dediyi sözləri xatırladı: *"Qarasaqqal əmioğlu, dostlar deyir ki, xasiyyətimizdə hədsiz oxşarlıq var. O günü sənin yazına baxıram, xəttimiz necə də bir-birinə oxşayır, deyəsən axı, bizi bir ana doğub, hə?"* – deyib Mehdi şən-şən gülmüşdü.

Cavad Həkimli bacılara ikinci məktubunda belə yazdı:

"Əziz bacılarım, Bikəxanım və Hüriyyət, mən Mehdi Hənifə oğlu Hüseynzadə deyiləm. Mən onun əsirlik və partizan dostu Cavad Həkimliyəm. Özüm də Ermənistanın Ləmbəli kəndindənəm. 1942-ci ildə Perekop yaxınlığında bizim iki polkumuz yeddi faşist diviziyasına qarşı vuruşurdu. Ağır itkilər verdik, mən də orda yaralandım, həm də kontuziya oldum. Ona görə də əsir düşdüm..."

Bu dəfə ekspert diqqətlə yoxlayır və Mehdinin cəbhədən yazdığı məktubla Cavadın Nebit-Dağdan gələn məktubunu tutuşdurur. Cavab verirlər ki, düzdür, xətlərdə hədsiz oxşarlıq var, amma Nebit-Dağdan yazılan məktubu Mehdi Hüseynzadə yazmayıb. Onda Bikəxanım yazdı ki, əziz Cavad, sizin məktubun bizi nə dərəcədə təşvişə saldığını yəqin ki, təsəvvür edərsiniz. Mehdi yoxsa da, siz də bizim qardaşımızsınız. Çox-çox xahiş edirik mütləq yolunuzu Bakıdan salın, bizə gəlin, sizi səbirsizliklə gözləyirik.

– Nəhayət, Nebit-Dağda bizə verilən tapşırığı yerinə yetirdik – deyə Cavad Həkimli Bakıya gəlişini nəql edir. – Bakıdan olan partizan dostlarımın sənədlərini payladım. Qaldı Kirovabad istiqamətində olanlar, bir də Ermənistan və Gürcüstanda yaşayanlar. Yüz on nəfər idilər, hamısı da ac-susuz, üzülmüş paltarda, yorğun halda. Dəmir yolu vağzalında hansı kassaya müraciət etdimsə, bilet tapa bilmədim. Silah dostlarımla vağzalyanı bağda "düşərgə saldıq. Bir nəfəri əvəzimə komandir təyin edib, soruşa-soruşa Qasım İsmayılov küçəsini axtarıb tapdım. Mehdinin bacıları ilə görüşmək, sənədlərini və fotoşəkillərini də onlara vermək istəyirdim. Həyətdə qarşıma bir qadın çıxdı. Ondan Əlizadənin evini soruşdum. *"Odur, – dedi – o eyvanda oynayan onların uşaqlarıdır. Kamran və Aqşin, amma evdə heç kəs yoxdu"*. Qayıtmaq istədim. Arvad:

– Bir dəqiqə, a qardaş,– deyə məni geriyə çağırdı. – Siz Cavad Həkimlisinizmi?

Təəccüblə:

– Bəli, – dedim.

Sürətlə mənə yaxınlaşıb:

– Buraxmaram, – dedi, – Həzrət Abbas haqqı buraxmaram...

Mən gülümsünüb:

– Yox,– dedim, – buraxacaqsan, buraya öz ayağı ilə gələn adam, əgər məqsədinə çatmayıbsa, bir də gələcək. Bir dostumun da ailəsinə məktub çatdırmalıyam. Onu verim, sonra yenə qayıdacağam, saat neçədə gəlsəm evdə olarlar?

– Qardaş, sən allah, otur, çay-çörək hazırlayım, ye-iç, onlar da bax indilərdə gələrlər.

– Bacı, niyə narahat olursan, dedim ki, qayıdacağam...

Tərslikdən dostumun da evində heç kəsi tapmadım. Məktubu qapının altından, bir az ara vardı, oradan içəri atıb qayıtdım, yenə Mehdinin bacıları evinə. Həmin qadın həyətdə oturmuşdu. Məni görən kimi sevinə-sevinə *"gəl-dedi – qardaş, indi evdədirlər"*. Məni alt mərtəbədəki bir otağa apardı. *"Burda otur – dedi, – gedim Əliqulu Əlizadəni (Bikəxanımın həyat yoldaşı – Ş.N.) çağırım"*. Əliqulu gəldi. Görüşdük, tanış olduq.

– Bu, nə qəza, bu nə əhvalatdı, Cavad qardaş, danış görüm– deyib, məni sorğu-suala tutdu.

Mən söhbətimə Mehdi ilə ilk tanışlığımızdan başladım. Almaniyaya aparılmağımızı, Şimali İtaliya, Triyestə gəlməyimizi, gizli təşkilatdakı birgə fəaliyyətimizi təfsilatı ilə danışdım.

Partizanlıqda olanda Mehdiyə tez-tez deyərdim ki, qardaş, təxribatla məşğul olma, əlimizdə silah var, vuruşaq. Sən təkbaşına cəsarət edib düşmən içinə niyə gedirsən? Mehdi, amandı ehtiyatlı ol, ələ keçərsən... O isə cavab verərdi:

– Yox qardaş, ağac dalından iki-üç fris öldürməklə ürəyim soyumur. Mən onların külünü göyə sovuranda ləzzət alıram. Əsirlikdə başımıza nələr gətirdikləri yadından çıxıbmı? Bizi döyə-döyə işlətdiklərini, velosipedlərini yudurtduqlarını, çəkmələrini sildirdiklərini nə tez unutdun? Bu əclafları yüz-yüz, dəstə-dəstə məhv etməsəm, ürəyim soyumaz.

Mən onu təhlükədən, əməliyyatlara təkbaşına getməkdən çəkindirmək üçün *"yaxşı, yaxşı, sən Allah – deyərdim, – bu fantaziyalara son qoysan pis olmazdı"*. Dünən qərargahda dedilər ki, Qızıl Ordu artıq Ukraynanı, Belorusiyanı faşistlərdən təmizləyib. Müharibə də yavaş-yavaş sona yetir...

– Cavad, (çox az hallarda məni öz adımla çağırardı, həmişə Qarasaqqal əmioğlu deyərdi) mən Çərkəz oğlu Hənifənin övladıyam, atam eldə-obada tanınan adam olub. Ona görə də onun adını ləkələməyə haqqım yoxdur. Unutma ki, biz əsir olmuşuq, hər halda günahımız var.

– O günahı biz bu əlimizdəki silahla vuruşa-vuruşa yuyuruq...

– Azdı, qardaş, az, onların yüzünü birdən qırmalıyıq. Onlara daha böyük zərbə vurmalıyıq ki, səsi-sorağı hər yanda eşidilsin... Bir də qoy bu vicdansız frislər bilsinlər ki, özgə torpağına göz dikmək, evlərini uçurub, günahsız körpələri yetim qoymaq nə deməkdir. Bu füsunkar dağlara, bu od-alov içində yanan çiçəkli ormanlara gərək onların ayağı bir də dəyməsin...

Gördüm məni eşitmir. Onda bir qərargah rəisi kimi IX Korpusun komandanlığına məlumat verdim ki, Mixaylo əməliyyatlara təkbaşına gedir, bu çox təhlükəlidir. Ona qrup təşkil etmək lazımdır.

1944-cü ildə Triyest yaxınlığında yüksək gərginlikli elektrik transformatorunu partlatdıqdan sonra Mehdinin şöhrəti daha da artdı. Onda IX Korpusun komandanlığı onu qərargaha çağırdı. Dedilər ki, tək riskə getmək lazım deyil, gəl nə qədər qüvvə istəyirsən sənə verək. Bizimlə əlaqə saxla, bizə məlum deyil ki, bu gözəgörünməz əməliyyatları kim aparır. Demək bunların hamısını eləyən tək sən imişsən. Biz isə elə bilirik bu əməliyyatları aparan yerli əhalidən ibarət böyük bir dəstədir. Mehdi gülümsünüb:

– Sizə nə xəbər verim – dedi, – biz hamımız düşmənə qarşı vuruşuruq, kim necə bacarırsa elə də fəaliyyət göstərir. Mən də...

Onda IX Korpus qərargahındakı sovet hərbi nümayəndəliyinin rəhbəri, podpolkovnik Rıbaçenko dedi ki, Mixaylo, sizin partizanlıqdakı bir gününüz Qızıl Ordunun cəbhədəki on gününə bərabərdir.

– Bunların hamısını Əliqulu Əlizadəyə danışdım – deyib Cavad Həkimli dərindən nəfəs aldı. Əliqulu xeyli fikrə getdi. – Qardaşım Cavad, – dedi, – indi bizə gedəcəyik, bacılar səni gözləyir, bir az ötəri danış, xüsusilə həlak olmaq hadisəsini, onsuz da olan-olub, mümkünsə ötəri...

Durub ikinci mərtəbəyə çıxdıq. Əliqulu, *"bir dəqiqə burda otur"* – deyib otaqlardan birinə girdi. Foyedə bir qız, iki oğlan uşağı oynayırdı. Mən onlara diqqətlə baxdım. Gördüm ki, uşaqlar Mehdiyə oxşayır. İstər-istəməz Mehdini xatırlayıb qəmləndim. Bir maxorka büküb yandırdım. Birdən nədənsə geriyə boylandım. Qarşıdakı divardan Mehdinin böyüdülmüş bir fotoşəkli asılmışdı. Ürəyim az qala köksümü yarıb çıxacaqdı, papirosu papirosa caladım. Həyəcandan əlim-ayağım əsirdi. Elə bil boğulurdum. Bu vaxt başımın üstə dayanan Əliqulunun səsini eşitdim:

– Əlin-ayağın niyə əsir, sənə nə oldu, Cavad?

– Mehdinin şəklini gördüm, mənə bir az su ver, ürəyim yanır...

O məni yoxlamaq üçün:

– Hanı, hardadı?

Sonralar mənə dedilər ki, muştuluq üçün çox adam bu qapıya *"şad xəbər"*lə gəlibmiş, ona görə də mənə inanmırmışlar.

Əliqulu məni otağa apardı. Burda iyirmiyə yaxın adam əyləşmişdi. Qapının sağ tərəfində bir qadın oturmuşdu. Əliqulu *"tanış ol, – dedi, –Mehdinin bacısı Bikəxanımdır"*. Mən əl verib görüşdüm. Hiss elədim ki, o hədsiz dərəcə qəmgindir, yaralı quş kimi çırpınır. Vüqarla oturan Bikəxanım çalışırdı ki, daxili çırpıntısını, sonsuz kədərini üzə vurmasın, amma bu mümkun deyildi. Oturduğu yerdə səssizcə yaş axıdırdı...

Mən söhbətimə Mehdi ilə ilk tanışlığımdan başladım. Ukraynanın Nikolayev şəhərindəki əsirlik düşərgəsində keçirdiyimiz ağır günləri ötəri danışdım.

– 1943-cü il sentyabrın 22-də – dedim, – eşelonla bizi Almaniyadan Şimali İtaliyaya apardılar. Almaniyada nə qədər cəhd etdiksə qaça bilmədik, bu qətiyyən mümkün deyildi. Buradan qaçmaq açıq-açığa ölüm, ya da tutulub asılmaq demək idi. Ona görə də Mehdi camaatı başa saldı ki, qaçmaq fikrinə düşməyin, qaçanda da təkbaşına yox, hamı birdən qaçacaq...

Mehdinin döyüş dostları: solda Qədir İsgəndərov, Cavad Həkimli və jurnalist Şəmistan Nəzirli, 1992-ci il, Novxanı kəndi.

Şimali İtaliyada, Triyestdə Mehdinin təşəbbüsü ilə qaçıb Yuqoslaviyaya keçdik. Düşərgədən qaçanları bir yerə yığıb IX Korpusun 31-ci diviziyasının Üçüncü zərbə briqadasının tərkibində *"Rus bölüyü"* adlı dəstə təşkil etdik. Mehdini rotanın siyasi rəhbəri, məni isə rota komandiri təyin etdilər. Cəmi ay yarım bu vəzifədə çalışan Mehdi bir gün mənə dedi: *"Qarasaqqal əmioğlu, mən fikrimi dəyişmişəm, sən də, mən də sovet zabitləriyik, biz öz vətəndaşlıq və sovet zabiti vəzifəmizi belə yerinə yetirə bilmərik. Bu əclaflardan heyfimizi almağın*

vaxtı gəlib çatıb. Mən onlardan başqa cür intiqam almaq istəyirəm. Onların formasını geyinib öz güllələrini özlərinə tuşlamasam, öz mərmiləri ilə yeməkxanalarını, kinoteatrlarını başlarına uçurmasam ürəyim sakitləşməz".

Həmin gündən kəşfiyyata başlayan Mehdi qeyri-adi əməliyyatlar aparıb faşistləri lərzəyə saldı. O, Triyest şəhərindəki zabitlər restoranını təkbaşına dağıtdı. Burda onlarla faşist zabiti məhv oldu, qalanı isə yaralandı. Bu, əməliyyat faşistləri bərk sarsıtdı. Ona görə də Mixaylonun başı üçün qırx min lirə mükafat təyin olundu.

Bundan sonra Mehdi Sloveniyada *"Mixaylo"* adı ilə məşhur oldu.

Sonra Mixaylo Opçinadakı 270 nəfərlik faşist kinoteatrını partlatdı. İki rotanın əsgərini təşkil edən belə bir itkini hərbi hissə böyük vuruşmalarda çox çətin verir, ona görə faşistlər bundan daha da dəhşətə düşdülər. Faşist komandanlığı bu dəfə Mixaylonun başı üçün üç yüz min lirə mükafat təyin etdi, amma bu mükafat da heç kəsə qismət olmadı.

Triyest şəhərində faşist qəzeti *"İl Pikkolo"* redaksiyasını və mətbəəsini partlatdı. Həmin redaksiyanın mətbəəsində Mixaylonun adı iri hərflərlə qəzet və vərəqələrdə çap olunub buraxılmışdı.

Rəsm Mehdi Hüseynzadənindir, 1934-cü ildə çəkilmişdir.

Yenə Triyestdə, Viafortina küçəsində faşistlər üçün təşkil olunmuş fahişəxana binasını Mixaylo partladıb məhv etdi. Burda səksəndən çox faşist əsgər və zabiti ölmüşdü.

Bütün bu əməliyyatlardan sonra faşistlər elə qorxurdular, elə vahiməyə düşmüşdülər ki, hətta mağazalara, barlara, kinoteatrlara da getməyə ürək eləmirdilər. Az keçmədi Mehdi faşistlərin iyirmi beş avtomaşın olan hərbi qarajını yandırıb külə döndərdi. Bu dəfə *"səxavətli"* faşistlər gözə–görünməz Mixlaylonun başı üçün dörd yüz min lirə mükafat təyin etdilər. Həmin mükafatı da heç kəs ala bilmədi. Öz əməliyyatlarını çox böyük məharətlə davam etdirən Mehdi indi də faşistlərin Triyestdəki hərbi xəstəxanasını partlatdı.

Triyest şəhərində nəzarəti, yoxlamanı həddsiz dərəcədə gücləndirdilər. Azacıq şübhələndikləri adamı dərhal həbs edir, ya da güllələyirdilər. Beləliklə bir neçə *"Mixaylo"* tutuldu, güllələndi. Onlar Mixaylo adı ilə gizli əməliyyatlar aparan bu qəhrəmanı heç cür təsəvvür edə bilmirdilər; onlara elə gəlirdi ki, "Mixaylo böyük bir dəstədir, buna da çox məharətli nəhəng gövdəli bir şəxs başçılıq edir.

Bir dəfə Mehdinin səsi-sorağı Qoritsiya şəhərindən gəldi. O, şəhərin bir binasında məxfi saxlanan hərbi faşist topoqrafiya qrupunun bütün arxivi, xəritə və cihazlarını maşına yükləyib dörd nəfərin köməyi ilə qaçırtdı. Həmin sənədləri bir kəndə gətirib orada IX Korpusun qərargahına təhvil verdi.

1944-cü ilin bir yaz günündə Mehdi rəssam geyimində Senaja kəndindəki təşkilatdan məlumat almağa gəlir. Faşist kəşfiyyatı *"SS"* mayoru Şultsa xəbər veribmiş ki, Mixaylo arabir bu kənddə olur. Həddsiz dərəcədə qaniçən və sərt olduğuna görə yerli əhali bu faşist mayoruna *"Mareşallo"* adı vermişdi.

Mehdi yerli əhalidən olan qrupla söhbət aparanda gözətçi xəbər gətirir ki, kəndə faşistlər doldu. Yoxlama vaxtı Mehdi özünü fransız rəssamı kimi qələmə verir, yazıq, fağıryana bir görkəmə düşür, ondan heç nədə şübhələnməsələr də, baş da açmırlar. Mayor qanlı-qanlı ona baxıb:

– Sən partizansan, – deyir – özün də Mixaylonun dəstəsində vuruşursan.

Mehdi yazıq bir görkəmlə:

– Nə danışırsınız,– deyir,– cənab mayor, mən yetiməm, acı taleyim məni bura gətirib çıxarıb, qəpik-quruş qazanmağa gəlmişəm.

– Bəs partizanlarla necə, tanışsanmı?

– Mən onları tanıyıram, siz də, onlar da yaxşı adamlarsınız.

– Sən Mixaylonu görmüsənmi, düzünü de?

– Əlbəttə, bəli, görmüşəm.

– Necə adamdır?

– Qarayanız, qəşəng oğlandır.

Şultsun sifəti daha da sərtləşir. Mehdinin *"Mixaylo"*nu tərifləməyi onun xoşuna gəlmir. Bunu duyan Mehdi:

– Hirslənməyin cənab mayor, o hər dəfə mənə rast gələndə pul verir, axı mənim də pula ehtiyacım var, yetiməm... Şəxsən mənə çox yaxşılıq edib. Sizə yəqin pislik edib, eləmi?..

– Partizanların yerini bilirsənmi?

– Bilirəm, istəyirsiniz gedək göstərim.

Mehdi onları gətirib bir gün əvvəl faşistlərin yandırdığı Rixenberq (Yuqoslaviyada kənd – Ş. N) kəndini göstərir.

Şults kəndi adamsız və yandırılmış görüb hirslənir.

Mehdi:

– Mənə acığınız tutmasın, cənab mayor, mən görəndə bu kənddə partizanlar vardı, demək kəndi onlar yandırıblar. Bax, o Kabılya-Qlava kəndini niyə yandırmayıblar. Çünki orda partizanlar yox idi.

Yarışübhə içində qalan faşist mayoru Mehdini buraxmayıb on beş gün saxlayır. Mayor onu gecə-gündüz gizli nəzarət altında koridor küncündə saxlayırmış. Bir gün mayor onu çağırıb deyir:

– Zep, (mayor Mehdini fransız zənn etdiyinə görə belə çağırırmış – Ş.N.), biz xüsusi tapşırıq almışıq, Mixaylonu axtarmağa gedirik. Sən burda qal, amma cənab yefreytorsuz ixtiyarın yoxdur, bir yana çıxmağa.

Mixaylo burda saxlanan müddətdə onun qrupu faşist mayorunun Mehdidən şübhələnməməsi üçün ayrı-ayrı yerlərdə partlayış aparırmış.

Mixaylonun gözətçisi qoca yefreytor xeyli gəzindikdən sonra tüfəngini dizinin üstünə qoyub oturur. Bir azdan onu mürgü bərk yaxalayır, arabir gözlərini zorla açıb dustağına baxır, yenidən yuxulayır. Mixaylo yefreytorun yatıb-yatmamağını yoxlamaq üçün qəsdən portsiqarını biriki dəfə əlindən salır. Yefreytor oyanmır. Mixaylo durub əvvəlcə on-on iki tüfəngi aparıb qumluqda basdırır. Sonra rəssam çantasının dibində gizlətdiyi minaları çıxarıb barakın künclərinə və mayorun stolunun gözünə qoyur. Mayorun ehtiyat üçün saxladığı on yeddi patronlu Belkiya pistoletini götürür, şosse yolunun kənarı ilə irəliləyir. Meşəyə çathaçatda mayorun kəşfiyyatdan qayıdan dəstəsi ilə üzləşir, qaçıb yaxınlıqdakı komaya girir. Faşistlər uzaqdan düşən zəif işıqda kölgə keçdiyini görüb, axtarışa başlayırlar. O, qaranlıqda sürünə-sürünə meşəyə keçir. Məryəm ananın (C) heykəlinin, Yuqoslaviya meşələrində müəyyən yerlərdə müqəddəs Məryəmə ağac heykəllər qoyulub – Ş.N.) arxasına sığınır, *"Mənə kömək elə Məryəm ana"* – deyə yalvarır (Sonralar C. Həkimliyə danışarmış ki, həyatımda ilk dəfə burada ucuz ölümdən qorxdum Ş.N.). Birdən güclü partlayış eşidilir, çırthaçırtla yanan barak qaranlıq geçəni işıqlandırır. Mayor *"şnell, şnell"* – deyib dəstəsini baraka tərəf qovur...

Sonra Mixaylo Qoritsiya şəhərindən bir maşın hərbi ləvazimat qaçırtdı. Triyestdə faşistlərin *"SS"* qərargahı yerləşən binanı partlatdı.

Bir mühüm hərbi əməliyyat üçün bizim qərargaha pul lazım idi. Mehdi, bu külli məbləğdə pulu tapmağı boynuna götürdü. O, katolik bankının sahibi Valeriano Brumatonu kabinetində əsir edib, dilindən kağız alır ki, bu qədər pul burax, səni öldürmərik, sənə kağız verərik, onsuz da Qızıl Ordu gəlir, söz veririk, sənə toxunmazlar... Onu da bil ki, yerli əhalinin doxsan faizi biz kommunistlərin tərəfindədir...

Mən söhbətimə ara verib susdum. Hiss edirdim ki, danışdıqlarıma o qədər də inanmırlar. Bir nəfər pəncərənin yanında oturub, nəsə qeydlər aparır, ara bir də mənə suallar verirdi. Sonralar öyrəndim ki, bu adam yazıçı Həsən Seyidbəylidir.

– Bu danışdıqlarıma inanıb-inanmamağınız öz işinizdir, özünüz bilərsiniz. Bircə onu bilin ki, mən sizə ancaq və ancaq həqiqəti danışmışam. Hələ Mehdinin gəmiqayırma zavodunu, Postoyna şəhəri yaxınlığındakı yanacaq anbarını partlatmağını və onlarla əməliyyatlarını danışmamışam... İndi isə buyurun bu şəkillərə baxın, – deyib Mehdi ilə birgə və ayrıca çəkilmiş iyirmiyə yaxın şəkli stolun üstünə qoydum. Böyük bacısı Bikəxanıma Mehdinin öz əlilə yazdığı bloknotu verdim. Dəftərçə yarıya qədər şriftlə yazılmışdı, onu Mehdinin özündən başqa heç kəs oxuya bilmirdi.

–Mehdi mənə xatirə üçün üzük bağışlamışdı. Mən də həmin üzüyü sizə yadigar verirəm – deyib uzüyü stolun üstünə qoydum.

Bu vaxt Bikəxanım ayağa durub:

ПАСПОРТ

I-ЛС № 531178

I-ЛС № 531178

Mehdi Hüseynzadəyə məxsus pasport

–Xahiş edirəm, – dedi, – düz deyin, bu üzüyə qardaşım Mehdinin heç olmasa əli dəyibmi?

Mən, düzü, özümü bərk itirdim. Necə and içim, nə deyim ki, yeganə qardaş yolu gözləyən bacı mənə inansın. Bilmirəm, nə dedim, necə and içdimsə Bikəxanım üzüyü götürüb öpdü, gözünün üstünə qoydu. O, hönkürməsə də, gözlərindən yaş sel kimi axırdı.

– Bilirsiniz, – dedim, – bu üzük hardandı? Katolik bankiri Valeriano Brumatonu yenidən əsir alanda cibindən axtarış vaxtı bir gümüş portsiqar (250 qram), bir də bu üzük çıxdı. Üzüyü Mehdi mənə bağışladı. Həmin portsiqar yadımdan çıxıb vağzaldakı çamadanımda qalıb. Onu da verəcəm sizə. Sonra ikinci dəfə gələndə həmin portsiqarı Bikəxanıma verdim (İndi həmin üzük və portsiqar Azərbaycan Dövlət Tarix Muzeyində saxlanılır Ş.N.).

Məni bir xeyli də sorğu-suala tutdular. Danışıqlarından hiss edirdim ki, yenə mənə inamları yoxdu. Onda bizimlə partizanlıqda birgə olan bir neçə bakılının adını çəkdim. Dedim ki, Basin küçəsindəki çörəkxanada işləyən Əli Şıxəliyevi tapın, ondan soruşun, o nə, desə inanın.

Ayağa durdum getməyə, buraxmırdılar. Dedim ki, yüz on nəfər partizan məni vağzalda gözləyir, onların sənədləri də məndədir. Hamı dörd ildən çox həsrətində olduğu evinə-ailəsinə tələsir, amma bilet tapa bilmirik, bir həftəyə yaxındır ki, vağzalda əsir-yesir olmuşuq. İndi onlar mənim əlimdən bərk əsəbiləşiblər, məni bağışlayın, mən getdim.

- Yox, - deyib Əliqulu qabağa yeridi. - Cavad, darıxma, burda oturanların hamısı bu saat siz yola salmaqa gedəcək. Biletə görə də narahat olma, özüm təşkil edəcəm.

Həmin axşam yola düşdük. Əliqulu və Əliabbas yüz on adama öz xərcləri ilə bilet alıb bizi yola saldılar.

Şəmistan Nəzirli

BİR ŞƏKLİN İZİ İLƏ

Qələbə gününün axşamı dostumla sahilə getmişdik. Ümumi tanışımız Sadıq müəllimlə rastlaşdıq.

Atəşfəşanlıq başlananda Sadıq müəllim müharibə itgilərindən söhbət saldı.

Sonra söhbəti Mehdinin üzərinə gətirdi:

–1932-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində akvareldən Mehdiyə dərs demişəm, – dedi. – Yadımdadır, göyçək qarabuğdayı oğlan idi. Adı yaxşı oxuyanlar sırasında çəkilərdi, o günü albomu vərəqləyirdim. Mehdigilin qrupu ilə çəkdirdiyim şəkli görəndə, düzü, kövrəldim.

Şəkillə maraqlandıq. Dedi: – Səhər bizə gəlsəniz, şəkli göstərərəm.

Sadıq müəllimlə şərtləşdiyimiz vaxtda görüşdük.

-Səndən iki ricam var, – deyə o, əlini çiynimə qoydu.– Birinci, şəklin surətini çıxartdırıb mənə qaytar, ikincisi də vaxt tapıb Kazımı, Cəlalı gör!

Şəkildə onlar iyirmi dörd nəfər idilər, indi hardadırlar, görəsən?

Cəlal Qaryağdı (xalq rəssamı):

–Hə, lap yaxşı xatırlayıram: gözləri bir azca dərində, enli sifətli, sığallı saçlı, gülərüz oğlan idi. Mən ona həmişə zarafatla *"ay şeytan"* deyərdim. O vaxt texnikumu əla bitirdiyimə görə məni müəllim saxladılar.

Rəsmdən dərs deyirdim. Mehdi də mənim qrupumda idi. Qrupda ən çox xətrini əziz tutub, sevdiyim iki tələbəm vardı: Mehdi və qeyri-adi istedada malik Bala Mirzəcanov. Hər ikisi də ciddi və sürətli işlərdi. Başqa tələbələrə nisbətən bunların toxunduğu mövzu, çəkdiyi rəsm daha düşündürücü və maraqlı olurdu. Bir dəfə gözaltı fikir verdim ki, Mehdi nə isə yaxşı işləmir, elə-belə cızmaqara eləyir.Yaxınlaşıb soruşdum. Dinmədi. Tənəffüsdə Balanı çağırıb ondan xəbər aldım ki, Mehdinin niyə kefi yoxdur?

–Xətrinə dəyməyin,– dedi,– Yadına anası düşüb, kövrəlibdi.

Mehdi zarafatı çox sevərdi. Onun zarafatlarından heç kəs inciməzdi. Dava-dalaşdan acığı gələrdi. Onun zarafatlarından inciyəni tez şirin dilə tutub könlünü alardı.

Eh, nə deyim. Heyif ki, Mehdi aramızda yoxdur.

Mürsəl Nəcəfov (sənətşünaslıq doktoru, professor):

–Mehdini tez-tez yuxuda görürəm. Həmişə də sağ. Belə olduqda elə kövrək, elə gücsüz oluram ki, uşaq da itələsə yıxılaram. Ürəyimi boşaltmaq üçün bütün günü ağlayıram.

Mən Mehdi ilə təkcə dost yox, həm də qohum olmuşam. Atalarımız arasında səmimi dostluq olub. Təsəllini ən çox bir yerə yığışanda tapırıq. Məmmədağa, Əli, Kazım və Cəlal…

Yaşasaydı, mənə belə gəlir ki, şair, ya da məşhur dilçi olardı. Rəssamlığı da atmazdı. Surikovu, Repini, bir də *"Molla Nəsrəddinçi"* rəssamları çox sevirdi.

Əli Zeynalov (Nizami adına muzeyin baş rəssamı):

-Yaman zarafatcıl idi. Elə gün olmazdı ki, bizi güldürməsin. Portret işlədiyimiz vaxt bir də görürdün ki, natura qalıb bir

Mehdi rəssamlıq texnikomunda oxuyarkən müəllim və tələbələrlə birlikdə. (Arxa cərgədə sağdan 2-ci)

tərəfdə, biz Mehdinin lətifələrindən batıb qırılmışıq. Vaqifin, Səməd Vurğunun, Müşfiqin, Ömər Xəyyamın şeirləri dilindən düşməzdi. Öz qoşma və qəzəllərini də yarı rus, yarı azərbaycanca oxuyardı.

Qalsaydı yaxşı rəssam olardı. İnamla deyə bilərəm ki, mənalı, məzmunlu əsərlər yaradardı. Çünki biz naturanı bir dəfə işləyəndə, o, yorulmadan üç-dörd dəfə işləyərdi. Həm də əla.

Məmmədağa Tərlanov (M.Əliyev adına İncəsənət İnstitutunun təsviri-sənət kafedrasının müdiri):

-1934-cü ildə rəssamlıq məktəbinin 2-ci kursunda oxuyurdum. Şəkli də o vaxt mən çəkmişəm. Yadımdadır, əl işlərimizin baxış günü idi. *"Akera"* markalı fotoaparatı yenicə almışdım. Həmişə birgə gəzərdik. O vaxt Mehdi ilə mən bir neçə müəssisənin, o cümlədən indiki Lenin adını Pedaqoji İnstitutun, Bayıl doğum evinin tərtibatını da hazırladıq.

Mehdi ilə mən təkcə həmkəndli yox, həm də yaxın qohum idik. O mənim üçün ən yaxşı yoldaş və dost idi.

O, Hollandiya rəssamı Frans Halsı, Rembrantı sevməklə yanaşı, həm də xalq yaradıcılığının alovlu vurğunu idi.

Lelinqraddan tətilə qayıdanda fabrik yeməkxanalarında menyu yazıb güzəran keçirərdik. Qəribə xasiyyəti var idi. Adam onunla darıxmırdı. Elə hey Əhməd Cavaddan, Hüseyn Caviddən, Səməd Vurğundan elə kövrək, elə həzin oxuyardı ki, adam nə vaxt ağladığını belə hiss etməzdi…

Kazım Kazımzadə (xalq rəssamı):

-Mehdi ilə 1932-ci ildə rəssamlıq məktəbinə daxil olanda tanış oldum.

Səliqəliydi. Dərsə həmişə vaxtında gələrdi. Natura işləyəndə sinifdə tam sakitlik olardı. Bu sakitliyi Mehdinin şən və zərif zarafatı, ya da asta-asta zümzüməsi pozardı. Bir də gördüm ki, tənəffüs vaxtı Mürsəli, Həbibi və Məmmədağanı bir-birinə qatdı. Sinif nümayəndəsi olduğuma görə cəzanı mən çəkərdim.

Bir-birimizin evinə də gedib-gələrdik. Mehdi Rüstəm Mustafayevlə də tanış idi. Dəfələrlə onları bir yerdə görmü-

şəm. Rüstəm Mehdiylə bir yaradıcı adam kimi söhbət edərdi. Teatr rəssamlığına daha çox meyli vardı. Əsərlərini toplamışıq. İndi bizim muzeydədi.

Yadımdadı, Mehdi hələ rəssamlıq məktəbində oxuyanda Qəmər adlı bir qızı sevirdi. Mehdi ona çoxlu şeir də həsr etmişdi.

Tamara Sairova (Respublika bədii uşaq sərgisinin metodisti):

-Mehdi yadımda düşüncəli, sakit və ciddi təbiətli bir oğlan kimi qalıb. Keçən günləri xatırlamağın çətinliyini mən bu gün daha çox hiss etdim.

1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı adı veriləndə bəziləri kimi təəccüblənmədim. Sevincdənmi, yoxsa onun yoxluğundanmı o qədər ağladım ki…

Qrupumuzun bəzi oğlanları bizi incidirdi. Mehdi qızlara həmişə havadar çıxardı. Üstəlik də bizim əl işlərimizə baxıb dəyərli fikirlər deyərdi. Qrupumuzda 5 qız idik və heç birimiz də ondan pis söz eşitməzdik… Şəkilə diqqətlə baxın, divardakı portretin biri mənimdi. Onu bu fotoşəkil çəkiləndən

Mehdi rəssamlıq texnikumunda oxuyarkən müəllim və tələbələrlə birlikdə. (Arxa cərgədə soldan 5-ci)

bir az qabaq Mehdi, Məmmədağa və Kazım çəkiblər. Mehdi rəsmlə yanaşı tarix, ədəbiyyat və riyaziyyatla da maraqlanırdı.

Aleksandra Parxomenko (M. F. Axundov adına Orera və Balet teatrının rəssamı):



Mehdi Hüseyinzadə Leninqrad Xarici Dillər İnstitutunda oxuyarkən. 1940-cı il

- Mehdini - o zarafatcıl oğlanımı soruşursunuz? Lap yaxşı xatırlayıram. Əliaçıq idi. Həmişə Mürsəllə Məmmədağaya teatra, konsertə bilet alardı. Qızları da unutmazdı. Bazar günü Novxanıdakı bağlarına gedəndə üzüm, əncir gətirərdi. Bir dəfə ondan almanı budaqla birlikdə gətirməsini xahiş etdim. Nə desə yaxşıdı: *"Saşa, bəs mən şair ürəyimi hara qoyum ki, dilsiz-ağızsız budağı sındırım. Gedək əvəzində sənə bazardan nə qədər istəsən alma alım"*.

Eh, nə deyim, Mehdi kimi insan qayğısına qalan, mehriban adamlar az olur.

Hara getdimsə Mehdidən yana-yana, "heyif, yaxşı oğlan idi", "yaşasaydı yaxşı rəssam olardı", *"istedadlı şair olardı"*, *"əsil qəhrəmandır"* - dedilər.

Şəmistan NƏZİRLİ

ƏLƏKEÇMƏZ PARTİZAN

Yazıçı-jurnalist Vasili Dmitriyeviç Sokolov Böyük Vətən müharibəsinin iştirakçısıdır. O, Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan və Avstriyanın faşist işğalçılarından azad olunması uğrundakı döyüşlərdə iştirak etmişdir.

V.D.Sokolov Böyük Vətən müharibəsi cəbhələrində sovet döyüşçülərinin göstərdiyi qəhrəmanlığa həsr olunmuş bir sıra əsərlər yazmışdır.

SSRİ Müdafiə Nazirliyinin hərbi nəşriyyatı onun 1956-cı ilin axırlarında «Qəhrəmanlar ölkəsində» adlı hekayələr məcmuəsini buraxmışdır. «Ələkeçməz partizan» hekayəsi də həmin məcmuədə dərc olunmuşdur. Hekayə Azərbaycan xalqının qəhrəman oğlu, faşistlərin arxasında aparılan partizan mübarizəsinin görkəmli iştirakçısı Mehdi Hənifə oğlu Hüseynzadəyə həsr olunub.

Zabit Alekseyevin qabaq dəstədə irəliləyən batalyonu gecələmək üçün dayandı. Gecədən xeyli keçmişdi. Komandirin öz qərargahı ilə yerləşdiyi evə bir nəfər yuqoslaviyalı gəldi. O, partizan dəstəsinin komandiri idi. Komandirlər nə isə çox tez dostlaşdılar və ertəsi gün keçiriləcək döyüşlər üçün cəsarətli planlar hazırlamağa başladılar. Partizanlar öhdələrinə çox çətin bir vəzifə götürürdülər: onlar arxadan zərbə endirməklə düşmənin geriyə çəkiləcəyi yolu kəsəcəkdilər.

Partizan dəstəsinin komandiri dedi:

- Mən sovet qəhrəmanlarının necə döyüşdüklərini yaxşı bilirəm. Bizi yaxşı müdafiə edəcəyinizə də inanıram.

Alekseyev maraqlanıb soruşdu:

- Məgər siz bizim əsgərlərlə bir yerdə döyüşmüsünüz?

- Ooo... Mən sovet qəhrəmanlarını çox yaxşı tanıyıram. Uzun müddət, demək olar ki, bütün müharibəni Sloveniyada olmuşam. Orada sovet batalyonu döyüşürdü. Bəli, bəli, sizin yoldaşlar döyüşürdülər. Onlar əsirlikdən, əmək düşərgələrindən qaçmışdılar. Onlar qaçıb bizə – partizanlara qoşulurdular.

Sonra yuqoslaviyalı komandir həmin batalyonun qəhrəmanlarından biri – Mehdi Hüseynzadə haqqında danışmağa başladı.

1943-cü ilin qışı idi. Qara saçları, qaynar gözləri olan Mehdi əsirlikdən qaçıb Sloveniya Primoryesi partizanlarına qoşulmuşdu. O, əynindəki alman paltarlarını çıxarıb ayaqlarının altına atandan sonra dedi: «Daha bəsdir! Bu paltarlar mənə yaraşmır!» Mehdidən kim olduğunu soruşurlar. O, özü haqqında ətraflı danışır.

Mehdi Sovet Azərbaycanındandı. Müharibədən qabaq Xarici Dillər İnstitutunda oxumuşdu. Alman dilini səlis bilirdi. Cəbhədə olarkən əsir düşmüşdü. Faşistlər Mehdini uzun müddət düşərgədə saxlamış, sonra isə hitlerçilərin tərəfində vuruşmağa məcbur etmək üçün onu hərbi hissəyə göndərmişdilər. Mehdi oradan qaçmağa münasib vaxt axtarırdı. Nəhayət, qaça bildi...

Əvvəllər partizan dəstəsində Mehdiyə inanmırdılar. Mehdi bundan incimirdi. O, bilirdi ki, müharibədə sayıqlıq hər şeydən çox tələb olunur. Etimadı isə yalnız mübarizədə qazanmaq olardı.

Mehdinin öz hərbi ixtisası var idi. O, mahir minaçı kimi körpüləri partladır, yollara mina düzə bilirdi. Ən başlıcası isə minaların özünü də yaxşı düzəldə bilirdi. Dəstədə Mehdinin ixtisasına böyük ehtiyacı var idi.

Bir dəfə dəstə komandiri təklikdə yerinə yetirmək üçün Mehdiyə bir tapşırıq verdi. Mehdi şəhərlərin birində təxribat törətməli idi. O əyninə faşist zabiti forması geyib yola düşdü. Mehdinin yeganə silahı saat mexanizmi ilə işləyən minadan ibarət idi.

Mehdidən uzun müddət heç bir xəbər eşidilmədi. Nəhayət, bir gün o qayıtdı. Dəstənin komandiri artıq şəhərdəki zabit aşxanasının partladıldığı xəbərini eşitmişdi. Aşxanada təxminən 30 nəfərədək hitlerçi gəbərmişdi. Bu, Mehdi Hüseynzadənin işi idi...

Mehdi qayıdandan sonra komandir zarafatla ondan xəbər aldı:

-Aşxananı partlatmazdan qabaq barı bir şey yeyə bildinmi?

Mehdi gülümsəyib dedi:

-Əlbəttə, özüm üçün bahalı xörəklər sifariş eləmişdim. Minanı isə almanlar üçün... çərəz qoydum. Lap möhkəm guruldadı. Öz canımı güc-bəla ilə qurtara bildim!

Mehdi Hüseyinzadə partizanlıqda

Mehdi Hüseynzadənin çətin və təhlükəli çıxışları belə başlandı. O, düşmənlərin hərbi hissələrinin durduğu yerlərə gedir, faşist zabit və əsgərlərinin ən çox olduqları yerə baş çəkir, onlarla sakitcə söhbət edir, sonra isə mina çamadanı lazım olan yerdə qoyub gizlicə aradan çıxırdı.

Yuqoslaviyalı komandir Mehdi haqqında söhbət edərkən həyəcanlanır, yeni bir hadisəni danışmazdan qabaq bəzən uzun müddət xəyala dalıb susurdu. Budur o, yeni bir döyüş səhnəsini təsvir edəndən sonra yenə də susur. Sonra öz baxışları ilə əvvəlcə Alekseyevi, daha sonra isə onun yoldaşlarını süzür. Nahayət, komandir sözünə davam edir:

- Mən sizin əsgərləri öz vətənlərindən uzaqlarda görüb belə bir qərara gəldim ki, onlardan hər biri sovet ordusunu çox yaxşı təmsil edir. Mən alman, italyan ordusundan və başqa ordulardan olan əsgərləri öyrənməli olurdum. Bu əsgərlər öz hissələrindən ayrılan kimi daha onlara döyüşçü demək olmazdı. Onlar qarətçilik edir, silahsız əhaliyə divan tutur, bir

sözlə, əsgərlikdən savayı nə işlə desəniz məşğul olurdular. Sizinkilər isə belə deyildilər, yox, əsla belə deyildilər.

Komandir bir qədər susduqdan sonra sözünə davam etdi:

- Təhlükə qarşısında tək qalan sovet döyüşçüsü özünü itirmir. Yox, o, sanki əlahiddə hərəkət edən bir orduya çevrilir. O, öz-özü üçün həm komandir, həm siyasi işçi, həm döyüşçü olur. Mehdi də belə idi... O, tapşırığı yerinə yetirməyə tək getməyi daha çox sevirdi. Bir dəfə onu qərargaha çağırdılar. Partizan briqadasının komandiri Qoritsiyanın yaxınlığındakı bir sahəni - düşmənin təyyarə meydanını xəritədə ona göstərib dedi:

- Biz düşmən təyyarələrinin bombardmanından çox zərər çəkirik...

- Bu işlə məşğul olmaq lazımdır, - deyə Mehdi qəti qərara gəldi. Onda çox dəcəl bir fikir oyandı: təyyarə meydanına soxularaq düşmənin heç olmasa, bir neçə təyyarəsini məhv etmək.

Bu işi görməyə onu heç kəs məcbur etmirdi. Mehdini bu işə şəxsi iradəsi sövq edirdi. O, tapşırığı tək yerinə yetirmək istəyirdi. Tapşırıq isə çox məsuliyyətli idi. Axı, təyyarə meydanı çox möhkəm mühafizə olunurdu. Bu, partizanlara da, Mehdiyə də çox yaxşı məlum idi. Mehdi təhlükəli bir işə girişdiyini bilirdi: o, təyyarə meydanında məhv ola bilərdi. Lakin Mehdi həmişəki kimi yenə də sakit görünürdü, hətta gülümsünürdü. Nəhayət, o, tapşırığı yerinə yetirmək üçün hazır olduğunu bildirdi.

- Madam ki, lazımdır, edərəm, - dedi.

İki gündən sonra Mehdi partizan düşərgəsindən yola düşdü. Həmişə olduğu kimi, bu dəfə də yoldaşları Mehdidən nigaran qalmışdılar. Onlardan hər biri öz qəlbində: «Kaş, tez qayıdaydı...» - deyə düşünürdü. Axşamüstü bir-birinin ardınca iki partlayış səsi eşidildi...

Budur, Mehdi qayıtmışdır. Həmişəki kimi yenə təmkinli, sakitdir, səfər torbasını çiynindən çıxarıb qoyur...

Qoritsiya yaxınlığındakı təyyarə meydanına necə soxulduğunu, burada mina ilə bir neçə təyyarəni necə partlatdığını yalnız Mehdi özü yaxşı bilirdi. Sonradan deyirdilər ki, Mehdi almanların təyyarə meydanına keçmək

üçün əyninə hərbi texnik forması geymiş və lazımi sənədlər ələ keçirmişdi. Yoldaşları ona zarafatla:

- Mehdi, təyyarələri çox qəribə təmir edirsən... - deyəndə Mehdi belə cavab verirdi:

- Bacardığım budur, gərək irad tutmayasınız.

Mehdinin şöhrəti Sloveniyanın bütün partizan zonasına yayılmışdı. Mehdinin silah qardaşları - Yuqoslaviya partizanları ona baxıb sevinir, düşmənlər isə Mehdinin adı çəkiləndə lərzəyə düşürdülər. Faşistlər Mehdini «Qara pişik» adlandırırdılar. Mehdi tez-tez çıxış etməyə başlayanda, demək olar ki, hər gün yollara mina düzəndə, düşmən qərargahlarına basqın edəndə düşmənlərin gözü qarşısında onların avtomobil və motosikletlərini qaçıranda faşistlər əvvəlkindən çox vahiməyə düşməyə başlayırdılar. Onların arasında belə bir şayiə yayılmışdı ki, güya o yerlərə paraşütçü desant atılmışdır. Düşmənlər hamıdan çox bütün bu tərxibatların təşkilatçısını axtarırdılar. Lakin onlar Mehdini tapmırdılar. Faşist komandanlığı Mehdini ələ keçirə bilən adama böyük mükafat vəd edirdi. Lakin Mehdi əvvəlki kimi ələkeçməz idi.

Müharibənin axırlarında, 1944-cü ilin noyabrında Mehdi növbəti bir tapşırığı yerinə yetirməyə getmişdi. O, Qoritsiya şəhərində hərbi sursat ambarını partlatmalı idi. Ambarın gözətçilərini aldatmaq çox çətin olsa da o, tapşırığı yerinə yetirmişdi.

Mehdi qərargaha qayıdırdı. Vitovli vadisində o, gözlənilmədən düşmənlərin mühasirəsinə düşdü. Düşmən əsgərləri bu yerə ayaq basan hər bir adamın sənədlərini yoxlayırdılar. Mehdinin başqa bir çıxış yolu yox idi. O, mühasirədən yalnız döyüşlə çıxa bilərdi. Mehdi bu qərara gələndən sonra düşmənlərlə atışmağa başladı. Qızğın atışma getdi, tapançanın sandığına patron qoymağa belə macal yox idi. Budur, artıq güllə də qurtarmışdı. Cəsur partizan ayağa qalxıb son gülləni öz ürəyinə sıxdı...

Yuqoslaviya partizanları Mehdinin cənazəsini döyüş meydanından çıxartdılar. Onlar yaylım atəşi altında qəhrəmanı Çepovani kəndində dəfn etdilər.

MEHDİ HAQQINDA

Dramaturq Yevgeni Stepanoviç Şevadzutski Krivoy-Roq şəhərində yaşayırdı. Onun əsərləri RSFSR və Ukraynanın bir sıra teatrlarında tamaşaya qoyulub.

Y.Şevadzutski Böyük Vətən Müharibəsinin iştirakçısıdır. Voronejdən Berlinədək döyüş yolu keçib. O, cəbhəyə getməzdən əvvəl Tbilisi Hərbi Piyada Məktəbində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə bir qrupda oxuyub, həmyerlimizlə dostluq edib.

Y.Şevadzutski M.Hüseynzadənin qəhrəmanlığından bəhs edən «Sonuncu məktub» adlı pyes yazıb. Pyesdən parçalar Ukrayna qəzetlərində «Biz beynəlmiləlçilərik» adı altında dərc edilib.

Böyük Vətən Müharibəsindən qayıtmayanların xatirəsi veteranların yaddaşından heç zaman silinməyəcəkdir. Qanlı-qadalı günlərin qurtarmasından 36 il keçsə də keçmiş döyüşçülər öz dostlarının, əsgər yoldaşlarının ölümünə inanmır, qəzet redaksiyalarına, SSRİ Müdafiə Nazirliyinin arxivinə, rayon hərbi komissarlıqlarına müraciət edərək onları bu gün də axtarırlar.

Müharibə veteranlarının görüşü ənənəyə çevrilib. Keçmiş döyüşçülərin görüşü həmişə böyük marağa səbəb olur, gənclərin hərbi vətənpərvərlik tərbiyəsindən mühüm rol oynayır.

1942-ci ilin iyulunda Tbilisi Hərbi Piyada Məktəbinin növbəti buraxılışı olmuşdu. Məktəbdə müxtəlif millətlərin nümayəndələri – ruslar, gürcülər, azərbaycanlılar, ermənilər, ukraynalılar... təhsil alırdılar. Hazırlıq qısaldılmış proqram üzrə aparılırdı. Tezliklə leytenant rütbəsi almış gənclər ön cəbhələrdə öz yerlərini tutdular. Məzunların taleyi müxtəlif oldu. Yalnız sonralar, qələbədən illər keçdikdən sonra biz onların keçdikləri döyüş yolundan, qəhrəmanlıqlarından xəbər tutduq.

1957-ci ildə «Pravda» qəzetində leytenant Mehdi Hüseynzadənin qəhrəmanlığı haqqında yazı oxudum. SSRİ

Ali Sovetin Rəyasət Heyətinin 11 aprel 1957-ci il tarixli fərmanı ilə Mehdi Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

1941-ci il Mehdi Hüseyinzadə Tbilisi Hərbi Piyada Məktəbində təhsil alarkən

Bu xəbər məni həyəcanlandırdı. Axı, mən Mehdini yaxşı tanıyırdım. Tbilisidə bir yerdə oxumuşduq. Mehdi kimi səmimi, mehriban bir gəncin artıq aramızda olmamasına çox təəssüfləndim.

Hərbi məktəbdə biz müxtəlif bölmələrdə xidmət edirdik. Mənim komandirlik etdiyim bölmədə Məmmədov familiyalı bir müdavim var idi. O, rus dilini yaxşı bilmirdi. Dil öyrənməkdə ona kömək edirdim. Mehdi də tez-tez onun yanına gəlirdi. Mehdi yaxşı rəsm çəkirdi. Komandanlıq ona qırmızı güşənin tərtibini həvalə etmişdi. Mehdi stendlərin, divar qəzetlərinin tərtibatı ilə məşğul olurdu.

Onlar həmişə məndən üzr istəyib Azərbaycan dilində söhbət edər, Bakını, Xəzəri, dost-tanışlarını xatırlayardılar. Onların söhbətinə daha bir bakılı– Nəzərov familiyalı starşina qoşulardı. Mehdi yoldaşlarının diqqət mərkəzində idi.

Müharibədən sonra Mehdi Hüseynzadə haqqında İmran Qasımov və Həsən Seyidbəylinin «Uzaq sahillərdə» povesti çap edildi, povest əsasında eyni adlı film çəkildi, Mehdinin qəhrəmanlığından bəhs edən oçerk və məqalələr yazıldı. Mən Mehdi Hüseynzadə haqqında yazılanların hamısını oxumuşam. Amma müəlliflərin bu fikri məni təəccüləndirib ki, guya Mehdi Stalinqrad uğrunda döyüşlərdə ağır yara-

lanaraq faşistlərə əsir düşüb. Mən yaxşı bilirdim ki, Mehdi Hüseynzadə Stalinqrad ətrafında döyüşlərdə iştirak etməmişdir, burada nə isə bir anlaşılmazlıq var.

O vaxtdan Tbilisidə bir yerdə oxuduğum keçmiş döyüşçülərin sağ qalanları ilə yazışmağa başladım. 1979-cu ildə keçmiş müəllimimiz Muxtar Mehdi oğlu Mustafayevin (hazırda o, Azərbaycan Xarici Dillər İnstitutunun professorudur Ş.N.) ünvanıını tapdım, fikirlərimi ona yazdım. Birlikdə Mehdinin SSRİ sərhəddindən kənara düşdüyü barədə əsl həqiqəti aydınlaşdırmaq üçün material toplamağa başladıq.

Tbilisidə Mehdi ilə bir təhsil almış döyüşçülər – Novosibirskidən Mixayıl Bloqay, Kanev şəhərindən Vasili Deqtyarenko, Krivoy-Roqdan Nikolay Qribaç, Suxumidən Roman Petrozaşvili və başqaları öz məktublarında qiymətli məlumatlar verdilər. Arxiv materialları ilə tanış olduqdan sonra qəti müəyyənləşdirdik: leytenant Mehdi Hüseynzadə sovet kəşfiyyatçısıdır. O, heç vaxt Stalinqrad uğrunda döyüşlərdə iştirak etməmiş, yaralanmamış və əsir düşməmişdir. Doğrudur, Mehdi Stalinqradda olmuşdur. Daha doğrusu, Tbilisi Hərbi Piyada Məktəbini bitirənlərin hamısını Stalinqrada aparmışdılar. Orada bizi cəbhələrə böldülər. Mən Bryansk cəbhəsinə düşdüm, Məmmədov Cənub-Şərq cəbhəsinə göndərildi, Nəzərov Stalinqradda qaldı. Nəzərov mənə öz qohumlarının ünvanını verdi: Bakı, Çapayev küçəsi, 24. Sonralar onun bacısı Steladan məktub aldım. Yazırdı ki, Nəzərov 1942-ci ildə Stalinqrad uğrunda döyüşlərdə həlak olub.

Məzunlar bölüşdürülərkən Mehdi Hüseynzadə Şimali Qafqaz cəbhəsinə, 223-cü atıcı diviziyasının 1041-ci polkuna vzvod komandiri göndərildi. Amma Mehdi vzvoda getmədi. Xarici dil bildiyinə görə onu ordu kəşfiyyatına daxil etdilər. Mehdi xüsusi kəşfiyyat kursu keçdikdən sonra 1942-ci il dekabrın 29-da desant vasitəsilə düşmən arxasına göndərildi. Həmin gecə qəflətən hava dəyişdi, güclü çovğun oldu. Kəşfiyyatçılar qrupu ilə əlaqə kəsildi. Komandanlıq çox gözlədi ki, bəlkə kəşfiyyatçılardan bir xəbər çıxa. Lakin

onlardan soraq gəlmədi.1943-cü ilin martında «1942-ci il dekabrın 29-da həlak olduğu üçün» Mehdi Hüseynzadənin adı hissənin siyahısından çıxarıldı.

Yuxarıdakı fikirləri təsdiq etmək üçün daha nə demək olar?

Keçmiş hərbi jurnalist Vasili Sokolov 1944-cü ildə Yuqoslaviya partizanları arasında olmuş, «Ağlayan dağlar» adlı oçerk yazmışdır. O, partizan Mirkonun Mehdi haqqında dediklərini oxucuya çatdırır: «M. Hüseynzadə körpüləri

Mehdinin Silahdaşları Cavad Həkimli (solda) və Fərrux Sultanov

partlatmağı, mina düzməyi və hətta mina düzəltməyi bacarırdı...».

Hərbi məktəbdə bizə belə şeylər öyrətmirdilər. Bəs Mehdi bunları haradan bilirdi?

Başqa bir misal. 1942-ci il dekabrın sonunda Mehdi qohumlarına yazmışdı:

«...Məndən ötrü narahat olmayın, adınıza ləkə gətirmərəm. Ölsəm də mərdliklə öləcəyəm. Mənim haqqımda hələ eşidəcəksiniz, hələlik isə xüdahafiz. Bu mənim sonuncu məktubumdur».

Nə üçün sonuncu? Bu tapmacalı sözlərin altında nə gizlənir? Mənə elə gəlir ki, yalnız düşmən arxasına getdiyini dəqiq bilən, lakin bu barədə məktubda yazmağa ixtiyarı olmayan adam belə yaza bilər.

Bu faktlar mənim «Sonuncu məktub» pyesimin əsasını təşkil edir. Axtarışları isə davam etdiririk.

ODLAR YURDUNUN QƏHRƏMAN OĞLU

Alman faşistləri Vətənimizə xaincəsinə basqın etdikləri vaxt bizim diviziya Feodosiya şəhərində yerləşmişdi. Mən həmin diviziyanın batalyonlarından birində qərargah rəisi vəzifəsini yerinə yetirirdim.

Almanlar Krımın Perekop boğazına yaxınlaşarkən bizim polk boğazda mudafiədə idi. Perekopda bir neçə həftə çəkən ağır vuruşmalar nəticəsində hissəmiz böyük itki vermişdi, çünki bizim iki bölüyümüzə qarşı almanlar 7 diviziya buraxmışdı, bunlardan ikisi *"SS"* diviziyası idi.

Krımdakı vuruşmalarda iştirak edən polkumuz Kerç şəhərinə, oradan da noyabr - dekabr aylarında Kubana çəkilmişdi. Mart ayının 10-da Kubanda irəli hərəkət etməmiz üçün əmr gəldi.

Mart ayının 14-15-də mən yaralandım, həm də kontuziya oldum. Yaralandığımı görən əsgərlər məni blindaja aparıblar. Bir də gözümü onda açdım ki, alman əsgərləri üstümüzü kəsiblər.

Onlar məni və iki həkimi qabaqlarına salıb apardılar. Sonra tutulan əsirlərin hamısını piyada Nikolayev şəhərinə apardılar. Bizi Nikolayevdə bir xalxala saldılar, burada olan 30-40 minə qədər əsirin içərisində aclıqdan və xəstəlikdən ölənlərin sayı gündən-günə çoxalırdı.

Ümumi qayda idi: hamı bir-birindən harada olduğunu və harda əsir düşdüyünü soruşurdu. Mən də bir neçələri ilə bu haqda söhbət edirdim (Bura Almaniya idi). Bir də sol tərəfə baxanda gördüm ki, qarayanıız, xoş sifətli, qalın çatma qaşları olan bir oğlanın başına 10-15 nəfər yığılıb söhbət edir. Bu söhbətlə maraqlanıb onların nədən danışdıqlarına qulaq asmaq üçün yaxınlaşdım. Bu oğlanın söhbəti mənə olduqca xoş gəldi. O, mənim üzümə baxıb, sifətimdən azərbaycanlı olduğumu hiss edərək, hansı respublikadan olduğumu və harada əsir düşdüyümü soruşdu. Mən özüm Ermənistandan olub, Kerçdə əsir düşdüyümü dedim, onun haralı və harada əsir düşdüyünü soruşdum. O da əslən Bakıdan olduğunu və Stalinqrad yaxınlığında Kalaç adlı yerdə yaralandığını söylədi.

Soldan birinci Ənvər Məmmdov (Zərdab rayonu), Kəbir Məcidov, dördüncü Qədir Rüstəmov (Göyçaylı), beşinci Sloveniyalı İvo Boqacar (C. Həkimlinin tərcüməçisi), altıncı qərargah rəisi Cavad Həkimli və başqaları. 20 avqust 1944-cü il, Yuqoslaviya

Mən Mehdi Hənifə oğlu Hüseynzadə ilə belə tanış oldum.

Mehdi ilə mən o gündən etibarən əsirlər arasında möhkəm təbliğat aparmağa başladıq. Biz necə olursa olsun, bir nicat yolu axtarırdıq ki, buradan birtəhər çıxıb qaçaq.

Mehdi fransız və alman dillərini yaxşı bilirdi, ona görə də almanlar düşərgədə gündəlik məlumatları bizə xəbər verirdilər, yəni qəzetdən oxuyurdular, Mehdi də tərcümə edirdi. Mehdi o məlumatları əksinə olaraq tərcümə edirdi. Məsələn: alman oxuyurdu ki, almanlar 3 tankla rusların 15 tankını yandırmışdır, bir təyyarə ilə 5 təyyarəsini salıbdır və bir rota ilə bir batalyonunu dağıdıbdır. Mehdi bu məlumatı tərcümə edərək belə deyirdi: *"Yoldaşlar, almanlar 3 tankla sovetlərin 15 tankını, bir rota ilə bir batalyonunu dağıdıb, siz buna inanırsınızmı?"...* Beləliklə, Mehdi o gündən etibarən təbliğat aparırdı.

1943-cü ilin oktyabr-noyabr aylarında bizi vaqonlara doldurub Şimali İtaliyaya gətirdilər.

Triest şəhərinin yanındakı Opçina adlanan balaca qəsəbədə yerləşdik. Artıq indi biz burada bir balaca da olsa azad nəfəs ala bilirik, bizi burada işlədirlər və şəhəri də gəzməyə icazə verirlər.

Mehdi mənə həmişə *"Qarasaqqal əmioğlu"* deyərdi. Bir gün mənə dedi: *"Qarasaqqal əmioğlu, indi burada hər şey üçün şərait var..."*.

Bu söhbətdən cəmi 2-3 gün keçmiş olardı, Mehdi sevincək gəldi ki, hər şey düzəlibdir. Mən onun həmişə çatılmış, indi isə açılan qaşlarını, gülümsər gözlərini görəndə sevincim həddən aşdı və özumü təbiətin azad ağuşunda, o göylər diyarında – vətəndə hiss etdim.

Mən bu sevincin səbəbini soruşanda, o mənə dedi ki, *"bir nəfər slovenli ilə tanış olmuşam. Özü dükanda işləyir, adı da Aleksandrdır. Mən bel bağlayıb ona sirr açdım, o mənə dedi ki, səhər yanıma gəl, hər şey düzələr"*.

Bu zaman almanlar yerli əhaliyə də çox əziyyət verirdilər. Ona görə də yerli əhalinin çoxu partizanlar sırasında idi. Yerdə qalanlar isə partizanlarla əlaqə saxlayırdı.

Biz səhərin açılmasını səbrsizliklə gözlədik. Səhər Mehdi Aleksandrın yanına getdi ki, məsələni onunla möhkəm həll etsin. Aleksandr ona demişdi ki, partizanlarla danışar. Onlar bizim necə qaçmağımız haqqında lazımi tədbir görərlər. Həmin günün səhəri yenidən xəbər gətirdi ki, partizanlar deyirlər, qoy qaçmasınlar, indi orada olan qərargahların və hərbi hissələrin, qoşun mövqelərinin sxemini çəksinlər və bizə göndərsinlər, bundan başqa bəzi obyektlərin dağıdılması üçün bizimlə əlaqədə olsunlar. Biz buna razı olduq. Bu sxemin çəkilməsi mənə tapşırıldı.

İşi qurtardıqdan sonra biz dözə bilməyib yenidən Aleksandra müraciət etdik. O, bizə xəbər gətirdi ki, partizanların dediyi kimi hərəkət edək.

Bizim qaçmağımızdan bir neçə həftə əvvəl yoldaşlarımızı qruplara böldük. Hər qrup 7-8 nəfərdən ibarət idi, onlara rəhbərlik edənlər: Mikayıl Qulubəyov, Şamil Bayramov, Sabir Aslanov, Şamil Süleymanov, Firudin Hüseynov və başqaları idi.

Mehdi, Əsəd Qurbanov və mən gündüz saat 12 radələrində Aleksandrın və Anjelikanın köməyi ilə alman hərbi libası geydik və şəhərdən çıxıb partizan dəstəsinə qoşulduq. İvan Qradinko adına III Zərbə briqadasının partizanlarının bizi necə qarşıladıqlarını danışmağa dil acizdir. Biz gələn kimi çoxlu məktub yazdıq və təşkil etdiyimiz qrupların rəhbərlərinə Anjelika vasitəsi ilə göndərdik. Məktublar vaxtında çatdırılmışdı. Xülasə, bizimkilərdən 50 nəfərə yaxını gəlib dəstəyə qoşuldu. Nəhayət, biz III Zərbə briqadasının nəzdində birinci rus rotası halında birləşdirildik. Məni həmin rotanın komandiri, Mehdini isə rotanın siyasi rəhbəri təyin etdilər. Bir ay yarım bu vəzifəni icra edən Mehdi bir gün mənə dedi: "Qarasaqqal əmioğlu, mən fikrimi dəyişmişəm, sən və mən sovet zabitləriyik, biz öz vətəndaşlıq və sovet zabitliyi vəzifəsini yerinə yetirməklə almanların axıtdıqları qana qarşı çoxlu qan axıdıb intiqam almalıyıq. Mən bu vəzifədə o intiqamları gec ala bilərəm. Mən öz əziz atamın və Bakının adını göylərə qaldırmaq istəyirəm. Əgər sadəcə partizan olsam, geri - Vətənə qayıdanda mənə *"bu əsir olub",*

deyənlər çox olacaqdır. Bu deyilən sözləri eşidəndə başımı aşağı tutmamaq üçün ürəyimi sakitləndirən intiqam almaq istəyirəm, o da ki, mənim ayrı-ayrı əməlyyatlara getməyimdən ibarət olacaq. Möhtərəm Qarasaqqal əmioğlu, qarşıma qoyduğum bu planı yerinə yetirdikdən sonra sağ-salamat vətənə qayıdaramsa, vətən və onun oğul-qızları, qocaman Xəzər məni öz əziz və mehriban övladı kimi qarşılayar, mən isə öz qohumlarımın və gənclik yoldaşlarımın yanında başı yuxarı, üzü ağ olmaqla əziz atamın həqiqi oğlu olmuş olaram. Əgər qayıtmaramsa, yəni taleyin acı rüzgarı qayığımı bu yad ellərdə müdhiş qayalara vurub məni Adria dənizinin köpüklənən ləpələri arasına atıb, məqsəd və arzularımla bərabər qərq edərsə, onda da dostlarım və Vətənim bu çəkdiyim əməyi qiymətləndirər və adımızı Azərbaycan tarixinin bir səhifəsində qeyd edər. Gələcək nəsl isə tarixin şanlı səhifəsində Mehdi adını eşitdikdə, Bakıya hörmət və ehtiram edər".

O, mənə öz fikrini açıq-aydın danışdı və həmin gündən almanlara qarşı öz əfsanəvi qəhrəmanlığını göstərməyə başladı.

Solda Mehdi Hüseynzadə və Cavad Həkimli. 1944-cü il

O bəzi xırda əməliyyatlardan başqa aşağıda göstərilən iri əməliyyatları yerinə yetirmişdir:

1. Opçinada böyük bir yüksək voltlu elektrik transformatorunu təkbaşına partlatmışdır.

2. Triyest şəhərindəki zabitlər restoranını təkbaşına dağıtmaq fikrinə düşür. Buranı dağıtmaq üçün böyük bir qüvvə lazım idi. Ancaq Mehdi heç bir qüvvə olmadan, alman zabiti libasında gedib restoranı partlatdı, buradakı zabitlərin çoxu məhv oldu, qalanı isə yaralandı. Bu əməliyyat almanları lərzəyə saldı.

Bu gündən sonra Mehdi *"Mixaylo"* adı ilə Sloveniya əhalisi və alman əsgərləri arasında məşhur oldu. Onun başı üçün 40 min lirə mükafat təyin olundu.

3. Cəsur *"Mixaylo"* Opçinadakı 270 nəfər tutan alman kinoteatrını partlatdı. İki rota əsgəri təşkil edən belə bir itkini hərbi hissə böyük vuruşmalarda çox çətin verir, ona görə almanlar bundan daha böyük dəhşətə düşdülər. Alman komandanlığı bu dəfə *"Mixaylo"*nun başı üçün 300 min lirə mükafat təyin etdi, lakin bu mükafat da heç kəsə qismət olmadı.

4. Triyest şəhərində faşist qəzeti *"İl Pikkolo"* redaksiyasını və mətbəəsini partlatdı. Həmin redaksiyanın mətbəəsində *"Mixaylo"* adı qəzet və vərəqlərdə çox çap olunub buraxılmışdı.

5. Triyest şəhərinin Viafortina küçəsində almanlar üçün təşkil olunmuş iki fahişəxana da Mehdinin əlləri ilə partladılmışdır. Bu dəfə 70-80 nəfər alman əsgər və zabiti burada həmişəlik qalmışdır.

6. Triyest şəhərində almanların hərbi qarajı 25 avtomaşınla bərabər Mehdinin əli ilə yandırılıb külə döndərilmişdir. Almanlar son vaxtlar hətta dükanlara getməyə qorxurdular. Nəhayət, *"Mixaylo"*nun başı üçün 400 min lirə mükafat təyin olundu, amma bu da heç bir nəticə vermədi. Gözə görünməyən qüvvə öz partlayışlarını sakit və üsulluca davam etdirirdi.

7. Mehdi Triyest şəhərində alman hərbi xəstəxanasını partlatdı.

8. Qoritsiya şəhərində bir binada yerləşmiş hərbi alman topoqrafiya qrupunun bütün arxivini, xəritə və cihazlarını maşına yükləyib 4 yoldaşının köməkliyi ilə qaçırtmışdır. Həmin sənədləri bir kəndə gətirib oradan isə 9-cu Korpusun qərargahına təhvil vermişdir.

Onlara tutulan bu divandan sonra almanların onu necə axtarması məlumdur... Artıq onlar onun tutula biləcəyinə çətin inanırdılar. Almanlar *"Mixaylo"* adı ilə məşhur olan bu qəhrəmanı təsəvvür edə bilmirdilər; onlara elə gəlirdi ki, *"Mixaylo"* böyük bir dəstədir, buna da nəhəng gövdəli bir adam başçılıq edir. Ancaq onlar səhv edirdilər. Mehdi adi və sadə bir insan idi.

Mehdinin qəhrəmanlığı onun ürəyindəki vətən məhəbbətindən doğurdu. O həmişə deyərdi: *"Doğma vətən, Xəzər, dünyanın nəzər-diqqətini özündə" cəmləndirən Bakı, mən sənə sədaqətliyəm, ilhamımı səndən almışam, sən Qızıl Moskva ilə yüksəldiyin kimi, mən səni daha da yüksəldəcəyimə, axıra qədər sənə sədaqətli olacağıma və sənin yolunda canımdan belə keçəcəyimə and içirəm".*

9. Sezana kəndində onu kəndli libasında, gestapo mayoru Şultsun dəstəsi tutur. Mehdi özünü rəssam kimi qələmə verir, özünü elə fağıryana aparır ki, ondan heç kəs heç şey baş açmır. Nəhayət 15 gün orada qaldıqdan sonra, bir gecə alman dəstəsinin partizanları axtarmağa getməsindən istifadə edib, öz gözətçisi olan bir alman yefreytorunu öldürmüş, barakdakı tüfəngləri aparıb qum altında basdırmış və barakları yandırıb qaçmışdır.

10. Qoritsiya şəhərindən bir maşın hərbi ləvazimat qaçırtmışdır.

11. Triyestdə almanların "SS qərargahı yerləşən binanın bir tinini mina ilə partlatmışdır.

12. Qoritsiya şəhərində İtaliya katolik bankının sahibi Valeriano Brumatı öldürüb milyondan artıq pul aparmışdır.

Bütün bunlardan başqa Mehdi onlarla başqa xırda əməliyyatları da yerinə yetirmişdir.

Mehdi Hüseynzadə ilə mən bir neçə dəfə şəklimizi bərabər çəkdirmişdik. Biz öz ünvanımızı bir-birimizə vermişdik. Ünvanları şəkillərin arxasına qeyd etmişdik.

Bir gün Mehdi yenə də növbəti döyüş tapşırığını yerinə yetirib qayıdarkən almanların mühasirəsinə düşür, uzun müddət atışmadan sonra düşmənə təslim olmaq istəməyən rəşadətli dostumuz öz gülləsilə özünü öldürür.

Mehdinin ölümü partizanlar üçün olduqca böyük və ağır itki idi. Bu xəbər həm bizim, həm də Sloveniya xalqının ürəyinə böyük bir dağ çəkdi. Heç kəs bu ölməz qəhrəmanın əbədi olaraq gözlərini yumduğuna inanmırdı. Gecə Şamil Bayramovun komandanlığı altında 17 nəfər gedib Mehdinin meyitini alman gözətçisinin gözü qabağından qaçırıb gətirdi. O gün bizim batalyon Çepovani kəndində idi. Mikayıl Qulubəyov o zaman bizim batalyonda həkim işləyirdi. Mikayıl ilə mən Mehdinin meyitini su ilə yuduq, sifətini spirtlə təmizlədik və yaşıl paraşütə büküb, gözəl bir tabuta qoyduq. Həmin gün nəinki partizanlar və yerli əhali, hətta təbiət də qan ağlayırdı. Kənddən heç bir səs eşidilmirdi. Bir sözlə, hər tərəf sükuta qərq olmuşdu. Sloveniya qadınları da öz ana və bacısından uzaq yerdə ölən bu qəhrəman üçün ağlayırdılar.

Sağdan 3-cü keçmiş partizan Qədir İsgəndərov, 4-cü Mikayıl Qulubəyov (Gəncəli), 5-ci Rza Orucov və başqaları. 1975-ci il, Yuqoslaviya

Səhəri gün hər yerdən Mehdi ilə vidalaşmağa gəlmişdilər. Birinci sözü mənə verdilər, çünki məni onun qohumu kimi tanıyırdılar. Mən onun kim olması və qəhrəmanlığı haqda danışdım, sonra isə IX Korpusun nümayəndəsi, briqada komandiri, daha sonra Qulubəyov və başqaları danışdılar.

Qəbrin baş daşında onun adını, familiyasını və *"Mixaylo"* təxəllüsünü öz əlimlə yazdım. Almanlar dəfn olunanın "Mixaylo olduğunu yəqin etmək üçün iki gündən sonra bir batalyon əsgərlə onun qəbri üstünə gəldilər. Başdaşına qırmızı parça dolamışdıq, onu cırıb atdılar, lakin qəbrə toxunmadılar.

1947-ci ildə mən Krasnovodska gəldim. Mən mərhum qardaşımla bağladığım əhd-peymanı yerinə yetirməli idim. Buna görə də onun böyük bacısı Bikəxanıma bir təsəlli məktubu yazıb göndərdim.

Bakıya gəlib Mehdinin evinə getdim. Məni öz qardaşları kimi qarşıladılar. Mən əhvalatı ətraflı olaraq danışdım. Əlbəttə, elə bir xəbər kimin evinə gəlsə idi, yas keçirməli idi. Mən evə çatmamış Bikəxanımın barəsində çox düşünürdüm ki, görəsən bacısı da qəhrəmanın özü kimidir, ya yox. Bikəxanımla görüşdükdən sonra yəqin etdim ki, bacısı öz qardaşından geri qalmazdır.

Həmişə Mehdidən söhbət düşəndə mən onun qəhrəmanlıqlarından danışıram. Bəziləri eşitdiklərinə inanmaq istəmirlər. Onlar haqlıdırlar; doğrudan da Mehdinin qəhrəmanlığı əfsanəvi bir rəşadətdir.

Qoy odlar yurdunun gələcək nəsli özünün cavanşirləri, babəkləri, koroğluları, nəbiləri, aslanovları və mehdiləri ilə fəxr etsin. Onlar da öz ölkələrinə hücum edən xain düşmənə qarşı amansız olsun və qəhrəman adı alsınlar. Odlar yurdu Azərbycanın adını yüksəklərə qaldırsınlar.

Cavad Həkimli
Mehdi Hüseynzadə ilə birlikdə
Yuqoslaviya-İtaliya hərəkatının iştirakçısı,
Lori nahiyəsinin Ləmbəli kənd sakini

O HƏM DƏ ŞAİR İDİ

"Mixaylo" – bu ad qəhrəmanlıq və vətənpərvərlik simvoludur, bu ad nə qədər məğrur və əzəmətlidir.

Mehdinin əfsanəvi qəhrəmanlığından başqa, onun şairlik istedadı da məlumdur. Onun şeirlərindən bəziləri mənim *"Partizan gündəliyi"*mdə yazılmışdır.

Adriatik dənizinin şimal sahilləri, dəniz kənarı, Sloveniya. Bu yerlər nə qədər gözəl və nə qədər səfalıdır; sahil qoynunda yerləşən Triyest və onun sahilboyu şəhərləri–Karkolo, Manfalkono, Muggio, Kontovello, Villa Opçina gözəllik timsalıdır. Yüksək dağlarla əhatə olunmuş bu şəhərlər gecə ay işığından və Adria sularının pıçıldaşan ləpələrindən sanki zövq alır. 1943-cü ilin ağır noyabr günləri... Faşist əsir düşərgəsində aclıq, xəstəlik, zülm hökm sürürdü. Mehdi dermatit ilə xəstələndi. Mehdinin xəstəliyinin başqalarına sirayət etməməsi üçün onu bizdən ayırıb – Avstriyanın Şimali Tirol əyalətinin Prats şəhər xəstəxanasına göndərdilər.

Xəstəxanadan yazıb mənə göndərdiyi *"A dost"* şeirində Mehdinin misilsiz vətənpərvərliyi və onun şairlik məharəti özünü göstərir:

Ömrüm kam almayıb çatmadı başa,
Könlümün şüşəsi dəyibdir daşa.
Bir namə yazmadım yara, yoldaşa,
Xəzan yarpağı tək solğunam, a dost!

"Qürbətzadə" (Mehdinin təxəllüsü belə idi),
18 noyabr 1943, Prats şəhəri

Mehdi bir müddət sonra xəstəxanadan qayıtdı. Günlər, aylar keçdikdən sonra nəhayət tale, bizə də fürsət açdı.

Mehdi, Cavad Həkimov, Ağarza Ağayev, Firudin Hüseynov və mən bir qrup azərbaycanlı yoldaşlarla faşist əsir düşərgəsindən qaçıb partizanlara qoşulduq, bu gündən etibarən biz

daha sərbəst insanlar cərgəsinə daxil olduq; bu gündən etibarən Mehdi faşistlər ilə hesablaşmağa başladı...

Heç yadımdan çıxmaz. 1944-cü ilin sentyabr ayında sovet partizan batalyonu Vipava deyilən faşist düşərgəsini darmadağın etdikdən sonra Predmeya kəndində dincəlirdi. Mən xəstələri qəbul edərək partizanların paltarlarını dezinfeksiya etməklə məşğul idim. Birdən qapı açıldı, Mehdi göründü. O, məni bu sözlərlə salamladı:

"Əziz dostuma salamlar olsun,
Bu dünya durduqca o da var olsun!".

Mən ona cavab verib dedim:

–Mehdi! Əzizim, əyləş, necəsən, yenə vücudun dönüb kimyaya, görünmürsən. Heç demirsən dostlarım haradadırlar...

Mehdi yanıma gəlib oturdu və mənə belə cavab verdi:

– Axır zamanlar başım çox qarışıqdır, sırağagün Triyestdə *"İl Pikkolo"* faşist qəzeti redaksiyasını partlatdım, bu gün bir faşist zabitini diri tutub IX Korpusun qərargahına gətirdim, oradan da sizi görmək üçün buraya gəlmişəm. Necəsiniz, Həkimov necədir, Ağayev necədir? Eşitdim Vipavada qələbə qazanmısınız; Firudin Hüseynovun həmin vuruşmalarda həlak olduğu doğrudurmu?

–Doğrudur, – deyə cavab verdim. –Firudin hayıf oldu, Holla kəndində özüm dəfn etmişəm; hələ ondan başqa 4 nəfər ölən, 8 nəfər yaralanan oldu... Nə edəsən, qələbə qurbansız başa gəlmir.

Mehdi mənə:

– İşini qurtar, gedək bir az çal, mən də oxumaq istəyirəm,– dedi, –Vətən yenə də yadıma düşüb, Bakıdan ötrü elə darıxıram ki... Axırı xeyir olsun, yaman pis yuxular görürəm...

Söhbətin şirin yerində Cavad Həkimov gəldi. Dostlar görüşüb-öpüşdülər, sonra üçlükdə dincəlib bir xeyli söhbət etdilər. Cavad şair Məmməd Rahimin *"Ay qız"* şeirini oxudu:

“Dilin qənd, dodağın məzədir, məzə,
Görüm gül camalın gəlməsin gözə!
Sən bir yeyilməli balsan təptəzə,
Mən sənin qaymağın olaydım, ay qız”.

– Dayan!–deyə Mehdi onun sözünü kəsdi,– buradaca saxla, mən indi həmin beyti belə oxuyacağam.

“Dilin qənddən şirin, dodağın şəkər,
Sən tək yarı olan möhnətin çəkər.
Beretkanı gözün üstə qoymusan,
Bu nə nazdı, yoxsa məndən doymusan...”.

Mehdi bu nəğməni artist Möhsün Sənani kimi incə bir yumor və məlahətlə oxudu... Dostlar yeyib-içib keçmişləri yada saldılar... Həkimov Mehdiyə müraciətlə dedi:

Keçmiş döyüşçü-polkovnik Anatoli Dyaçenko Yuqoslaviyalı partizanlar ilə Mehdi Hüseynzadənin məzarı üstündə

– Mehdi, özünü çox oda-alova vurursan. *"Mixaylo"* adı Sloveniyada və Yuqoslaviyada dillərdə dolaşır. Sən bəzən öz canına qəsd edir, ölümlə oynayırsan... Doğrusu, biz sənin üçün çox qorxuruq! Mümkün qədər ehtiyatlı ol. Axı, biz sənlə birlikdə sağ-salamat Vətənə qayıtmaq istəyirik. Mehdi burada Həkimovun sözünü kəsib: - Əziz dostlarım, –dedi, –mənim istəyim budur ki, Vətənə üzüağ dönək! Mən əlimdən gələni edəcəyəm... Əgər sağ qalsam, xalqım qarşısında üzüağ gəzərəm... Əgər bu yolda həlak olsam... onda qoy Vətən mənim yüksək əməllərimi özü qiymətləndirsin. Siz dostlar isə mənim uzaq ellərdəki işlərimin şahidi olarsınız. Cumanın gözəl bir şeirini yadınıza salıram:

İsmi pünhan, niyə məndən küsmüsən?
Dost mehriban ya bir olar, ya iki!
Bir gün ölsəm, hamı deyər hayıfdır,
Canı yanan ya bir olar, ya iki...".

...Mehdi öz yüksək əməlləri yolunda həlak oldu. Ona ürəyi yanan nə bir oldu, nə də iki, ona partizan yoldaşlarının, bütün Sloveniya xalqının ürəyi yandı. Azərbaycan xalqının qəhrəman oğlu Mehdi Hüseynzadənin uzaq ellərdə yazdığı vətənpərvər şeirləri həm özünü, həm cəbhə yoldaşlarını mübarizəyə çağırırdı. O, öz şeirlərinin birində yazırdı:

Kaş ki, mən bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni;
Aşaraq o qarlı, uca dağları,
Vətən torpağına salaydı məni....

Bu sətirlərdə nə qədər yüksək vətənpərvərlik duyğuları, nə qədər incə lirika vardır!

Mehdinin şairlik istedadı bunlarla bitməyir. O, partizanlıqda ikən daha bir çox başqa şeirlər yazmışdır. Bu şeirləri onun dostları öz cib dəftərlərində yazıb yadigar saxlamışlar.

Onun *"Vətən"*, *"Dunay"*, *"Adria sahillərində"* və başqa şeirləri çox təəssüf ki, dostlarının xatirindən çıxmış, ağır partizanlıq illərində itib-batmışdır.

Onun *"Vətən"* şeirinin birinci bəndi mənim hələ də xatirimdən çıxmayıb:

Süd verib qoynunda bəslədin məni,
Mən sənin gözünə qurbanam, Vətən!
Qoymaram incidə yad ellər səni,
Bil ki, etibarlı oğlunam, Vətən!.

Mehdi *"Adria sahillərində"* şeirində Adriatik dənizi ilə öz Xəzər dənizini müqayisə edir. Onun füsunkar gözəlliyini təsvir etdikdə deyir ki, Adria nə qədər gözəl olsa da, yenə onun Xəzərinə çatmaz! Villa Opçinadan gecə ay işığında Adria sularına baxıb şövqə gələn şair, öz doğma Bakısının Dağüstü parkından gecə ay işığında Dənizkənarı bulvarda tamaşa edəkən aldığı zövqü ondan üstün tutur.

Qürbət ellərdə, öz doğma Vətənindən uzaqlarda yazılmış həmin şeirlər Mehdinin misilsiz qəhrəmanlıq və yüksək vətənpərvərliyinin parlaq təcəssümüdür.

Qoy gənclərimiz bilsinlər ki, Vətən uğrunda, yüksək insani əməllər uğrunda, gələcək xoşbəxt həyat uğrunda, sülh uğrunda düşmənlə vuruşub öz gənc həyatını qurban verən Mehdi Hüseynzadə kimi cəsur oğullarımız olmuşdur.

Qoy *"Mixaylo"*nun ölməz əməlləri gənclərimizi vətənpərvərlik ideaları uğrunda daha da fədakar, daha da mübariz olmağa ruhlandırsın!

Mikayıl Qulubəyov,
keçmiş Yuqoslaviya-Sovet
partizan batalyonunun həkimi

BİZ ONUNLA FƏXR EDİRİK[4]

Cəsur döyuş dostum Mehdi Hüseynzadə ilə 1943-cu ilin payızında Nohember qəsəbəsindəki əsir düşərgəsində tanış oldum. O, əsgərlər arasında gizli təbliğat aparırdı. Partizanlığa qaçmaq üçün sınanılmış adamlarla söhbət edirdi.

Noyabrın ortasında Mehdinin köməkliyi ilə şamaxılı Mustafa Zahidov, ermənistanlı Mürsəl Məmmədov, gürcüstanlı İsmayıl İsmayılov, Ənvər Məmmədov və mən əsirlikdən qaçdıq. Biz Yuqoslaviya Xalq Azadlıq Ordusunun IX korpusunun, on səkkizinci *"Soçka-Bozavişko"* zərbə briqadasının üçüncu batalyonuna daxil olduq. O vaxtlar Qızıl Ordunun müvəffəqiyyətli hücumunu az da olsa eşidən faşistlər lap quduzlaşmışdılar. Ona görə də bizə kömək edən yerli əhalini də çox incidirdilər. Yerli əhalidən də partizanlıq edənlər çox idi. Biz Yuqoslaviyanın Qabaredo qəsəbəsinə gəlib onlara qoşulduq.

1943-cu ilin martında Tolmin dəmiryolu körpüsünü partladanda mən yaralandım. İyirmi gün müalicə olunub sağalandan sonra məni ağır silahların rota komandiri təyin etdilər.

Bir dəfə yeni tapşırıq uçün məni qərargaha çağırmışdılar. Mehdi ilə burda görüşdüm. O, artıq *"Mixaylo"* adı ilə hər yerdə məşhur idi, faşistlərin canına lərzə salmışdı.

Tapşırığı alandan sonra kənara çəkilib, iki eloğlu xeyli söhbət etdik. *"Qədir, – dedi, –mən indi 17-ci briqadanın 31-ci diviziyasında xidmət edirəm. Səndən xahiş edirəm, uşaqları qoru, özündən də muğayat ol. Bir az da dözün, qardaşlar, qara ləläşin bu frislərə bir qan uddursun ki, heç vaxt yadlarından çıxmasın"*.

Mehdi yaxşı yoldaş, qayğıkeş və mehriban dost idi. Onun şöhrəti artıq bütün partizan birləşmələrində yayılmışdı. Amma o elə sadə, elə səmimi idi ki, heç deməzdin ki, faşistlərin qənimi bu qarayanız, suyuşirin oğlandır. Görü-nür, qəhrəmanlar elə anadan sadə doğulurlar. Onun düşmənə endirdiyi zər-

4. ***Bu xatirənin müəllifi Qədir İsgəndərov "Partizan Aleksandr" təxəllüsü ilə keçmiş Yuqoslaviya-Sovet partizan batalyonunda Mehdi Hüseynzadə ilə birgə fəaliyyət göstərmişdir.***

bələrin sayı – hesabı yox idi. Biz onunla fəxr edirdik. Bəzən onu tərifləyəndə boynunu bükür heç də lovğalanmadan *"borcumuzdur"* – deyib şirin-şirin gülümsünərdi.

Keçmiş döyüşçü-Qədir İskəndərov
Mehdi Hüseynzadənin məzarı üstündə

Biz ayrıldıq. Az sonra Mehdi IX Korpusun nəzdində kəşfiyyat komandiri təyin olundu. Burda o daha məsul və qorxulu tapşırıqları yerinə yetirirdi. Elə bu vaxtlar igid və qorxmaz dostumuz Mixaylo Triyest şəhərindəki faşist hərbi xəstəxanasını partlatdı. Opçinadakı 270 nəfərlik kinoteatrı yerlə-yeksan etdi. Qoritsiya şəhərindən bir maşın hərbi ləvazimatı qaçırtdı. Faşistlərə tutulan bu divandan sonra onların Mixaylonu necə axtarmasını təsəvvür eləmək çətindir. Onlara elə gəlirdi ki, Mixaylo böyük və yenilməz bir dəstədir. Qorxuya düşən faşistlər əvvəlcə Mixaylonun başı üçün qırx min lirə qiymət qoydular, az sonra bu rəqəm dörd yüz min lirəyə çatdısa da heç bir nəticə vermədi.

Mən müharibədən sonra iki dəfə əziz və qəhrəman silah dostum Mehdi Hüseynzadənin məzarını uzaq Yuqoslaviyada ziyarət etmişəm.

Sonuncu dəfə 1975-ci ildə Yuqoslaviya Müharibə Veteranları komitəsinin dəvətilə Çepovani kəndində oldum. Hər dəfə də məzarı gül-çiçək içində görmüşəm. Mehdinin dəfn

Mehdi Hüseynzadə alman geyimində İtaliyada (1944)

olunduğu yerdən xeyli aralı məktəb var. Məktəbin direktoru dedi ki, hər səhər uşaqlar sinfə girməzdən əvvəl Mehdinin məzarı üstə gedir, bir dəstə çiçək qoyub sonra sinfə gəlirlər. Dərsdən əvvəl müəllim Mixaylonun qəhrəmanlığından bir epizod mütləq söyləyir, sonra dərsə başlayır. Çepovani kəndinin əhalisi qəbiristanlıqda muzey düzəldiblər. Mehdi haqqında burda zəngin məlumat var. El Oğullarımız Cavad Həkimli, Əsəd Qurbanov, Şamil Üryanov, Firudin Hüseynov, Ənvər Məmmədov, Şamil Süleymanov və başqalarının döyüş yolu haqqında muzeydə zəngin məlumat var.

Yuqoslaviyada olanda mənə bir kitab bağışladılar: *"Bozovişko briqada"*. Bu kitabda bizim tərkibində vuruşduğumuz IX Korpusun əsgərləri haqqında, xüsusilə, Mehdi Hüseynzadə haqqında maraqlı yazılar və nadir fotoşəkillər verilib.

Qorxmaz döyüş dostumuz Mehdi Hüseynzadənin –Mixaylonun adı indi bütün azadlıqsevər xalqlar üçün sönməz, parlaq ulduza çevrilib.

Doğrudan da qeyri-adi qəhrəman olan Mixaylo kəhkəşanda sönməz ulduz idi...

Qoritsiyanın iyirmi üç kilometrliyində yerləşən Çepovani kəndi indi hər bir azərbaycanlı üçün, sovet adamları üçün əziz və doğma olduğu kimi sloveniyalılar üçün də müqəddəsdir. Axı, orada xalqımızın igid oğlu, əfsanəvi qəhrəman Mehdi Hüseynzadə əbədiyyətə qovuşub.

Qədir İsgəndərov,
keçmiş partizan

MEHDİNİN DÖYÜŞDÜYÜ YERLƏRİ GƏZDİM

Xəritədə Yuqoslaviyanın Sloven dənizi sahillərinə, mənzərəli Triyestə maraqla baxıram. Bura İstriyadır. Əfsanəvi bir diyar. Nələr yoxdur bu diyarda! Dağları çox uca olmasa da, sıldırım qayalıdır. Palıd və fıstıq meşələri, palmaları, coşğun çayları, yığcam yaşayış məntəqələri, rahat yolları adamın gözünü oxşayır. Burada çoxlu fabrik, zavod, mədəni və tarixi abidələr, sanatoriyalar, istirahət bazaları vardır. İnsan əlinin zəhməti olan səliqə-səhmanlı tarlalar, zəmilər, bağlar, üzümlüklər diqqəti cəlb edir; qırmızı kirəmitli evlər, imarətlər necə də gözəldir! Və bir də Adriatik dənizi. Mavi sularında saysız-hesabsız gəmilər və yelkənli qayıqlar üzən, qızıl çimərlikləri ruha sığal çəkən, qədim mayakları dillərdə əzbər olan bir dəniz! Yuqoslaviyalılar bu dənizi böyük məhəbbətlə *"Yadran dənizi"* adlandırırlar.

Bəli, Triyest Yuqoslaviyanın işarə və rəmzlərlə dolu alabəzək xəritəsində xüsusi yer tutur. Və bu xəritədə İstriyanın zirvəsi təsiri bağışlayır. Halbuki bu zirvə İtaliyaya məxsusdur. Ancaq İstriyanın iri bir ürək şəklini xatırladan əsas, daha doğrusu geniş ərazisi Yuqoslaviyanındır, 1946-cı ildə çağırılmış Paris Sülh konfransında ABŞ və İngiltərənin havadarlığı sayəsində Triyest və İstriyanın bütün qərb sahili İtaliyaya verilirdi. Lakin həmin konfransda Sovet İttifaqının qəti mövqeyi əsas rol oynadı və Triyestə bilavasitə yaxın olan kiçik bir zonanı çıxmaq şərtilə bütün İstriya Yuqoslaviyaya birləşdirildi.

Nə üçün bu yerlər diqqətimi belə çox cəlb edir? Ona görə ki, hazırda gülzara dönmüş bu cənnət-məkan diyarda bir zaman, yəni İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqının cəsur oğlu, Sovet İttifaqının igid vətəndaşı Mehdi Hüseynzadə Yuqoslaviya, italyan partizanları ilə çiyin-çiyinə verərək alman və italyan faşistləri ilə döyüşmüşdür. Elə bu yerlərdə də qəhrəmancasına həlak olmuşdur. Amansız düşmənə qarşı fövqəladə rəşadətinə görə 1957-ci il aprelin 11-də ona ölümündən sonra ən yüksək ad - Sovet İttifaqı



СОВЕТ
ИТТИФАГЫ ГӘҺРӘМАНЫ

ҺҮСЕЈНЗАДӘ
МЕҺДИ ҺӘНИФӘ ОҒЛУ

Лејтенант. Комсомолчу. Әфсанәви партизан. Кәшфијјатчы. 1918-чи илдә Бакы шәһәриндә анадан олмушдур. 1932-чи илдә Азәрбајҹан Дөвләт Рәссамлыг Мәктәбинә дахил олмушдур.

М. Һүсејнзадә 1942-чи илдә Сталинград әтрафындакы вурушмаларда фашистләр тәрәфиндән әсир алынмыш, бир дәстә һәрби әсирлә бирликдә дүшәркәдән гачыб доггузунҹу Југославија—Италија партизанлары корпусуна гошулмушдур.

...«Михајло»нун башчылыг етдији хүсуси кәшфијјатчылар дәстәси дүшмәни горху вә ваһимәјә салмышды. Тәһлүкәјә мәһәл гојмајан икид партизан каһ алман забити формасында, каһ да јохсул кәндли либасында Адриатик дәнизи саһилләриндә шәһәр вә кәндләри кәзир, партизанлара лазым олан зәрури мә'луматлары топлајыр, тәхрибатчылыг әмәлијјаты апарыр, фашист ишғалчыларына һәр јердә мүмкүн олан һәр шејлә зијан вурурду. Онун дәстәси Тријестдә һитлерчиләрин ашханасыны, бензинлә долу анбарыны партлатмыш, Удин шәһәриндә (Шимали Италија) 700 нәфәр јерли вәтәнпәрвәр вә совет әскәрини газаматдан азад етмишдир.

ССРИ Али Совети Рәјасәт Һеј'әтинин 1957-чи ил 11 апрел тарихли Фәрманы илә алман-фашист ишғалчыларына гаршы мүбаризәдә көстәрдији гәһрәманлығына көрә М. Һ. Һүсејнзадәјә өлүмүндән сонра Совет Иттифагы Гәһрәманы ады верилмишдир.

Mehdi Hüseynzadə

Qəhrəmanı adı verildi. Xalqımızın bu igid oğlu burada böyük döyüş ehtiramla dəfn olundu. Onun adı Yuqoslaviyanın, İtaliya və Sovet İttifaqının bir sıra enskiklopediyalarına və məlumat kitablarına əbədi həkk olunmuşdur. Mehdi Yuqoslaviyada və İtaliyada harada vuruşmuşdusa, o yerlərdə hələ də onu yaxşı tanıyırlar, özü də Mixaylo adı ilə. Bu igid döyuşçünün partizan ləqəbi idi.

Mən Mehdinin döyüşdüyu bütün yerləri dolaşmışam. Əvvəlcə Yuqoslaviyanın Sloven sahillərində, sonra da İtaliyanın Triyest şəhərində və digər yaşayış məntəqələrində oldum. Səfər bir neçə həftə çəkdi və bu müddət ərzində Mehdinin yaxından tanıyan, faşist işğalçılarına və zülmkarlarına qarşı onunla bir yerdə döyüşən, son tikəsini bölüşən adamlarla görüşdüm. Bu adamlar yaşca, vəzifəcə bir-birindən fərqlənsələr də, bir məsələdə hamının fikri eyni idi. Hamı yalnız bunu deyirdi: Mehdi cavandı, igiddi, qəhrəman idi, öz vətənini böyük məhəbbətlə sevirdi.

Qəzetlərin birində verilmiş balaca, kibrit qutusu boyda şəklinə baxıram və onu şəxsən tanıyan, tez-tez görən adamların

dediklərinə əsasən Mehdini təsəvvürümdə canlandırmağa çalışıram. Aydın cizgili, gözəl və açıq sifəti gözümün önündə durur: alnı geniş, burnu düz, qaşları hilal, gözləri iri və qara, ağzı kiçik, bığları nazik, çənəsi möhkəm... Orta boylu, tökmə bədənli bir cavan. Siması mədəni, baxışları sərtdir. Və bu sərt baxışlarda dönməz iradəsi, insanlara məhəbbəti, böyük həyat sevgisi açıq-aşkar sezilir.

Görəsən, sağ qalsaydı nə sənət sahibi olardı? Ürəyi nə istəsəydi! Təbiət ona çox şey bəxş etmişdi və belə bir sərvətin sahibi inşaatçı, neftçi və mühəndis də ola bilərdi. Alim, rəssam və şair də ola bilərdi. Milyonlarla digər sovet adamı kimi onun da qarşısında bütün yollar açıq idi: zəhmət çək, qur-yarat, axtar-tap və irəli get!

Lakin dünyanın başının üstünü qara buludlar almışdı. Quduz Hitler artıq minlərlə tank, təyyarə və toplardan ibarət ordusunu sovet sərhədlərinə yaxın çəkmişdi və bu ölüm saçan silahları bizim dinc şəhər və kəndlərimizə göndərməyə hazır idi. Kim bilirdi bunun axırı necə olacaqdı?! Və günlərin bir günü dinc həyatımıza son qoyuldu.

Mehdi hələ çox cavan idi. Onun məhəbbətli günləri, sevgi çağları qabaqda idi və bu xoşbəxt həyatdan məhrum olan təkcə Mehdi deyildi, bu yaşda olanların demək olar ki, hamısı vətəni müdafiəyə qalxdı. İndi amansız düşmənlə ölüm-dirim döyüşü vaxtı idi. Ana vətən yalnız bunu tələb edirdi. Mehdi sağ qalsaydı indi yetmiş birinci baharına qədəm qoymuşdu. Qafqaz adamı üçün bu yaş hələ tam qocalıq çağı deyil. Səksən, doxsan və yüz ildən çox yaşayanlar var ki, özünü çox gümrah hiss edir. Bəli, Mehdi sağ olsaydı indi el arasında böyük hörməti var idi. Nəvə-nəticələri başına yığışar və el ağsaqqalı özünün xoşbəxt qocalığını yaşayardı. Mehdi Bakıda doğulub boya-başa çatıb. Uca imarətləri, geniş və yaraşıqlı küçələri, iri meydanları olan böyük bir şəhərdə. Daha doğrusu, bu şəhərin şimal tərəfində. Köhnə dostum Leonid Tahirov bir vaxt *"Pravda"* qəzetində bu barədə yazmışdır. Müəllif göstərir ki, şəhərin bu hissəsində küçələr darısqal olsa da, açıq yerlər çoxdur və orada həmişə külək-

lər cövlan edir. Hər kəsin uşaqlıq dövrü ömrünün bəxtəvər çağıdır və yəqin ki, Mehdi də bu bəxtəvər çağında yaşıdları ilə doyunca futbol oynamış, uzun qış gecələrində nənəsinin nağıllarına qulaq asmış, xalqının hikmətlərini əxz etmişdir.

Mehdi Hüseynzadə Tibilisi hərbi məktəbində oxuyarkən

Sonralar rəssamlıq məktəbinə daxil oldu. Səfalı Abşeronun ürəyinə yatan kəndlərini dolaşıb şəkillər çəkməyə başladı, ədəbi yaradıcılığa meyl etdi, sevimli şairlərdən Füzulinin, Vaqifin, Vurğunun, həmçinin Puşkin, Lermontov, Yesenin və başqalarının əsərləri ilə tanış oldu. Özü də arabir şeir yazırdı və tam inanırdı ki, gec-tez bu yolun yolçusu olacaq. Doğma ata ocağında indi də göz bəbəyi kimi qorunan rəsm əsərlərinin altındakı misralar bu fikrimizə canlı sübutdur.

Belə çıxırdı ki, həyat öz qapılarını cavan istedad qarşısında geniş açmışdır. - Bu, həqiqətən belə idi. Mehdi çalışırdı ki, ali savad alsın. Bu məqsədlə o, 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil oldu. İnadla alman dilini öyrənməyə başladı. Sanki ürəyinə dammışdı ki, bu dil haçansa ona gərək olacaq... Müharibə odu alışanda onu Tbilisiyə – hərbi piyada məktəbinə göndərdilər və Mehdi həmin məktəbdə bu dili daha dərindən öyrəndi. Elə orada da Lenin partiyasının üzvü oldu.

Mehdi hərbi məktəbi bitirdi və 1942-ci ilin iyununda 24 yaşlı leytenantı Stalinqrad cəbhəsinə göndərdilər. O indi minomyot vzvodunun komandiri idi. Hissəyə – ön cəbhəyə

yola düşməzdən əvvəl o, üçüncü məktubda valideynlərinə yazmışdı: *"Məndən arxayın olun, sizin adınızı batırmaram"*.

Hitlerin Sovet İttifaqı ilə başladığı qanlı müharibə Mehdini hərbçi elədi. Rəngi, fırçanı, etüd ləvazimatını yığışdırmaq lazım gəldi. Şair qəlbinin misraları da yarımçıq qaldı. Alman dilini bilməyi də ona lazım oldu. - Tezliklə Mehdi hərbi tərcüməçi işləməyə başladı! Həmin ilin avqustunda Kalaç ətrafında döyüş meydanında yaralandı. Bütün bədənini sızladan yaraların ağrısından ayılanda isə başı üstündə əli avtomatlı, siçan rəngli şinel geyinmiş faşist əsgərlərini gördü. Faşist ağzını əyib *"Hende xox!"* deyəndə Mehdi düşmənə əsir düşdüyünu anladı.

Yaralananlar çox idi. Onların üçü çətinliklə də olsa Mehdini ayağa qaldırdı. Ayaq üstə güclə durdu. Yaralı qolundan və ayağından qan axırdı. Başı firlanır, gözü qaranlıq çalırdı. Almanlar əsirləri piyada cəbhə arxasına göndərdilər. Yaralıların taleyi daha müəmmalı oldu. Mehdigili arabaya yığanda onları qospitala apardıqlarını bildirmişdilər. Əslində isə onları xarabazara çevrilmiş bir dəmiryol stansiyasına gətirmiş, yük vaqonlarına ataraq naməlum istiqamətə yollamışdılar. Onlara nə çörək, nə su vermiş, nə də tibbi yardım göstərmişdilər. Yaralılar təmiz havaya da həsrət qalmışdılar, belə ki, vaqonun pəncərələri bağlanmışdı, açmaq isə qorxulu idi – faşistlər xəbərdarlıq etmədən güllə atırdılar. Mehdinin əzablı yollarla uzun səyahəti belə başladı. Bu ilk, çoxgünlük səyahətin yolu sonradan məlum olduğu kimi, Polşanın hərbi düşərgələrindən birinə gedirdi.

Sonra faşistlər Mehdini Avstriyaya göndərdilər, ordan da Almaniyaya, ölkədən-ölkəyə, düşərgədən-düşərgəyə köçürülən Mehdi nəhayət gəlib Yuqoslaviyaya, İtaliyanın lap sərhəddində yerləşən Triyest rayonuna çıxdı. Bütün hərbi düşərgələrdə o da minlərlə başqa sovet adamları kimi məhdudiyyətlər və əzablar məngənəsində əzilmişdi. Aclıq, soyuq, doyülmə, alçaldılma – faşist düşərgələrində adi hal sayılırdı. Lakin bütün bunlar sovet vətəndaşlarının döyüşkən

ruhunu sarsıda bilməmişdi. O arıq bədənində heyrət doğuracaq döyüşkən bir ruh var idi. Yuyulmaqdan rəngi getmiş qızıl əsgər forması arıq çiyinlərindən sallanıb qalırdı. Dostları dəfələrlə bu şineli köhnə də olsa möhkəm, geyməli alman gödəkcəsi, şalvarı ilə dəyişməyi ona məsləhət görmüşdülər. Mehdi isə iyrəndiyini bildirib, bu təklifi rədd etmişdi. Ancaq zaman öz işini görürdü: günlərin birində əynindəki qızıl əsgər forması sökülüb dağıldı, geyilməlisi qalmadı və Mehdi də taleyin gərdişi ilə barışmalı olub, təklif edilən palтarı geyindi.

Yaraları azca üzə gələn kimi Mehdi qaçmaq barədə düşünməyə başladı. Artilleriya diviziyasında qulluq eləmiş bir neçə adam da ona qoşulub, yuqoslav partizanları tərəfə keçmək arzusunda olduqlarını bildirdilər. Bütün çətinliklərə baxmayaraq Hüseynzadə burada – Slovenada yerli əhali ilə, sonra isə onların vasitəçiliyi ilə yuqoslav partizanları ilə əlaqə yarada bildi. Tezliklə Mehdi əqidə dostları ilə cürətli bir işə girişdi. Qaçış uğurla nəticələndi. Doqquzuncu Yuqoslav partizan korpusu qərargahına çatanda o: *"Mən Sovet İttifaqının vətəndaşıyam"* – deyib əynindəki cırıq-sökük alman formasını soyunub yerə tulladı: *"Bu geyim mənə yaraşmır!"*

Bu yerdə qoy zaman bir müddətə dayansın. Hadisələrin sonrakı gedişinə qısa bir izahat verək. SSRİ Ali Soveti Rəyasət Heyətinin Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsi barədə fərmanını oxuyanda mən başa düşdüm ki, bu qəhrəman barədə yazmalıyam. Mən – bir qədər əvvəl "Pravdanın hərbi müxbiri, Sovet Ordusunun sıralarında Moskvadan Berlinəcən döyüş yolu keçmiş, faşist Almaniyasının təslim olması barədə 1945-ci il may ayının 9-da Karlsxorst şəhərində tarixi aktın imzalanması mərasimində iştirak eləyən bir qələm əhli–mütləq Mehdi barədə öz kitabımı yazmalıyam. Mövzu əlimə göydən düşmüşdü. Üstəlik də mənim bəxtimdən elə həmin vaxt *"Pravda"*nın daimi müxbiri sifətiylə bir neçə illiyə Yuqoslaviyaya göndərilməyim barədə təklif aldım. Əlbəttə

ki, mən məmnuniyyətlə razılaşıb təcili surətdə bu məsul ezamiyyətə hazırlaşmağa başladım. Gah müəllimlərin köməyi ilə, gah da müstəqil surətdə serb və italyan dillərini öyrənməyə girişdim. Bundan başqa müxtəlif materiallar, arayışlar, sənədlər, qəzet və jurnallardan kəsilmiş yazılar, fotoşəkillər, tarixi kitablar toplamağa başladım.

Gələcək qəhrəmanımın tərcümeyi-halına zərrə qədər dəxli olan hər şeyi məni dərindən maraqlandırırdı. Heç nəyi artırıb-əksiltmədən faktlara əsaslanaraq öyrənə bildiklərim əsasında onun haqqında hər şeyı demək, Mehdinin daxili aləmini oxuculara açmaq istəyirdim. İş planımı bir neçə hissəyə bölmüşdüm: müharibədən qabaqkı dinclik illəri, cəbhə və əsirlik, almanların arxasında aparılan mübarizə və nəhayət, vətəndən uzaqlarda qəhrəmancasına ölüm.

O vaxt mən *"Pravda"*nın sosialist ölkələri şöbəsi üzrə redaktor müavini işləyirdim və təəssüf ki, həmin ezamiyyətə planlaşdırdığım kimi tezliklə yola düşə bilmədim. Yuqoslaviyaya yalnız 1959-cu ilin payızında gedə bildim. Səfər qabağı Mehdi barədə materiallar üzərində aparacağım işi fikirləşirdim. Əvvəlcə imkan daxilində Yuqoslaviyada Mehdinin döyüşdüyü bütün yerləri və məntəqələri, o cümlədən şəhid olduğu yeri ziyarət edərəm, sonra isə İtali-yaya yola düşüb, oraları gəzərəm. Və əlbəttə ki, hər iki ölkədə partizanlarla hadisələrin şahidi olmuş başqa vətəndaşlarla görüşüb söhbətlər aparmaq da maraqsız deyildi. Belə də etdim. Yuqoslaviyaya gələn kimi, vaxt itirmədən materiallar toplamağa başladım. Əlbət ki, taleyin gərdişi ilə Sloven sahillərinə atılmış və orada faşistlərə qarşı qəhrəmancasına vuruşmuş bütün sovet partizanlarının rəşadətini təkcə Mehdinin ayağına yazmaq ədalətsizlik olardı.

İndi biz artıq sovet döyüşçülərini yuqoslav xalqlarının alman və italyan faşizminə qarşı azadlıq mübarizəsində iştirakı barədə çox şey bilirik. Yuqoslaviya Xalq Azadlıq Ordusunun tərkibində 6 min nəfərdən çox sovet əsgəri və zabiti vuruşmuşdu. Say etibarilə ən böyük qrup Yuqoslaviyanın Qərbində Slovena ərazisində uğurla fəaliyyət göstərmişdi.

Bu qrup Birinci Rus Zərbə briqadası adlanırdı və tərkibi 800 nəfərdən çox idi.

Briqadaya A. Dyaçenko komandanlıq edirdi. 9-cu Yuqoslav partizan korpusunun qərargahı alman işğalçılarına qarşı mübarizədə sovet partizanlarının rolunu yüksək qiymətləndirirdi. 1954-cü il 22 may tarixli hesabatda qə-rargah rəhbərliyi yazırdı. "...Rus döyüşçüləri ən çətin bir şəraitdə üç dəfə 9-cu korpusu xilas etmişlər". Başqa bir sübut: Briqadanın 256 döyüşçüsü Yuqoslaviyanın orden və medalları ilə təltif olunmuşdu. Əlbəttə ki, öz təkrar olunmaz şücaətləri ilə hamıdan seçilən Mixaylo bütün briqadanın gözü idi. O, Triyest rayonunda 20-dən artıq nəhəng diversiya həyata keçirmişdi. Mehdinin hər bir şücaətində onun xarakteri, hər hansı şəraitdə özünəməx-sus səciyyəvi cizgiləri aydın müşahidə olunur. Mehdi kiçik qrupla, çox vaxt da təkbaşına fəaliyyət göstərirdi. Bir qayda olaraq müvəffəqiyyət qazanırdı. Bununla məşhur Nikolay Kuznetsovu xatırladan Mehdi onun təkrarı sayılmamalıdır. Hüseynzadə özlüyündə heç kimdən az məşhur sima deyildi. Hesablamalara görə Mehdi öz döyüş qrupu ilə Sloven sahillərində 10 ay fəaliyyət göstərmişdi. Onun qrupuna İvan Tsar, Adam Zorak, Saşka adlı rus və alman Frits daxil idilər. Nisbətən az müddətdə Mehdigil çox sayda hər biri geniş təsvir edilməyə layiq qeyriadi dərəcədə cəsarətli böyük əməliyyatlar keçirmişlər. Çox sevindirici bir haldır ki, bu izlər soyumamış Azərbaycanda iki görkəmli yazıçı – İmran Qasımov və Həsən Seyidbəyli dərin mündəricəli "Uzaq sahillərdə" povestini yazmış və sonralar həmin əsər əsasında eyni adlı bədii film çəkilmişdir. Təəssüflər olsun ki, Mehdi gündəlik yazmamışdır. Bunu başa düşmək də asandır – elə vaxt deyildi ki, o, əlinə qələm alsın. Daim düşmənə zərbə endirmək lazım gəlirdi. Buna görə də Hüseynzadənin döyüş fəaliyyətinin xronikasını əksər hallarda onu düşünüb uğurla başa çatdırdığı əməliyyatlarda iştirak edən adamların yaddaşına əsasən qurmaq mümkündür. Onun hərbi planlarında ağıl, hazırcavablıq, cəsarət və özünə nəzarət

aydın sezilir. Əlbəttə ki, alman dilini əla bilməsi də onun işində böyük əhəmiyyət daşıyırdı. Dil məsələsində Mehdiyə batmaq mümkün deyildi – ana dilindən də yaxşı bildiyi rus, alman dillərindən başqa sloven dilini də mənimsəmişdi, hətta italyanca da başa düşürdü.

Hüseynzadə və dostlarının vuruşduğu yerlər barədə danışmaq da vacibdir. Adriatik dənizinin sahillərində yerləşən Triyest İtaliyanın yalnız iri liman şəhəri deyil, həm də böyük sənaye mərkəzlərindən sayılır. Burada iri faşist hərbi hissələri, komendatura yerləşirdi. Məhz bu şəhər, hər şeydən əvvəl, Mehdinin nəzərlərini daim cəlb edirdi. O öz əsas şücaətlərini də məhz burada göstərmişdi. Triyestin ətraflarında yerləşən, miqyasca kiçik olsa da, böyük iqtisadi və hərbi əhəmiyyət kəsb eləyən Qoritsa, Novo-Qoritsa, Udine kimi şəhərlər, Sejanu, Vipavu, Lokve, Aydovşinu kimi kəndlər də Mehdinin nəzər-diqqətindən yayınmamışdı. Əhalinin dediyinə görə, meyvə bağları və üzümlüklərin yaşıllığına qərq olan bu yerləri çox xoşlarmış. Bu yerlərin nikbin ruhlu meşəqıranlarını, düşmənə təslim olmayan, şənxasiyyət, ürəyitəmiz kəndli və sənətkarlarını qəlbən sevərmiş. Bəlkə də bu yerlərin təbiəti ona doğma Qafqazı xatırladırmış. Bu yerlərdə qərarlaşmış sabit həyat tərzinə rəğbət bəsləyən Mehdi yonulmuş daşdan qabiliyyətlə tikilmiş ikimərtəbəli evlərə baxanda Abşeron kəndlərinin yada salarmış. Belə mənzillərdə, adətən, dəmir çərçivə vurulmuş pəncərələri olan aşağı qatda yemək otağı, mətbəx, əlyeri, yuxarıda isə istirahət və yataq otaqları yerləşir. Həyətdəki tikililər də evlə bir damın altındadır. Çardaq şəkilli üzüm tənəkləri həyətə xüsusi yaraşıq verir.

Bir-birinin yaxınlığında yerləşən kəndlərin, qəsəbələrin, şəhərcik və şəhərlərin, başqa yaşayış məntəqələrinin sıxlığı partizanların xeyrinə idi: buralarda az qala həmişə düşmənin cəza dəstələrindən gizlənmək üçün etibarlı yerlər tapmaq olardı. Bir-birinə dolaşan cığırlar, əksəriyyəti daş və ya asfalt döşənmiş yolların rahatlığı isə faşistlərə qüvvələrini bir

rayondan o birinə atmağa, manevr eləməyə imkan verirdi. Buna görə də partizanlar daim döyüş hazırlığına malik olmalı, sayıqlığı itirməməli, fasiləsiz kəşfiyyat aparmalı idilər. Bunu da nəzərdən qaçırmaq olmaz ki, Aralıq dənizinin həlim, isti havası da partizanların döyüş fəaliyyətinə çox kömək edirdi. Bu yerlərdə qışda belə hər hansı tikilidə, lap çardaq altında gecələmək olar, uzaqbaşı bir tonqalın qırağında yata bilərsən. Ancaq ən əsası odur ki, yerli əhalinin əksəriyyəti faşistlərə nifrət bəsləyir, partizanlara isə mümkün daxilində köməklik göstərirdilər: ərzaqla, paltarla, nəqliyyatla, daş kömürlə, işlərinə yaramaqla, heç nələri olmayanda bircə xoş söz, gülər üzlə...

Az bir vaxtda Sloven sahillərini gəzib dolaşdım. Partizan məntəqələrinin əksəriyyətində oldum, şəxsən Mehdini, yoldaşlarını görən çoxlu adamlarla görüşdüm. Bloknotlarım tadricən sənədli materiallarla dolurdu. Mən artıq Mehdini nəinki tanımış, başa düşmüş, hətta sevməyə başlamışdım. Aşağıda səfərlərim zamanı topladığım xatirələrin ən maraqlı yerlərini nəzərinizə çatdırmağa çalışacağam. İrəlicədən bildirmək istəyirəm və yazdıqlarımı eynən Mixaylonun dostlarına söylədiyi şəkildə təqdim edirəm...

Mehdinin ilk qəti addımlarının izahını verən qeydlərimdən başlayıram.

– 44-cü ilin baharı idi, – deyə 31-ci Yuqoslav-İtalyan birləşmiş partizan diviziyasının komandiri, polkovnik Duşan Şvara xatirələrinə başladı, – patrullar qərargaha, mənim yanıma üç sovet döyüşçüsü gətirdilər. Huseynzadə də onların arasında idi. Döyüşçülər yırtıq-sökük alman paltarı geymişdilər, arıqlamış, üzlərini tük basmışdı. Mehdi dedi ki, Qızıl Ordunun leytenantıdır, Stalinqrad uğrunda döyüşlərdə yaralanıb, əsir düşüb. Hitlerçilərin bir neçə həbs düşərgəsindən, o cümlədən, İstriyadan keçib. Yaxşı maşın sürə bilir. Bildirdi ki, faşistlərə qarşı partizanlarla birlikdə vuruşmaq istəyir. Sizin yanınıza da buna görə gəlmişəm. İstəyirəm sizə bir artilleriya divizionu bağışlayım. Bunu haçan və harda eləmək

olar? *"Nə divizion?"*– deyə soruşdum. Cavabı belə oldu: *"Bizim bir neçə minomyotumuz və iki pulemyotumuz var"*. Mən Hüseynzadə ilə belə şərtləşdim: *"İki yoldaşınızı girov qoyub gedin, bütün divizionunuzu gətirin, baxaq"*. Əmr etdim ki, ona təzə alman ober-ley-tenantı forması geydirsinlər. İki, ya üç gündən sonra Mehdi yenidən qərargaha gəlib üzr istədi: "Hitlerçilər, görünür, nədənsə duyuq düşüblər, divizionu Riyekə aparıblar. Yoldaş polkovnik, xahiş edirəm, icazə verin hələlik tək-başına hərəkət eləyim. Mən Triyesti yaxşı tanıyıram, orada diversiya ilə məşğul olacağam. Ancaq mümkünsə, mənə beş kiloqram partladıcı verin. Bir qədər fikirləşib razılıq versəm də, ciddi surətdə ona xəbərdarlıq etdim ki, tapşırığı yerinə yetirməsə, yoldaşları güllələnəcək. Bir neçə gün sonra Hüseynzadə Triyestin mərkəzində əsgər və zabitlərlə dolu kinoteatrı partlatdı. Qayıdanbaş danışırdı: *"Zala girib dolu çamadanı gizlincə stulun altına qoydum. Şübhə doğurmamaq üçün bir qədər oturmaq istədim. Elə bu vaxt içəri bir general girdi. Mən yerimdən sıçrayıb, nəzakətlə öz yerimi ona təklif etdim. General razı halda əyləşdi, mən isə hiss edilmədən aradan çıxdım. Bir saat sonra mən artıq maşına əyləşib Vitovl kəndi yaxınlığına çatanda şəhərdə qulaqbatırıcı partlayış olduğunu eşitdim."*

Triyestdəki kinoteatrın partladılması ilə əlaqədar faşist komendaturası *"İl Pikkolo"* qəzetinin 23 aprel 1944-cü il nömrəsində "Alman döyüşçülərinə müraciət" dərc etmişdi: *"Dünən, şənbə günü kommunist ünsürlər Triyestdəki "əsgər klubu"nu" (hitlerçi generallar kinoteatrı belə adlandırırdılar - Ş.N.) partlatmış və bunun nəticəsində bir neçə alman əsgəri və bir neçə italyan mülki vətəndaşı (faşist komendaturası məhv edilənlərin dəqiq sayını göstərməyə utanmışdı – red.) ölmüşdür"*.

Müraciətin başqa bir yerində deyilirdi: *"Partizanlara yaxın olan çoxlu şübhəli şəxslər həbs olunmuşdur. Hərbi-səhra məhkəməsi 51 nəfərə ölüm cəzası kəsmişdir. Cəza təcili şəkildə həyata keçirilmişdir"*. Bax belə, "bir neçə al-

man əsgəri"-nin əvəzinə 51 nəfər günahsız yerli sakini güllələmişdilər. Məlumdur ki, faşist cəlladlarının vəhşiliyi hüdud bilmirdi.

-Və mən Hüseynzadəyə daha 5 kiloqram partlayıcı maddə verirəm. – polkovnik Şvara sözünə davam edir, – sabahısı o, Triyest yaxınlığındakı aerodromda iki təyyarənin külünü göyə sovurur. Bundan sonra hər şey qabaqcadan hazırlanmış ssenariyə uyğunmuş kimi gedir – yenə beş kiloqram partlayıcı və Nabrejan stansiyasında Triyest-Riyeka qatarının esesçilərlə dolu iki vaqonu külə dönür. Korpus qərargahından təcili sorğu alıram: "Sizinkilərdən Triyestdə belə igidlik göstərən kimdir?" Cavab verirəm: "Mehdi Hüseynzadə". "O kimdir elə?" – soruşurlar. Lazımi qaydada ətraflı məlumat verirəm: "Alman düşərgəsindən bu yaxınlarda qaçmış sovet leytenantıdır, milliyyətcə azərbaycanlıdır, həddən artıq cəsur bir adamdır". Əmr verilir: "Yoxlayın!". Ancaq mən də balqabaq deyiləm, artıq Triyestdəki adamlarımın vasitəsilə dəfələrlə yoxlamışam, hər şey dəqiqdir. Hər ehtimala qarşı bir də yoxlayıram, sonra hesabat verirəm: "Özüdür ki, var – Hüseynzadənin işləridir".

Doqquzuncu yuqoslav partizan korpusunun komandiri olmuş polkovnik Duşan Kvederin dediklərindən bunlar məlum oldu:

–Mixaylonun elə ilk doyüş əməliyyatları hamıda belə bir aydın təsəvvür yaratdı ki, partizanlar arasında qeyriadi dərəcədə hünərvər və dözümlü, fövqəladə bacarığa və cəldliyə malik olan bir adam peyda olmuşdur. Əsl kəşfiyyatçı belə ola bilərdi. Düşmənin arxasında, bəzən isə onun gözünün qabağında belə diversiyalar düzəltməkdən ötrü hər şeydən əvvəl rəqibin düşərgəsindəki şəraiti, qarşıya qoyulan məqsədə çatmağın üsul və yollarını dərindən öyrənmək, zərbə endirəcəyin vaxtı dəqiq müəyyənləşdirmək tələb olunurdu. Belə işdə hissiyyata qapılıb arxayınlaşmaq olmaz. Burada çox şeyi irəlicədən aparılmış dəqiq kəşfiyyat həll edir. Hüseynzadə isə bu mənada klassik kəşfiyyatçı idi. Mən

onun döyüş əməliyyatları barədə eşidəndə, etiraf edim ki, əvvəlcə inanmadım, yoxlama keçirmək lazım gəldi. Hər şey deyilənləri sübut etdi!"

Sözarası onu da qeyd edək ki, Mehdinin cəsarətinə, fövqəladə igidlik və şüçaətlərinə partizan korpusunda sovet hərbi missiyasının rəisi podpolkovnik İvan Rıbaçenko da əvvəlcə inanmamışdı. Sonra isə buna şəxsən əmin olmuş və öz nöqteyi-nəzərinin yanlışlığını etiraf etmişdi.

Mehdinin izinə düşüb getdikcə mən yuqoslav partizan korpus və diviziyalarının sənədlərində – operativ bildirişlərdə, məlumat və hesabatlarda Hüseynzadənin və onun döyüş qrupunun igidlikləri barədə yeni-yeni faktlarla üzləşirdim. Heç nəyi nəzərdən qaçırmamağa çalışaraq maraqdoğuran hər şeyi bloknotuma qeyd edirdim. Bu qeydlərin sənədliliyinə və imkan daxilində maraqlılığına çalışır, daha səciyyəvi cizgilərə çox fikir verirdim. *Sonralar Mehdi daha çox gecələr fəaliyyət göstərirdi. Triyestdəki faşist komandanlığı onun başına iri məbləğdə – on min lirə pul kəsmiş, qəzetlərdə Mehdinin şəkilləri, haqqında qısa, lakin ətraflı və dəqiq arayış dərc edilmişdi. Mehdi isə bütün bunlara baxmayaraq düşmənə yaxşı düşünülmüş və dəf edilməyən zərbələr endirirdi. Hər bir əlverişli məqamdan istifadə edir, ancaq heç vaxt qara-sına işləmirdi. Bir dəfə Qoritsa şəhərində iri bir alman benzin anbarına mina qoyub partlatmış, üç həftə sonra isə həmin şəhər də başqa bir yanacaq anbarını yandırmışdı. Nəhayət, 9-cu yuqoslav korpusunda bütün bu işlərin Hüseynzadə və onun yoldaşları tərəfindən görüldüyünə inanmış və onu köməkçiləri ilə birlikdə korpusun döyüş qrupuna keçirmişlər. Tezliklə Mehdi "İl Pikkolo" qəzetinin Triyestdə yerləşən redaksiya və mətbəəsini uzun müddətə sıradan çıxara bildi. Qəzetin həcmi kiçik olsa da faşizmin, faşistlərin tərifi üzrə ixtisaslaşmış, Qızıl Ordunun cəbhələrdəki uğurlarını gözdən salmaqla Sovet İttifaqının ön və arxa cəbhələri arasında düşmənə qarşı mübarizə aparan qardaş sovet xalqları arasında nifaq salmaqla, bu birliyi və dostluğu pozmağa çalışmaqla*

məşğul olurdu. Mehdi bu qəzetə nifrət edirdi. Çünki uzaq Adriatik dənizi sahillərində o özünü Rusiyanın, Ukrayna və Belorusiyanın yamaclarında Hitler hərbi maşınını laxladan böyük və əzəmətli sovet xalqının bir nümayəndəsi hesab edirdi.

Qədim Sloven sahillərinə olan hər səfərimdən sonra bloknotlarım yeni-yeni faktlarla dolurdu. Düşünürdüm: görəsən Mehdi bu yerləri gəzərkən şeir yazırdımı? Yox, müharibə dövrünün tamam başqa tələbləri vardı. Şeir vaxtı deyildi. Ancaq Mehdi yaradıcılıq həvəsi qanına, iliyinə işləmiş nadir şəxsiyyətlərdən idi. Şeir yazmasa da qısa istirahət saatlarında o, şəkil çəkmək məmnuniyyətindən vaz keçə bilmirdi. Hərçənd ki, faşistlər tərəfindən soyulub talanmış, işgal edilmiş bu yerlərdə rəng, fırça, kaqız, ya da karton tapmağın nə əzabla başa gəldiyi oxucuya aydın olmalıdır. Hər halda Mehdi bunları tapır və döyüş əməliyyatları arasında boş vaxt olan kimi fırçasını əlinə alırdı. Deyə bilmərəm ki, Lyublyanda İnqilab Tarixi Muzeyində partizan rəssamlarının akvarellə, yaxud yağlı boya ilə çəkdikləri yüzlərlə rəsm əsərinin içərisində onun işləri varmı? Təəssüf ki, şəkillərin əksəriyyətinə imza qoyulmayıb. Təbii ki rəsmlərin çoxusunda partizanların döyüş səhnələri təsvir olunur, tək-tək əsərlərdə isə uzaq əmin-amanlıq illərinin xatirəsi kimi peyzajlar canlandırılır. Bilmirəm nə vaxtsa mənim gördüyüm bu rəsmlərin arasından Mehdinin çəkdiklərini ayırmaq mümkün olacaqmı? Ola bilər...

Dəftərçələrimdən yeni epizodlar köçürürəm. Bir dəfə Mehdi Qoritsada olarkən dəyirmanın yanında alman əsgərlərinin ağzınacan buğda unu ilə doldurduqları bir yük maşını görür. Sürücü ağlına heç nə gətirməyib sənədlərini qaydaya salmaq üçün gedəndə Mixaylo bir göz qırpımında sükan arxasına keçir və az sonra o, yüklənmiş maşını partizanlara gətirir. Bir dəfə isə yenə həmin şəhərin düz ortasında yerləşən sallaqxanada almanların əlindən 20 ton mal ətini qənimət almışdı. Alman forması geymiş Mehdi və Tsar qarovulçuları silahsızlaşdırmış və əti maşınlara yükləməyə məcbur etmiş,

sonra isə vaxt itirmədən maşını dağlara sürmüşdülər. Bir müddət sonra sallaqxana gözətçiləri maşının arxasınça götürülmüşdülər. Lakin yağışın başlanması ilə partizanların izi yuyulmuşdu.

Noyabrın 2-də Mehdi növbəti döyüş əməliyyatını yerinə yetirməyə getdi. Dostları və köməkçiləri Adam Zoran, İvan Tsar, Boqdan Qoryan, Jara Dorçek də onunla birlikdə idilər. Partizanların qarşısına düşmənin iri silah anbarını partlatmaq vəzifəsi qoyulmuşdu. Onlar tapşırığı müvəffəqiyyətlə yerinə yetirib, əməliyyatdan razı halda korpus qərargahına qayıdırdılar. Gecə onları yaxşı tanıdıqları Vitovl kəndində yaxaladı. Aylı bir gecə idi. Heç gündüz də bəzən belə olmur. Məsləhət oldu ki, kənddə gecələsinlər. Partizanların çoxdankı dostu Aloiz Marinçiçin həyətində tayalıqda rahatlandılar. Gecə yarısı faşistlər hiss etdirmədən evi mühasirəyə alıb tayalığı atəşə tutdular. Güllə yağışının altında Mehdi və dostları cəldliklə həyətə sıçradılar və avtomatlardan cavab atəşi açdılar. Qızğın atışma başlandı. Hüseynzadənin iki ehtiyat qumbarası vardı. Hündür boylu alman zabiti güllə ataraq onun üzərinə atılanda qumbaraların birini tullamışdı. Bir vaxt Mehdi gördü ki, iki iri cüssəli alman Adam Zoranı yerə yıxıb. Qollarını burub hara isə aparmaq istəyirlər. Avtomatın diskində güllə qurtarmışdı, tapançasında isə cəmi 3 güllə qalırdı: ikisini Hüseynzadə bir faşist zabitinin cəmdəyinə sıxdı.

Sonuncu gülləni Mehdi özü üçün saxlamağı qərarlaşdırmışdı. Qonşu evin tinində atəş bir anlığa dayanan kimi Mehdi ora cumdu. Elə bunu gözləyirmiş kimi avtomatın növbəti güllələri onun bədəninə dolmağa başladı. O dayana bilməyib yerə çökdüsə də avtomatı əlindən buraxmadı.

Vitovl camaatı onu səhər tezdən tapdılar. O, böyrü üstə, öz qanının içində uzanmışdı. Elə bil ayağa durub təzədən döyüşə atılmaq istəyirdi. Faşistlər onun bədənini güllə ilə deşik-deşik etmişdilər.

Üç gündən sonra partizanlar faşistləri Vitovldan qovub çıxardılar. Mehdini yerli qəbiristanlıqda, kilsədən azca

uzaqda hərbi şərəfətlə dəfn etdilər. Dəfn mərasiminə ətraf kəndlərdən yüzlərlə adam yığışıb gəlmişdi. Bir neçə vida nitqi söyləndi, yüz avtomat və tüfəngdən yaylım atəşi açıldı. Məzarın üzərinə vurulan göstəricidə qəhrəmanın adı, familyası, anadan olduğu il və yer yazılmışdı. Lakin partizanlar öz döyüş yoldaşlarının burada dəfn olunması ilə razılaşmır, hələ o vaxt Şempas kəndinin yerli hökuməti qarşısında Hüseynzadənin məzarını Çepovani adlanan yerə köçürmək barədə məsələ qaldırırlar. Bu kənd Novo Qoritsa şəhərinin yaxınlığında avtomobil magistralının kənarında yerləşdiyindən həmişə adamların gur olduğu bir məkan idi.

Bir qədər irəli qaçıram. Təəssüf ki, bu məsələ yalnız on altı ildən sonra həll olundu. Ləngimənin əsas səbəbi bu idi ki, Çepovanidə xatirə partizan qəbiristanlığının salınması barədə Lyublin heykəltəraşlarının əlində uzun müddət nə konsepsiya, nə də lazımi materiallar olmayıb. 1960-cı il iyul ayının əvvəllərində memorialın açılışı oldu. Bu dəfə də Çepovanidə iynə atsan yerə düşməzdi. Elə təkcə partizanlar beş yüz nəfərəcən idilər. Bu dəfə də vida nitqləri deyildi. Yaylım atəşlər açıldı. Xatirə qəbristanlığı kəndin düz ortasında yerləşir. Hüseynzadənin məzarı sağ tərəfdə, başqa dostlarının məzarının yanındadır. Üzərində beşgüşəli qırmızı ulduz obeliski ucalır. Qəbrin üstündəki dəmir lövhədə yazılmışdır:

Burda
yoldaş Mehdi Hüseynzadə (Mixaylo)
dəfn olunmuşdur.
Anadan olmuşdur: 22.XII. 1918
Bakı şəhəri.
Qəhrəmanlıqla həlak olmuşdur:
2.X1.1944. Vipav.[5]

5. Vipav darəsi bir neçə kəndi, o cümlədən, Mehdinin (Mixaylonun) həlak olduğu Vitovl kəndini də özündə birləşdirir.

Məşhur qəhrəmanın, hamının sevimlisi Mehdi Hüseynzadənin ölümü bütün yuqoslav, italyan və sovet partizanlarının, həmçininn Sloven əhalisinin ürəyini ağrıtmaya bilməzdi. Doğrudur, həmin günlərdə yerli sakinlərdən heç kəs məlum səbəblərə görə qara bayraqlar qaldırmağa çəsarət etmədi: faşist hökuməti hər yerdə cəza və patrul dəstələrinin fəaliyyətini, rabitə, istehsal və s. obyektlərin qorunmasını gücləndirmişdi. Bütün bunlara baxmayaraq, bir çox partizanlar və yerli sakinlər təhlükədən qorxmayıb, pencəklərinin, gödəkçələrinin, gimnastyorkalarının, donlarının qoluna qara sarğılar bağlamışdılar. Vitovl qadınları üstəlik yerli ruhanidən Mehdinin ruhuna dua etməsini xahiş eləmişdilər.

Mehdinin xatirəsinə partizan mətbuatı da səmimi yanaşmışdı. Qəzetlərin bir çoxu Hüseynzadəyə həsr olunmuş məqalələr dərc etmişdi, nekroloqlar vermişdi. Səyyar mətbəədə çap edilən *"Partizan gündəliyi"* qəzetinə baxıram. Yəqin ki, Mehdi bu qəzeti az oxumamışdı. 24 noyabr tarixli nömrəsində – Mehdinin ölümündən 23 gün sonra onun yuqoslav və italyan partizan hərəkatındakı xidmətlərini yüksək qiymətləndirən geniş məqalə verilmişdir. Məqalədə qısa tərcümeyi-hal göstəricisindən sonra Mehdinin Sloven sahillərində göstərdiyi əsas şücaətlərdən danışılır.

O da maraqlıdır ki, məqalədə Mehdinin igidlik nümunələrinin sayı mənə məlum olandan çox göstərilir. Bu yazı qəhrəmanın döyüş fəaliyyəti barədə təsəvvürlərimi bir çox yeni faktlar hesabına zənginləşdirir. Qoy olsun, bunların hamısı Mehdinin qəhrəmanlıqla dolu tərcümeyi-halının yeni səhifələridir. Bu diqqətəlayiq məqalənin üslubu, qeyd etməliyəm ki, o qədər də parlaq və cilalı deyil. Görünür, bu məqalə tələsik, döyüşlər arasında boş vaxtlarda yazılıb, müəllifin mətni cilalamağa, sadəcə, macalı olmayıb. Təəssüf ki, tərcümə də yüksək səviyyədə deyildir. Ancaq bütün qüsurları ilə birlikdə bu məqalə böyük təsir gücünə malik bir sənəd səciyyəsi daşıyır.

Məqalə belə adlanır: *"Qəhrəman Mixaylo həlak olmuşdur!"*, Epiqraf kimi XIX əsrin görkəmli Yuqoslav şairi, Çer-

niqoriyanın tanınmış dövlət xadimi və Rusiyanın böyük dostu P. P. Neqoşanın bu məşhur misraları gətirilmişdir:

Kim əbədi yaşayırsa, ona eşq olsun!
Demək, boş yerə gəlməyib dünyaya...

Məqaləni paruçik Mitar Rançeviç imzalamışdır. Onun mətnini heç bir dəyişiklik etmədən, redaktəsiz, düzəlişsiz, sığalsız-cilasız olduğu kimi təqdim edirəm. Məqalədə deyilir: "Noyabrın ikisində yoldaş Mehdi Hüseynzadə – Mi-xaylo qəhrəmancasına həlak olmuşdur. Yoldaş Mixaylo milliyyətcə azərbaycanlı idi. O, 1919-cu ilin yanvarında Bakıda anadan olmuşdur (Qəzetdə belə getmişdir –Ş.N.). 1942-ci ildə Stalinqrad ətrafındakı döyüşlərdə almanlar tərəfindən Sovet Ordusunun zabiti kimi əsir alınmışdır. 1944-cü ilin fevralında bizim ordumuza keçmişdir. Bundan sonra o, çoxlu döyuş əməliyyatlarında iştirak etmiş, kəşfiyyatçı olmuş, alman ordusunda qulluq göstərən rus hərbi əsirləri arasında təbliğat aparmış, hər yerdə özünü cəsur bir döyüşçu kimi göstərmişdir.

Yuqoslaviya Xalq Azadlıq Ordusu sıralarında kəşfiyyatçı kimi mübarizə apardığı bütün dövrdə hər hansı şəraitdə vəziyyətdən baş açа bilmiş, heç kimin bacarmadığı yerlərdə belə lazımi məlumatı əldə etmişdir. Düşmənə qarşı müxtəlif müqavimət aksiyalarının gedişində özünü işinin əsl ustası kimi göstərmişdir. Onun üçün mümkün olmayan heç nə yox idi. Təbliğatçı kimi olduqca kəsərli, döyüşçü kimi dözümlü, sadə, gördüyü işə ürəkdən bağlı, yenilməz idi.

Mixaylo faşist ordusunun öz doğma yurdunda meydan suladığını görmək istəməyən bir vətənpərvər idi. İmkan tapan kimi Yuqoslaviya Xalq Azadlıq Ordusuna qoşulmuş, bütün gücünü və bacarığını bu hərəkata vermişdi. O çox gözəl görürdü ki, bizim də yurdumuzu onun ölkəsini işğal edən düşmən tutmuşdur. Öz mübarizəsinə də azadlığı sevən və bu yolda canından keçməkdən belə çəkinməyən bir insan

kimi başlamışdır. Axıracan da əsl qəhrəman kimi döyuşdü. O, Sovet İttifaqının yetirdiyi yeni tipli insan idi. Döyüşlərdə yüksək ustalıq qazanmışdı. Bizim bütün döyüşçülərimiz üçün bir nümunə olmuşdur.

Almanlar onu bizim sıra nəfərimiz – sloven partizanı kimi tutdular. Dəhşətli işgəncələr versələr də bizim hissələrimiz haqqında heç nə öyrənə bilmədilər. Ayağının damarlarını kəsik-kəsik etsələr də Mixaylo sadiq qaldı, dözdü, susdu, faşist köpəklərinə heç nə demədi. Qaçmağı qərara aldı. Banditlər onu Vitovlda mühasirəyə aldılar, axırıncı patronuna qədər faşistlərlə atışdı. Faşistlər onu yalnız ölümə can verəndən sonra tanınmaz hala saldılar.

Yoldaş Mixaylonun rəşadəti heç vaxt unudulmayacaq. Nümunə üçün onun əsas əməliyyatlarını xatırlayaq: Opştin kəndində kinoteatrı partladaraq, yaralılar sayılmasa, yüz əlli düşmən əsgər və zabitini öldürmuşdü. Oradaca hərbi cəhətdən möhkəmləndirilmiş nöqtələr arasında yerləşən güclü transformatoru partlatmışdır. Bundan başqa iki bunkeri sıradan çıxarmışdır. Triyestdə zabit restoranına mina qoymuş, partlayış nəticəsində yüksək rütbəlilər də daxil olmaqla 250 əsgər və zabitin külünü göyə sovurmuşdur. Başqa bir dəfə orada 350 faşist qəsbkarını gəbərtmişdir. Ona Triyestdə iki elektrik mərkəzi və *"Pikkolo"* faşist qəzetinin binasının partladılmasına və bu zaman otuz üç almanın ölməsinə, on ikisinin yaralanmasına görə də minnətdarıq. Cəsur döyüşçü Triyestdə dörd hərbi yük maşınını sıradan çıxarmış, bir neçə motosikl qaçırmışdır. Qoritsada elektrik stansiyasının partladılması, bir neçə alman zabitinin oğurlanıb *"dil" gətirilməsi"* də məhz onun igidliyi sayəsində mümkün olmuşdur.

Bunlardan başqa o, ağzına qədər gizli arxiv sənədləri, topoqrafiya materialları, yazı makinaları və s. ilə dolu alman yük maşınını qaçırmışdır. Triyest şəhərində almanların 1.600 kiloqram azuqəsini ələ keçirərək, bizim hissələrimizə çatdırmışdır. Alman patrullarına qarşı çoxsaylı əməliyyatlarda, o cümlədən, Kraşe yaxınlığındakı pusqularda uğurla iştirak etmişdir.

Alman hərbi hissələrində müvəffəqiyyətlə apardığı təbliğat işi sayəsində 350-dən çox rus əsirini Yuqoslaviya Xalq Azadlıq Ordusu tərkibinə cəlb etməyə nail olmuşdur. Riyek şəhərində apardığı işlər 300 alman əsgərinin bütün zabitlərini öldürdükdən sonra bizim tərəfimizə keçməsi ilə nəticələnmişdi. Onun əli ilə minə yaxın faşist əsgər və zabiti məzara gömülmüşdür. Yaralananların sayı-hesabı yoxdur. Döyüş əməliyyatlarının gedişində o, düşmənin çoxlu istehsal vasitələrini və müxtəlif materiallarını məhv edə bilmişdir. Ordumuza nəhəng qənimətlər fondu keçirilmişdir. Onun təbliğatçılıq bacarığı sayəsində ordumuzda sovet hərbi əsirlərindən ibarət yeni batalyon təşkil edilmişdir.

Onun ölümü ilə rus batalyonunun əsgərləri əzizini, doqquzuncu korpus isə bir nömrəli döyüşçüsünü, qəhrəmanını itirmişdir. Onun ölümü bizim hər birimiz üçün böyük itkidir. Öz doğma diyarı qədər ürəkdən sevdiyi, azadlığı uğrunda canını verdiyi Sloveniya onu heç vaxt unutmayacaqdır. Onun qəhrəmanlıq və igidlik dolu döyüş yolu əfsanə kimi dildəndilə, nəsildən-nəslə keçəcəkdir!..

1960-cı il may ayının ortalarında Sovet İttifaqının Yuqoslaviyadakı səfiri İ.K.Zamçevski məni görüşə dəvət etdi. Belqraddakı görüşümüzün elə ilk günlərindən onunla münasibətlərimiz səmimi alındı. Onunla hər görüşümdən məmnunluq hissi duyurdum. İvan Konstantinoviçlə aramızdakı yaş fərqinə baxmayaraq bir-birimizə *"sən"* deyə müraciət edirdik.

– Bu yaxınlarda yuqoslav dostlarımızdan eşitdim ki, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında kitab yazmaq istəyirsən. Gərək ki, onun partizan ləqəbi Mixaylo olub. Yaxşı işdir, niyyətini alqışlayıram. Material toplanışı necə gedir? Hüseynzadənin Sloven sahillərində göstərdiyi qəhrəmanlıqlar barədə sənədli kitab yazmaq vacibdir. Bizim yuqoslav xalqı ilə mehriban dostluq münasibətlərimizin tarixi qədimdir. Özün yaxşı bilirsən əlaqələrimiz nəyə görə və necə pozulub. İndi hər şey yoluna düşür, əlaqələrimiz get--

gedə möhkəmlənir. Belə bir kitabın yazılması bu işdə böyük rol oynaya bilər. Təkrar edirəm ki, yuqoslav dostlarımız bu kitabın nəşri ilə çox maraqlanırlar.

Mən Mixaylonun rəşadətləri barədə kitabın yazılması üçün materiallar və sənədlər toplanması vəziyyəti barədə İ.K.Zamçevskiyə məlumat verdim, gələcək planlarımdan danışdım. Dedim ki, bu yaxınlarda yenidən Sloveniyaya getmək fikrindəyəm. Sonra isə *"Pravda"*nın redaksiyasından İtaliyaya ezamiyyətə göndərilməyim üçün icazə alacağam. Romada, Triyestdə, Çepovanidə, həmçinnn Mehdinin həlak olduğu Vitovl kəndində olmaq, o yerləri öz gözlərimlə görmək, yeni materiallar axtarmaq, Mehdinin dostluq etdiyi, bir yerdə faşistlərə qarşı vuruşduğu adamlarla söhbətlər aparmaq fikrindəyəm. Bu səfər məndən ötrü çox əhəmiyyətlidir. Axı gələcək kitabımın düz yarısı orada, İtaliyadadır.

– Lap yaxşı, – deyə Zamçevski fikrimi təsdiq elədi. – Mən də öz tərəfimdən *"Pravda"* qəzeti qarşısında məsələ qaldıraram. İndi isə səndən bir şəxsi xahiş eləmək istəyirəm. Qoy Sloveniya səfərində bizim səfirliyin katibi Yakov İvanoviç Susko səni müşayiət eləsin. Sən onu yaxşı tanıyırsan. Bir yerdə Vitovla və Çepovaniyə gedin, Hüseynzadənin həlak olduğu yeri tapıb dəqiqləşdirin, adamların fikrini bilin, hadisənin necə olması barədə bir də danışın, yerli hökumət rəhbərləri ilə görüşüb məsləhətləşin, görün biz onlara neçə kömək eləyə bilərik, Hüseynzadənin xatirəsini əbədiləşdirməkdən ötrü nə kömək lazımdır...

Bir neçə gündən sonra biz Susko ilə Sloven sahillərinə yola düşdük. Mən onu əvvəlcədən nəinki tanıyırdım, hətta biz ailəlikcə dost idik. SSRİ-nin Yuqoslaviyadakı səfirliyinin birinci katibi maraqlı bir şəxsdi, əməkdar təyyarəçi, Sovet İttifaqı Qəhrəmanı idi, Böyük Vətən müharibəsi illərində bir neçə cəbhədə hava döyüşlərində iştirak etmişdi. Biz qərara gəldik ki, Yuqoslaviyanın şərq, qərb və şimal hissələrində olaq, Triyestin ətraflarında Mehdinin döyüşdüyü əsas yaşayış məntəqələrinə gedək, imkan daxilində onun tanışları ilə,

əməliyyatlar zamanı kömək gördüyü adamlarla görüşək. Belələri isə çox idi və bizim cib dəftərimizdə görüşəcəyimiz adamlardan ibarət uzun bir siyahı əmələ gəldi.

Sloven sahilləri göyqurşağının bütün rəngləri ilə bəzənmişdi: akasiya, gilas, yasəmən, alma, oleandr, zanbaqlar çiçək açmışdı. Biz indiyəcən eyni zamanda çiçək açan bir belə ağac və gül kolu görməmişdik. Bahar da, əkinçilər də tələsirdilər.

Ən əvvəl Vitovlu ziyarət etdik. Burada partizan Aloiz Marinçiçin ailəsi ilə tanış ola bildik. Mehdi o müdhiş gecə döyüş əməliyyatlarından sonra yoldaşları ilə bu həyətdə, ot tayasında rahatlanmaq istəmişdi. Yəqin bu stolun ar-xasında da az oturmayıb Mixaylo. Əyləşirik. Qonaqpərvər ev sahibəsi tünd paltar geyib, başını lap bizim qadınlar kimi ləçəklə çəkmiş slovensayağı xanım-xatın Valeriya bizə qulluq edir.

-Bizim ailəmizdə hamı yaxşı bilirdi ki, Mehdi Sovet İttifaqındandır. Bizə SSRİ-dəki, Qafqazdakı həyat tərzi barədə maraqlı şeylər danışardı. Olduqca üzügülər, hazırcavab bir adam idi. Bu tərəflərdə oldumu, mütləq bizə baş çəkib, hal-əhval tutardı. Xüsusən də mənim aşpazlıq işlərimlə maraqlanardı. Axı mən üç il sərasər partizanlara aşpazlıq eləmişəm. Yaman yorulardım, çətin iş idi, o isə kefimi açardı, hey məni sakitləşdirərdi, deyərdi ki, tezliklə qələbə çalacağıq. Biz indinin özündə də onu ən əziz bir adamımız kimi xatırlayır, ölməsinə heç cür inana bilmirik.

Sonra Valeriya belə hallara düşən bütün analar kimi hönkürə-hönkürə bizə Mehdinin cəsədi tapılan yeri göstərdi. Ətrafda yağış suları ilə yaxşıca yuyulmuş qum saralır, onun dörd tərəfini isə sıx yaşıl otlar əhatə etmişdi. Onların arasında ara-sıra zəncirotu qızarırdı, adama elə gəlirdi ki, ana təbiətin özü bu yerə əklil qoymuşdur.

Adam Zoranla Lakva kəndində görüşdük. O, Novo Qoritsa şəhərinin gömrükxana idarəsində işləyirdi. Keçən günləri xatırladı, o gecədən necə salamat çıxdığı barədə belə danışdı: "Faşistlər məni tutub kefləri istəyən qədər döydülər, sonra

zirzəmiyə saldılar. Səhər açılanda məni çıxarıb eses polkovnikinin hüzuruna apardılar. Mən Maxaylonun cəsədini orda gördüm, yerə sərələnib qalmışdı. Onu bu vəziyyətdə görəndə az qala ürəyim partlayacaqdı. O vaxtacan hələ düşünürdüm ki, yəqin aradan çıxa bilib. Polkovnik yumruqlarını düyünləyib üstümə gəldi: *"Onu tanıdın?"* Göz yaşlarımı güclə saxlasam da qəti səslə dedim: *"Yox!"*. *"Yalan deyirsən!"* – bağırdı. *"Yox, tanıya bilmirəm"*. Birdən gözlənilmədən içəri bir qoca general girdi. Yenə də məni döyməyə, sorğu-suala tutmağa başladılar. Dediyimin üstündə möhkəm dayandım. Heç nə çıxmadığını görən general əmr etdi ki, Mehdinin cəsədini vurulduğu yerə tullasınlar, məni isə yenidən zirzəmiyə atsınlar. Gecə isə Novo Qoritsanın həbsxanasına aparsınlar. Bir gün qaldıqdan sonra orada gözətçiləri aldadıb qaça bildim.

Zoran ah çəkib sözünə davam etdi:

-Mehdi tez-tez Bakını, doğma ata ocağını xatırlayardı. Mənə deyərdi: "Ah, Adam, bilsəydin, Sovet İttifaqı necə ölkədir, orada adamlar necə yaşayırlar. Sən Allah, müharibə qurtaranda bir özün gəl, hər şeyi öz gözlərinlə gör*"*. Bizim yerlər də Mehdinin döşünə yatırdı. Xüsusən adamlarımızı çox sevirdi. Dəfələrlə mənə demişdi ki, "qoy müharibə qurtarsın, mütləq Sloveniyanın əmək adamlarının həyatından, italyan və sovet partizanlarının faşizmə qarşı mübarizəsindən roman, ya da tarixi kitab yazacağam*"*.

Çepovanidə tanış olduğumuz Antoniya və İvanka Mlekuş bacıları Hüseynzadənin xarakterinin daha bir əsas səciyyəvi cəhətini qeyd etdilər. Sən demə, o, daim sloven folkloruna böyük maraq göstərirmiş. Görünür, Mehdi, doğrudan da roman yazmağı qərarlaşdırıbmış və altdan-altdan bu işə hazırlaşmağa başlayıbmış. Bacılar, barmaqlarını qatlayaraq "lap o vaxtkı kimi bir-birinin ardınca atalar sözü və zərb-məsəllər söyləməyə başladılar. Birinci Antoniya başladı: *"Bacarmaq almaqdan yaxşıdır"*, *"Səhərə baxıb gündüzü gör"*, *"İş necədirsə, nəticəsi də elədir"*, *"Ataya, dayıya yox, həqiqətə inan, yaşa"*, *"İkisinin ürəyi yoxdur, üçüncünün başı"*.

Sonra söhbətə İvanko qoşuldu: *"Allah adama hər şənbə günü pul yetirmir"*, *"Qonaqlar quduz olmasa, ev sahibinə dar gəlməz"*, *"Canavar tükünü tökər, dişini yox"*, *"Başqasının gündəyməzinə dəyən yüz zopa da az gələr"*, *"Şama şərab içən, nahara su da tapmaz"*, *"Fərsizə dağ-daş da ağlar"*, *"Balqabaqdan qabqacaq olmaz, axmaqdan dost"*.

Antoniya bacısının sözünü kəsdi: *"Kim oxuya bilirsə, pis düşünə bilməz"*, *"Yemək necədirsə, arvad da elədir"*, *"Xahiş edirsə, tac da olsa, istədiyini ver"*, *"Yay yağışı üç padşah sarayına dəyər"*, *"Kim sığallı danışırsa, naham var düşünür"*, *"Ata necədirsə, oğul da elədir, ana necədirsə, qız da elədir"*.

– Əlbəttə, Mixaylo o vaxt bunları yaza bilməzdi, – İvanko şərh verdi – biz elə onda da beləcə tez-tez sayırdıq. Buna görə də o hər şeyi beynində saxlamağa çalışırdı. Yadından çıxmasın deyə hər görüşdə atalar sözlərini bizə dedizdirərdi.

Novo Qoritsa şəhərində Soça kanalının sahilində kərpicdən və daşdan tikilmiş o qədər də böyük olmayan bir binada yerləşən Srez (uyezd) icraiyyə komitəsində olduq. Orada bizi dostcasına qarşılayıb işimizlə maraqlandılar, hər hansı xidmət göstərməyə razılıq verdilər. Başa düşülürdü ki, Mixaylo burada məşhur adamdır. Ona özlərininki kimi baxırlar. Mehdi barədə hər şeylə maraqlandığımızı demək kifayət idi ki, başımıza onu tanıyanlar, ya da onun barəsində nəsə eşidənlər yığışsınlar. Olanlar əfsanələrə qovuşur, əfsanələr olanlarla qaynayıb-qarışır, zənginləşirdi. Yox, qəhrəmanların şöhrəti doğrudan da unudulmurmuş! Söz-sözü çəkirdi. Tədricən Şempas, Vitov, Vipava, Çepovani kimi təzə salınmış yaşayış məntəqələrində adamların yeni şəraitdə necə yaşadıqları ilə tanış olurduq. Burada adamlar yaxşı yaşayır, heç nəyə ehtiyac duymurdular. Mədəniyyət məsələsi isə hələ qaydasında deyildi. Belə ki, məsələn, Vitovida kitabxana və kinoteatr yox idi. Eyni sözləri Lokva və Vipav barədə də demək olardı. "Çox istərdik ki, – həmsöhbətlərimiz deyirdilər, – Şempasda Mehdinin büstunü qoyaq. *"Əlbəttə, yaxşı olardı ki, Mehdi Hüseynzadənin həlak olduğu Vitovlda*

onun şərəfinə xəstəxana, kitabxana, kinoteatr tikilsin". Tez-tez söz salırdılar ki heç olmasa, Mixaylonun yaxın dostluq əlaqəsi saxladığı partizan Aloiz Marinçiçin ailə üzvlərinin Bakıya getmələrinə şərait yaradılması zəruridir. Çoxları isə söhbətlərində belə bir arzu bildirirdilər ki, Qoritsa -Triyest- Pula yollarının kəsişdiyi yerdə salınan par-tizan qəbiristanlığında Mixayloya abidə qoyulsun və onun məzarı bura köçürülsün. Çepovani, yaşayış məntəqələrindən uzaq-dadır və ora gediş-gəliş az olur.

Belqrada qayıdan kimi vaxt itirmədən səfir İ.K.Zamçevskiyə məruzə qeydi hazırladıq və orada konkret təkliflər formasında sloven dostlarımızın xahişlə-rini göstərdik. Qısa olduğundan həmin sənədi bütövlüklə nəzərinizə çatdırıram:

SSRİ-nin YXFR-dakı səfiri İ. K.Zamçevskiyə:

Bu il may ayının birinci yarısında Sloveniyaya səfərimiz zamanı biz misilsiz igidliyi və rəşadəti ilə həm Yuqoslaviyada, həm də ana vətəni Azərbaycan SSR-də əfsanəvi şəxsiyyət kimi şöhrət tapmış, Slovena sahillərində (Triyest, Tırjiç, Qoritsa) partizan hərəkatının fəal iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin, partizan Mixaylonun fəaliyyət göstər-diyi, həlak olduğu və torpağa tapşırıldığı yerləri gəzdik. Onu tanıyan adamlarla söhbətimiz, o cümlədən, Sloven sa-hilləri əhalisinin qəhrəmana bəslədiyi dərin hörmət və mə-həbbət sübut edir ki, bu məşhur sovet vətənpərvərinin adı hə-mişəlik Sloveniya xalq azadlıq hərəkatı tarixinə düşmüş və gələcəkdə də sovet və Yuqoslav xalqları arasında dostluğun möhkəmlənməsi işinə xidmət göstərəcəkdir.

SSRİ və YXFR dövlətləri arasındakı əlaqələrin geniş-ləndirilməsi zərurətindən çıxış edərək, hökumət qarşısında aşağıdakı məsələlərin qaldırılmasını məqsədəuyğun hesab edirik:

1.Sovet İttifaqının vəsaiti hesabına Mehdi Hüseynzadənin həlak olduğu Lyublyan - Qoritsa magistral şosse xəttinin üs-tündə yerləşən Şempas kəndində qəhrəmanın büstünün qo-yulması;

2. M. Hüseynzadənin qəhrəmancasına həlak olduğu Vitovl kəndində onun adına 1500-2000 cildlik kitabxana açılması; buranın rus və müasir sovet yazıçılarının əsərləri, müharibə dövründə SSRİ-dəki partizan hərəkatına dair ədəbiyyat, həmçinin mütərəqqi yuqoslav yazıçılarının rus dilində buraxılmış kitablarla təmin edilməsi;

3.Vitovl kəndində sovet bədii və sənədli filmlərindən ibarət daimi fondu olan kinoteatr, yaxud kənd xəstəxanası tikilib istifadəyə verilməsi;

4. 1960-cı ilin yayında Hüseynovun yaxından dostluq etdiyi və həyətində alman faşistləri tərəfindən öldürüldüyü partizan Aloiz Marinçiçin ailə üzvlərinin (Vitovl kəndi) Bakıya – qəhrəmanın vətəninə səfərinin təşkil edilməsi;

5. Qoritsa-Triyest-Pula yollarının kəsişdiyi yerdə salınan partizan qabiristanlığında M. Hüseynzadəyə abidə qoyulması, eyni zamanda qəhrəmanın Novo-Qoritsa şəhərindən 18 km şimalda böyük yollardan uzaqda yerləşən məzarının buraya köçürülməsi.

"Pravda"nın Yuqoslaviyadakı müxbiri Y.Makarenko,
SSRİ-nin YFXR-dəki səfirliyinin birinci katibi
Y.Susko,
23 may 1960-cı il.

İki gündən sonrakı növbəti görüşümüzdə səfir dedi ki, bu məktub diplomatik poçt ilə Moskvaya, Xarici İşlər Nazirliyinə çatdırılıb. Təəssüf ki, sonra nələr olduğundan xəbərim olmadı. Buna görə də həmin məsələdə yalnız ehtimallara əsaslanıram. Bəlkə bir qədər sonra məktub Xarici İşlər Nazirliyindən SSRİ Nazirlər Sovetinə, bəlkə də elə birbaşa Azərbaycan SSR hökümətinə göndərilmişdi? Bəlkə də ən pis variant seçilmişdi – məktub ya Xarici İşlər Nazirliyində, ya Azərbaycan SSR Nazirlər Sovetində, yaxud haranınsa bir otağında küncə atılmışdı? Bu hörmətli yüksək idarələrin ünvanına pis heç nə demək istəmirəm, heç buna haqqım da yoxdur, ancaq, hər halda, bizim sənədimiz gözlənilən rezonansa səbəb olmadı!

Yaxşı, bizim məktubumuzun başına nə iş gəldi? Harda itdi? İndi görəsən hansı arxivdədir? Moskvadadır, ya Bakıda? Yenə təkrar edirəm, hazır cavabım yoxdur. Məktubun izlərinin harada itməsini bilmək üçün çox maraq edirəm. O sənədin tapılması yaxşı olardı. Əgər bizim məktubumuz illər keçməsinə baxmayaraq müəyyən əhəmiyyət kəsb eləsəydi, təklif olunanların hamısı bizim günlərdə bütünlüklə həyata keçirilsəydi, lap yaxşı olardı. Doğrudan da, unudulmaz Mehdi Hüseynzadəyə, məşhur Mixayloya Şempasda büst qoyulsaydı, onun adına Vitovlda kitabxana, kinoteatr, yaxud xəstəxana tikilsəydi? Qoritsa-Triyest-Pula yollarının qovuşağında qəhrəmana abidə ucaldılsaydı, onun məzarı bu əlverişli yerə köçürülsəydi pismi olardı? Əgər Aloiz Marinçiçin partizan ailəsinin üzvlərindən kimsə Bakıya gəlsəydi, yaxşı olmazdımı? Elə başqa sloven partizanları da. Ümid edək ki, hər şey belə olacaq.

1960-cı ilin noyabrında mən İtaliya səfərinə yola düşdüm. Ayın 17-də Romaya çatdım. Oraya o vaxt çox məşhur olan *"Karavella"* ilə uçdum. Çampino aerodromundan məni uzun müddət ərzində Sov.İKP MK-nın məsul işçisi olmuş, o vaxt lsə *"Pravda"*nın İtaliyadakı daimi müxbiri işləyən A.A. Dyakov qarşıladı. O, İtaliyanı və italyan dilini yaxşı bilirdi. Mən onun köməyi ilə Sovet səfirliyinin yaxınlığında Bartolemey Nevsatiya küçəsində yerləşən *"Villa fioriti" – "çiçəkli vılla"* adlı o qədər də böyük olmayan, rahat bir pansionatda yer aldım. Aleksey Alekseyeviç pansionat barədə dedi: "Sovet İttifaqından gələn qonaqların demək olar ki, hamısı burada qalır, çünki burada ucuz qiymətə ləzzətli yeməklər verirlər.

Elə həmin axşam *"Poeze sera"* adlı məşhur italyan qəzetinin daimi ədəbiyyat səhifələri buraxmağa başlaması münasibəti ilə təşkil etdiyi qəbulda iştirak etdim. Qəbulda yazıçılardan Alberto Moraviya, Karlo Levi və çox cavan olmasına baxmayaraq, bizdə artıq məşhurlaşmış Ciovani Rodari ilə tanış oldum. Mənim qarşımda duran vəzifədən xəbər

tutan kimi Rodari məsləhət gördü ki, siz mütləq *"Azadlıq könüllüləri"* korpusunun qərargahında olmalısınız, faşizmlə mübarizə illərində İtaliya partizan ordusu belə adlanırdı. Mənə belə gəlir ki, siz orada sovet partizanı Mixaylo rəşadətləri barədə maraqlı materiallar tapa bilərsiniz. *"Uğur olsun!"* Elə həmin qəbulda köhnə tanışımı *"Unita"* qəzetinin xarici şöbəsinin redaktoru Cüzeppe Bo ilə qarşılaşdım. Mən onu Polşada işlədiyim vaxtdan, sonra isə *"Unita"*nın Moskva müxbiri olduğu zamanlardan tanıyırdım. Biləndə ki, mən Hüseynzadə ilə maraqlanıram, vəcdlə dedi: *"Bizdə partizan Mixaylonu yaxşı tanıyırlar. Sən onun barəsində bəzi şeyləri Romada öyrən, ancaq əsas toplamalı materiallar isə Triyestdədir. Maraqlı mövzudur"*.

Səhəri gün tezdən *"Azadlıq könüllüləri"* korpusunun qərargahına gedib, bir neçə saat orada oldum. Bu hörmətli təşkilatın divarlarından birində böyük şüşəli bir çərçivədə Mehdi Hüseynzadənin portreti asılmışdı. Onun Triyestdə göstərdiyi hünərlərə gəldikdə isə materiallar mənim gözlədiyim qədər zəngin deyildi. *"Sizə məsləhət görərdik ki, Triyestdə olasınız, orada sizə lazım olan bütün materialları bilavasitə ala bilərsiniz"* – dedilər. *"Kommunist Partiyasının Triyestdəki federal komitəsində, zəhmət olmasa, katibliyin üzvü olan Mariya Bernetiçi tapın, o isə arzu etdiyiniz məlumatları toplamağa kömək edər"*.

Vidalaşanda *"Azadlıq könüllüləri"* korpusu-ştabındakı yoldaşlar mənə italyan partzanlarının alman və italyan faşistlərinə qarşı mübarizə hərəkatı barədə bir çox kitablar bağışladılar. İtaliya Kommunist Partiyasının təşəbbüsü və rəhbərliyi ilə 1943 - 1945-ci illərdə yaradılan İtalyan partizan ordusu ölkənin milli azadlıq müharibəsində böyük rol oynamışdı. *"Azadlıq könüllüləri"* korpusunun əsas qüvvəsini hələ 1919-cu ilin oktyabrında yaradılmış Harribaldi adına zərbə briqadaları təşkil etmişdi ki, bunlara da Lunçi Lonqo başçılıq edirdi. 1945-ci ilin yazında vətənin azadlığı uğrunda qəti döyüşlərə hazırlıq ərəfəsində korpusun tərkibində 104 diviziyada, 52 briqadada birləşən 15.000 adam vardı. Par-

tizanlar İtaliyada faşizmin darmadağın edilməsində əsas işləri görmüşdülər.

Polşada dörd gün qaldım. Əsas işimi yaddan çıxarmamaqla birlikdə imkan daxilində İtaliyanın məşhur mədəniyyət və heykəltəraşlıq abidələrində daha çox çalışırdım. Axı kim bu gözəl şəhərdə olub, onun yüksək bədii dəyərlərindən zövq almaqdan imtina edərdi? Heç mən də istisna deyildim. Ancaq Romanın möcüzəli gözəllikləri ilə, onun əhalisi ilə tanış olduqca istəyirdim ki, bacardıqca onların səciyyəvi cizgilərini daha yaxşı öyrənim, bunları Mehdinin gözləri ilə görüm.

Bu günlər ərzində əlimdə bloknotum Koliziyada, Kapitaliya Ponteonedə, Müqəddəs Monastrında, Barberinidə Kançelleriya və başqa saraylarda gəzib-dolaşdım, Vatikanda oldum, orada bütün dünyada məşhur bədii sənət qalereyasına tamaşa elədim. Harribaldinin abidəsinin ziyarətində, De Trevi fontanında da oldum. Razışılaşdığım müsahiblərimlə birtəhər anlaşmaqdan ötrü əlüstü rus-italyan sözlüyü də tərtib eləmişdim. Bu kiçik lüğətimdən bir neçə sətir: qratenya – sağ ol, bonjorno – gün aydın, buna mote – gecən xeyrə, donna – qadın, ireqo – buyurun, prendzo – nahar, qena – şam yeməyi, aberto – mehmanxana. Sonra yavaş-yavaş ifadələr yaratmağa başladım. İndi təsəvvür edirdim ki, ilk vaxtlar sözləri, sonralar bütöv, xüsusən mürəkkəb cümlələri mənimsəmək Mixaylo üçün necə də çətin olubmuş.

Triyestə gedərkən iki günlüyə Venetsiyaya döndüm. Yaşıllıqları dənizdən boy verib *"gəl məni gör"* deyən bu möcüzəli şəhərə baxmaqdan özümü saxlaya bilmədim. Buraya saatda yüz kilometr sürətlə şütüyən qatarla gəldim. Qatarsy işıqları gecələr bağrına od salan şəhərlərin, qəsəbələrin, başqa yaşayış yerlərinin içindən keçirdi. Döngələrdə sürətini azaltmadan elə dönürdü ki, vaqonun içində birtəhər olur, kəlləmayallaq vururdum. İki italyan kupe yoldaşım başlarını tutaraq: "o, mamo, miya! - deyə qışqırırdılar.

Səhər tezdən Venetsiya mavi duman arxasından görünməyə başladı. Əvvəlcə bu şəhər dəniz sahilinə sıxılmış boz,

yaşıl və göy rəngli alçaq binalar zolağına oxşayırdı. Sonra isə bu zolaq get-gedə böyüyür və genişlənir, nəhayət, bütün üfüqü tuturdu.

Venetsiyada qeyri-adi şeylər çox idi. Ən əvvəl, əlbəttə ki, şəhərin öz görkəmi adamı heyrətə salırdı. Sorğu kitabında deyilirdi ki, Venetsiya kanallarla ayrılan təxminən 120 adada yerləşib və bu adaların üzərində 400-ə qədər körpü və körpücüklər salınıb.

Şəhərdə əsasən su nəqliyyatı işləyir – qondollar, barkaslar, motorlu qayıq-tramvaylar. Kanalların ən böyüyü mərkəzdən ziqzaqlarla keçən Qrandedir. Onun sağında və solunda kanal boyunca varlı venetsiyalıların imarətləri, bir neçə kilsə ucalır. Təkrarolunmaz görməli yerlərdən – Dojlar sarayı, Kad-Oro, müqəddəs Mark kilsəsi əsl möcüzə sayılır. Venetsiya materiklə, dəmir yolu və avtomobil magistralı ilə əlaqə saxlayır. Burada əhalinin əsas məşğuliyyəti bütün dünyadan gələn milyonlarla turistə xidmət eləməkdir.

Məşhur Qrande kanalı üzərindəki Ponto Rialto körpüsü yaxınlığında kiçik, lakin olduqca rahat *"Rialto"* otelində qalırdım. Mənim Venetsiyadakı rahatlığım üçün də həmin A.A.Dyakov irəlicədən tədbirlər görmüşdü. O, hər ehtimala qarşı mehmanxana müdiriyyətinə şərtləşdiyimiz günlərdə mənə yer verilməsi üçün xahiş teleqramı vurmuşdu və mən bura gələndə artıq hər şey hazır idi. Mən Aleksey Alekseyeviçə səmimi qəlbdən minnətdar idim, lakin az sonra məlum oldu ki, onun narahat olmağına dəyməzmiş. Öz qırmızı cildli oraq-çəkiç gerbli pasportumu göstərmək kifayət imiş ki, yer məsələsi öz-özünə həll olunsun. Hər halda mən o kişiyə minnətdaram.

"Rialto" mehmanxanası Venetsiyanın düz ortasında yerləşirdi, buradan şəhərin bütün gözəllikləri ovuc içi kimi aydınca görsənirdi. İkinci gün başa düşdüm ki, bu, az şey deyilmiş. Kanallararası marşrutlarda su tramvayları olduqca dəqiq işləyirdi – dəqiqəyə də söz ola bilməzdi, geciksən, - azı yarım saat gözləməli idin. Fərdi qandolyer tutmaq isə baha başa gəlirdi.

Venetsiyada da adamlarla ünsiyyətimdə onları Hüseynzadəyə sevdirən cəhətləri axtarırdım. Və tapırdım – açıqlıq, səmimiyyət, bir də, əlbət ki, azadlıqsevərlik.

Nəhayət, gəlib Triyestə - İtaliya səfərimin əsas düşərgəsinə çatdım. Bu şəhərdə Mehdi Hüseynzadəni tanıyan, onunla dostluq edən adamlar, onun igidlik göstərdiyi yerlər çox idi. Çatdığım gün Triyestdə İtaliya Kommunist Partiyasının federal komitəsinə getdim. Orada məni Mariya Bernetiçlə tanış etdilər. O, ötən gəncliyinin gözəlliyinin cizgilərini hələ də özündə saxlayan yaşlı bir qadın idi. Rusca gözəl danışırdı, nitqində ləhcə elementləri bilinmirdi, deyirdi ki, Moskvada olub. Bu qadın kim idi? 1921-ci ildən İtaliya Kommunist Partiyasının üzvü idi, mahir inqilabçı, faşizmə qarşı fəal mübariz sayılırdı. Tərcümeyi-halı məhkəmə və həbslərlə dolu idi. Ömrü heç də asan keçməmişdi, hələ 25 yaşı tamam olmamış Mussolininin cəlladları onu bir neçə illiyə məhbəsə atmışdılar. İkinci dəfə həbsə 1939-cu ildə 16 illiyə atılmışdı. Mussolininin qanlı rejiminin devrildiyi 1943-cü ildə güclə azad olmuşdu. Mənimlə görüşəndə Triyest federal partiya komintəsinin katibliyinin və mərkəzi nəzarət komissiyasının üzvü idi. Mənim işim barədə söhbətdən sonra mütləq baş çəkilməli yerləri, görüşməli olduğum adamları müəyyənləşdirdik. Triyestdə olduğum 4 günü bütövlükdə Mixayloya həsr etdim. İşə bu və ya digər dərəcədə onun döyüş əməliyyatlarının şahidi olan yerlərin ziyarəti ilə başladıq. İlk iri diversiyanın obyekti olan restorana getdik. İndi bu restoran *"Eksiyaçelsior"* adlanır. Mehdinin buraya qoyduğu partlayıcının səsi o vaxt çox bərk çıxmışdı – bir general, onlarca da zabit və əsgər məhv edilmişdi. Əlbəttə, artıq o partlayışın izlərini görmək asan deyildi, buna baxmayaraq diqqətlə nəzərdən keçirdikdə divarların bir-birinə uyuşmadığını, binanın sonradan tikildiyini görmək mümkün idi. Qoca yanğınsöndürən danışırdı ki, burada yanğın bir neçə gün davam etmişdi. Əsgərlər uçuqların altından bir həftə dalbadal hər gün meyit çıxartmışdılar.

Triyest yaxınlığındakı Obştina adlı yerdə də olduq. Keqa vivasında kinoteatr binasını da axtarıb tapdıq. Birmərtəbəli

ənənəvi kirəmit daşlı uzun bir bina idi. Bu kinoteatr müharibənin lap əvvəllərindən almanların xoşuna gəlmişdi və onlar burada tez-tez hərbi filmlər nümayiş etdirirdilər. Axmaq yerinə qoyduqları əsgərlərini öz zəfərləri ilə ruhlandırır, faşizmin Moskva altında, Stalinqradda, Kursk yaxınlığındakı məğlubiyyətlərini isə gizli saxlayırdılar. Kinoteatrı çoxdan bərpa edib əhalinin istifadəsinə vermişdilər. Buna baxmayaraq divarlarda və damda yamaqlar görünürdü. Kinoteatrın direktoru danışdı ki, partlayışdan sonra binanın əsaslı təmirinə külli miqdarda vəsait buraxılmış, xüsusən yanğından daha çox zərər çəkmiş zal yenidən qurulmuşdu.

Sabahı gün Triyestin yaxınlığındakı Nabrejanı stansiyasına getdik. Dəmiryolçular bizə Mehdigilin partlatdığı iki vaqonun yumalandığı dərəni göstərdilər. Yüksək dağlarla əhatə olunmuş dərənin dibində pas atmış qatar təkərləri, buferlər, parça-parça dəmir hissələr görünürdü. *"Biz bu paslı dəmirdümürü özümüz bilərəkdən yığışdırmırıq, – deyə ağ düymə sırası qara frençinə, kokardası kartuzuna bəzək verən stansiya rəisi fəxrlə məlumat verdi, – keçmişimizin yadigarı kimi. Nə qədər biz sağıq, bu yadigar yaşayacaq!"*

Nəhayət, növbə *"İl Pikkolo"* qəzetinə çatdı. Qoldoni meydanının dibində sol tərəfdəki üçmərtəbəli bina, əlbəttə ki, çoxdan qaydasına salınmışdı. Buna baxmayaraq o qədər də gözəl görünmürdu – dəhizləri qaranlıq idi, pilləkənləri çoxdankı yanğından xəbər verən ləkələrlə dolu idi. Sanki redaksiya öz oxucularını qorxuya salmaq üçün belə bir hala düşmüşdü. Hərçənd ki, zaman indi bu qəzetə də başqa hökmlər verirdi. Redaksiyanın dar, qəzet kişləri ilə dolu otaqlarındakı işçilər bizi o qədər də sevincək qarşılamadılar. Redaktor yerində tapılmadı. Adını deməkdən imtina eləyən qoca bir jurnalist isə söylədi:

"İndi qəzetimiz simasını dəyişib. Biz faşizmi təbliğ etmirik, ancaq sosializmə də üstünlük vermirik. Biz müstəqil qəzetik!" Mariya Bernetiç kinayə ilə: *"Yəni belə də olur?"* – soruşdu, əlavə etdi ki, bu sözlərə şübhə ilə yanaşır. *"Olur, – jurnalist narazı halda cavab verdi. – Bizim "Pikkolo" da*

buna misaldır". "İkinci dünya müharibəsi illərində qəzetdə işləyənlərdən heç kim görünmür. Bəs onlar hardadılar?" – Bernetiç yenə susmadı. *"Kim bilir indi hardadırlar, – həmin jurnalist könülsüz cavab verdi – külək hərəni bir yerə atır. Bacarırsan tap. Hərəsi bir yol tutub".*

"İl Pikkolo"nun mətbəəsindəki söhbət isə tamam başqa ruhda keçdi. Fəhlələr tamam başqa əhval-ruhiyyədə idilər. Onlar qəzetin məzmunundakı mürtəceliyə qəti etiraz edir, jurnalistləri həyatı görməyə çağırır, maaşlarının artırılmasını, iş şəraitinin yaxşılaşdırılmasını tələb edirdilər.

Sonra Mixaylonu tanıyan adamlarla görüşməyə başladıq. Bu görüşlər mənə yeni faktlar verir, qorxmaz vətənpərvər Mehdi Hüseynzadənin xarakterini tamamlamağa kömək edirdi. Yenə də gözlərimin önündən o qəhrəmanlıqla dolu illərin hadisələri birbəbir gəlib keçdi – restoranın, kinoteatrın, redaksiya və mətbəənin partladılması. Bunlar Mehdinin uğurla başa vurduğu ən əsas əməliyyatlar idi və əlbəttə ki, bu barədə xatirələr bloknotumda həddən artıq idi. Ancaq müsahiblərim söhbətə başlayan kimi hər şeydən qabaq bunları yada salırdılar, sözlərini kəsmək də olmurdu. Buna baxmayaraq, hamını diqqətlə dinləyir və daha səciyyəvi fakt və detalları nəzərdən qaçırmamağa çalışırdım.

Opştina kəndinin sakini Slava Çebulets (Katra, yəni Katya ləqəbi ilə tanınmış partizan qadın) danışdı ki, Mixaylo ilə 1944-cü ildə Bane kəndində tanış olub. Mehdi ondan partizanlarla əlaqə yaratmağa kömək eləməyi xahiş edib. Katra əvvəlcə özünü elə aparıb ki, guya söhbətin nədən getdiyini anlamır. Ancaq bir müddət keçəndən sonra Mehdi həmin xahişi ilə ona daha iki dəfə müraciət edəndə Katra onu 9-cu yuqoslav partizan korpusunun qərargahına aparmışdı. Kinoteatrı partladanda məhz Katra ona kömək eləmişdi. Mehdinin tapşırığına görə o bəzi şeyləri öyrənmişdi: kinoya kimlər gəlir, gündə nə qədər əsgər və zabit kinoya baxır, seanslar nə vaxt başlayır və s. Mixaylo həmişə Katraya deyərmiş: "Evə sağ-salamat qayıdıb doğma torpağımı öpmək istəyirəm." Kinoteatr partladılandan sonra faşistlər onun başına pul kəsəndə isə Mehdi saçını rənglə-

miş, "sarışın" olmuşdu. Zarafata salıb hərəkətinə belə haqq qazandırırmış: "Düşmənlərlə mübarizə qurban tələb edir".

– Mixaylo bizim gənclərin sevimlisi idi, – Salet kəndinin qocaman sakini Fransisko Miliç sözə başladı. – Canlı, ünsiyyətli, şən, nikbin bir insan idi – partizanların gözü idi. Mənim oğulluğum sayılırdı. Özü də çox göyçək idi. Çox qızlar gizli-gizli onun həsrətini çəkirdilər. Əməliyyata gedəndə qızlar qəmlənər, onu yaxın adamları kimi səbirsizliklə gözləyərdilər! Hər dəfə! Bilsəniz onun döyüş uğurlarına necə sevinirdik. Ən çoxu isə Mehdi Ştilgedəki faşist kazarmasını partladan günü sevinib bayram eləmişdik. Bircə ona təəssüflənirdik ki, esesçi Ketner təsadüf nəticəsində sağ qalmışdı! Mixaylo onu məhv eləməyi öz qarşısına vəzifə qoymuşdu.

Yerli özünüidarə komitəsinin sədri, kommunist Aloiz Pers Manrupino kəndinə gedən yolda rast gəldim. Mixaylo barədə söhbətində dedi: *"Tez-tez onunla müharibədən sonrakı İtaliya barədə danışırdıq. Ölkəmiz, xalqımız, hökümətimiz haqda maraqlı fikirlər söyləyirdi. Biz, faşizmə qarşı vuruşan kommunistlər köklü dəyişikliklər olmasını istəyirdik. Təəssüf ki, İtaliya yenə burjua respublikası olaraq qaldı. Mixaylo tez-tez Sovet İttifaqında və xüsusilə Azərbaycanda fəhlə sinfinin, kəndlilərin, sosializm qurucularının qəhrəman əməyindən maraqlı söhbətlər edirdi. Gözləri iftixarla işıldayırdı. Evə dönməyə elə tələsirdi ki..."*.

Partızanlara lap kiçik yaşlarından kuryerlik eləmiş, hazırda Bolonya Universitetinin kimya fakültəsində təhsil alan Milko gülməli bir hadisə danışdı: *"Bir dəfə cibimi ilk səhifələrində Hitlerin böyük portreti verilmiş qəzetlərlə doldururaq heç nə olmamış kimi Böyük Dol kəndinə" Mixaylonun görüşünə tələsirdim. Birdən atlı almanlar məni saxladılar. "Dayan, nə aparırsan?"* – deyə qışqırdılar. Ciblərimdən bir neçə qəzet çıxarıb almanlara verdim. Onlar heç nə demədən öz sevimli fürerlərinin şəklinə baxaraq çıxıb getdilər. Mənsə addımlarımı yeyinlədib Mixaylonun görüşünə tələsdim. Axı, pencəyimin astarında kəşfiyyatçıların ona göndərdikləri məktub gizlədilmişdi.

Belə bir məzhəkəvari hadisəni də qeyd edirəm. Bir gün Opştina kəndi yaxınlığında faşist oberleytenantı, cəllad Ketner gözlənilmədən bir qədər qabaq saçlarının rəngini dəyişib *"sarışın" olmuş, alman hərbi forması"* geymiş Mehdi Hüseynzadə ilə görüşür. Ketner ona müraciətlə soruşur: *"Cənab kapitan, o murdar partizan Mixaylo sizə rast gəlməyib ki? Bir aydır onu axtarıram"*. Mixaylo sakitcə cavab verir: *"Yox, cənab ober-leytenant, mən özüm də onu çoxdan axtarıram"*.

İş elə gətirdi ki, Mehdinin döyüş yolları barədə material axtarışım bununla bitmədi. Elə həmin ilin payızında Moskvaya qayıdan kimi mən təcili surətdə Azərbaycana səfər eləmək fikrinə düşdüm. Bircə məqsədim vardı - Mehdinin vətənində, doğma Bakısında olmaq, onun adı ilə bağlı yerləri gəzmək.

*"Pravda"*nın mandatı tezliklə belə bir səfərə çıxmağıma imkan yaratdı. Mən Mehdinin anadan olduğu, boya-başa çatdığı evdə oldum, valideynləri, qohum-əqrəbası ilə tanış oldum, sevdiyi yerləri gəzib dolaşdım. Burada sovet xalqının qəhrəman oğlu Mehdinin portretinin bəzi cizgilərini dəqiqləşdirməyə kömək eləyəcək bir sıra materiallar da topladım. 1973-cü ilin yayında *"Pravda"*nın səhifələrində Leonid Tahirovun məlumatında Bakıda Mehdinin qranitdən tökülmüş nəhəng heykəlinin qoyulduğunu oxuyub çox şad oldum.

Bilmirəm, Hüseynzadənin Yuqoslaviyada, İtaliyada göstərdiyi döyüş rəşadətlərindən bəhs eyləyən kitabım yazılacaqmı? Yəqin ki, yazılacaq, indilikdə isə hər səhifəsinin, hər bir canlı, həqiqi sənədinin arxasında əsl sovet vətəndaşının, əsl döyüşçünün qəhrəmanlıqla dolu həyatı dayanan jurnal oçerki ilə məhdudlaşıram.

V.İ.Lenin 1920-ci ildə I Dünya Müharibəsinin xarakteri barədə yazırdı: *"Əgər iş müharibə səviyyəsinə qalxıbsa, hər şey – ölkənin bütün daxili həyatı müharibənin maraqlarına tabe edilməlidir, burada kiçicik bir tərəddüdə də yol vermək olmaz"*. Leninin bu vəsiyyətinə əməl eləyən partiyamız və onun rəhbərlik etdiyi sovet xalqı kiçicik tərəddüdə belə

yol vermədən ölkəmizin bütün həyatını müharibə şəraitinə uyğunlaşdırdı. Ölkə milyonlarla qəhrəman oğlunu vətənin müdafiəsinə çağırdı.

Bunlardan biri də bizim qəhrəmanımız idi...

Yakov Makarenko

ÖLMƏZ QƏHRƏMAN

Böyük Vətən Müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə müstəsna mərdlik, igidlik və qəhrəmanlıq göstərmiş Mehdi Hüseynzadəyə vəfatından sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Azərbaycandan çox-çox uzaqlarda, qürbət ellərdə vətənimizin başını uca eləyən, xalqımızın şöhrətini yayan cəngavər qəhrəmanın əzəməti gözümüz qarşısında dağlarımız qədər vüqarlı, əcdadımız qədər qorxmaz, dastanların əfsanəvi qəhrəmanlarından rəşadətli bir sima kimi canlanır.

Koroğlu paşaları, Qaçaq Nəbi bəyləri və pristavları lərzəyə saldıqları kimi İtaliya, Yuqoslaviya partizanları ilə birlikdə faşist quldurlarına divan tutan Mehdi Hüseynzadə də düşmən üstünə gedəndə silahı möhkəm tutdu. Güllə atanda əli titrəmədi. Atdığı boşa çıxmadı. Hər dəfə düşmən öldürdükdə günahsız sovet adamlarının intiqamını aldı. Mehdi Hüseynzadə göstərdiyi igidliyə görə tərəqqipərvər xalqımızın qəlbində öz heykəlini ucaltdı.

Əsrlər boyu şahlara, xəlifələrə, soltanlara, çar istilaçılarına qarşı mübarizə aparmış Azərbaycan xalqı bir sıra qanlı müharibələrin şahidi olmuş, bir çox qəhrəmanları ilə fəxr etmişdir. Mehdi Hüseynzadə aslan timsallı ananın südünü əmmiş, ürəyində qorxu hissi olmayan atanın halal zəhməti ilə böyümüşdür. Mehdi Hüseynzadə sovet məktəbində təhsil almış, ixtisas qazanmışdır. Mehdi Hüseynzadə azadlığımız uğrunda ata-babalarımızın qanı ilə boyanmış bayrağımızı yüksəklərdə tutub əməliyyata getmiş, həmişə alnıaçıq, üzüağ qayıtmışdır. O, uzaq sahillərdə, qərib ölkələrdə ana vətən uğrunda vuruşaraq qəhrəmanlıqla həlak oldu.

Vətən uğrunda, xalq yolunda canını fəda eləyənlər əbədi yaşayırlar.

Sovet vətəninin azadlıq və istiqlaliyyəti uğrunda qəhrəmanlıqla həlak olmuş Mehdi Hüseynzadə dünya durduqca yaşayacaqdır.

Əli Vəliyev
xalq yazıçısı

ONUN HƏYATI BİR DASTANDIR

Bizim həyatımızda yazıçıya, incəsənət xadiminə yaradıcılıq qidası verən, onda ilham oyadan necə böyük hadisələr, necə fədakar, nəcib və qəhrəman insanlar var.

Mehdi Hüseynzadə belə qəhrəmanlardan biridir.

Onun gənc həyatı bir dastandır, rəşadəti sənət möcüzəsi… «Uzaq sahillərdə» pyesi üzərində işlərkən biz böyük ibrətamiz həyata heyran olduq. Ədəbi-dramaturji materialdan başqa Mehdinin öz həyatı, onun qəhrəmanlığı bizi ruhlandırdı, bizə yaradıcılıq qidası verdi.



Mehdi Hüseynzadə Tibilisidə hərbi məktəbdə oxuyarkən

Mehdi Hüseynzadə ölməzlər nəslindəndir.

O, əməllərilə özünə canlı abidə tikmiş, zəfər çələhgi toxumuşdur. Xalqımızın iradə və əzmini təmsil edən bu vətən oğlunun pak sürəti hələ çox sənətkarları ilhama gətirəcək, çox qiymətli əsərlər üçün tükənməz yaradıcılıq mənbəyi olacaqdır.

Mehdi Məmmədov
xalq artisti, professor

MİXAYLO HAQQINDA YENİ SƏNƏDLƏR

Bizim ölkəmizdə, eyni zamanda xalq demokratik ölkələrində sülhsevər xalqların faşizmə qarşı birgə mübarizəsini əks etdirək sənədlər, materiallar, xatirələr, bədii yazılar və tədqiqat əsərləri nəşr edilir. Bu baxımdan Müdafiə Nazirliyi Hərbi Tarix İnstitutunun SSRİ-nin və Yuqoslaviya Sosialist Federativ Respublikasının arxiv sənədləri, xatirə və gündəliklər əsasında hazırladığı «Sovet adamları Yuqoslaviya xalqının azadlıq hərəkatında» adlı sənədlər, materiallar və xatirələr məcmuəsi sovet ictimaiyyətinin çox böyük marağına səbəb olmuşdur. Bu sənədlər, xatirələr, gündəliklər sovet adamlarının müharibə illərində partizan və antifaşist hərəkatında fəal iştirakını danmağa cəhd göstərən, onu ümumiyyətlə təhrif edən və saxtalaşdıran irticaçı burjua tarixçilərini və antisovet təbliğatçıları bir daha əsaslı faktlarla ifşa edir.

1942-1945-ci illərdə 40 mindən çox sovet adamı Avropa ölkələrində partizan və antifaşist hərəkatında iştirak etmişdir. Təkcə Azərbaycan SSR-in 2000-dən çox döyüşçüsü Çexoslavakiya, Polşa, Yuqoslaviya, İtaliya, Fransa partizanları ilə çiyin-çiyinə faşistlərə qarşı antifaşist müqavimət hərəkatında iştirak etmiş, yüzlərlə döyüşçü bu ölkələrin yüksək orden və medalları ilə təltif olunmuşdur. Azərbaycan xalqı bu vətənpərvərlər sırasında M.Hüseynzadənin, Ə.Babayevin, C.Həkimlinin, M.Seyidovun, M.Qulubəyovun, R.Orucovun, V.Hüseynovun, Ə.Cəbrayılovun, X.Hacıyevin, V.Xnikinin və bir çox başqasının adlarını iftixarla çəkir.

Böyük Vətən Müharibəsi illərində Azərbaycan xalqının igid oğullarının Yuqoslaviya partizan hərakatında fəal iştirakını əks etdirən sənədlər çox maraqlıdır. Bu sənədlər Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin (Mixaylo) və onun silahdaşlarının döyüş yolunu işıqlandırır. Kitabda xatirələrlə çıxış edən Birinci Sovet zərbə briqadasının komandiri A.İ.Dyaçenko, briqadanın təbliğatçısı və döyüşçüsü Q.A.Jilyayev, briqadanın batalyon komandiri B.A.Rəisov 1943-

1944-cü illərdə Mehdi Hüseynzadə və onun silahdaşları ilə bir hissədə olmuş, onların misilsiz qəhrəmanlıqlarını öz gözlərilə görmüşlər.

Ümumiyyətlə, Yuqoslaviyadakı antifaşist hərəkatında 50-dən çox millət və xalqın nümayəndəsi vuruşurdu. Sovet tarixçilərinin tədqiqatları nəticəsində müəyyən edilmişdir ki, 1942-1945-ci illərdə Yuqoslaviya ərazisində 6 minə qədər sovet vətəndaşı partizan hərəkatında iştirak etmişdir. Bunların 400 nəfərə qədəri azərbaycanlıdır. Yuqoslaviya Xalq Ordusu IX Korpusunun İvan Qradnik adına diviziyasının tərkibində vuruşan sovet zərbə briqadasının qərargah rəisi azərbaycanlı zabit Cavad Həkimli idi.

Sovet partizan zərbə briqadası 20 ay Yuqoslaviya və İtaliya partizanları ilə çiyin-çiyinə faşistlərə qarşı amansız mübarizə apararaq, Adriatik dənizinin uzaq sahillərində sovet adamlarının məğlubedilməzliyini bir daha nümayiş etdirmişdir. Briqada 250 dəfə faşistlərlə döyüşə girmiş, 86 dəfə faşist qarnizonlarına və nəqliyyat vasitələrinə hücum edərək öz zərbələri ilə düşmənə çox böyük tələfat vermişdir. Briqada faşist əsgər və zabitlərindən 7.358 nəfərini öldürmüş, 10.990 nəfərini yaralamış, 524 nəfərini isə əsir almışdır.

Sovet partizan briqadası hitlerçilərin 39 qışlağını dağıtmış, 114 avtomobilini, 13 zirehli maşınını, 9 tankını məhv etmiş, hərbi sursat və əsgərlə dolu 4 eşelonunu qəzaya uğratmış, 6 dəmiryol stansiyasını, 4 elektrik stansiyasını partlatmışdır. Bundan əlavə, partizanlar düşmənin 2 avtomobil qarajını, bir hərbi xəstəxanasını, 7 dəmiryol körpüsünü, 4.256 metr dəmir yol xəttini, 11 pulemyot və 3 minomyot atəş nöqtəsini partlatmış, 2 təyyarəsini, benzin anbarını və səyyar poçtunu yandırmışlar.

Sovet partizan briqadası düşmənin 133 müxtəlif çaplı topunu, 78 yüngül pulemyotunu, 17 ağır pulemyotunu, 133 avtomat silahını, 5 yüngül, 3 tankvuran silahını, 139 tapançasını, 1.013 tüfəngini, 3.700 əl qumbarasını, 5.300 mərmi və minasını, 3 radiostansiyasını, 44 durbinini, 5 ərzaq anbarını, 2 paltar, 14 avtomobilini, 3 motoskletini və məxfi arxivini qənimət olaraq ələ keçirmişdi.

Partizan briqadasının 175 döyüşçüsü qəhrəmancasına həlak olmuş, 278 nəfəri yaralanmış, 39 nəfəri itkin düşmüşdü.

Alman faşist işğalçılarına qarşı döyüşlərdə göstərdiyi igidlik və mətanətə görə sovet partizan briqadasına *"Zərbə briqadası"* fəxri adı verilmiş və o, üçüncü dərəcəli *"Partizanskaya zvezda"* ordeni ilə təltif edilmişdi.

Briqadanın 250 çox döyüşçüsü göstərdiyi igidliyə və qəhrəmanlığa görə Yuqoslaviya höküməti tərəfindən orden və medallarla təltif edilmişdir. Yuqoslaviya hökümətinin yüksək orden və medalları ilə təltif olunanlar arasında 40-dan çox azərbaycanlı döyüşçü vardır.

1944-cü ilin əvvəllərində Yuqoslaviya Xalq Ordusu IX korpusunun qərargahı nəzdində Mehdi Hüseynzadənin başçılığı ilə Mirdamət Seyidov, Tağı Əliyev, Ənvər Məmmədov və yerli slavyan partizanlarından ibarət xüsusi kəşfiyyat–təxribat qrupu yaradıldı. Bu cəsur kəşfiyyatçılar qrupu, xüsusilə onun rəhbəri Mehdi Hüseynzadə az müddət ərzində əfsanəvi qəhrəmanlığı ilə bütün Adriatik sahili sakinlərini valeh etdi. Yerli əhalinin və döyüş dostlarının partizan kəşfiyyatçısına verdiyi sevimli ləqəb - «Mixaylo» adı qəhrəmanlıq və igidlik rəmzi kimi xalqları faşizmə qarşı amansız mübarizəyə çağırırdı. Bu yaxınlarda YSFR arxivindən tapılan və Moskvada nəşr edilən yeni materiallar həmyerlimizin əfsanəvi igidliyini bir daha təsdiq edir.

Birinci sənəd. Yuqoslaviya Xalq Ordusu 31-ci diviziya qərargahının IX korpus qərargahına göndərdiyi 7 may 1944-cü il tarixli məlumatından: "…2.IV.1944-cü ildə Opçina şəhərində kinoteatr binasında partlayış törədilmişdir. Nəticədə hadisə yerində 80 faşist ölmüş, 60 nəfər ağır yaralanmışdır. Partlayış nəticəsində yaralananlardan əlavə 40 nəfər faşist hərbi xəstəxanada ölmüşdür… 23 apreldə Triyest şəhərində zabitlər üçün restoranda təxribat baş vermişdir. Binanın bütün daxili hissəsi uçmuşdur. Almanlardan 150-i ölmüş, 204-ü ağır, 150-i yüngül yaralanmışdır… Faşizmə ölüm xalqa azadlıq!».

Kerjis Tsiril, siyasi komissar;
mayor, Potoçar Stane, komandir

İkinci sənəd. «…31-ci diviziyanın 1944-cü ilin yazında təxribat işlərindən danışarkən Mixaylonu Mehdi Hüseynzadəni yad etməmək olmaz. «Qaradnikovo briqada»sının I batalyonunun I rotasında Mixaylo qeyri-adi nailiyyətlər əldə etmişdir. O, alman zabiti libası geyərək alman zabit və əsgərlərinin toplaşdığı yerlərə girir, partlayıcı maddələr qoyub çıxırdı. 2 aprel 1944-cü ildə Triyest şəhəri yaxınlığındakı Opçinada məhz belə olmuşdur. Kino tamaşası zamanı o, gec partlayan minanı iki yerdə oturacağın altına qoyub özü xəlvətcə aradan çıxmışdır. Kino salonunda 350 faşist var idi. Güclü partlayış binanın qapı və pəncərələrini dağıtmış, tavanını uçurmuşdur. Salonda bir nəfər də salamat qalan olmamışdır. Sonradan məlum olmuşdur ki, partlayışdan 80 faşist yerindəcə ölmüş, yaralananlardan isə 35 nəfəri xəstəxanada ölmüşdür. Bunlardan başqa Mixaylo bir çox müvəfəqiyyətli əməliyyatlar keçirmişdir. Belə hesab edilir ki, onun təxribatları nəticəsində əksəriyyəti zabit olan 1000-ə qədər faşist öldürülmüşdür. Faşistlər onu nəyin bahasına olursa-olsun ələ keçirmək istəyirdilər.

1944-cü ilin iyulunda faşistlərin əlinə keçən Mixaylo xöşbəxtlikdən onların cəngindən qurtarıb partizan dəstəsinə qayıda bilmişdir. Lakin 1944-cü il noyabrın 2-də faşistlər onu Vipav vadisinin Vitovle kəndində mühasirəyə almışlar. Mixaylo son patrona qədər, bədənini düşmən atəşi dəlik-deşik edənə qədər qəhrəmancasına faşistlərlə vuruşmuşdur».

Üçüncü sənəd. «Qanlı döyüşlər gedirdi. Partizanlar faşistlərin bir silah anbarını partlatdılar. Bizim korpusun təxribatçıları da fəal surətdə əməliyyatlar aparırdılar. Postoyna stansiyasında düşmənin nəhəng benzin anbarı partladıldı. Aprelin 22-də bizim döyüşçü Mehdi Hüseynzadə aşxananı partlatdı və xeyli faşisti məhv etdi»

Dördüncü sənəd. «Partizan batalyonunda rus, Ukrayna, qazax və azərbaycanlı mahnıları səslənirdi. Batalyonda 30-dan çox millətin və xalqın döyüşçüləri vuruşurdular».

SSRİ və YSFR xalqlarının döyüş dostluğu və qardaşlığı faşizm üzərində qələbə naminə birgə tökülən qanla möh-

kəmləndirilmişdir. Bu mübarizədə sovet adamları yüksək mənəvi-siyasi keyfiyyət, möhkəm cəbhə dostluğu, öz beynəlmiləlçilik borcuna hədsiz sədaqət nümayiş etdirmişlər. Bu V.İ.Leninin öyrətdiyi kimi, xalqların beynəlmiləl ittifaqının konkret təzahürüdür.

Qaraş Mədətov
tarix elmləri doktoru, professor,
EA-nin müxbir üzvü

MEHDİ VƏ ONUN DÖYÜŞ DOSTLARI

(Azərbaycanlı hərbi əsirlərin təşkilatının yaranması)

1943-cü ilin axırlarında hitlerçilər sovet hərbi əsirlərinin böyük bir dəstəsini Almaniyadan Şimali İtaliyaya göndərmişdilər. Hitlerçilər həbs düşərgələrindən topladıqları bu məhbuslara "azadlıq və "xoş güzəran*"* vəd etmişdilər; əslində isə İtaliya və Yuqoslaviya partizanlarına qarşı həmin hərbi əsirlərdən cəza dəstələri düzəltmək fikrində idilər.

Birinci cərgədə soldan ikinci: Briqada komandiri Anatoli Dyaçenko, dördüncü Cavad Həkimli. İkinci cərgədə sağdan birinci: Qədir İsgəndərov və başqa keçmiş partizan dəstəsinin üzvləri. 1965-ci il, Moskva şəhəri

İtaliyaya gələrkən yolda faşistlərin keşikçiləri həmin əsirləri əsla gözdən qoymurdular, buna baxmayaraq, azərbaycanlı hərbi əsirlərin gələcək gizli antifaşist təşkilatının təməli də məhz bu zaman qoyuldu. Onları yük vaqonlarında aparırdılar. Hərbi əsirlərdən həkim Rza Ağazadə, Qızıl Ordu zabiti Cavad Həkimli, Mehdi Hüseynzadə, Mikayıl Qulubəyov arabir yığışıb söhbət edirdilər… Onlar yeni şəraitdə hərbi əsirlərin gizli təşkilatının görəcəyi işləri götür-qoy edir, əməliyyat planı hazırlayırdılar. Qatar nəzərdə tutulmuş vaxta gəlib çatanadək ən sədaqətli, mərd azərbaycanlı hərbi əsirlərin böyük bir qrupu gizli təşkilata cəlb edilmişdi. Bu təşkilat sonralar vətəndən uzaqlarda minlərlə sovet hərbi əsirinin birləşməsində, işğal olunan ərazilərdə faşistlərə qarşı mübarizədə böyük rol oynadı.

Qatar Triyest şəhərinə çatdıqdan sonra, gizli təşkilatın rəhbərləri, ən əvvəl, yerli partizanlarla əlaqə yaratmağı qət etdilər. Onlar Villa-Opiçina kəndində görüş yeri təyin etdilər. Həkim Rza Ağazadə hərbi əsirlər üçün çox ehtiyatla tibb məntəqəsi təşkil etdi. Alman və İtaliya faşistlərinin heç ağlına belə gəlmirdi ki, üzdən çox təvəzökar görünən bu həkim və onun köməkçisi Mikayıl Qulubəyov tibb məntəqəsini gizli təşkilat üzvlərinin toplanış yerinə çevirmişlər.

Triyest ətrafında müqavimət hərəkatında iştirak edən Yuqoslaviya və İtaliya partizanları ilə əlaqəyə girmək hələ bir müddət mümkün olmurdu. Bunun səbəbi o idi ki, faşistlər yerli əhali arasında belə bir şayiə yaymışdılar ki, guya sovet hərbi əsirləri partizanlara qarşı cəza tədbirlərinin həyata keçirilməsində iştirak etmək arzusunda olduqlarını bildirmişlər. Lakin, düşmənin bu hiyləsi baş tutmadı.

Əsirlərin düşərgədən qaçması

Alman zabitləri içərisində Fris adlı bir gənc avstriyalı var idi. Digər faşist zabitlərindən fərqli olaraq yalnız Fris hərbi əsirləri incitmirdi və mümkün olduqca düşərgədəki əsirlərin

vəziyyətini yüngülləşdirməyə çalışırdı. Onun əsirlərə göstərdiyi bu münasibət əsərlərin diqqətindən əsla yayınmırdı. Gizli təşkilatın üzvləri yenə bir gün toplaşıb məsləhətləşən zaman Mehdi Hüseynzadə dedi: *"Frisin hərəkətlərindən belə görünür ki, onu gizli təşkilatın işinə cəlb etmək olar"*. Təşkilatın rəhbəri Rza Ağazadə bu fikrə şərik oldu və Mehdi Hüseynzadəyə təklif etdi:

– Onu işimizə cəlb edə bilsən pis olmaz, Mehdi. Ancaq çox ehtiyatlı ol.

Məlum olduğu kimi, Mehdi Hüseynzadə alman dilini bilirdi. Bu isə Frisi yaxından öyrənmək üçün öz üzərinə götürdüyü çətin vəzifəni yerinə yetirərkən Mehdinin karına gəldi. Bir neçə gündən sonra Mehdi təşkilatın rəhbərlərinə bildirdi ki, Fris Avstriya kommunistlərindən birinin oğludur, Hitlerə və onun quldur dəstəsinə nifrət edir və faşistlərə qarşı fəal mübarizə aparan hər hansı bir təşkilata daxil olmağa hazırdır. Bu zabiti daha bir neçə gün yoxlamaq lazım gəldi. Nəticədə Mehdi həmin gənc avstriyalını gizli təşkilatın işinə cəlb etməklə bərabər, onunla dostlaşdı, sonralar isə onunla birlikdə uzun müddət partizan sıralarında oldu.

Fris təşkilat üçün çox mühüm məlumat toplayıb gətirirdi. Bunun nəticəsində əsir düşərgəsinin müdafiə olunması sxemi, müxtəlif gizli sənədlərin surəti və bəzi şifrlənmiş yazılar gizli təşkilatın əlinə keçdi…

Eyni zamanda Mehdi Villa-Opoçina kəndində yaşayan Mariya Stars adlı bir qadınla əlaqə yarada bildi. Bu igid yuqoslav qadını hərbi əsirlərin düşərgədən qaçıb partizanlara qoşulmalarını təşkil edirdi. O, ərinin verdiyi tapşırıqları çox hünərlə yerinə yetirirdi. Onun əri Mario düşərgədən qaçan əsirləri qarşılayır və partizan dəstəsinə gətirirdi. Gizli təşkilatın fəal iştirakçılarından Mirdaməd Seyidov, Firudin Hüseynov, Məzahir Quliyev, Əkbər Babayev, Sabir Aslanov, Rza Orucov və başqaları qısa müddətdə hərbi əsirlərin bir neçə dəstəsini düşərgədən qaçırdıb patizanların yanına göndərməyə müvəffəq oldular.

Mehdinin qrupu

1944-cü il yanvarın 6-da Mehdi Hüseynzadə gizli təşkilat üzvlərinin müşavirəsində vəziyyət haqqında məlumat verdi. Hərbi əsirlərin böyük bir qrupunun düşərgədən qaçması almanları təşvişə salmışdı. Onlar, əsirlərin saxla-nıldığı yerin dövrəsində, xüsusən partizanların fəaliyyət göstərdikləri meşəyə gedən yollarda keşikçi dəstələrini qüvvətləndirmişdilər. Mehdi tezliklə işə başlamağa vacib olduğunu izah etdi və qaçışı təşkil etmək üçün bir təklif irəli sürdü. Plana əsasən, qəsdən *"həyəcan siqnalı"* verilməli, hərbi əsirlər isə bu siqnalı eşidən kimi düşərgənin keşikçilərini öldürüb onların siqnallarını ələ keçirməli və qaçıb partizanların yanına getməli idilər. Kiçicik bir səhlən-karlıq üzündən bu plan az qalmışdı ki, pozulsun. Bununla belə, azərbaycanlı hərbi əsirlərdən bir neçə yüz nəfəri düşmənlərdən qaçmağa müvəffəq oldu, qaça bilməyənlər isə tutulub edam edildilər. Faşistlər onların döşündən asdıqları bir parça taxtaya *"Bunlar partizandırlar"* sözlərini yazmışdılar. Ələ keçən hərbi əsirlərə vəhşicəsinə divan tutulması, qalan hərbi əsirləri əsla qorxutmadı. Qızıl Ordunun yüzlərlə, minlərlə keçmiş döyüşçüsü faşistlərin pəncəsindən xilas olur, Yuqoslaviya və İtaliya xalqının ən yaxşı oğulları ilə birlikdə ümumi düşməni əzmək üçün partizanlara qoşulur və silahlanırdılar.

Bu zaman Triyestdə Sovet partizanlarının batalyonu fəaliyyət göstərirdi. Batalyonun komandiri Qızıl Ordu zabiti Anatoli Dyaçenko idi. Batalyondakı döyüşçülərin 15 faizi azərbaycanlılardan ibarət keçmiş hərbi əsirlər idi. Batalyon Yuqoslaviya Xalq Azadlıq Ordusunun IX Korpus qərargahına tabe idi.

1944-cü ilin əvvəllərində qərargahın komandanlığı batalyona tapşırmışdı ki, Triyestdə bir sıra kəşfiyyat əməliyyatı keçirsin. Birinci tapşırığa əsasən batalyon Triyest vilayətinin topoqrafiya xəritələrini ələ keçirməli idi, çünki bu, partizanların əməli fəaliyyəti üçün çox vacib idi.

Bu məsul tapşırığı yerinə yetirmək üçün kəşfiyyat-diversiya qrupu təşkil edilmişdi. Ona gənc azərbaycanlı, bütün batalyonun sevimlisi, çox mərd və zirək olan Mehdi Hüseynzadə başçılıq edirdi. Mehdi (onu batalyonda *"Mixaylo"* adlandırırdılar) başçılıq etdiyi qrupa özü kimi igid, cəsur, ölümdən qorxmayan və hitlerçilərə nifrət edən yoldaşları cəlb etmişdi. Onların arasında Mehdinin həmyerlilərindən gənc bakılı Tağı Əliyev və Ağdamdan olan Ənvər Məmmədov, habelə Mehdinin mübarizə dostu avstriyalı zabit Fris var idi.

Mehdi Hüseynzadənin sağ qalan mübariz silahdaşları *"Mixaylo"*nun rəhbərlik etdiyi kəşfiyyat-diversiya qrupunun ağılagəlməz çətin və cəsur işlərindən danışırlar. Mehdinin və dostlarının o dövrdə göstərdikləri fəaliyyətin bir çox təfsilatı respublikamızın sərhədlərindən uzaqlarda da yaxşı məlumdur. Sənədlər və şahidlərin dedikləri bizi həmin qrupun fəaliyyəti haqqında yeni faktlarla tanış edir. Biz burada Mehdinin və onun başçılıq etdiyi qrupun misilsiz hünərlə başa çatdırdığı beş cürətli əməliyyatdan danışacağıq.

Triyest rayonunun topoqrafiya xəritələrinin ələ keçirilməsi haqqındakı tapşırıq belə yerinə yetirilmişdi: Frisin köməyi ilə xəritələrin saxlanıldığı yer öyrənilmişdi. Bununla əlaqədar olaraq, Mehdinin qrupuna hər necə olursa olsun, buraya yol tapmaq və topoqrafiya xəritələrini ələ keçirmək tapşırığı verilmişdi. Bu, çox çətin tapşırıq idi.

Xəritələrin saxlandığı arxivdə kimlərin işlədiyini kommunistlərdən öyrənmək mümkün olmuşdu. Mehdi tapşırığı arxivdə işləyən gənc sloven qızının köməyi ilə yerinə yetirməyi qət etdi, çünki bu qız topoqrafiya xəritələrinin bir nüsxəsini ələ keçirməyə kömək edə bilərdi. Mehdi həmin qızla tanış olmaq və onu öz qrupuna işə cəlb etmək üçün çox ustalıqla fənd işlətdi. Nəhayət, istədiyinə nail oldu. Bundan sonra əməliyyat planı hazırlandı. Günlərin bir günü silahlı qrup arxivə girdi, arxivin otaqlarına çox yaxşı bələd olduğuna görə oradakı bütün qulluqçuları çox tez bir yerə topladı, həmin sloven qızını isə qəsdən *"döydü"* ki, qalan əməkdaşlar ondan şübhələnməsinlər. On dəqiqə keçməmiş bütün əməliyyat

başa çatdırıldı, Triyest vilayətinin topoqrafiya xərtələri Mehdinin əlinə keçdi.

Üç gündən sonra Mehdinin qrupu böyük bir ərzaq ambarına hücum etdi, ambara keşik çəkən almanların *"nəfəsini kəsdi"*, avtomobilləri ərzaqla doldurub partizanların iqamətgahına gətirdi.

Mehdinin qrupu üçüncü tapşırığa əsasən bir həftə ərzində 12 dəmiryol körpüsünü partlatdı və faşistlərin qoşun qatarlarını yoldan çıxartdı.

Dördüncü əməliyyat tapşırığının yerinə yetirilməsi qrupun iştirakçılarını xeyli əyləndirdi. Qabaqcadan öyrənilmişdi ki, almanlar Triyestdən Qoritsiya avtomobillərlə çoxlu donuz aparırlar. Partizanların ərzağa ehtiyacları var idi. Mehdinin qrupu fürsəti əldən verməyib keşikçiləri məhv etdi. Yüzlərlə donuz güllə səsini eşidib hürkərək çığıldaya-çığıldaya çox qəribə bir mərəkə qopardılar. Bu isə partizanların kefini açdı...

Beşinci tapşırıq son dərəcə təhlükəli idi. Bu tapşırığa əsasən, Mehdinin qrupu faşist qarnizonunun kazarmalarına girməli və onları partlatmalı idi. Məlumdur ki, Mehdi çox zaman alman zabiti paltarını geyinir və cibinə saxta sənədlər qoyub faşistlərin arasında gəzirdi. Tapşırığın xarakterindən asılı olaraq Mehdi belə hiylələrə tez-tez əl atırdı. Beşinci tapşırığı da yerinə yetirərkən Mehdi alman zabiti paltarından istifadə etdi. O və yoldaşları ilə özlərini alman zabiti kimi qələmə verərək, kazarmalara girdilər və divarlardan asılmış yanğın söndürən balonlara gec partlayan minalar bərkitdilər. Onlar kazarmaları tərk edib, oradan xeyli uzaqlaşdıqda, minalar bir-bir partlamağa başladı.

Mehdinin mübariz silahdaşları

Mehdinin mübariz silahdaşları sırasında Tağı Əliyevin, Ənvər Məmmədovun və başqa cəsur partizanların adlarını qeyd edə bilərik. Tağı Mehdi Hüseynzadənin kəşfiyyat-diversiya qrupunun ən gənc üzvü idi. O, bədəncə möhkəm

və qüvvətli olması, igidliyi və zirəkliyi ilə hamını heyran qoyurdu. Bu gənc bütün varlığı ilə sevdiyi komandiri ilə igidlik və cəsarət göstərməkdə sanki yarışırdı. Tağı tam mənası ilə qəhrəmanlıq xarüqələri göstərirdi. Ölümdən əsla qorxmayaraq həmişə ən təlükəli işlərə gedirdi. O deyirdi:

– Hər bir faşistin məhv edilməsi məni öz vətənimə bir addım da yaxınlaşdırır. Buna görə də Tağı faşistlərə qarşı çox amansız idi, onları avtomat və tapança atəşi ilə öldürür, körpüləri partladır, dəf edilməz bir qüvvə ilə endirdiyi bıçaq zərbəsi ilə keşikçilərini səsizcə aradan qaldırırdı…

Triyestdə canlarına ölüm qorxusu düşən faşistlər igid partizanların işlərindən söhbət salarkən, hökmən Mehdinin adı ilə alman yanaşı Tağının da adını çəkirdilər. Almanlar Tağı Əliyevin başı üçün böyük pul mükafat təyin etmişdilər. Lakin Mehdinin bu mübariz dostunu tutmaq mümkün deyildi.

Bir gün Tağı tapşırığı yerinə yetirərkən faşistlərin təqibindən qurtulmaq üçün gizlənməyə məcbur olur. Bu zaman onun buraxdığı səhv ona canı bahasına başa gəlir. Tağı Qızıl Ordu döyüşçülərinin paltarını geymiş bir dəstə adamı görərkən, onları özününkülər hesab edir və qaça-qaça onların yanına gedir. Nəticədə, sovet vətəninə xain çıxan vlasovçuların pəncəsinə keçir. Vlasovçular yaralanmış gəncin silahını əlindən alır, özünü isə faşistlərə verirlər. Tağı Əliyevə olmazın əzab verirlər, lakin bizim igid həmyerlimiz nə öz yoldaşlarını ələ verir, nə də düşmənin qarşısında boyun əyir.

Faşistlər yerli əhalini qorxutmaq və Mixaylonun ən yaxın dostunu tutub məhv etdiklərinə görə öyünmək üçün Tağını eybəcər hala salmış, meyitini kənd-kənd gəzdirmişdilər. Partizanlar kəndlərin birində Tağı Əlyevin meyitini faşitlərin əlindən almış və bu zaman faşistlərə yaxşıca divan tutmuşdular.

Azərbaycan xalqının bu igid oğlunun dəfni minlərlə adamın iştirak etdiyi qüdrətli xalq nümayişinə çevrilmişdi.

Beləliklə, də xalqımızın qəhrəman oğullarından biri qürbətdə dəfn edilmişdir. Xalq onu heç zaman unutmayacaqdır!

Mehdinin ikinci dostu Ənvər Məmmədov da öz misilsiz şücaətilə şöhrət qazanmışdı. O, partizan batalyonunda manqa komandiri idi. Ənvər Məmmədov öz komandiri və dostu Mehdinin həlak olmasına cavab olaraq, düşməndən əsl partizan kimi amansız intiqam almışdı. Ənvər döyüş meydanında şəxsən 40 nəfərə qədər faşist öldürmüş və faşistlərin cəza dəstəsini çox qorxuya salmışdı. Halbuki, faşistlər elə xəyal edirdilər ki, Mehdi və Tağı həlak olduqdan sonra partizanlar daha düşmənə hücum etməyə cürət etməyəcəklər.

Ənvər başından ağır yaralandıqdan sonra da öz dəstəsini tərk etməmiş, komandanlığın verdiyi məsul tapşırıqları yerinə yetirməyə çalışmışdı.

İtaliyada va Yuqoslaviyada olmuş adamlar partizan batalyonu qərargahının qoçaq rəisi Cavad Həkimlini yaxşı xatırlayırlar. Qızıl Ordu komandiri Cavad ağır yaralandıqdan sonra əsir düşmüş, vətənə xəyanət etmək barəsində hitlerçilərin bütün iyrənc təkliflərini misilsiz mərdliklə rədd etmişdi. O, hərbi əsirlər düşərgəsində gizli antifaşist təşkilatın yaradıcılarından biri idi. C. Həkimli azərbaycanlı partizanlardan ibarət birinci rotaya komandirlik etmiş, sonralar Sovet partizan batalyonunun qərargah rəisi kimi məsul bir vəzifəyə irəli çəkilmişdi.

İndi Cavad Həkimli, İtaliyada və Yuqoslaviyada azərbaycanlı hərbi əsirlərin göstərdikləri qəhrəmanlığa həsr edilən bədii filmin çəkilişində fəal iştirak edir. Partizan batalyonu qərargahının bu keçmiş rəisi qəhrəmanlıq dastanı ilə dolu unudulmaz illərin hadisələrini olduğu kimi filmdə təcəssüm etdirmək üçün filmin quruluşçularına böyük kömək göstərir.

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə və onun silah yoldaşları haqqında mətbuatda materiallar dərc edildikdən sonra aşkara çıxarılan yeni faktlar Yuqoslaviyanın azad edilməsi və Hitler Almaniyası üzərində tarixi qələ-

bənin çalınması uğrunda mübarizədə azərbaycan-lıların iştirakını daha dolğun şəkildə təsvir etməyə imkan verir. Yeni sənədlərdən biri azərbaycanlılardan böyük bir qrupun Yuqoslaviya hərbi ordenləri ilə təltif edildiyini göstərir. Yeni sənədlər, sağ-salamat vətənə qayıdan və in-di xalqımızın əzəmətli quruculuq işlərində can-başla iştirak edən həmyerlilərimizin, o cümlədən, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti Mikayıl Qulubəyovun, Masallı rayonundakı Dimitrov adına kolxozun sədri Əkbər Babayevin, Azərbaycan dəmir yolu idarəsinin işçisi Rza Orucovun, bədən tərbiyəsi müəllimi Mirdamət Seyidovun və xalqımızın bir çox başqa vəfalı övladlarının Böyük Vətən müharibəsi illərində faşizmə qarşı mərdlik mübarizəsindən bəhs edir.

Həkim Rza Ağazadəni tanıyanlar bu təvazökar, ağıllı və igid insanın obrazını heç zaman unutmayacaqlar. Rza Ağazadə uzun müddət partizan batalyonunda fəaliyyət göstərmiş, azərbaycanlı döyüşçülər arasında böyük siyasi iş aparmışdır. 1945-ci ilin əvvəllərində həkim Ağazadə faşistlərlə vuruşarkən igidcəsinə həlak olmuşdur.

Yuqoslaviyada partizan hərəkatının iştirakcısı, Noraşen rayonunun Siyaqut kəndinin sakini Məmməd Axundovdan bu yaxınlarda bir məktub alınmışdır. O, öz məktubunda İtaliyanın Udne şəhərində Mehdi Hüseynzadənin başçılıq etdiyi qrupun həbsxanaya necə misilsiz cürətlə hücum etməsini təsvir edir. Mehdinin qrupu həmin həbsxanada saxlanan və ölüm cəzasına məhkum edilmiş onlarla azərbaycanlı hərbi əsiri faşist zindanından xilas etmişdir.

Qaraş Mədətov,
tarix elmləri doktoru,
professor, EA-nın müxbir üzvü

AZƏRBAYCAN SSSR XALQ ARTİSTİ NODAR ŞAŞIQOĞLU İLƏ MÜSAHİBƏDƏN

- Necə oldu ki, "Uzaq sahillərdə" filmində Mehdi Hüseynzadə rolunu siz oynadınız?

- Moskvada Vaxtanqov teatrının nəzdindəki Şukin adına teatr məktəbini bitirib (1950) bir müddət Vaxtanqov teatrında aktyor işlədim. Sonra Moskva Dövlət Dram və Komediya Teatrına keçdim. Tamaşalarda müxtəlif rollar oynayırdım. 1957-ci ildə "Uzaq sahillərdə filmini çəkməyə hazırlaşan rejissor Tofiq Tağızadə filmə aktyor seçmək üçün Moskvaya gəlmişdi. Təsadüfən tanış olduq. O, Mehdi rolunu mənə tapşırdı.

- Filmin o vaxtıki şöhrəti hamıya məlumdur. Mehdinin –Mixaylonun qəhrəmanlıqları dillər əzbəri olmuşdu.

– Filmin şöhrəti doğrudan da böyük idi. Bakıda hər hansı bir restorana girməyim kifayət idi, pulsuz-parasız qulluq göstərirdilər, avtoqraf istəyirdilər. Yadımdadır, 1958-ci ildə Asiya və Afrika xalqlarının kinofilmlərinin Daşkənd festivalında filmin ilk baxışından sonra T.Tağızadə ilə küçəyə çıxdıq. Bizi saysız-hesabsız tamaşaçı qarşıladı. Güclə maşına əyləşdik. Bu filmdən sonra mən tamaşaçılardan minlərlə məktub aldım. Demək olar ki, SSRİ-nin hər yerindən, ən çox Rusiyadan yazırdılar. Hətta, almanlardan da məktub alırdım. Film Amerikada, Polşada, Çexoslovakiyada və başqa ölkələrdə də uğurla nümayiş etdirilmişdir.

– Sizcə, bu gün "Uzaq sahillərdə"ni yenidən ekranlaşdırmağa ehtiyac varmı? Başqa sözlə, film yenidən ekranlaşdırılsaydı, nə kimi dəyişikliklər edilərdi?

– Yəqin ki, onu çoxseriyalı bədii televiziya filmi kimi çəkmək lazım gələrdi. Çünki Mehdinin şücaətləri hələ o vaxt bir seriyaya sığışmırdı. Biz bir çox hadisələri ötürməli olurduq. Bir də, o vaxt kinonun texnikası indiki səviyyədə deyildi.

– Azərbaycandan niyə getdiniz?

- *"Mixaylo"*dan sonra tamaşaçılar heç bir rolumu bəyənmir, hər yerdə *"Mehdi daha yaxşı idi"* deyirdilər. Mən Azərbaycandan getməyi qərara aldım.

MÜƏLLİF – MEHDİ HÜSEYNZADƏDİR

Mən onunla tez-tez görüşürəm. Özü də dəniz kənarında. Hər dəfə də o, ağır müharibə illərindən xatirələr danışır. Bu yaxınlarda növbəti görüşlərimizdən birində sahildə gəzərkən dostum birdən ayaq saxladı. Bir Aya baxdı, bir də dənizə. Sonra isə həzin səslə aşağıdakı misraları söylədi:

Gecə ay üzünə salırkən işıq,
Verir camalına hərdən yaraşıq.
Adria! Bil, sənə olmaram aşiq,
Mən öz Xəzərimə vurğunam, a dost.

Dostum susub qəhərləndi. Nəzərlərini məchul bir nöqtəyə dikib qaldı. Sakitliyi mən pozdum:

–Rza, bu şeir mənə tanışdır. Əgər səhv etmirəmsə, onu qəhrəman partizan Mehdi Hüseynzadə yazmışdır. Özü də Adriatik dənizi sahillərində...

–Elədir ki, var, – deyə Rza başını ağır-ağır tərpətdi. Sonra əlavə etdi: – Dəstəmizdəki partizanlar Mehdini bəzən öz aralarında şair də adlandırırdılar. Bəli, o, ən təhlükəli tapşırıqları yerinə yetirməyə gedəndə belə, müxtəlif şeirlər yazılmış cib dəftərçəsi də həmişə üstündə olardı. Onun *"Vətən"*, *"Dunay"*, *"Adria sahillərində"* və başqa şeirlərini dəstəmizdə olan azərbaycanlı partizanların hamısı əzbər bilirdi.

Söhbət uzandı. Keçmiş partizan Rza Orucov (indi o, Azərbaycan dəmiryolu fəhlə təchizatı şöbəsində işləyir) Mehdi Hüseynzadənin şairlik fəaliyyətindən mənə, indiyədək heç kəsə məlum olmayan bir əhvalat danışdı:

– Bu yaxınlarda təsadüfən, partizanlıq illərindən yadigar qalan cib dəftərçəmi vərəqləyirdim. Burada gözümə *"Dəli ceyranım"* adlı bir şeir sataşdı. Yadıma düşdü, şeir Mehdinin idi. Həm də onun maraqlı yazılış tarixçəsi var idi.

Rza bir az fikrə getdi. Sonra yenə də sözə başladı:

– 1944-cü ilin fevral ayı idi. Səhər tezdən məlumat aldıq ki, Yuqoslaviyanın Qodoviç kəndinə soxulmuş düşmən bölüyünü məhv etmək, onların hərbi sursatını ələ keçirmək və dinc əhaliyə kömək etmək lazımdır. Qodoviç kəndi partizan dəstəsinin məskən saldığı meşənin 15-20 kilometrliyində yerləşirdi. Bu kiçik kəndin hər tərəfi dağlarla əhatə olunmuşdu. Keçirəcəyimiz əməliyyat olduqca vacib, lakin təhlükəli idi. Çünki faşistlər kənddə özlərinə möhkəm istehkam yaratmışdılar. Bu mühüm əməliyyatın icrası bizim partizan dəstəmizə həvalə edildi. Mehdi xüsusi tapşırıq dalınca getdiyi üçün həmin əməliyyatda iştirak edə bilmədi.

Dəstəmiz vaxtı itirmədən Qodoviç kəndinə tərəf yollandı. Kəndə birinci olaraq bir neçə partizan daxil oldu. Mən də onların arasında idim. Biz əvvəlcə kəndin lap ucqarında yerləşən bir evə yaxınlaşdıq. Evin qapısını döydük, ancaq səs verən olmadı. Ehmalca çərçivəni yerindən çıxarıb, ehtiyatla içəri daxil olduq. Otaqda qorxudan rəngi qaçmış çavan bir qadın gördük. O, iki məsum körpəsini bağrına basıb, otağın bir tərəfində dayanmışdı, xurmayı saçları üzünə səpələnmişdi. Qorxusundan tir-tir əsirdi. Ana birdən-birə ayağımıza döşənib yalvarmağa başladı:

– Sizi and verirəm, bizi qırmayın – heç bir günahımız yoxdur. Amandır, rəhm edin. Heç olmasa əvvəlcə məni öldürün! Qoy bu körpələrin meyidini görməyim!

Cavan qadın bu sözləri deyib hönkür-hönkür ağlamağa başladı. Biz silahlarımızı kənara qoyub ananı və uşaqları sakitləşdirdik. Sonradan məlum oldu ki, almanlar kənd əhalisinə partizanları quldur, soyğunçu və vəhşi kimi tanıtmışlar. Ona görə də ana bizdən qorxurmuş...

Müharibə illərinin acı xatirələri müsahibimi kədərləndirsə də o, söhbətini davam etdirdi:

– Kəndi düşmənlərdən təmizləyib hissəmizə qayıdandan sonra şahidi olduğumuz həmin əhvalatı Mehdiyə danışdıq. Şair ürəkli partizan sonralar tez-tez o cavan ananı və uşaqları xatırlayır, imkan daxilində onlardan xəbər tuturdu.

...Axşamüstü idi. Meşədəki düşərgəmizi tam sakitlik bürümüşdü. Hamımız yorğun və qəmgin idik. Vətən həsrəti qəlbimizi yandırıb-yaxırdı. Birdən Mehdi həzin bir səslə xalq şairi Səməd Vurğunun *"Yadıma düşdü"* şeirindən aşağıdakı bəndləri oxudu:

...Göylərə baş çəkir Göyəzən dağı,
Axşam açıq olur ayın qabağı.
Bizim gəlinlərin bayram qabağı,
Fəsəli yaymağı yadıma düşdü.

Vurğunun xəyalı gəzdi aranı,
Gözümdə oynadı dağın boranı.
Qışın buz qatığı, yayın ayranı,
Payızın qaymağı yadıma düşdü.

Mehdi şeiri oxuduqdan sonra bir müddət araya sükut çökdü. Sonra yenə birinci olaraq Mehdi danışdı:

– Uşaqlar, mənə danışdığınız Qodoviç əhvalatından sonra bir şeir yazmışam. İstəsəniz oxuyaram.

Yerbəyerdən*, "oxu"*, *"xahiş edirik"* sözləri eşidildi. Mehdi özünəməxsus bir ahənglə həmin şeiri – *"Dəli ceyranım"* şeirini oxudu. Mən elə oradaca həmin şeiri cib dəftərçəmə köçürüb, Mehdidən yadigar saxladım...

– Şeir yadınızdadırmı? - deyə Rzadan soruşdum.

– Əlbəttə, son günlər onu bir neçə dəfə oxuyub əzbərləmişəm.

Keçmiş partizan, igid Mehdinin indiyədək məlum olmayan *"Dəli ceyranım"* şeirini oxudu:

Sən məni salmısan yamanca dərdə,
Mən dözə bilmərəm böylə kədərlə.
Könlüm nə istəsə, incimə, ver də,
Düşmüşəm çöllərə, dəli ceyranım.

Sənsiz bu dərd mənə olubdur ağır,
Baxsan gözlərimə bədbinlik yağır.
Baxıb bu halıma, aç qolun, çağır,
Gəlim harayına, dəli ceyranım.

Bülbüləm, indi mən gülsüz – çəmənsiz,
Qərarım gəlməyir inan ki, sənsiz.
Çıxma o yerlərə seyrana mənsiz,
Gəlləm köməyinə, dəli ceyranım.

İndi anlamışam nə çəkmiş Fərhad,
Bu dərdə düşəni eyləyirəm yad.
Fərhad yalan olub, mən almışam ad,
Düşmüşəm dillərə, dəli çeyranım.

Kazım Abdullayev
fərdi təqaüdçü

QƏHRƏMAN PARTİZAN MEHDİ HÜSEYNZADƏNİN DÖYÜŞ YOLDAŞININ DEDİKLƏRİ…

(Yuqoslaviyada partizan hərəkatının iştirakçısı Qriqori Jilyayevlə Bakıda görüş)

Noyabrın 21-də Azərbaycan Tarix Muzeyinin binasında Böyük Vətən müharibəsi illərində Yuqoslaviyada partizan hərakatının iştirakçısı, Mehdi Hüseynzadənin döyüş yoldaşı Qriqori Aleksandroviç Jilyayevlə görüş oldu. O, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun dəvətilə Bakıya gəlmişdi.

Mehdi Hüseynzadə və Ənvər Muradov 15 fevral 1936-cı il

Qriqori Aleksandroviç Jilyayevin öz başına gələn hadisələr də çox maraqlıdır. Böyük Vətən Müharibəsi illərində 16 yaşlı gənc ikən alman-faşist işğalçıları bir çox sovet vətəndaşları ilə birlikdə onu da işğal olunmuş ərazidən qovub köləliyə aparmışdılar. Q. Jilyayev Avstriyada ikən bir neçə Sovet və Yuqoslaviya vətəndaşı ilə Şimali İtaliyaya qaçmış, orada partizan hərəkatına qoşulmuşdur. Bir müddət o, İtaliya vətənpərvərləri dəstələrindən birində partizan kimi faşistlərə qarşı mübarizə aparmış, sonra 1943-cü il sentyabrın axırlarında o zamankı Yuqoslaviya Xalq Azadlıq Ordusunun IX korpusu yanında təşkil edilmiş sovet partizan rotasına göndərilmişdir.

Qriqori Aleksandroviç Jilyayev düşmənlərə qarşı əməliyyatlarda fəal iştirak etmişdir. Döyüşlərdə göstərdiyi mərdliyə və qəhramanlığa görə Yuqoslaviya komandanlığı tərəfindən *"İgidliyə görə"* ordeni və medalı ilə təltif olunmuşdur.

İndi Q. Jilyayev Moskva vilayətinin Lyubertsı şəhərində yaşayır. O, Bakıya öz silahdaşının, insanların səadəti uğrunda həyatından keçmiş qəhrəman Mehdi Hüseynzadənin vətəninə gəlmişdir. Jilyayevin Bakıya gəlməsi unudulmaz bir günə – Mehdinin qəhrəmancasına həlak olmasının 12-ci ildönümü gününə təsadüf etmişdir.

Toplaşanlar adı dillərdə dastan olmuş həmyerliləri Mehdi Hüseynzadənin – Mixaylonun (həmin illərdə o, belə adlandırılırdı) igidliyi haqqında Yuqoslaviya və Sovet partizanlarının apardıqları döyüşlərin iştirakçısının söhbətini diqqətlə dinlədilər.

– Mehdi ilə biz 1944-cü il yanvarın axırlarında Adriatik dənizinin sahilində yerləşən Sloveniya Primoresində qarşılaşdıq. Sovet partizan rotasının tərkibi xeyli böyümüş və o batalyona çevrilmişdi. Bizim yanımıza çoxlu sovet vətəndaşı gəlirdi. Onlardan bəziləri hərbi əsir düşərgələrindən qaçmışdılar, bəziləri də qul əməyinə dözməyib bizim yanımıza gəlmişdilər. Onların hamısı hitlerçilərə qarşı fədakarcasına mübarizə aparır, döyüşlərdə böyük mərdlik və qəhrəmanlıq göstərirdilər.

Mehdi batalyona gəldiyi ilk günlərdən etibarən faşistlərə qarşı mübarizə də göstərdiyi igidliyə, zirəkliyə və vəziyyətdən tez çıxa bilmək bacarığına görə yalnız bizim döyüşçülər arasında deyil, hər kəsin yanında sevilirdi.O, partizanlar arasında böyük rəğbət və məhəbbət qazanmışdı. Komandanlıq onu hansı çətin vəzifəyə göndərirsə-göndərsin, həmişə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir, düşmənlərin ürəyinə qorxu salırdı. O, almanları o qədər qorxutmuşdu ki, almanlar Sloveniyanın və Şimal-Şərqi İtaliyanın hər yerində onu diri və ölü tapana böyük mükafat vəd etmişdilər. Mehdinin igidliyi haqqında xəbər bütün Sloveniyaya və Şimal-Şərqi İtaliyaya yayılmışdı.

Bizim Mehdinin etdiyi işlərin hamısını deməklə qurtarmaz. Triyestdə alman komandanlığının zabitlər yeməkxanasını partladarkən, Qoritsa şəhəri yaxınlığındakı təyyarə meydanında iki alman təyyarəsini və Santa-Luçiya stansiyası (İtaliya sərhəddində) və Postoyna stansiyası yaxınlığında qoşun və döyüş sursatı ilə dolu iki qatarı məhv edərkən o, böyük rəşadət, bacarıq və zirəklik göstərmişdi. Triyestdə faşistlərin *"İl Pikkolo"* qəzetinin redaksiyasını və mətbəəsini partlatmışdı.

1944-cü il noyabrın 16-da növbəti tapşırığı yerinə yetirdikdən, yəni Qoritsa şəhərində almanların döyüş sursatı anbarını partlatdıqdan sonra Mehdi Vitovile kəndində pusquda duran dəstəyə rast gəldi. O, son gülləsi qalana-dək düşmənlə vuruşmuşdur. Faşistlərin əlinə diri-diri keçməmək üçün Mehdi özünü öldürmüşdür. Adı dillərdə dastan olan qəhrəmanı bizim batalyonun da daxil olduğu bütün korpus Çepovani kəndində dəfn etdi. M. Hüseynzadə öldükdən sonra Yuqoslaviyanın *"İgidliyə görə"* ordeni ilə təltif edilmişdir.

Sovet partizan batalyonunda ruslardan, ukranyalılardan, qazaxlardan, özbəklərdən başqa 80-ə yaxın azərbaycanlı Mehdi ilə çiyin-çiyinə vuruşmuşdur. Mirzəcan Mirzəcanov, Məzahir Quliyev və başqaları alman-faşist işğalçılarına qarşı mübarizədə rəşadətlə vuruşaraq həlak oldular. Çoxları müharibədən sonra öz vətəninə qayıtmış və indi dinc əməklə məşğuldur.

Q.A.Jilyayevlə görüş gecəsində Respublika EA Tarix İnstitutunun direktoru Ə.Quliyev, Azərbaycan dəmir yolu idarəsinin işçisi, Yuqoslaviya partizan hərəkatının iştirakçısı R.Orucov, kino-rejissor T.Tağızadə, Azərbaycan SSR EA Neft İnstitutunun işçisi İ.İsmayılzadə də çıxış etdilər. Yazıçı İmran Qasımov, Həsən Seyidbəyli ilə birlikdə yazdığı "Uzaq sahillərdə kitabını Q.A.Jilyayevə təqdim etdi.

Arxa cərgədə soldan 3-cü: Qriqori Jilyayev, Cavad Həkimli, Məmməd Novruzov "Qarabala", Lyublyana şəhəri, 1945-ci il, may.

OD-ALOV İÇİNDƏ YAZILAN ŞEİRLƏR

Mehdi Hüseynzadənin əsərlərinin taleyi müəyyən dərəcədə Musa Cəlilin "*Moabit dəftəri"*nin taleyni xatırladır. Qardaş tatar xalqının böyük şairi, vaxtilə Berlindəki Moabit zindanında faşistlər tərəfindən vahşicəsinə öldürülmüş Sovet İttifaqı Qəhrəmanı Musa Cəlilin (1906-1944) qürbətdə yazdığı əsərləri qoruyub saxladığı, onları şairin həmvətənlərinə çatdırdığı üçün oxucular Belçika partizanı Andre Timmermansa və başqırd Təlqət Gimranova minnətdar olduqları kimi, biz də Mehdi Hüseynzadənin bir neçə şerini öz hafizəsində saxlayan, onları oddan-alovdan keçirib məhv olmağa qoymayan keçmiş partizanlar Cavad Həkimliyə, Həmid Atayevə, Rza Orucova və Mikayıl Qulubəyova minnətdar olmalıyıq.

Mehdi Hənifə oğlu Hüseynzadə 1918-ci ildə Bakıda doğulmuşdur. 1932-ci ildə rəssamlıq məktəbinə daxil olmuş, 1937-ci ildən Leninqrad Xarici Dillər İnstitutunda oxumuşdur.

Müharibə ona ali məktəbi bitirməyə imkan verməmişdir. Leytenant M.Hüseynzadə Stalinqrad altındakı döyüşlərdə ağır yaralanıb düşmənin əlinə keçir. İlk imkan düşən kimi o, əsirlikdə olan bir neçə yoldaşı ilə qaçıb 9-cu Yuqoslav-İtalyan müqavimət korpusuna qoşulur. Adria dənizi sahillərində Sloveniya kəndlərində düşmənə qarşı cəsarətli həmlələrdə iştirak edir, şəxsən onun rəhbərliyi altında bir sıra əməliyyat hazırlanıb həyata keçirilir. Düşmənlər Mehdinin başı üçün 400 min lirə mükafat təyin etmişdilər. 1944-cü il noyabrın 16-da düşmənin böyük bir yanacaq anbarını partladıb qayıdan Mehdi mühasirəyə düşür. O, axıradək qəhrəmanlıqla vuruşur və bir daha düşmən əlinə keçməmək üçün son gülləsini öz ürəyinə vurur. SSRİ Ali Soveti Rəyasət Heyətinin 11 aprel 1957-ci il tarixli fərmanı ilə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Qəhrəmanın Çepovani qəsəbəsindəki qəbrinin üzərində qoyulmuş mərmər lövhəyə bu sözlər həkk edilmişdir: *"Uyu, əzizimiz Mehdi, Azərbaycan xalqının qəhrəmanı! Sənin azadlıq naminə göstərdiyin fədakarlıq dostlarının qəlbində həmişə yaşayacaqdır"*. Partizanlardan Q. A. Jilyayev onun təzə qazılmış məzarı qarşısında özünün *"Yoldaş Mehdinin xatirəsinə"* adlı şeirini oxumuşdu:

Mehdinin həmkəndlisi xalq şairi Suleyman Rüstəm, bacıları Hürriyyət xanım və Bikə xanım

Faşistlərin önündə bir qala kimi durdun,
Sən düşmənə zərbəni zərbə üstündən vurdun.
Vətən məhəbbətini ürəyində daşıdın,
Öz qısaca ömrünü qəhrəmantək yaşadın.
Məslək yoldaşlarındır keşiyində duranlar,
Qəlbində Mehdi eşqi düşmənləri vuranlar.
Əziz qardaş, rahat yat, səsin çatar vətənə,
Qədirşünas xalqımız heykəl ucaldar sənə.[6]

Görünür, qəhrəmanın həm də şair olduğunu bilən dostları onu öz son məskəninə şeirlə yola salmağı qərara almışdılar.

Mehdi Hüseynzadə ixtisası üzrə rəssam, eyni zamanda alman dili müəllimi idi, şeirləri isə onun poetik təbə də malik olduğunu söyləməyə əsas verir. Dostlarından sənətşünaslıq doktoru Mürsəl Nəcəfov, müəllimi bəstəkar Səid Rüstəmov, qohumları, Mehdi Hüseynzadəni yaxından tanıyan bəzi gənclik yoldaşları onun hələ şagird və tələbə ikən ara-sıra lirik şeirlər yazdığını söyləyirlər. Mehdinin Leninqrad Xarici Dillər İnstitutunun IV kursundan Bakıya gəlib V.İ.Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirməsini (1940) onun böyük bacısı Bikəxanım Əlizadə bədii ədəbiyyata, şeirə olan coşğun həvəsi ilə izah edir, kiçik bacısı Hürriyyət Əzizbəyova isə şəhadət verir ki, "Mehdi şeirsiz yaşaya bilmirdi. Mehdi Hüseynzadənin Azərbaycan Tarix Muzeyində saxlanan sənədləri arasında bir şeir dəftərinə də rast gəldik. Onun öz əli ilə yazılmış həmin dəftərdə "Başladım 25/III-35, qurtardım 24/IV-35 qeydi vardır. Dəftər *"Ağ günü macərası"* adlı mənzum nağıldan ibarətdir. Təqribən 300 misra həcmində olub zülmə, istibdada qarşı mübarizənin tərənnüm edildiyi bu nağıl alleqorik səpgidə işlənmişdir. Mehdinin müharibə dövrü şeirləri haqqında

---

6. ***Şeirin müəllifi keçmiş partizan, Mehdinin silahdaşlarından Qriqori Aleksandroviç Jilyayev hazırda Moskva vilayətinin Lyubertsı şəhərində yaşayır. 19 noyabr 1944-cü ildə yazılmış şeirin o zamankı əl yazması Azərbaycan Tarix İnstitutunun elmi arxivindədir. (f.1, siy.4, iş 3582, vərəqə 4) Şeiri Azərbaycan dilinə Bəkir Nəbiyev tərcümə etmişdir.***

isə, qeyd etdiyimiz kimi, onunla birgə əsir düşərgəsində olan, sonralar Yuqoslaviya, İtaliya ərazisində partizanlıq edən silahdaşları məlumat verirlər. Keçmiş partizan, hazırda Azərbaycan Dəmiryolu İdarəsinin əməkdaşı Rza Orucov bildirir ki, Mehdi Hüseynzadənin döyüş yoldaşları onu öz aralarında həm də *"şair"* deyə çağırırlarmış. Mehdinin *"Vətən"*, *"Dunay"*, *"Adria sahillərində"* və s. şerlərini dəstənin azərbaycanlı döyüşçülərinin çoxu əzbər bilirmiş.

Keçmiş Yuqoslaviya - Sovet partizan batalyonunun həkimi Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti Mikayıl Qulubəyov "O həm də şair idi adlı məqaləsində Mehdi Hüseynzadənin şeirlərindən bir neçə nümunə də vermişdir. Məqalədən məlum olur ki, bu şeirlərin bəzilərini Mehdi öz həkim dostuna ünvanlayıbmış:

Ömrüm kam almayıb, çatmadı başa,
Könlümün şişəsi dəyibdir daşa.
Bir namə yazmadım yara, yoldaşa,
Xəzan yarpağıtək solğunam, ey dost!

Gecə ay üzünə salırkən işıq,
Verir camalına hərdən yaraşıq.
Adria, bil, sənə olmaram aşiq,
Mən öz Xəzərimə vurğunam, ey dost!

Şeirin altında *"Qürbətzadə"* imzası vardır. 1943-cü il noyabrın 13-də Qrats həbs düşərgəsinin xəstəxanasında yazılmış bu parçada hələ böyük qəhrəmanlıqlar göstərməzdən əvvəl adi əsir həyatı keçirən Mehdinin *"qürbətzadəliyi"*, vətənpərvərliyi nəzəri cəlb edir. Bundan sonra əsirlikdən qaçıb, bir partizan kimi fəaliyyətə başlayan Mehdi müəyyən mənada azadlıq, sərbəstlik əldə etməyə nail olur. Lakin vətən həsrəti yenə də onun qəlbini rahat buraxmır:

Kaş ki, mən bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni.
Aşaraq o qarlı, uca dağları
Vətən torpağına salaydı məni.

Nəzəri bu səmimi şeirin ilk misrasındakı *"sarı yarpaq"* ifadəsinə cəlb etmək istərdik. Bu obraz vasitəsilə gənc şair öz vətənpərvərlik duyğularını ifadə etmək istəmişdir.

Məlum olduğu kimi, sarı rəng yarpaq ömrünün xəzan çağından xəbər verən bir əlamətdir. Şair özü üçün xəzanı da rəva görür, təki son anda, son nəfəsdə də olsa vətən torpağına qovuşsun, onun əziz və istəkli adamlarını bağrına bassın. M. Hüseynzadənin "Ağlaram, *"Dəli ceyranım"* şeirləri də beləcə səmimi təsir bağışlayır. Yuqoslaviya dağlarında yazılmış *"Ağlaram"* qoşmasında ruh yüksəkliyi, qələbəyə inam bir-biri ilə mənaca təzad təşkil edən *"gülmək"* və *"ağlamaq"* sözlərinin müvazi işlədilməsi sayəsində alınan təsirli bir rədif vasitəsilə ifadə olunmuşdur:

Düşmənin başını bürüyüb duman,
Vətəndən əlimi üzmərəm, inan,
Gələcək bizimdir, yaxın bir zaman
Sevincdən, dostlarım, gülüb ağlaram.

Akademik Bəkir Nəbiyev
"Böyük Vətən müharibəsi
və Azərbaycan ədəbiyyatı" kitabından
1977-ci il nəşri.

MEHDİDƏN YADİGAR

(bir şəklin tarixi)

Oxucunun ilk dəfə gördüyü bu şəkil 1936-cı il martın 25-də indiki A.Şaiq adına Azərbaycar Dövlət Kukla Teatrının yaxınlığında çəkilmişdir. Gördüyünüz üç cavan kimdir?

Çox oxumuş, çox eşitmişdim ki, hər hansı bir şəxsin qəhrəmanlıq göstərməsi üçün onun çoşğun, fövqəladə təbiətə malik olması heç də vacib deyildir. Mehdi Hüseynzadənin Böyük Vətən Müharibəsində göstərdiyi qoçaqlığı, fədakarlığı təfsilatı ilə biləndə bu həqiqətə bir daha inandım. İnandım, amma fikirləşdim: sən demə, o sadə, sakit təbiətli, təvazökar, mehriban dostumuzun mənəvi aləmində gözə görünməyən böyük bir daxili qüvvə varmış!

Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi *"Mixaylo"* haqqında, onun faşizmə qarşı mübarizədə göstərdiyi rəşadət haqqında əsərlər, qəhrəmanın Bakıdakı əzəmətli abidəsi hamıya tanışdır. Onları mən də özümə iftixar mənbəyi sayıram. Lakin mənim Mehdi ilə tanışlığım daha çox həyatla bağlıdır.

Məktəbli cavanlar idik. Mən Çadrovı (indiki M. Əliyev) küçəsindəki orta məktəbdə oxuyurdum. Qardaşım qədər istədiyim bibioğlum, az sonra görkəmli teatr rəssamı kimi tanınmış Əsgər Abbasov isə Əzim Əzimzadənin direktor olduğu rəssamlıq texnikumunda təhsil alırdı. Hafizəm məni aldatmırsa, Mehdi o zaman texnikumda oxumaqla bərabər, Balaxanski (indiki Basin) və Korqanov küçələrinin kəsişdiyi yerdə M. Əzizbəyov adına kitabxanada işləyirdi. Mehdi hələ o illər çox istedadlı və istiqanlı bir cavan olduğu üçün rəssamlıq yolu tutmuş dostları arasında böyük nüfuza malik idi. Sonralar mən Həsən Mustafayevi, Səttar Bəhlulzadəni, Kamil Xanlarovu, Qafar Seyfullayevi tez-tez onun *"Şah döngəsi"*ndəki otağında görərdim.

Baharın ilıq günlərindən birində bibim oğlu Əsgərlə Mehdigilə, onların Qasım İsmayılov küçəsindəki mənzilinə getdik. Yuxudan təzəcə durmuş Mehdi bizi gülərüzlə qarşıladı.

Çox təəssüf ki, zaman o gənclik illərinin şən saatlarını və zarafatyana söhbətlərini yaddaşımdan silib aparmışdır.

Yadımda qalan bircə budur ki, bulvara çatanda Məmmədağa Tərlanov əlindəki fotoaparatı sazlayıb mənə uzatdı. *"Biz dayanaq, sən çək"* dedi. Fotoaparatı bir az tərəddüdlə alıb kiçik dəstəyi tərpətdim.

Həmin şəkildən bir nüsxə mənim arxivimdə qalmışdır. Gördüyünüz kimi, şəkildə Mehdi (sağdan birinci) çox qıvraq və çevik görkəmli bir gəncdir. Sol əlini toqqasına qoymuş, sağ ayağını bir az irəli atmışdır. Elə bil yürüşə hazırlaşır.

Bir neçə gün sonra fotoaparat yiyəsi sözünə əməl edib bulvarda çəkdiyim həmin şəkli mənə bağışlayanda, doğrusu, çox sevindim.

İndi həmin şəklə baxanda keçirdiyim hisslər daha dərin, daha kövrək olmaqla bərabər, iftixarla da qovuşur: xalqımızın qəhrəman oğlu Mehdi Hüseynzadənin bir o qədər də çox olmayan şəkillərindən birini mən çəkmişəm.

Şəkil saralıb solmuşdur. Amma Mehdinin surəti, əksinə, elə bil zaman keçdikcə daha işıqlı, daha yaraşıqlı olmuşdur.

Qələbə bayramı ərəfəsində oxucular üçün maraqlı olacağını nəzərə alıb, həmin şəkli *"Bakı"* qəzeti redaksiyasına təqdim edirəm.

Əziz Mirəhmədov
EA-nin müxbir üzvü, professor,
1986-cı il

ONU HEÇ VAXT UNUTMAYACAĞAM

Yaxşı yadımdadır, 1944-cü ilin payızı idi. Qızıl Ordunun bütün cəbhə boyu alman faşistləri üzərinə şiddətli hücumu davam edirdi.

Partizan dəstəmiz Yuqoslaviya torpağında azğın düşmənə qarşı tez-tez hücumlara keçir, misilsiz rəşadət göstərirdi.

Faşistlərə qarşı mərdlik nümunəsi göstərən partizanlarımız çox idi. Lakin Mehdi Hüseynzadənin igidliyi, möhkəm iradəsi, çətinliklərdən qorxmaması və gələcəyə inamı bizi heyran edirdi. Bax, elə buna görə də mən partizan yoldaşımız Mehdi Hüseynzadənin xatirəsini heç vaxt unuda bilmirəm.

M. Hüseynzadə bacarıqlı bir kəşfiyyatçı idi. Bu gün deyib–güldüyümüz, zarafatlaşdığımız Mehdini səhər dəstəmizdə görə bilmirdik. Komandanlıq onu tez-tez xüsusi tapşırıqla kəşfiyyata göndərirdi. Hər dəfə o, əməliyyatı müvəf-fəqiyyətlə başa çatdırıb qiymətli məlumatlarla dəstəmizə qayıdardı.

Dəstəmiz Yuqoslaviyanın Pridmey kəndində yerləşmişdi. Mehdiyə tapşırıq verilmişdi ki, Qoritsiya şəhərində yerləşən alman «SS» diviziyasından hərbi məlumat öyrənsin. Bu, çox çətin və məsul tapşırıq idi.

Mehdi Qoritsiya şəhərində dəfələrlə olmuşdu. Ona görə də şəhərə yaxşı bələd idi. Həm də diviziyanın qərargahında işləyən qızlardan biri ilə tanış idi. Məlumatı da ancaq bu qız vasitəsi ilə öyrənə bilirdi.

Keçmiş döyüşcü-partizan
Həmid Atayev

Mehdi yoldaşı ilə Qoritsiya şəhərinə gedir. Qızla görüşüb söhbət etdikdən sonra qəti qərara gəlir ki, diviziya qərargahının arxivini tamamilə yığışdırıb aparsın.

Arxivin yerini dəqiq öyrənir. Qızı başa salır ki, onlar gecə saat 1-də gələcək, qərargahdakıları tərksilah edəcək və arxivi aparacaqlar. Bu zaman qız özünü hər şeydən xəbərsiz kimi göstərməlidir.

Mehdi alman zabiti formasında gecə yarı diviziya qərargahına gedir (qərargah şəhərin mərkəzində yerləşirdi). Binanın qarşısında dayanan maşınları bir-bir yoxlayır. Yük maşınlarının birinin kabinəsində sürücü olduğunu görür. O, cəld sürücünü yuxudan oyadır. Əmr edir ki, (Mehdi alman dilini yaxşı bilirdi) maşını qərargahın qapısına sürsün. Sürücü əmri yerinə yetirir. Mehdi qərargaha daxil olur. Oradakıları tərksilah edərək, üzü divara saxlayır. Yanındakı yoldaşına tapşırır ki, geriyə çevrilən olsa vursun. Özü isə vaxt itirmədən arxivi götürüb maşına yükləyir. Sürücünün maşına nə yüklədiyindən xəbəri olmur, çünki onu yenə yuxu aparmışdı.

Maşın şəhərdən uzaqlaşanda sürücü yanında oturanlardan şübhələnməyə başlayır. Lakin artıq gec idi. Mehdi tapançanı onun sinəsinə dayamışdı. Əlacı kəsilən sürücü əmrə itaət edərək maşını birbaş Pridmey kəndinə – partizanların olduğu yerə sürür.

Bu zaman mən patrul idim. Səhərə yaxın naməlum bir maşının bizə tərəf yaxınlaşdığını görüb saxlamaq istədim. Mehdi tez kabinədən çıxıb özünü nişan verdi. Alman diviziyasından məlumat öyrənməyə gedən Mehdi diviziyanın bütöv arxivini götürüb gətirmişdi. Həm də üstəlik canlı adam və maşın. Mehdinin belə qəhrəmanlıqlarının çox şahidi olmuşam.

Mehdi həm də incə qəlbli bir şair idi. Yazdığı lirik qoşmaları bizə böyük ilhamla oxuyardı. Onun vətənə məhəbbət, düşmənə qəzəb və nifrət ifadə edən şerləri dilimizin əzbəri olmuşdu.

«Tərlanım» şerindən yadımda qalan bir neçə bəndi sizə təqdim edirəm:

Nə müddətdir ayrı düşdüm Vətəndən,
Giriftaram bu hicrana, Tərlanım!
Nə gedən var, nə gətirən bir xəbər,
Əlim çatmır heç bir yana, Tərlanım!

Dərd sinəmdə düyün bağlar, xal salar,
Baş ağarar, saçlarıma çal salar,
Qohum-qardaş məni xəbər alsalar,
Deynən düşüb bir tufana, Tərlanım!

İndi şığı, qalx havaya, var yeri,
Çal qanadın, buludları yar, yeri,
Dünya olub mən Mehdinin dar yeri,
Söylə bir-bir mehribana, Tərlanım!

Bəli, Mehdi Hüseynzadə Böyük Vətən müharibəsi dövründə şərəfli bir mübarizə yolu keçmişdir. Biz onun simasında sovet adamının mənəvi qüdrətini, qələbəyə qəti inamını görürük. Onun misilsiz qəhrəmanlığı Vətənə sonsuz məhəbbətinin və beynəlmiləlçiliyinin parlaq təzahürü idi.

Həmid Atayev
Balakən rayonu Katex kənd sakini,
M. Hüseynzadənin mübarizə yoldaşı

"MİXAYLO"NUN YENİ ÜNVANLARI

İlk gənclik illərimdə mənə güclü təsir göstərmiş bu əhvalat haqqında bəlkə də söhbət açmazdım. Lakin elə bir məqam gəlir ki, artıq susmaq mümkün olmur. İtkin oğulların izi ilə uzun illərdən bəri apardığım inadlı axtarışlarım möhtərəm oxucularımıza bəllidir. Yaradıcılığımda üstün mövqe tutmuş müharibə mövzusuna sadiq qalmağım, əlbəttə, səbəbsiz deyil. Faşizm üzərindəki tarixi qələbəmizin tək-tək igidlərin şücaəti sayəsində qranit abidəyə dönüb əsrlər boyu yaşayacağı da məlumdur.

Onda, əllinci illərin ortalarında, böyük qələbənin 10 illiyi ərəfəsində kəhkəşanda bir-birinin ardınca iki parlaq ulduz çaxdı və hər birinin şöləsi bütün cahana yayıldı.

Əvvəlincisi barədə ilk xəbər 1956-cı il fevral ayının 2-də verildi. Ertəsi gün mərkəzi qəzetlərin hamısında tatar xalqının mərd şair oğlu Musa Cəlilin portreti və SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı çıxdı. Adi təsadüf nəticəsində faşistlərə əsir düşmüş, lakin vətəni yadlara satmamış, Moabit həbs düşərgəsində olmazın işgəncələrə məruz qalmış igid siyasi rəhbər, şair, üsyankar nəğməkar Musa Cəlilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

O vaxtlar təəssübkeşliklə fikirləşirdim ki, görəsən qürbətdə mübarizə aparıb mətinləşən azərbaycanlılar arasında da bələləri olubmu?!

Onda nə biləydim ki, vaxt ötər, «Mixaylo» adlı igid bir kəşfiyyatçının qəhrəmanlığı üzə çıxar, bir çox illərdən sonra onun igidlik nümunəsindən bəzi səhifələri açmaq mənim payıma düşər. Yaxud, Bakının yaxınlığında 26 ildən artıq məskən saldığım qəsəbənin adını da bu böyük qəhrəmanın şərəfli adına qoşmaq ideyası da məhz mənim qismətimə düşər.

Görünür, yaradıcılıq qayğılarının da öz yeri, öz payı varmış. Həmin illərdə «Mixaylo» adlı qəhrəmanın adı ulduz kimi parıldamasaydı və bu ulduz o illərin alovlu, vətənpərvər

oğullarının qəlbini şölə ilə doldurmasaydı, mən də çox güman ki, inadlı hərbi axtarışlara başlamazdım.

Bəli, bizə, o cümlədən, mənim özümə dünyada hər şeydən güclü təsir göstərən ikinci «ulduz» 1957-ci il aprel ayının 11-də parladı.

Aprelin 12-də səhər tezdən qəzet köşklərinə necə «hücüm» çəkdiyimiz də yaxşı yadımdadır. «Kommunist» qəzetinin o gün çıxan nomrəsini xüsusi qovluqda elə indi də çox qiymətli bir yadigar kimi qoruyub saxlayıram.

Qəzetin birinci səhifəsində Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı və 11 aprel tarixli «Pravda»-nın «Sovet İttifaqı Qəh-rəmanı Mehdi Hüseynzadə» adlı baş məqaləsi verilmişdi. Üçüncü səhifədəki materialların da hamısı «Azərbaycan xalqının qəhrəman oğlu» ümumi başlığı altında Mehdi Hüseynzadəyə həsr edilmişdi. Qəzet əllərdə gəzir, qəhrəma-nın adı dillərdən düşmürdü.

Onda M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında İmran Qasımov və Həsən Seyidbəylinin «Uzaq sahillərdə» pyesi göstərilir, eyni adlı povest çox oxunurdu. Həmin günlərdə eyni adlı bədii filmin çəkilişi də sürətlə davam edirdi. Bakının Fioletov və Myasnikov küçələrinin kəsişdiyi tində, «Bilik» cəmiyyətinin binasında, İçərişəhərə giriş qapısındakı səhnələr bizim gözlərimiz qarşısında çəkildi. Kütləvi səhnələrdə iştirak etmək də biz tələbələrin payına düşdü. Bunlar elə əhvalatlar idi ki, beynimizdə, zehnimizdə silinməz iz buraxdı, «Mixaylo»nun ölməz adı bizim üçün daimi bələdçiyə döndü. Bu ad zehinlərdə rəmzi məna daşıyır, yaşamaq, oxumaq və işləmək əzmimizi gücləndirirdi. Onun barəsində yazılanların hamısını izləyirdik. «Uzaq sahillərdə» bədii filminə baxanda çox kövrəlir, indi bizdən çox-çox uzaqlarda qalmış o sevinc dolu günləri yada salıram. Biz yaşa dolsaq da, Mehdinin qəhrəmanlıq nümünəsindən bəhrələnməyi unutmadıq, tale də öz növbəsində bizi cəsur Mixaylo ilə yeni-yeni ünvanlarda görüşdürdü.

Birinci ünvan

Novxanı-Abşeron torpağının ən qədim kəndlərindən biridir. Ağ və qara şanısı, şirəli ənciri, gözəl bağları ilə məşhurdur. Bir çox illər bundan əvvəl kəndin girəcəyində, Saray kəndinə gedən yolun kənarında başqalarından heç bir cəhətlə seçilməyən bir ev vardı. Həmin evdə Mehdi adlı bir oğlan böyüyürdü. İki bacının bir qardaşı idi. Qumlu sahillərdə gəzməkdən, başı üstündə uçan qağayılara baxmaqdan, mavi suların qoynuna girib üzməkdən, bağları seyr etməkdən yorulmazdı. Sonra şəhərə köçdülər. Mehdi məktəbə getdi, pioner oldu, əlinə fırça götürüb rəsm çəkməyə başladı. Uşaqlıqda gördüyü, duyduğu əlvan mənzərələr bəzən şeirə dönür, Mehdini yazmağa, xəfif nəğmələr qoşmağa təhrik edirdi. Mehdi gəncləşir, rəssamlıq və şairlik sınaqları aləmində ilk uğurlu addımların atırdı.

Vətən göylərini qara buludlar alanda Mehdi silaha sarıldı, sorağı cəbhələrdən, xarici ölkələrdən gəldi. Dostları ona əfsanəvi bir ad verdilər: Mixaylo! Daha doğrusu, o, bu adı qəhrəmanlıq şücaəti ilə qazandı. Bu ad dillər əzbəri oldu.

Novxanı kəndi, 1992-ci il 11 aprel, "Mehdi günü"nün iştirakçıları. Arxa cərgədə sağdan birinci: Cavad Həkimli, Qədir İsgəndərov, məktəbin direktoru Taliyə xanım, jurnalist Şəmistan Nəzirli və başqaları

Mixaylo həmişəlik qürbətdə qaldı. Bizə onun təkcə qəhrəmanlığı barədəki hekayətləri gəlib çatdı. Haqqında kitablar yazıldı, şərəfinə heykəl qoyuldu, məktəblərdə qiymətli sənədlərdən ibarət muzeylər yaradıldı.

Budur, Novxanı kəndinin girəcəyindəki ikimərtəbəli yaraşıqlı binaya yaxınlaşırıq. Hər tərəfdə ciddi bir səliqə vardır. Bura Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə adına kənd orta məktəbidir. Qapını açan kimi geniş dəhlizdə qəhrəmanın büstü görünür.

Məktəbin direktoru Taliyə Paşayeva və ədəbiyyat müəllimi Səriyyə Cəfərova ilə birlikdə ikinci mərtəbəyə qalxırıq. Muzey burada yerləşir. Saysız-hesabsız sənədlər və eksponatlar dil açıb bizə igid bir kəşfiyyatçı haqqında hekayətlər danışır. Mehdinin ata-anası ilə, uşaqlıq dostları, ilk müəllimləri ilə birlikdə çəkdirdiyi foto şəkilləri!... Çox böyük, çox şərəfli bir yol! Əfsanələrə, unudulmaz xatirələrə dönmüş cəsurluq yolu!

Mehdinin gənclik illərini əks etdirən sənədlər, şəkillər bir-birini əvəz edir. Sonra onun məktəb illəri başlanır. Mehdi pioner qalstukunu komsomolçunun döş nişanı ilə əvəz edir. O, artıq rəssamlıq məktəbinin tələbəsidir, çəkdiyi müxtəlif rəsmlər divarları bəzəyir.

Hər il aprel ayının birinci yarısında burada Mehdi günü keçirilir. Qəhrəmanın bacıları, dostları, məktəb və döyüş yoldaşları, şairlər, yazıçılar, jurnalistlər, əmək və müharibə veteranları, partiya, komsomol, həmkarlar təşkilatı işçiləri buraya toplaşır. Hamı vətənpərvər Mehdidən, yenilməz Mixaylodan danışır, bir-birindən maraqlı xatirələr söyləyir…

Mehdi çox böyük qəhrəmanlıq nümunəsi göstərmişdir. Bu qəhrəmanlığın bir çox səhifələri isə hələ açılmamışdır. Bunu nəzərə alan Novxanı kənd məktəbinin pionerləri «Salam, Qələbə!» devizi ilə axtarışlar aparır, Mehdini tanıyanlarla, onunla birlikdə oxumuş və döyüşmüş adamlarla görüşür, xatirələr toplayırlar.

Cəsur kəşfiyyatçı Mixaylonun döyüş yolu Volqa sahillərindən, Yuqoslaviya dağlarından və Adriatik dənizi sa-

hillərindən keçmişdir. Mehdi ilə çiyin-çiyinə döyüşən adamlar pionerlərin suallarına cavab verir, qiymətli şəkillər göndərirlər. Bunun da sayəsində məktəb muzeyindəki eksponatların sayı artır.

Bəli, Abşeronda bir kənd var, Novxanıdır adı. Cəsur kəşfiyyatçı Mixaylo bu kənddə dünyaya gəlmiş, buradan pərvazlanmışdır. Bu kənd onun əvvəlinci ünvanıdır.

İkinci ünvan

Bakıdakı 19 nömrəli məktəbdə böyük bir canlanma vardı. Bütün pedaqoji və şagird heyəti mütəşəkkil halda xəttə çıxmışdı. Hamının nəzəri əfsanəvi qəhrəman "Mixaylo"nun tuncdan tökülmüş büstünə, onun mərd baxışlarına dikilmişdi. Elə bil günəş də igid kəşfiyyatçını salamlamağa çıxmış, öz al may şəfəqləri ilə qəhrəmanın döşündəki Qızıl Ulduzu daha da parıldatmışdı.

Bu ulduz qəhrəmanın ölümündən sonra onun heykəllərinin döşünə taxılmışdır. Özünün xəbəri olmasa da xalq bu yüksək mükafatı hər şeydən uca tutur.

– Diqqət! Diqqət Bütün dəstələr, raport üçün düzlən! – deyə məktəbin pioner baş dəstə rəhbəri mikrofona yanaşıb bu sözləri deyəndə tam sakitlik çökdü. Hərə sanki öz qəlbinin döyüntüsünə qulaq asırdı.

Məktəbin direktoru dəstə rəhbərlərinin raportlarını qəbul etdi. Sonra söz qonaqlara verildi.

Onlar çox idilər. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin xatirəsini yad etmək üçün təşkil olunan mitinqə məktəb muzeyinin açılışına baxmaq üçün gəlmişdilər. Valideynlər, adlı-sanlı əmək adamları, pedaqoqlar, alimlər, şairlər… Qəhrəmanın böyük bacısı Bikəxanım Əlizadə, Mehdinin məktəb yoldaşı, sənətşünaslıq elmləri doktoru, Mürsəl Nəcəfov, heykəltəraş Rəhim Quliyev, şair Ayaz Vəfalı, alman dili müəllimi Mirhüseyn Haşımov və başqaları mikrofona yanaşır, qəhrəmana həsr olunmuş mu-

zeyin təşkilindən, Mehdinin uşaqlıq illərindən, tələbəlik vaxtlarından və döyüşlərdə göstərdiyi şücaətlərdən söhbət açır, xoş xatirə deyirdilər.

Pionerlər şeir oxuyur, Mehdinin yarımçıq nəğmələrini mitinqə toplaşanların yadına salırdılar. Gurultulu alqışlar altında heykəlin postamenti önünə əklillər qoyulur, bir dəstə pioner isə qonaqların boynuna qırmızı qalstuklar bağlayırdılar.

Mitinq qurtardı. Mehdi Hüseynzadəyə həsr olunmuş muzeyin açılış başlandı. Sürəkli alqışlar altında lent kəsildi. Aparıcı danışdıqca eksponatlar dilə gəldi, tamaşaçılar qarşısında xatirələr dünyası açıldı…

İçəridə, foyedə qoyulmuş büstün postamentində yazılmışdır: «Biz, məzunumuz Sovet İttifaqı Qəhrəmanı Mehdi Hənifə oğlu Hüseynzadə ilə fəxr edirik!»

Divarlarda, xüsusi şüşə qutularda bir çox maraqlı sənədlər görünür. Mehdinin ata və anası, sevimli müəllimi Səid Rüstəmov…

Qəhrəman bu məktəbdə 7 il oxumuş, sonra sorağı uzaq ellərdən gəlmişdir. Burada toplanmış qiymətli sənədlər unudulmaz Mixaylonun fəaliyyətini çox canlı şəkildə əks etdirir. Qəhrəman yuqoslav partizanları arasında, daha sonra İtaliya dağları, Adriatik dənizi görünür… Bu da Ştoka kəndi. Partizan qadın Mariya. Vitovli kəndi… Dostlar barədə yazılar və teleqramlar. Mehdinin şəxsi sənədləri. Qəzetlərdən kəsilmiş məqalələr, Mehdinin həlak olduğu yerin fotoşəkli… Məzarüstü abidə…

Muzeyi gəzdikcə eksponatlara, divarlardan asılmış çərçivəli stendlərə baxdıqca, qəhrəmanın həyat yolu göz önündə canlanır, tamaşaçının məlumatı genişlənir.

«Mehdinin uşaqlığı», «Təhsil illəri», «Mehdinin şeirləri», «Gənclik illəri», «Heç kim unudulmur, heç nə yaddan çıxmır», «Mehdi yaşayır» və başqa bu kimi stendlər zövqlə tərtib olunmuşlar.

«Uzaq sahillərdə» bədii filmindən kadrlar, cəsur kəşfiyyatçı barədə yazılan kitablar muzeydə fəxri yer tutur. Bir

vaxtlar Mehdinin oturduğu parta indi məktəbin ən fəxri güşəsində qoyulub. Onlarda oturmaq şərəfi dərs əlaçılarına qismət olur.

Muzeyin açılışında iştirak edən qonaqlar fəxri-xatirə kitablarına öz ürək sözlərini yazdılar. Onlardan biri belədir:

«Bu gün 19 nömrəli məktəb kollektivinin Mehdiyə həsr olunmuş muzeyini gəzdikcə, çox gözəl təəssürat aldım. Onlar çox böyük iş görüblər. Qoy Mehdinin adı pionerlərə daim nümunə olsun. Pioner dəstəsinə böyük müvəffəqiyyət arzulayıram.

Bikəxanım Əlizadə
Mehdinin böyük bacısı"

Bacı bu sözləri göz yaşlarından boğula-boğula yazırdı. Qadının kədəri sevincinə qarışmışdı. Mehdi kimi bir igidin adının indi hamı üçün doğma və əziz olduğunu o, bir daha bu ünvanda görür və sevinirdi. Ona görə də qürurla, fəxrlə dedi:

– Müharibədə bir qardaş itirmişəm. Bunun sayəsində minlərlə qardaş və bacı tapmışam. Qoy Mehdinin adı onları murada yetirsin!..

Üçüncü ünvan

Azərbaycan Sovet Ensiklopediyasının 6-cı cildindəki 467-ci səhifəsində yazılmışdır:

«Mehdiabad. Azərbaycan SSR Abşeron rayonunda qəsəbə. Mehdiabad qəsəbə sovetliyinin mərkəzi. Rayon mərkəzindən 15 km şimal-şərqdə, Abşeron yarımadasındadır. Əhalisi 2281 (1981). Əsas təsərrüfatı üzümçülükdür. Şərab sexi, orta məktəb, kitabxana, kinoqurğu, tibb məntəqəsi və s.var».

Nəzərə alaq ki, ensiklopediyalarda məlumatlar çox xəsisliklə və ixtisarla verilir. Bunu nəzərə alaraq əlavə edək ki, ötən beş il ərzində Mehdiabad qəsəbəsi xeyli genişlənmiş, yenicə tikilib istifadəyə verilmiş yaşayış binaları hesabına söz yox ki, əhalisi də artmışdır.

Sovxoz tamamilə açıq düzdə salınmışdır. Onun balansında indi 826 hektar üzüm bağı vardır, 809 hektarı məhsuldardır. 30 hektar bağ isə 1985-ci il-də salınmışdır. Qəsəbədə çörək sexi, ticarət mərkəzi, məişət evi, «Vüsal» şadlıq evi, iri buynuzlu malqara tövləsi, briqadalarda tarla düşərgələri, telefon xətti, on bir otaqlı yeni həkim məntəqəsi, on beş otaqlı musiqi məktəbi, şahmat klubu, 400 nəfərlik yeni klub, idarə binası, talvar və s. tikilib istifadəyə verilmişdir. Qəsəbə sovetinin yaraşıqlı binasında yeni doğulanlar qey-də alınır, onların doğum şəhadətnamələrində və pasportlarda «Mehdiabad qəsəbəsi» sözləri yazılır. Deməli, Mehdiabad qəsəbəsinin yeni vətəndaşları həyata vəsiqə alır, Mehdi kimi yaşamağa və onun kimi mübariz olmağa çalışırlar.

Qəsəbə 1958-ci ildən mövcuddur və illər ötdükcə böyüyür. Eyni zamanda, əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin də adının əbədiləşdirilməsi üçün az iş görülmür. Bakıda qəhrəmanın abidəsi qoyulmuş, 19 nömrəli məktəbdə və Novxanı kənd orta məktəbində, qeyd etdiyimiz kimi, muzeylər açılmışdır. Bu sətirlərin müəllifi həmin açılışlarda və Mixaylonun adı ilə bağlı bir çox tədbirlərdə iştirak etmiş, Mehdinin şücaəti haqqında «Bilik» cəmiyyətinin xətti ilə mühazirələr oxumuş, qəhrəman barədə deyilənləri diqqətlə izləmiş, «Mixaylo yaşayır», «Mixaylo burada yaşamışdır» adlı reportajlar yazmışdır.

Möhtərəm oxucular yazılarımın sonunda imza ilə yanaşı «Mehdiabad qəsəbəsi» sözlərinə də çox rast gəlirlər. 26 ildir ki, mən bu qəsəbədə yaşayır, əsərlərimi də burada yazır, Mehdiabadlı olmağımla fəxr edirəm. Nəhayət, fəxrlə etiraf edim ki, qəsəbəyə bu ad partiya işi sahəsində çalışdığım illərdə bilavasitə mənim təşəbbüsümlə verilmişdir. Bu əhvalatı qəsəbənin köhnə sakinləri unutmayıblar…

1966-cı ilin ortaları idi. Onda mən Azərbaycan KP Abşeron Rayon Komitəsində təlimatçı işləyirdim. Raykom katibi məni öz kabinetinə çağırıb çətin bir tapşırıq verdi:

– Üzümçülük sovxozunda bu axşam ümumi kommunistlər iclası çağırılıb. Sən də get, qəsəbəyə yaxşı bir ad verilməsi təşəbbüsündə ol. Elə et ki, hamının ürəyincə olsun…

Mən tərəddüd göstərəndə dedi:

– Hekayələrinə elə ad seçirsən ki, onları başqa adla təsəvvür etmək mümkün olmur. Sən qəsəbənin köhnə sakinisən. Bu vacib məsələyə də yaradıcı münasibət bəslə…

Yol boyu bu barədə fikirləşir, götür-qoy edirdim. Bax, elə onda xatirələr məni çəkib 1962-ci ilin əhvalatları ilə qovuşdurdu.

… Onda partiya yığıncağına tələsərkən igid Mixaylo ilə bağlı arzular mənə rahatlıq vermədi, bunun da təsiri ilə zehnimdə «Mehdiabad» sözünün qəfil obrazı alındı. İclasda isə bu ad gurultu ilə alqışlandı və qərara yazıldı. Heç şübhəsiz ki, rayonun o vaxtkı rəhbərləri bu qərarı çox razılıqla təsdiq etdilər.

Beləcə, «Mehdiabad qəsəbəsi» sözləri ensiklopediyaya düşdü və ürəklərə köçdü.

Sevinirəm ki, heç olmasa bir igidin adına qəsəbə yaranmasında və təşəkkül tapmasında səy göstərmişəm. 500 nəfərlik igidin qəhrəmanlıq nümunəsini açmağımla da fəxr edirəm.

Mehdiabad qəsəbəsinin giriş qapısı yanında da belə bir yaraşıqlı bulaq yaradılmışdır, çox təəssüf ki, ona ad qoymaq heç kimin yadına düşməmişdir. Ona «Mehdi bulağı» adı qoyulsa, daha şərəfli olmazmı?..

Arzum budur ki, belə bulaqların sayı artıb çoxalsın, daimi ünvan isə ömrünü şərəflə başa vuran cəsur oğulların adları olsun!

Ən etibarlı ünvanlar isə qədirbilən insanların hərarətli ürəkləridir. Mixaylo kimi cəsur adlar belə ürəklərdə həmişəlik ünvan tapmış, bu gün də bizimlə çiyin-çiyinə yaşayırlar. Qoy bu yeni ünvanlar daha da genişlənsin…

Əliağa Yasinzadə
«Qızıl qələm» mükafatı laureatı,
Mehdiabad qəsəbəsi

"VƏTƏN TORPAĞINA SALAYDI MƏNİ"



Mehdi Hüseynzadə 1940-cı ildə

Əzizimiz Mehdi! Heykəlinin qarşısında durub bayaqdan sənin o ifadəli üzünə, məğrur görkəminə, düşmənə qarşı nifrət dolu gözlərinə baxıram. Sanki sən ən uca dağlardan da ucada durmusan. Müqəddəs Vətənimizin ucsuz-bucaqsız sərhədlərini görür, əlindəki qumbaranı bərayi-ehtiyata saxlamısan ki, uğrunda canımızdan keçməyə hazır olduğumuz ana torpağımıza pis niyyətlə ayaq basan tapılsa, atasan, onu öz qanına qəltan edəsən. Ancaq sərhədlərimizdəki topların, tankların lülələrində nə vaxtdır ki, göyərçinlər yuva qurub. Elə sənin tutduğun qumbaranın üstündə bayaqdan bir kol sərçəsi cikkildəyir. O da dizinin büküşündə özünə sığınacaq tapıb. Bir az bundan əvvəl analar anası olan qara geyimdə bir qarı ayaqlarının altına nərgizlər atıb getdi. Onları axşam gəzintisinə çıxanda sevgilin üçün aparacaqsan. Axı, sən necə vardır, eləcə də cavan qalıbsan. Cavan qalıbsan ki, mağar qurasan, elini-obanı toyuna çağırasan. Cavan qalıbsan ki, biz rahat-rahat qocalaq. İxtiyar qocaların, ağbirçək analaların ömrü nağıllaşsın.

İndicə görüşünə gəlməzdən əvvəl evinizə döndüm. Qasım İsmayılov küçəsini necə görmüşdünsə, bax, eləcə də durur. Sənin neçə-neçə xoş xatirə ilə bağlı uşaqlıq çağların burda keçib, dünyaya sığmayan arzuların burdan qanad açıb.

Uzun-uzadı pilləkəninizdə ayaq izlərini gəzdim. Bu pillələri gündə ən azı yüz yol qalxıb enərdin. Bu ev sənin uşaqlıq dünyanın ilk beşiyi olub. Dostlarının zarafatlarını da burda eşitmisən, əyləncəli, qayğılı günlərin də burda keçib. Evinizin qabağındakı söyüd ağacı yadındamı? Hər bahar gələndə o ağac yaşıl-yaşıl qaynaşır, yarpaqlar xatirələr pıçıldayır. Bizə səndən danışır, səndən söz açır. Deyir ki, Mehdi uşaqlıqda qarayanız, saçları sığallı, qaragözlü , bir oğlan idi. Yamanca nadinc idi. Elə ki, məktəb illərin başlandı, qayğıların artdı, qapınızdan dəcəlliyin ayağı yığışıldı. Əlinə dərs çantası götürüb getdiyin 19 nömrəli məktəb xatirindəmi? Hər gün sən özünlə məktəbə qayğılar aparardın, əvəzində evə sevinc gətirərdin. Aldığın əla qiymətlər bacılarına, hamıdan çox bibinə sevinc paylardı. Beləcə keçdi sənin o təkrarolunmaz, unudulmaz uşaqlıq günlərin. Ömrün başlanğıcında qaldı o günlər, o çağlar. Təhsil illərinin ən şirin xatirələri sinif yoldaşlarınla, məktəb müəllimlərinlə bağlıdır. Səid müəllimdən bir vaxt sevə-sevə danışardın. Bu günlərdə onlara getmişdim. Səndən söz düşəndə gözləri doldu. Qəlbi sarı sim kimi titrədi. Başının üstündə sənin şəklin vardı. Tarı sinəsinə sıxdı. *"Simlərin tufanı"* başlananda bir anlığa musiqi dünyasına qarışıb özünü əlçatmaz ucalıqlarda duydu. Pərdə-pərdə kövrəldi. Muğamda əridi. Mahnılarda gülüb baxışlarına böyük-böyük sevinc çiləndi.

Mehdi, bütün boş vaxtını rəsm çəkməklə keçirərmişsən. Belə deyirlər. Deyirlər ki, bəzən sakit bir güşəyə çəkilib qapılardın öz aləminə, təbiətin rəngli nəğmələri ilə yaşayardın. Bəzən ləpədöyəndə oturub dənizə qulaq asardın. Evə dəniz səninlə birgə qayıdardı, rənglər aləmində dincələrdi və haray çəkib qağayıları da çağırardı.

Bikəxanım Əlizadə:

– O 1932-ildə Bakı Rəssamlıq Texnikumunda, mən Tibb İnstitunda oxuyurdum. Mehdi axşamlar evdə idarələrdən, kitabxanalardan, *"Azərnəşr"*dən aldığı işləri işləyərdi. Sonralar təhsilini Leninqradda davam etdirdi.

1941-ci ilin yayı. Mehdi, Djerjinski rayon hərbi komisarlığına gəldin. Oğullarını, qızlarını cəbhəyə yola salan çox idi. Bacılarınla görüşdün. Burda çalğıçılar da vardı. *"Vağzalı"* sifariş elədin. Bir azdan musiqi yarımçıq qaldı. Əlində çiçək tutmuş bir qıza necə oğrun baxırdın, Mehdi.

Hüriyyət Əzizbəyova:

– Bundan sonra əsgər bacısı idim. Mehdi xidməti yerindən mənə tez-tez məktub yazardı. Oranın mənzərələrindən, təbiətindən söz açardı. Mehdinin sonralar Tbilisiyə yolladılar. Tbilisindən göndərdiyi məktubların birində yazırdı: *"Hərbi məktəbi əla qiymətlə qurtardım. Dünən mənə avtomat və təzə hərbi geyim verdilər. Sağ olun, sabah yola düşürük"*. 1942-ci ilin axırında Mehdi Stalinqraddan yazırdı: *"Cəbhədən yazıram. Burda güclü vuruşmalar gedir. Biz sabah hücuma keçirik. Mən sizə söz verirəm ki, son damla qanıma kimi vuruşacağam. Sizin başınızı ucaldacağam"*. Bu, Mehdinin son məktubu idi. Şair xəyallı, təbiət aşiqi Mehdinin sorağı Adriatik sahillərindən gəldi. Səfalı Sloveniya! Adriatik dənizinin qayalıqlarında ayaq saxlayıb mirvarilər kimi sahilə səpələnən sulara vurğun-vurğun baxardın. Karkollo, Kontovello, Villa Opçina... Adriya sularının nəğmələri neçə-neçə gözəl rəsminə mövzu olacaqdı, neçə-neçə şeirin tunc misrasına dönəcəkdi. Ancaq ürəyində yenə də Bakı idi, vətən idi, ata ocağın, dostun-tanışın, elin-oban idi.

Gecə ay üzunə salırkən işıq,
Verir çamalına hərdən yaraşıq.
Adriya!. Bil sənə olmaram aşiq,
Mən öz Xəzərimə vurğunam, a dost.

Mürsəl Nəcəfov:

Gələcək bizimdir yaxın bir zaman,
Sevincdən, dostlarım, gülüb, – ağlaram.

Mehdinin bu misraları tez-tez yadıma düşür. O, mənim ən yaxın dostum, sirdaşım idi. Məndə şəkil çəkməyə

Mehdi həvəs oyadıb. Yay aylarında günümüzü Novxanıdakı bağlarımızda keçirərdik. Mehdi ilə son görüşüm 1941-ci ilin avqust ayında oldu. Mən Mehdinin məktublarını və şəkillərini qiymətli bir hədiyyə kimi saxlayıram.

Əgər Mehdi sağ qalsaydı, onun silah tutan əlləri yəqin ki, yenə də fırçadan yapışardı. Kim bilir, o nə qədər gözəl və mənalı əsərlər yaradardı... Ondan nişanə qalan üzük də hansı bəxtəvərinsə barmağına taxılacaqdı. Yenidən *"Vağzalı"* çalınacaqdı. Ötən günlərin nəşəsini xatırlaya-xatırlaya doğrudanda sevincdən gülüb ağlayacaqdır. Lakin Mehdinin qəhrəmanlıqla dolu həyatı, onun arzuları, istəkləri neçə-neçə əsərə mövzu oldu. Adına dastanlar qoşuldu. Nəğmələr yazıldı. Xalqımızın iftixarı Mehdi nəsillərə nümunədir.

Mehdi Əzizbəyov (Mehdinin bacısı oğlu): – Dayımı görməmişəm. Mən onun arzusuyam, əməliyəm, bacısının yadigarıyam. Onun ayaq basdığı pillələrlə düşüb ən çox sevdiyi söyüd ağacının altından keçərkən baharın başına qızıl tac qoyan payızı, onun yarpaq yağışını tez-tez xatırlayır və dodaqlarıma bir vaxt dayımın yazdığı bu misralar qonur:

Kaş ki, mən bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni.
Aşaraq o qarlı, uca dağları
Vətən torpağına salaydı məni.

Əzizimiz Mehdi, sən yurduna, elinə, obana heykəlləşib qayıtdın. Qayıtdın ki, bu gün hüzuruna gələk, səni anmağa Səni xatırlamaq üçün görüşünə gələn min-min insanın adından ucadan deyəsən:

Süd verib qoynunda bəslədin məni,
Mən sənin gözünə qurbanam, Vətən.
Qoymaram incidə yad ellər səni,
Bil ki, etibarlı oğlunam, Vətən.

Əmir Mustafayev
yazıçı

RƏŞADƏTLİ İNTİQAMÇI

1944-cü il fevral ayının əvvəlləri idi. Mən alman-faşist əsirliyindən qaçaraq, İtaliyanın şimal-şərqində olan Triyest şəhərinin ətrafında İtaliya - Yuqoslaviya partizan-kəşfiyyatçı dəstələrinə qoşuldum.

Burada mənə məlum oldu ki, IX İtaliya-Yuqoslaviya partizan korpusunun 31-ci diviziyasındakı İvan Qradinko adına briqadanın tərkibində Sovet vətəndaşlarından ibarət bir bölük var.

Odur ki, komandanlıqdan oraya göndərilməmi xahiş etdim. Tez bir zamanda xahişim yerinə yetirildi və mən istədiyim hissəyə getdim.

Bu rus, azərbaycanlı, orta asiyalı və sloveniyalılardan ibarət bir bölük idi. Bölük isə Angel dağlarının zirvəsində yerləşən Olitsa kəndində idi.

Burda bir nəfər orta boylu, enlikürək, qarayanız və xoşsifət bir gənc mənim diqqətimi cəlb etdi. Bu, Mehdi Hüseynzadə idi. Biz yaxından görüşüb tanış olduq, sonra Mehdi mənə partizan həyatından və qarşıda duran vəzifələrdən söhbət etdi.

Hələ birinci görüşdə Mehdinin qayğıkeş. xoşəhval, həm də insanpərvər bir adam olduğunu bilmək mümkün idi.

O, daim boş vaxtını yoldaşları ilə keçirir, şirin-şirin söhbət edir, hamını Puşkinin və Molla Nəsrəddinin lətifələri ilə əyləndirirdi. İlk nəzərdə ona əsla qəhrəman demək olmazdı.

Bölüyümüz yerləşən Olitsa kəndinin 12-15 kilometrliyindəki Qodoviç kəndində çoxdan bəri alman faşistləri yerləşmişdi. Faşistlərin burada olması partizanlar üçün təhlükə törədirdi. Odur ki, həmin kəndin düşmənlərdən azad edilməsi bizim bölüyə həvalə olunmuşdu.

1944-cü il fevralın 18-də biz axşam həmin kəndi mühasirəyə aldıq. Buraya özümüzlə toplar da aparmışdıq. Bu isə partizan döyüşlərində nadir bir şey idi. Düşmən fəal

müqavimət göstərirdi. Lakin dəstəmiz qəti hücuma keçərək düşməni həmin kənddən çıxarmağa müvəffəq oldu. Bu döyüşdə ağır yaralananların arasında Zeynalov Əyyub adlı bir nəfər azərbaycanlı da var idi.

Kəndə birinci olaraq Mehdi ilə birlikdə mən və bir neçə partizan daxil olduq.

Biz kəndin kənarındakı evə yaxınlaşaraq qapını döydük, lakin qabağa çıxan olmadı. Bu vaxt Mehdi qapıya təkan vuraraq açdı. Qapının ağzında hər qolunun üzərində bir uşaq tutmuş bir gənc sloven qadını ağlayaraq onları öldürməmək üçün yalvarırdı.

Həmin qadın, partizanlar haqqında almanların apardığı çirkin təbliğatın qurbanı idi.

Mehdi qadının əlindən uşaqları alaraq bağrına basdı və qadını sakitləşdirdi. Mehdiyə baxarkən mən xeyli təəccübləndim: onun gözləri yaşarmışdı, bunu mən birlikdə olduğumuz uzun müddət ərzində birinci dəfə idi ki, görürdüm.

Sonralar Mehdi Çerne Verx kəndinin faşistlərdən azad olunmasında, Sloveniyanın sənaye mərkəzi olan İdriya şəhərinə basqınlarda böyük rəşadət və məharət göstərmişdi.

1944-cü il mart ayının axırları idi. Mehdi bizi ətrafına toplayaraq artıq bizdən ayrılıb IX İtaliya -Yuqoslaviya partizan korpusunun qərargahına, daha ciddi məsələlər həll etmək üçün getdiyini bildirdi.

Biz ona zarafatla: "Etibarsız dost, nə üçün bizdən ayrılırsan? dedikdə o cavabında zarafatyana : *"Qaz vur, qazan dolsun, sərçə - cücədən nə olar!"* – dedi.

Həqiqətdə də bu belə oldu. Çox keçmədən Mehdi alman zabiti paltarı geyərək Triyest şəhərinin yaxınlığında olan Villa Opçina qəsəbəsinə gedərək kinoteatrı partlatmış və nəticədə 200-dən artıq faşist əsgər və zabitini məhv etmişdi.

Yoldaşlarından ayrılmağına baxmayaraq bizimlə əlaqə saxlayır və bizə ərzaq gətirirdi.

Mənim onunla son görüşüm 1944-cü ilin iyun ayının axırlarında oldu. Bu belə olmuşdu. Dəstəmiz Vartivin kən-

dində durmuşdu. Mən iki nəfər sloven partizanı ilə ətrafda gözətçilik etmək əmrini almışdım. Həmin kəndin 5-6 kilometrliyində olan bir yüksəkliyə qalxdıqda, yuxarıdan bizə tərəf gələn bir almanı gördüm. Mən cəld silahımı ona tuşladım, lakin onun Mehdi olduğunu gördüm və acıqlı-acıqlı onu məzəmmət edərək niyə alman libasında partizan zonasına gəldiyini dedikdə o çoxdan həsrət qaldığımız siqareti verərək məni sakit etməyə çalışdı. Mehdi yoldaşları ilə növbəti görüşünə gəlmişdi. Həmişə olduğu kimi indi də əliboş gəlməmişdi – siqaretlə bərabər bir qədər duz da gətirmişdi. Mən ona dəstənin yerini nişan verərək öz işimə davam etdim.

Sonralar mən IX partizan korpusundan ayrılaraq VII korpusun tərkibinə daxil olduğumdan onunla bir daha görüşə bilmədim.

Rza Orucov
Mehdinin partizan-döyüşçü yoldaşı

QƏHRƏMANLARIN XATİRƏSİ YAŞAYIR

Yazıçı İmran Qasımovla müsahibə

Müharibə çoxdan qurtarmış olsa da, Azərbaycan xalqının rəşadətli oğlu, doğma vətəndən uzaqlarda faşizmə qarşı döyüşlərdə həlak olmuş Mehdi Hüseynzadənin xatirəsi unudulmamışdır. Mixaylonun partizanlıq etdiyi Yuqoslaviya dağlarında onun haqqında indi də əfsanələr yaradılır, onun adı Adriatik dənizi sahillərində, İtaliyanın şəhər və kəndlərində ehtiramla yad edilir.

Yazıçı İmran Qasımov öz həmyerlisinin və qəhrəmanının hünər yolları ilə yüzlərlə kilometr qət etmişdir. Yazıçı xarici ölkəyə səfərdən bu günlərdə qayıtmışdır.

İmran Qasımov Azər.TA -nın müxbirinə demişdir:

– Mehdi Hüseynzadənin həlak olduğu vaxtdan iyirmi beş ildən çox keçir. Mən bilmək istəyirdim ki, torpağında Mixaylonun vuruşduğu və uğrunda canından keçdiyi adamlar onların azadlığı və gələcəyi naminə göstərilən qəhrəmanlığı bu gün necə qiymətləndirirlər.

On beş il bundan əvvəl *"Uzaq sahillərdə"* romanı yaradılarkən İmran Qasımov və Həsən Seyidbəyli Mehdinin fəaliyyəti ilə bağlı olan yerlər haqqında çoxlu məlumat toplamışdılar. İndi yazıçı buraya sanki ikinci dəfə gələrək, tanış marşrutu əyani olaraq təkrar etmişdir. Triyestin daş döşənmiş kələ-kötür küçələrindən, San-Custo kilsəsinin yanında faşistlərin partizanları dar ağacından asdıqları Vina Del Akvedotto küçəsindən keçmiş və şəhərin hər bir güşəsi, Mehdinin burada böyük şücaət göstərdiyi vaxtları xatırlatmışdır.

İtaliyanın ictimai həyatında milli partizan hərəkatı cəmiyyəti indi də mühüm rol oynayır. Bu cəmiyyət öz sıralarında İtaliya müqavimət hərəkatının iştirakçılarını, Haribaldi korpuslarında vuruşmuş adamları birləşdirir. İmran Qasımov demişdir:

– İtaliyada olarkən cəmiyyətin bir çox fəalları və veteranları ilə dostlaşdım. Doqquzuncu Korpusun komandiri Mario Fantavinin, həmin korpusun komissarı Mario Berentinin, *"Katya"nın* – Slava Çequretsin, *"Milka"nın,* Emilya Petelininin, Yozef Lazarın Mixaylonu, onun döyüş yoldaşlarını, dəfələrlə dağ cığırları ilə ötürən digər partizan rabitəçilərinin adlarını çəkmək istərdim. Adları çəkilənlər və bu səfər zamanı tanış olduğum bir çox başqaları Mehdini böyük məhəbbətlə xatırlayır, çoxlu təsirli hadisəni misal göstərərək sanki bununla Hüseynzadənin hünərləri salnaməsinin səhifələrini tamamlayırdı.

İmran Qasımov Mehdini dostları ilə birlikdə Mixaylonun əfsanəvi hünərlər göstərdiyi yerlərdə olmuşdur. Faşistlərin mehmanxanası və yeməkxanasının yerləşdiyi keçmiş beşmərtəbəli *"Doyçe zoldatehaym"* imarətindən daş üstə daş qalmamışdı. Alman ober–leytenantı forması geyinmiş Mehdinin qoyduğu bombanın partlaması nəticəsində həmin

imarətdə 600-dən çox Hitler əsgər və zabitinin külü göyə sovrulmuşdu. İndi həmin binanın yerində – Via Keqqa küçəsində Triyest konservatoriyası uçalır.

Yazıçı sözünə davam edərək demişdir:

– Triyestin şəhərətrafı qəsəbəsi Opçindəki kinoteatr isə hələ də qalır. Partizanların qoyduğu bomba kinoteatrın divarında yarıq açmışdır. Müharibə illərində buraya yiyələnən kinoteatrın sahibi kino seansı zamanı Mehdinin partladıcı qoyulmuş portfeli saxladığı yeri göstərdi. Mehdi yanında əyləşmiş alman zabitindən xahiş etmişdir ki, onun ardınca gəlsin. Bina çoxdan bəri yenidən qurulmuşdur, yalnız Mixaylonun vaxtı ilə əyləşdiyi və indi başqa rəngli üz çəkilmiş kürsü müqavimət hərəkatının şanlı epizodlarından birini xatırladır.

Kiçik Monfolkone şəhərinin yaxınlığında bir körpü vardır. Bu körpü də Hüseynzadə dəstəsinin cəsarətli əməliyyatlarının, şahididir: partizanlar burada hitlerçilərin mindikləri qatarı yoldan çıxarmışlar. Nabrajina dəmiryol stansiyasında isə Mehdi Almaniyaya zorla işləməyə göndərilən yerli əhalini döyüş dostları ilə birlikdə dəfələrlə xilas etmişdir.

İ. Qasımov daha sonra demişdir:

– Milli partizan hərəkatı cəmiyyətinin üzvləri Mehdinin döyüş əməliyyatları ilə bağlı olan bir çox naməlum, təsirli faktları mənə bildirdilər. İtaliya müqavimət hərəkatı haqqında nəşr olunan materiallarda Mehdinin adı indi də çəkilir. Romada, Venesiyada mənim onlarca müsahibim həmyerlimizin böyük hünərləri haqqında dərin hörmətlə danışırdı.

Mehdinin silah yoldaşları ilə birlikdə İmran Qasımov Yuroslaviya dağlarına getmişdir. Bu dağlarda həmyerlimiz son döyüşdə iştirak etmiş və həlak olmuşdur. Vitovle kəndində Mehdinin hitlerçilərlə atışdığı ev bir xatirə kimi saxlanılır. Mehdinin dəfn olunduğu Çepovanidəki yerli kənd idarəsində onun əşyaları müqəddəs xatirə kimi qorunur, burada qəhrəman haqqında çoxlu ədəbiyyat toplanmışdır.

Yazıçı demişdir: – Döyüş silahdaşları ilə dəfn olunmaq Yuqoslaviyada ən yüksək əsgəri şərəf hesab olunur. Mehdi bu şərəfə nail olmuşdur. O, partizan dostları ilə faşizmə qarşı ümumi mübarizə naminə canlarından keçmiş bir çox millətə mənsub adamlarla birlikdə dəfn edilmişdir. Gülçiçəyə tutul-muş məzar üstündə ucaldılmış qara mərmər obeliskdə bu sözlər həkk edilmişdir: "SSRİ qəhrəmanı Mehdi Hüseynzadənin döyüş dostları ilə yuqoslaviyalı və italyanlı dostlarının iştirakı ilə keçirilən matəm mərasimi heç vaxt unudulmayacaqdır".Mən Mehdinin anadan olduğu doğma Bakının bir ovuc torpa-ğını onun məzarına səpdim. Bu mərasimin iştirakçılarından hər biri Azərbaycan döyüşçüsünün dəfn olunduğu torpaqdan bir çimdik götürüb mənə verdi. Qəhrəmanın məzarından götürdüyüm torpaq Mehdi Hüseynzadənin Azərbaycan paytaxtında ucaldılacaq abidəsi altında Bakı torpağına qarışacaqdır.

...İmran Qasımov sözünə davam edərək demişdir:

–İtaliyada olduğum günlərdə bu ölkədəki qələm qardaşlarımla görüşdüm. Sülh və xalqların təhlükəsizliyi, ictimai tərəqqi uğrunda mübarizədə tərəqqipərvər yazıçıların rolundan söhbət düşdü. Həmən ədiblər arasında Karlo Levi, Qofredo Parezi və Alberto Moravia kimi məşhur yazıçılar var idi. Yeri gəlmişkən deməliyəm ki, Alberto Moravia respublikamız haqqında ocerk yazmaq üçün yaxın vaxtlarda Azərbaycana gəlmək niyyətindədir.

İsveçrənin Epalanj şəhərində daha bir maraqlı görüş oldu. Fransız yazıçısı Jorj Simenon burada yaşayır. Lakin Qasımov onu görməzdən əvvəl məşhur polis komissarı, iki yüz romanın qəhrəmanı, qırx ildən çox müddət ərzində bütün dünyada böyük şöhrət qazanmış Meqre ilə görüşmüşdür. Meqrenin Lyejdə bu ədəbi qəhrəmanın şərəfinə uçaldılmış abidənin surəti olan heykəli Simenonun yaşadığı villanın bağında qoyulmuşdur. Jorj Simenon azərbaycanlı qonağa yadigar üçün növbəti *"Meqrenin romanı"* kitabını bağışlayaraq, bununla da sanki gələn ilin baharında səfər etməyə hazırlaşdığı Bakıya öz komissarını *"nümayəndə"* göndərmişdir.

Məmməd Cəfərlinin **"AZƏRBAYCAN LEGİON ƏDƏBİYYATI" kitabından.** *(Bakı 2005-ci il):* –Azərbaycan ədəbiyyatını və mədəniyyətini sevə-sevə öyrənən Mehdi Hüseynzadə uşaq yaşlarından rəsm çəkməyə xüsusi maraq göstərir. Elə bu maraq 1932-ci ildə Mehdini Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirir və o, 1936-cı ildə oranı bitirir.

Müharibə başladığından Mehdi Hüseynzadə 1942-ci ilin iyununda almanlar tərəfindən əsir götürülür və sonralar legionda xidmətə başlayır. 1942-ci ilin sonlarında Mehdi Hüseynzadə almanlar tərəfindən təşkil olunmuş 3 aylıq Potsdam kurslarına ezam olunur. Kursda Mehdi Vermaxtın digər düşərgələrindən gəlmiş legionçularla, o cümlədən, tanınmış Azərbaycan tənqidçisi Əli Nazimin qardaşı legionçu Ələsgər Mahmudzadə ilə də tanış olur. Kursları bitirdikdən sonra Mehdi legionda təşviqat və təbliğat işləri ilə yaxından məşğul olur. ***Mehdi sistematik olaraq radio ilə çıxış edirdi. Sovet hökumətinin tezliklə yıxılacağına inanan M.Hüseynzadənin çıxışlarının mərkəzində Azərbaycanın müstəqilliyi məsələsi dayanırdı. Mehdi təbliğatçı kimi dəfələrlə Azərbaycan legionunun müxtəlif hissələrinə getmiş, alman dilində nümayiş etdirilən filmləri Azərbaycan legionçularına tərcümə etmişdir.***

Məhz bu dövrdə onun vətənə, vətənin işıqlı gələcəyinə həsr olunmuş şerləri legionçular arasında məşhurlaşır.

Gənclik həyatıma qədəm qoyunca,
Gəzmədim suyunda mən də doyunca,
Qurbanı olaydım sahil boyunca,
Çünki o Kaspinin vurğunuyam mən.

Mehdinin legion hissələrinin döyüş vərəqələrində, digər nəşrlərdə dərc olunmuş 1943-1944-cü illərdə yazdığı şerlərin bəzilərini kitabımıza daxil etmişik.

Həsən Seyidbəyli: **"GÖRDÜYÜM YERLƏR kitabından:** *(1980-ci il).* -Özümlə rəssamlarımızın bukletlərini, Bakı və Azərbaycan haqqında albomlar, öz kitablarımı, xırda suvenirlər və yazıçı İmran Qasımovla birgə yazdığım *"Uzaq sahillərdə"* povestini aparıram. Məni və İmranı Yuqoslaviyaya yaxınlaşdıran əsasən bu povest olmuşdur.

Mehdi Hüseynzadə 1941-ci ildə

Bir gün məni Azərbaycan Komsomolunun Mərkəzi Komitəsinə dəvət etdilər. Küçədə birdən İmranla rastlaşdım.

– Burada nə yaxşı? – deyə məndən soruşdu.

Dedim:

– Məni çağırıblar, bəs sən?

– Məni də.

– Görəsən, nə məsələdir?

– Yəqin ki, bir iş tapşıracaqlar.

Fikrə getdim. Çünki əlimdə vacib bir işim var idi. İmran da dedi ki, rus draması üçün bir pyes yazır. O da əsərini bitirmək istəyirdi. Qərara gəldik ki, bir-birimizə kömək edək, çalışaq ki, hələlik bizə toxunmasınlar, əlimizdəki işimizi qurtara bilək.

Bizi respublika komsomolu MK birinci katibi qəbul etdi. Öz vəziyyətimizdən, işimizin gərgin keçməsindən danışmağa heç bir imkanımız olmadı. Katib bizə qısa bir arayış oxudu. Bu arayışda Azərbaycandan çox-çox uzaqlarda İtaliya və Yuqoslaviya partizanları sıralarında fövqəladə qəhrəmanlıq göstərmiş, Mehdi Hüseynzadə haqqında xəbər verilirdi. Bizdən xahiş etdilər ki, ikimizdən birimiz Mehdi Hüseynzadə haqqında qəzet üçün bir neçə oçerk yazaq. Bu

arayış qısa olsa da, bizi o qədər tutmuşdu ki, nə mən, nə də İmran bayaq möhkəm şərtləşdiyimizə baxmayaraq, işimizi qurtarmaq üçün möhlət istəmədik. Duruxub qalmışdıq. Bilmirdik necə cavab verək. Mən İmranın gözlərindən hiss edirdim ki bu arayış onu da bərk sarsıdıb, buna görə...

– Bir halda ki, ikimizi də dəvət etmisiniz, elə gəlin bu əsəri ikimiz də yazaq, – dedim. –Ancaq bu materialı oçerkə sığışdırmaq çətin olacaq.

Ən münasib janr povest idi.

Biz Mehdi Hüseynzadə haqqında povest yazmağı qərara aldıq. Aldığımız məktublarda görüşlər zamanı verilən suallarda bizdən soruşurdular ki, necə olur iki yazıçı bir yerdə əsər yazır. Ümumiyyətlə, iki yazıçı bir əsər üzərində necə işləyə bilər?

Mən bu yazımda həmin suala qısa da olsa cavab vermək istəyirəm. Bayaq, bir məktəbdə oxuduğumuzdan və bir yerdə işlədiyimizdən təsadüfü olaraq danışmırdım. Bunu ona görə qeyd etdim ki, bizim eyni mühitdə böyüyüb tərbiyə aldığımız oxucuya məlum olsun. Eyni müəllimlərdən, eyni əsərlərdən bilik almışıq. İdmançı olmuşuq. O illərin zarafatları, oyunları eyni ilə bizim ikimizə də məlum olub. Baş vermiş hadisələrin şahidi olmuşuq. İndi isə həmsənət idik. Bütün bu cəhətlər bir-birimizi mümkün qədər tez başa düşməyə xeyli kömək edirdi.

Bizi Mehdi Hüseynzadə ilə çiyin-çiyinə vuruşmuş, cəsarətli, istiqanlı oğlanlarla tanış etdilər. Onlar baş vermiş hadisələrdən, Medinin həyatından, Yuqoslaviya - İtaliya partizanlarından, Triyest ətrafında gedən mübarizələrdən, o ətrafda yaşayan adamların adət və ənənələrindən danışıb, bizə qiymətli materiallar verdilər. Biz partizan hərəkatı olan yerlərə, Mehdi Hüseynzadənin qəhrəmanlıq göstərdiyi torpaqlar, Adriatikanın sahillərinə, Triyest şəhərinə getməyə nə qədər səy göstərdiksə də, heç bir nəticə vermədi. Çünki o zaman Triyest şəhəri ətrafında böyük mübahisələr gedirdi. Buna görə də, demək olar ki, oraya heç kəsi buraxmırdılar.

Biz həmin dövrü və bütün hadisələri yenə də Mehdinin döyüş yoldaşlarından, partizan hərəkatı ilə əlaqədar olan təşkilatlardan Mehdinin uşaqlıq, gənclik illərini onun doğma bacılarından, onunla bir yerdə rəssamlıq texnikumunda oxuyan yoldaşlarından və Mehdiyə dərs demiş müəllimlərdən öyrənməyə başladıq. Bir il ərzində həm Yuqoslaviya, həm Triyest, həm də İtaliya haqqında zəngin material topladıq. O yerləri o dərəcədə öyrəndik ki, xəyalən Triyestin küçələri, Yuqoslaviyanın qayalı dağları, meşələri ilə, Adriatikanın sahilləri ilə gəzib dolaşır, elə bil oranın havasını udurduq. Beləliklə, bu materiallar əsasında biz, hətta Yuqoslaviya və İtaliyanın, xüsusən Triyestin etnik xarakterini, orada yaşayan xalqların adət və ənənələrini mükəmməl sürətdə təsvir edən ayrıca bir əsər də yaza bilərdik.

Bakının küçələri, parkları, dəniz sahili ilə o qədər gəzib, əsər ətrafında o qədər danışmışdıq, o qədər axtarış aparmışdıq ki, sanki *"Uzaq sahillərdə"* povestini yazmaq üçün minlərlə kilometr yol addımlamışıq. Beləliklə, həmin povesti əvvəlcə şifahi yaratmış, sonra yazmışdıq.

İndi mənim Yuqoslaviyanın paytaxtına–Belqrad şəhərinə çatmağıma, demək olar ki, bir neçə dəqiqə qalırdı. Təyyarəmiz Macarıstanın paytaxtı Budapeştin üzərindən keçib Belqradın təyyarə meydanına yaxınlaşırdı. Ürəyim narahat idi. Görəsən, "Uzaq sahillərdə*"* povestində yazdığımız, təsvir etdiyimiz lövhələr, mənzərələr, yerlər, insanlar doğrumu verilmişdir? Görəsən, haqqında çox eşitdiyimiz və yaxşı öyrəndiyimiz bu diyarı əsərimizdə həqiqətə uyğun, o illərə xas olan hadisələrin xarakterinə müvafiq əks etdirə bilmişikmi?

Hardasan, Həsən. Heç bilirsən o kişi nə danışır?

Məni heç bir şey maraqlandırmırdı. Tez bu mağaradan işığa – Yerin üzünə çıxmaq istəyirdim. İstər-istəməz soruşdum:

–Nə danışır?

–Azərbaycan danışır!

–Bura hara, Azərbaycan hara! -deyə təəccüb etdim.

İlya Vaysveld qoluma girdi, məni çəkib öz ardınca apardı. Dəstəyə yaxınlaşıb, ucadan dedi:

–Bu da Azərbaycan. Tanış olun!

Bayaqdan gurultu ilə danışan, səsi aləmi götürmüş bələdçimiz birdən-birə susdu. Ağır-ağır mənə yaxınlaşmağa başladı. Ətrafındakı camaat təəccüblə çəkilib ona yol verdi. Hamı susdu. Görəsən nə olmuşdur?

Nə ingilis, nə macar, nə də fransız dili eşidilirdi. Bələdçimiz mənə yaxınlaşıb iri əlləri ilə çiyinlərimdən tutdu, məni bağrına basdı:

–Azərbaycan! - dedi və dönüb, yenə bələdçilik edirmiş kimi, ətrafdıkalara müraciət etdi:

–Bilirsiniz, bunlar nə gözəl xalqdır? Necə nəcib və xoşsifət insanlardır!.. Fədakardırlar, igiddirlər! Özü də necə igiddirlər! Bizim başçımız var idi. Bütün kəşfiyyatçılarımızın başçısı.. Adı Mehdi idi. Mehdi Hüseynzadə! Azərbaycanlı qəhrəman idi. Biz ona *"Mixaylo"* deyirdik.

Hamı qulaq asırdı. Özü də böyük maraqla qulaq asırdı. Heç özləri də bilmirdilər ki, niyə donub qalıblar, niyə bunu hamı dinləməlidir. Mənə elə baxırdılar ki, guya qəhrəman mən özüməm. Bələdçimiz sözünə həyəcanla davam edirdi.

– Bizim dostlarımız arasında azərbaycanlı çox idi. Onların çoxu bu torpağa ad qoyub getdi. Çoxunun qanı bu torpağa axdı. Onların içərisində sağ qalanları da çoxdur. Məsələn, mənim bir neçə dostum var. Onlar bəzən buralara gəlib mənimlə görüşürlər. Hayıf ki, vaxtımız azdır. Yoxsa bu mağaranın soyuq divarları arasında yox, evimizdə sizi başıma toplardım, sizə Mixaylo haqqında, onun dostları barədə əhvalatlar söyləyərdim. Elə bilirsiniz eşitdiyiniz əfsanədir? Yox bu həqiqətdir. Hayıf ki, məni eşikdə turist dəstəsi gözləyir..

O, əlini mənə uzadıb:

– Tanış olaq, – dedi. Mən öz adımı dedim. O da dedi:

– Miroslav Qremek.

Bundan sonra Miroslav daha proqram haqqında danışmırdı. O, turistləri də unutdu. Qolunu mənim boynuma salıb irəlidə gedirdi. Hey Mehdidən və onun yoldaşlarından danışırdı. Birdən ayaq saxlayıb turistlərə dedi:

– Ora baxın, mağaranın kömür kimi qaralmış divarlarını görürsünüzmü? Faşistlər orada duru yanacaq gizlədirdilər. Bura onların əsas yanacaq anbarı idi. Bizim 4 nəfər kəşfiyyatçımız bu ucsuz-bucaqsız mağaranın gizli yolları ilə həmin anbara yol tapmış, mina qoyub uzaqlaşmışdı, bütün yanacaq partlamışdı.

Biz diqqətlə divarları qaralıb kömürə dönmüş mağaraya baxdıq. Mənə belə gəldi ki, bir anlığa öz qəhrəmanım Mehdini görürəm. Bəlkə həmin 4 nəfər kəşfiyyatçının içərisində Mehdi də var idi? Sonra mənə dedilər ki, Yuqoslaviya kinomatoqrafçıları bu haqda tam metrajlı bədii film çəkiblər.

Biz yer üzünə qayıtdıq. Doğrudan da meydança yeni turist dəstələri ilə dolu idi. Miroslov bir az ləngilyəcəyinə işarə edib, məni, Çulyukini və Vaysveldi özü ilə apardı.

Yolun kənarında qayalıqlar üstündəki kiçik bir evə yaxınlaşdıq:

– Ora mənim evimdir, - dedi.

Bizi içəri dəvət etdi. Adi bir ev idi. Miroslavın xanımı ev işləri ilə məşğul idi. Şirindil bir qız əlini mənə uzadıb adını söylədi, deyəsən Nataşa idi.

– Neçə yaşın var, qızım?

– On iki.

Dedim ki, mənim də bir qızım var, o da 12 yaşındadır.

Həyədə Miroslavın kiçik oğlu oynayırdı.

– Axı, sizi camaat gözləyir,– deyə İlya Vaysveld Miroslava müraciət etdi.

– Eybi yoxdur, qoy bir az gözləsinlər. Bu hər gün bir neçə dəfə olan şeydir. Amma sizləri hər dəfə görmürəm. Biz sizi tez-tez görmək istərdik,– deyə Miroslav bufetin yeşiyindən bir neçə şəkil çıxardı, stolun üstündə qoydu.

Mehdini dərhal tanıdım! Bizim Mehdini! Mənim dostlarım Çulyukin, İlya Vaysveld heyrətlə, təəccüblə şəkilləri nəzərdən keçirdilər. Yuri mənə zarafatla dedi:

– Açığı, mən bu vaxta qədər elə bilirdim ki, Mehdi haqqında əfsanə eşitmişəm, elə bilirdim bu həqiqət deyil. İndi görürəm ki, həqiqətdir.

Miroslav yenə də Mehdidən söz açdı. Miroslavın arvadı da Mehdidən danışdı. Elə bil onlar hər gün bu stolun arxasında görüşür və Mehdi ilə, dostları ilə söhbət edir, döyüş yoldaşlarını xatırlayırlar.

Bizim Yuqoslaviya təəssüratımız haqqında soruşanda onlara gördüyümüz şəhərləri, yolları tərifləyirdik.

Miroslav dalğın halda gülümsünüb başını tərpətdi:

– Bəli, bizim ölkəmiz çox gözəl ölkədir. Ancaq müharibədən qabaq belə deyildi. Bizim belə yaşamağımız, belə yollar, şəhərlər salmağımız, azadlığımız üçün Mehdi kimi oğlanlar canlarını veriblər. Candan şirin nə var?

Biz bir balaca qəlyanaltı edib Miroslavla vidalaşdıq. Miroslav bizim hamımızı öz doğma dostları, qardaşları, döyüş yoldaşları kimi öpdü. Söz verdik ki, bir də Yuqoslaviyaya gəlsək, hökmən onunla görüşəcəyik.

Postoyna Yamadan Adriatik dənizinin şimal sahillərinə sarı üz tutduq. Yolumuz gah dağların döşünə enir, gah da zirvələrə qalxırdı. İndi bütün yol boyu söhbət Mehdidən gedirdi. Mehdinin qəhrəmanlıqları haqqında mağarada başlanmış söhbəti davam etdirdim. Daha doğrusu, suallara verdiyim cavablar dönüb hekayə olurdu. Mən də, İmran Qasımov da söhbətimizi bu şəkildə qurmağı adət etmişdik. Çünki oxucularla olan yüzlərlə görüşlərdə çıxış əvəzinə hamını maraqlandıran suallara cavablar verirdik, bu isə deyilənə görə adi çıxışdan maraqlı olurdu.

Yolumuz daha bir qalanın yanından keçirdi. Bura qalxıb ətrafı seyr etdik. Duşan aşağıda, 30-40 addımlıqdan keçən şose yolu göstərib dedi:

– Bax, ora İtaliyadır. 5-6 km o yanda görünən iri şəhər Triyestdir…

Triyest… Bizim əsərimizin qəhrəmanlarından biri olan bu şəhər haqqında nə qədər material toplamışıq, nə qədər məlumat almışıq. Biz onun tarixini, arxitekturasın, burada yaşayanların adət-ənənələrini, bu şəhərin mənzərəsini dönə-dönə öyrənmişik. Buna görə də xaricdən aldığımız məktublarda bəzən yazırlar: *"...Yəqin ki, siz Triyestdə çox olmusunuz, çünki onu elə dəqiqliklə təsvir edirsiz ki, adama təəccüb gəlir"*.

Maşınımız dağdan endikcə biz Adriatik dənizinin şimal sahilinə yaxınlaşırdıq. Triyest bizim lap yaxınlığımızda idi. Bizim sağ tərəfimizdə …Heyif ki, kiçik bir təpə, sahil təpəsi get-gedə Triyestin qabağını tuturdu.

Biz Yuqoslaviyaya gedəndə beş nəfər idik. İndi isə hər birimizin onlarla təzə dostu var idi. Bunların içərisində Mehdi Hüseyinzadənin silahdaşı Miroslav Qremek, onun gülərüzlü, sadə bir insan olan həyat yoldaşı Yozan və şirindil uşaqları da daim mənim gözlərim qarşısındadır.

MİXAYLO SÖZÜ BAKIDAN "GETMİŞDİ"

Qəhrəmanlıq əbədiyyətə yazılmış hünərdir – solmur, qocalmır, köhnəlmir. Qəhrəmanlıq və qəhrəmanlar barədə söhbət də həmişə təzə, ibrətli, dəyərli olur. Azərbaycan oğlunun haqq yolunda canından keçmək cəsarətini İkinci Dünya savaşı zamanı uzaq Adriatik sahillərində isbata yetirmiş, İtaliya və Sloveniya dağlarında faşistlərə sağalmaz yaralar vurmuş Mehdi Hüseynzadə barədə kiçik bir fakt, xatirə, mülahizə də tanış qəhrəmanlığın fonunda cazibəli, ifadəli görünür.

Mehdi ilə bir məhəllədə böyümüş, qonşu məktəblərdə oxumuş, davadan qabaq zabit məktəbində birlikdə təlim keçmiş Məmməd Məmmədov da neçə illərdir ki, igid eloğlumuzun partizan silahdaşlarına qoşulub *"Mixaylo"* obrazının bütövləşməsinə və çağdaş nəsillərə çatdırılmasına can-dildən kömək edir. Mehdi Hüseynzadənin doğum gününün ildönümündə onun xatirəsini Məmməd müəllimin bir söyləməsi ilə yad edirik:

“Biz bir qrup Mehdini tanıyan veteran hər il onun doğum və ölüm günündə, Qələbə bayramında mütləq Mehdinin abidəsi önünə gül qoyur, onun Novxanıdakı xatirə muzeyinə gedir, qəhrəmanlığı ilə öyündüyümüz bu insanı yad etməyi özümüzə müqəddəs borc bilirik. İndi danışacağım hadisə 1986-cı ilin 9 mayında Mehdinin abidəsi önündə baş verib. Mərasim başlamazdan 10-15 dəqiqə əvvəl ucaboylu, enlikürək bir kişi bizə yaxınlaşıb rusca zarafatla dedi: *“Bu heykəl Mehdinindir, “Mixaylo” isə mənəm”*. O, cibindən rəngi solmuş bir vəsiqəni də çıxarıb təqdim etdi. Bu müharibədən əvvəlki illərdə Mehdinin oxuduğu Bakı rəssamlıq məktəbinin ona verdiyi tələbə bileti idi. Bir vaxt Mehdinin sinəsində gəzdirdiyi, əlləri toxunduğu bir sənəd onun əziz bir yadigarı kimi əl-əl gəzdi, hamımızı təsirləndirdi…

Kişini söhbətə tutduq. Onun kimliyi, bu vəsiqənin onun əlinə necə düşməsi ilə maraqlandıq. O, bildirdi ki, mən Mixail Yeseyeviç Barminəm yəni əsl *“Mixaylo”yam.*

Yenə hamımızı dərin maraq götürdü. Elə bu vaxt Mehdinin qohumları, bacıları Bikəxanım və Hürriyyət, bacısı oğlu bəstəkar Aqşin Əlizadə və başqaları gəldilər, həmin Mixail Yeseyeviçlə çox mehriban, mərhəmətcəsinə qucaqlaşıb görüşdülər. Hətta Bikəxanım ona *“Mixaylo”* deyə müraciət etdi.

Tədbir başlandı və söhbət yarımçıq qaldı. Arada imkan tapıb Mixail Yeseyeviçdən bu *"Mixaylo"* məsələsini soruşdum. O mənə ev ünvanını verib dedi ki, gələrsən söhbət edərik.

Elə həmin gün Mixail kişinin yaşadığı Qasım İsmayılov küçəsindəki 133 nömrəli evin üçüncü mərtəbəsinə qalxıb qapını döydüm. Ev sahibi məni gülərüzlə qarşladı. Mehdini uşaqlıq illərindən tanıdığımı öyrənib bir az mehribanlıq göstərdi. Söhbət yenidən *"Mixaylo"* mövzusunun üstünə gəldi. Mixail Yeseyeviç bildirdi ki, o, Mehdi ilə qonşuluqda yaşayıb. Yaşca Mehdidən xeyli böyük olsa da, aralarında xoş münasibət olub, hətta bir-biri ilə zarafat da edərmişlər. Mixailin fotoqraf, Mehdinin isə rəssam olması onları bir az da yaxın edib. Bu mehribanlığa görə Mehdi Mixaili küçənin o başında görən kimi sevinclə qışqırmış: *"Dyadya Mixaylo prişyol"*. Bacısı Bikəxanım dəfələrlə Mehdini məzəmmətləyib desə də ki, ayıbdır, qonşudur, səndən böyükdür, kişini öz adı ilə çağır, o yenə dostunu əzizləyərək *"Mixaylo"* deyə çağırırmış…

Sonra Mixail Yeseyeviç bir az doluxsunub dinmədi. Aradan xeyli keçmiş o söhbətə davam edib bildirdi ki, çoxları elə bilir ki, *"Mixaylo"* sözü partizanların Mehdi sözünə yaraşdırdığı, əzizləyici bir çağırışdır: Mən isə qəti deyirəm ki, bu söz Mehdinin dilində Bakıda səslənmişdi. Hər dəfə ona Bakını, əzizlərini, dost-tanışı xatırladan bir ifadə olduğundan, şübhəsiz, özü ona bu adla müraciət edilməsini istəyib. *"Mixaylo"* sözü həm Mehdi sözünə yaraşır, həm də, sanki onu Bakılı günlərinə qaytarmış. Hər halda, bu söz ilk dəfə Bakıda işlənib, bu ifadəni Mehdi öz yaddaşında bir söz kimi Bakıdan aparıb. Bayaq zarafat elədim. Hamının tanıdığı əsl *"Mixaylo"* Mehdidir. Neyləyim ki, o özü məni *"Mixaylo"* deyə çağırırdı. Bunu onun dostlarına, Mehdini tanıyanlara söyləməyi özümə borc bildim.

Sonra Mixail Yeseyeviç Barmin Mehdinin bir vaxt dostuna xatirə olaraq verdiyi tələbə biletini mənə əmanət elədi. Həmin yadigarı bu gün Mehdinin əziz bir nişanəsi kimi qoruyuram.

Söhbətinin sonunda Məmməd Məmmədov *"Mixaylo"* sözü ilə bağlı söylədiklərini vaxtilə Mehdinin bacılarına, qohumlarına danışdığını bildirdi. Onlar da o zaman təsdiqləyiblər ki, Mehdi Mixail Yeseyeviçi *"Dyadya Mixaylo"* deyə çağırırmış.

Biz mülahizəni oxuculara çatdırmaqla istədik ki, *"Mixaylo"* sözünün mənşəyini – Mehdi ilə bərabər *"Mixaylo"* sözünün də *"Uzaq sahillər"ə* Bakıdan getdiyini onlar da bilsinlər.

Tahir Aydınoğlu
jurnalist

SAAT BEŞ TAMAMDA

Mehdi Hüseynzadənin döyüş dostlarından biri də hazırda Masallı rayonunun Qodman kəndində, Dmitrov adına kolxozun sədr müavini vəzifəsində çalışan Əkbər Babayevdir. O, Böyük Vətən Müharibəsi illərində Yuqoslaviyada, Mehdi Hüseynzadə ilə birgə düşmən arxasında ciddi hərbi əməliyyatlar aparmışdır.

Partizan Rıbaçenkonun yaralanması bütün dəstəni məyus etmişdi. Hamı dərin fikirdə idi. Partizan dəstəsinin komandiri Mehdi Hüseynzadə gödək saplı qəlyanı ətli dodaqları arasında aram-aram sorur, tüstüsünü qəzəbindən udurdu. Ara – bir də qəlyanın içərisini çöplə təmizləyir, ovma tüstünü təzədən baş barmağı ilə qəlyana basır və həvəslə sümürürdü.

Yazın ilk günləri idi. Havalar xoş keçirdi. Bir neçə gecə dalbadal əməliyyat keçirmiş partizanlar indi Qoritsa meşələrinin lap qalın yerində dincəlirdilər. Vzvod komandiri Əkbər Babayev qocaman bir palıd ağacına söykənərək bitişməkdə olan çiyin yarasını sarıdırdı. Kimi "Partizanın gündəliyi" qəzetini oxuyur, kimi dodaqaltı zümzümə edirdi. Göy üzündəki seyrək buludlar harasa çəkilib gedirdi. Arxası

üstə yerə uzanmış partizanlar dibsiz asimanda üzən bu buludlara baxır və hərə öz kəndini, öz şəhərini xatırlayırdı. Yarası sarındıqdan sonra Əkbər də göylərə baxdı. Onu xəyalı dərhal Azərbaycana, Masallı rayonundakı Qodman kəndinə, lap Dəmbəlov dağının ətəyinə gətirib çıxartdı. "Orda da bahardır. Orada da göy üzü belə təmizdir*"* – deyə Əkbər düşündü. Elə bu vaxt meşənin arası ilə uzanıb gedən cığırda arıq bir qız göründü. O, velosipedi yanınca sürüyür, tez-tez də o yan - bu yana boylanırdı. Bu, partizanların dostu kontovellolu Elando idi. Elando hamıya çoxdan tanış idi. Hər dəfə o buraya gələndə özü ilə təzə xəbər, təzə sevinc gətirirdi, partizanlara yaxından kömək edirdi.

Mehdi Hüseynzadə qızı görcək ayağa qalxdı. Qəlyanı ağzından çıxarıb bir-iki dəfə hündürdən öskürdü. Elando ona yaxın gəldi, əl verib görüşdülər. Şəhərdəki vəziyyəti öyrəndilər. Bir-birinin dalınca yağdırılan suallara qız rusca bir təhər cavab verirdi. Şirin dilli bu qızın bəzən "drujba əvəzinə "duruzba, "naşa armiya əvəzinə "nasa armiya deməsi danışığını bir az da şirinləşdirirdi. Partizanlar onu öz aralarında "tutuquşu*"* deyə çağırırdılar. O, sözləri kəsik-kəsik , tez-tez xüsusi ahənglə dediyinə görə doğrudan da tutuquşunu xatırladırdı. Elando Əkbərlə görüşəndə bir qədər duruxdu, nə üçünsə dərin fikrə getdi. Qız xeyli dalğın idi. Özü də deyəsən bir qədər arıqlamışdı. Yaraşıqlı cazibədar gözləri dərinə düşmüşdü.

Əkbər qızın gözlərinə baxa bilmirdi. O, Elandonun əlini ovcunda sıxıb susurdu. Elando gətirdiyi siqaretləri Əkbərə uzadanda hamı onlara baxırdı. Çoxdan idi partizanlar siqaret görmürdülər. Elando onlara Triyest siqareti gətirmişdi.

–Yeni xəbər var?– deyə Əkbər nəhayət, soruşdu.

–Qaçırlar, gecə-gündüz qaçırlar...

–Haraya, hansı səmtə qaçırlar?

–Demirlər. Ancaq bizim evdə qalan eynəkli zabit deyir ki, Kaput... hər şey kaput. Özü də bir neçə gündür ki, bərk əl-ayağa düşübdür. Səhər anamın sonuncu toyuğunu qızardıb

yedikdən sonra paltarlarını qablaşdırmağa başladı, deməsinə görə, guya bu gecə Kontovellodan çıxıb gedəcəklər.

Kənarda sakit-sakit dayanıb qızın sözlərinə qulaq asan Mehdi Hüseynzadə alman qoşunlarının haraya çəkilib getdiklərini bilirdi. O, çox yaxşı bilirdi ki, almanlar qaranlıq düşən kimi Qoritsa yoluna çıxır, maşınlara dolub axın-axın çəkilib gedirlər.

Çox çəkmədən almanların çəkilmələri xəbəri Mehdi Hüseynzadənin komandanlıq etdiyi böyük kəşfiyyatçılar dəstəsinə yayıldı. Mehdi, Əkbər və italiyalı Elando başlarını topoqrafik xəritə üzərində əyərək əsas çəkilmə yolunu müəyyənləşdirdilər. Bu yol Kontovellodan Qoritsaya, oradan Korantiyaya və daha sonra isə Almaniyaya gedirdi. Almanlar bu yol ilə gələndə çox hayla–küylə, "ura*"* deyə-deyə gəlmişdilər. İndi isə onlar səssiz-səmirsiz, oğru kimi gecə qaranlığında çəkilib gedirdilər. Onlar başlarını götürüb qaçırdılar. Əkbər Elandonu yola salıb qayıdanda Mehdini fikirli gördü.

– Nə fikirləşirsən? – dedi,– düşmən qaçır.

– Bilirəm qaçır. Biz isə yeməksiz və sursatsız bu meşədə qalmışıq. Boş əl ilə nə etmək olar?– deyə Mehdi yenə fikirli cavab verdi.

–Bəs bilmirsən ki, qaçanı qovarlar!!

–Doğrudur, amma vəziyyət xeyli gərgindir. Fikirləşmək lazımdır.

Vzvod komandirləri Mehdini üzük qaşı kimi ortaya alaraq ondan əmr gözləyirdilər. O isə çox səbirli adam idi. Gödək qəlyanını bir qədər saralmış dişlərinin arasında sıxaraq düşünürdü. O, hələ də pöhrəlikdə dincəlməkdə olan partizanları süzüb nəhayət dilləndi:

–Güllə azdır, heç olmasa hər partizanın 20 gülləsi olsaydı o vaxt alman qoşunundan bir nəfər də yaxasını qurtara bilməzdi...

Mehdi sözünə ara verib bir az da düşündü. Sonra xəritəni açaraq dağın dibi ilə burula-burula Qoritsaya gedən yolu göstərdi və hər vzvod üçün konkret döyüş tapşırığı verdi. O, yolu üç yerdən eyni vaxtda kəsdirməyi qət etmişdi.

***

Vzvod komandiri Əkbər yola düşəndə gün xeyli əyilmişdi. Onlar getdikcə ara–bir dayanır, meşə quşlarının əcaib bağırtılarına qulaq verirdilər. Çox keçmədən vzvod sıldırım qayalı bir yerə çatdı. Buradan Qoritsaya gedən yol ovuc içi kimi görünürdü. Əkbər hər tərəfi yoxladı. Aşağıda yol ilə gedən yük maşını dikdən aşıb gözdən itdi. Yol bomboş idi.

Əkbər xeyli kənardakı tənha evə tərəf gedib onu da yoxladı. Ev kimsəsiz idi. Yenicə biçilmiş ot həyətə səpələnmişdi. Həyətdəki yabalar Əkbərin diqqətini cəlb etdi. O, bir şey kəşf etmiş kimi fikrə getdi. Əkbər yabaları qoltuğuna vuraraq partizanların yanına qayıtdı. Burada o, yolun körpüyə yaxın hissəsini göstərərək bu yabaları daşlı yolun tən rotasında daraq kimi basdırmağı tapşırdı. Əkbərin bu fikri partizanlara çox xoş gəldi. İndi hamı onu maraqla dinləyirdi.

–Elə ki, qabaqkı maşın əyləndi, deməli yabanın ucu təkəri deşib. Bu vaxt tələsmək lazım deyil. Arxadan gələn maşınlar mütləq bu dərəyə toplaşıb qalacaqlar. Burada yol dar olduğundan maşınlar heç cürə ötüşə bilməzlər. O vaxt hamı hazır dayanmalıdır. Düşmənin nə vaxt gələcəyi məlum deyil, ancaq Mehdinin dediyinə görə saat 5 tamamda buradan qoşunun arxa hissələri ötüb keçəcəkdir.

Partizanlar kim isə:

–Mehdi onu haradan bilir?– deyə sual etdi.

Əkbər gülümsəyərək:

–Bilir, bilməsə onu komandir qoymazdılar. Bir də Elando bizi heç vaxt aldatmamışdır – dedi. – Qaranlıq çökən kimi yol ayrıcına "uçuq körpü*"* işarəsi qoymaq lazımdır ki, biz işləyən vaxt gələn maşınlar aşağıdakı torpaq yol ilə ötüb keçsinlər. Elə ki, yabaları yerə möhkəm mıxladıq, işi qurtardıq, o vaxt *"uçuq körpü"* işarəsini buradan götürüb torpaq yolun üstünə qoymaq lazımdır. Maşınlar onda bizim yola axıb gələcək. Atəş açmağa tələsməyin, hər güllənin qədrini bilin. Pulemyotlar öndən və arxadan maşınlara atəş açanda daşları, qayaları aşırıb tökməliyik.

Mehdi Əkbərin vzvodu qarşısında böyük bir vəzifə qoymuşdu. Kimin nə vaxt, harada, nə iş görəcəyini Əkbər əvvəlcədən döyüşçülərə anlatdı...

Günəş Qoritsa dağlarının dalına çəkiləndə vzvod daş toplamağa başladı. Partizanlar iri-iri daşları dığırlayıb uçurumun lap qənşərinə gətirdilər. Əkbər, iki ağ taxta parçası üzərində kömürlə *"uçuq körpü"* işarəsini çəkib hazırladı. Partizanlar yabaların uclarını yiyə ilə itilədilər. Hərə öz atəş nöqtəsini işıq gözünə nizamladı. Axşam qara qanadlarını ətrafa gərəndə hər tərəfə dərin sükut çökdü. Gecədən xeyli keçmiş maşın karvanları başlandı. Tanklar dərə yolla gedib çaydan keçir, qulaqbatırıcı gurultu qoparırdı. Onlar tələsirdilər. Dərədən motor səsindən başqa bir səs eşitmək olmurdu.

Səhərə yaxın *"uçuq körpü"* işarələrini yol ayrıcına vurdular. Hava bərk qaranlıq idi. Yüklü maşınlar torpaq yol ilə dərədən ötüb keçirdilər. Partizanlar əsas yolda öz işlərini arxayın görüb qurtardılar. *"Uçuq körpü"* işarəsini indi yol ayrıcındakı torpaq yolun qabağına köçürdülər. Maşınlar əməliyyat yerinə yaxınlaşırdılar. Birinci maşın körpüyə çatanda birdən yerə mıxlanıb dayandı. Şürücü düşüb təkərlərə baxdı. Maşının qabaq və dal təkərləri birdən yırtılmışdı. İkinci maşın lap yabaların üstündə dayandı. Birbirinin dalınca gələn maşınlar irəli keçə bilməyib bu yolda tıxaclanıb qaldılar.

Alman əsgərləri öndəki maşınların təkərlərini dəyişməyə macal tapmadılar. Tezliklə partizan puleymotları bir neçə dəfə qısa qəh-qəhə çəkdi, bunun dalınca da axşamdan hazırlanmış daş yığınları hərəkətə gətirildi.

İri daşlar dərə aşağı sürətlə yuvarlanır, qalxıb-enir, daşdan-daşa dəyir, parçalanır, özü ilə bərabər qayaları uçurub aparırdı. Hündür qaya üstündə qartal kimi dayanan Mehdi "Aşırın, aşırın daşları!"– deyə qürurla əmr verir və tez-tez aşağı, yol tərəfə boylanırdı. Qayaların səsi bütün dərəni bürümüşdü. Adama elə gəlirdi ki, guya dağlar baş-başa dəyir, uçur, parçalanırdı.

Böyük girdə bir qaya şaqqıltı ilə ikinci maşının üstünə düşəndə puleymotlar bir daha kəsik-kəsik qəh-qəhə çəkdi. Ordan-burdan tək-tək tüfəng atəşi də eşidilirdi. Çox keçmədən partizanlar maşınlara hücum etdilər. Sonuncu maşın heç bir zədə almamışdı. O ərzaqla dolu idi. Maşının yanında dayanmış, eynəkli kapitan əllərini yuxarı qaldıraraq partizanlara təslim oldu. Göy üzü yavaş-yavaş aydınlaşırdı. Basqından çoxlu qənimət ələ keçirmiş partizanlar meşənin girəcəyindəki uçuq evə toplaşırdılar. İndi onların çoxlu sursatı və ərzaq ehtiyatı vardı. Partizanlar öz məskənlərinə çəkilərkən yolda Elandoya rast gəldilər. Qız qan-tər içində idi. O, Əkbərin qabağınca addımlayan eynəkli kapitanı görcək tanıdı. Bu kapitan onların evində uzun müddət yaşamışdı. Vaxtilə əhəmiyyət vermədiyi və yanında hər sözü açıq danışdığı bu qızın nə üçün buraya gəldiyini kapitan indi başa düşmüşdü. O, çiynindəki paqonlarını qopararaq: "Kaput, Hitler kaput!" deyirdi.

Elando sovet qoşunlarının Lyubliyanaya girdiklərini partizanlara xəbər verdi.

Mehdi Əkbəri bağrına basaraq öpdü, partizanlarla səmimi görüşdü və sonra üzünü 17 alman əsirinin qabağında dayanmış eynəkli kapitana çevirərək almanca:

– Haraya qaçırdınız?- dedi.

– Biz səhər saat 5-də Qoritsada, yeni mənzildə olmalı idik,- deyə eynəkli kapitan cavab verdi.

Əkbər gülərək

– Doğru deyir, saat 5-də onlar yeni mənzilə gəlib çıxdılar,– deyə o, istehza ilə kapitanın sözünə əlavə etdi.

Oruc QOŞQARLI
"Ədəbiyyat və incəsənət" qəzeti,
23 iyun 1957

MEHDİYƏ BORCLUYAM

1941-ci ildə ildə Böyük Vətən Müharibəsi başladı və mən də cəbhəyə yola düşdüm. Tale elə gətirdi ki, müharibə illərində xalqımızın qəhrəman oğlu Mehdi Hüseynzadə ilə partizanlıqda tanış oldum. Bu tanışlıq sənətə olan istəyimi gerçəkləşdirdi. Mehdi Hüseynzadə əl işimlə tanış olandan sonra tapşırıq verdi ki, Cabbarı qoruyun. Mən sənətdəki uğurlarıma görə igid Mehdiyə borcluyam. Partizan Mehdi mənə rəssamlığın əlifbasını öyrətdi.

Partizan əməliyyatlarından qaydandan sonra Mehdi boş vaxtlarımızda mənə kağız və qələm verib deyirdi ki, get işlə. Çəkdiyim mənzərə və portretləri götürüb ona göstərirdim. O da ciddi şəkildə qeydlərini deyir və özü düzəlişlər edirdi. Növbəti tapşırıqlarını verməyi də unutmurdu.

Bir dəfə mənə üç rəng verib dedi ki, get o gördüyün əsrarəngiz təbiət mənzərəsini çək. Mən bir tərəfə çəkildim, bir az işləyib dayandım və düşündüm ki, bu gözəl təbiətdə min cür rəng var. Bu üç rənglə mən onu necə çəkim? Bu an Mehdi mənə yaxınlaşdı. *"Niyə işləmirsən?"*- deyə soruşdu. Mən cavab verdim ki, bu üç boya ilə bu boyda təbiəti necə çəkim?

Xoş simalı, suyu şirin qaraşın Mehdi gülümsünüb, "*Ay rəssam qardaşım, indi bax gör necə işləmək lazımdır"*,– deyərək rəngləri bir-birinə qatdı, çox gözəl çalarlar yaratdı. Mənzərəni özü çəkməyə başladı. On beş-iyirmi dəqqiqə ərzində əsrarəngiz mənzərəni kətana köçürdü. Sonra mənə bir xeyli vərəq verdi. Tapşırdı ki, əvvəlcə bu vərəqlərə çək, sonra kətana köçür. Beləcə, çəkə-çəkə sənət öyrəndim. Bundan sonra rəngim də, fırçam da, kətanım da çoxaldı. Onların hamısını Mehdi tapıb gətirirdi.

Portret janrında işləyəndə ilk olaraq xəyalımda əvəzsiz döyüş dostum, ustadım Mehdi Hüseynzadə canlandı və onun unudulmaz surətini yaratdım. Düşündüyüm kimi onu dağlar əhatəsində növbəti əməliyyatdan qayıtmış mərd, qəhrəman kimi təsvir etdim.

Xalqımın qeyri-adi şücaətli qəhrəman Mehdi Hüseynzadəsi yalnız portret əsərimdə yox, qəlbimdə yaşayır.

Cabbar QULİYEV
Azərbaycanın əməkdar rəssamı

MEHDİYƏ MƏKTUB GƏLİR

Bir igid tanıyıram,
Yaşar xatirələrdə!
Ünvanı Bakıdadır,
Məzarı yad şəhərdə.

Qapının zəngi musiqi çaldı. Dəhlizdə paltomu soyunub asdım, otağa keçəndə qarşıdakı divardan Mehdinin baxışları gözlərimə zilləndi. Stolun üstündə təzə qəzet və jurnalların yanında iki məktub gördüm.

– Poçtalyon elə indicə gətirib, – deyə Pikəxanım bacı zərfi açdı. Məktubu ucadan oxumağa başladı: *"Biz, Odessa şəhərində hərbi xidmətdə olan komsomolçular, sovet ordusu günü münasibətilə Mehdi Hüseynzadənin ailəsini ürəkdən təbrik edirik. Qardaşınız Mehdi milyonlarla sovet adamları kimi bizim də qəlbimizdə yaşayır, hamımızı vətənimizin xalqlarının səadəti yolunda qəhrəmanlığa çağırır"*.

Gənc müdavimlər Odessa Hərbi Dairəsinin orqanı olan *"Zaşitnik rodinı"* qəzetinin bir nömrəsini də qəhrəmanın bacısına göndərmişdilər. Burada Mixaylo haqqında məqalə dərc edilmişdi.

İkinci məktub isə Latviya SSR-in Ventspils şəhərindəki 1 nömrəli orta məktəbin 8-ci sinif şagirdlərindəndir. Məktəblilər xahiş edirdilər ki, Bikəxanım bacı qardaşının uşaqlıq illəri haqqında onlara yazsın. Həmin məktub xatirə olaraq məktəb muzeyində saxlanılacaqdır.

– Belə məktublardan çoxmu alırsınız?

Sualımın müqabilində Bikəxanım bacı dolabı açıb bir qovluq götürdü:

– Təkcə burda iki yüzədək məktub vardır. Keçən il aldıqlarımdır.

Məktublarla tanış oluram. Hərəsi bir xətlə yazılmış, hərəsi vətənimizin bir guşəsindən yola salınmış zərflər dil açıb Mehdi haqqında həyəcanla danışır.

Volqoqrad. V.Vəliyevdən:

– Mən inana bilmirəm ki, Mehdi həlak olub.

Qazaxstan SSR. Çelkar rayonu. A.Şanovdan:

– Mən müharibə illərində partizan dəstələrində iştirak etmişəm. İndi isə uzaq rayonlardan birində müəlliməm. Xahiş edirəm ki, Mehdi haqqında Bakıda nəşr edilmiş bir kitab göndərəsiniz.

Həştərxan şəhəri. Lenin küçəsi. Lyudmila Polyakovadan:
– Mehdi bizə doğma qardaş kimi əzizdir. Onun şəklini göndərməyi xahiş edirəm.

... Məktubların arasından bir şəkil çıxır. Bikəxanım bacı maraqlandığımı görüb deyir:

– Bunu Leninqraddan Lyusya Rıjikova göndərmişdir. Beş ildir ki, bizə məktub yazır. Necə deyərlər, ailəmizin qiyabi üzvü olub.

Lyusyanın yazdığı məktublardan bir neçəsini oxuyuram. Mehdi Hüseynzadənin adı sadə rus qızının bütün həyatını mənalandırmışdır. L.Rıjınkovanın son beş ildə Bakıya göndərdiyi məktublardakı sözlər nə qədər səmimi və tə-sirlidir!

Birinci məktubdan: *"Mənim yaşımda hamı həyat haqqında düşüncələrə qapılır. Həyata, insanlara mənim də sualım çoxdur. Cavab tapmaq üçün yalnız Mehdiyə müraciət edirəm. Ürəyimdə həmişə onunla danışıram".*

İkinci məktubdan: *"Hörmətli Pikəxanım, təəccüblənirsiniz ki, mən niyə öz valideynlərimi, müəllimlərimi qoyub sizinlə məsləhətləşirəm. İnanın ki, səbəbini heç özüm də bilmirəm. Hər dəfə sizdən aldığım məktubda Mehdinin ətrini duyuram, səsini eşidirəm. Mehdi mənim üçün əziz bir adamdır. Onu heç unuda bilmirəm. O, qəlbimin döyüntüsünə çevrilib. Bəzən həyatda çətinliyə rast gəlirəm, düşünürəm ki, Mehdi mənim yerimdə olsaydı, nə edərdi? Səhv edəndə isə, mənə elə gəlir ki, Mehdi - böyük və doğma qardaşım məndən razı deyildir".*

Üçüncü məktub: *"İmtahan sessiyasını müvəffəqiyyətlə başa çatdırıram. Mehdi haqqında ədəbiyyat biblioqrafiyası toplamağı davam etdirirəm. Onun haqqındakı hər yeni söz, hər bir cümlə mənim üçün ən qiymətli tapıntıdır".*

... Zəng basılır. Evin sevimli gəlini Sevda xanım qapını açır:

– Mehdi gəlir.

Dəhlizə baxıram. Bəstəboy, qıvrımsaç bir gənc içəri girəndə balaca Nigar onun üstünə atılır: Mehdi dayday!

Onunla mən də tanış oluram. Qəhrəman Mehdinin adaşı, onun kiçik bacısı Hürriyyətin oğludur. 17 yaşı var. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin birinci kursunda oxuyur. Divardakı şəkilə baxıram: bu Mehdi o Mehdiyə necə də oxşayır!

İndi də Mehdi öz dayısı haqqındakı məktublardan bəzilərini seçib mənə göstərir. Dağıstanın Tabasaran rayonundan Hidayət İsmayılovun, Gürcüstandan Mədət Nəbiyevin, Yerevandan Əli İsaqovun, Moskva vilayətindən Qriqori Jelyayevin göndərdiyi məktublara və təbriklərə Bikəxanım bacı, Əli və Fuad maraqla baxırlar.

Saysız-hesabsız məktubların və sənədlərin arasından bir şəkil çıxır.

– Anamız Gülxanımdır. Mehdi 13 yaşında olanda o vəfat etdi. Böyüyəndə anamız ilə bir yerdə şəkli olmadığına görə çox heyfsilənirdi.

Rəngi azca saralmış qalın ağ kağız üzərində yuxarıda ananın, aşağıda isə Mehdinin şəkli səliqə ilə yapışdırılmışdır. Mehdi üçün ana hər şeydən müqəddəs olmuşdur. Məhz yalnız anamı dərin və müqayisə edilə bilməz bir məhəbbətlə sevən kəs ana vətəni də romantik məhəbbətlə sevə bilər. Bikəxanım bacının səsi eşidilir:

– Yəqin ki, oğlum Aqşinin bəstələdiyi *"Mənim anam"* mahnısını eşidibsiniz. Bu mahnı anamızın xatirəsinə həsr olunub.

Tanış mahnının qanadlarında Mehdiyə qoşulub Bakıdan Adriatik dənizi sahillərinə qədər gedirəm. İtaliya və Yuqoslaviya torpaqlarında onun qəhrəmanlıq izlərini görürəm.

İtaliyadakı Triyest konservatoriyasının binası. Müharibə illərində bu binanın yerində faşistlərin mehmanxanası və restoran yerləşmişdi. Mehdinin qoyduğu mina beş mərtəbəli binanı yerlə – yeksan etmişdi.

Triyestin şəhərətrafı qəsəbəsi olan Opçində kinoteatr binası. Tamaşa salonundakı kürsülərdən birinə başqa rəngdə üz çəkilmişdir. Həmin yerdə vaxtilə Mehdi əyləşmiş, salonu tərk etdikdən sonra isə gözlənilməz partlayış tamaşaçıları heyrətə gətirmişdi.

Yuqoslaviyanın Vitovle kəndi. Mehdinin hitlerçilərə atəş açdığı bina xatirə kimi saxlanılır. Bu kəndin yaxınlığındakı Çepovani qəbristanlığı. Bir məzar daşında bu sözlər həkk olunub: *"Rahat yat Azərbaycan xalqının qəhrəmanı, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır"*. Bəli, Mehdi Hüseynzadənin ana vətəndən uzaqlarda susan ürəyində bütün dünya xalqlarına məhəbbət vardı.

İndi isə Adriatik dənizindən tutmuş Xəzər sahillərinədək dünyanın hər yerindən onun adına məktublar gəlir. Mehdi sahilləri görüşdürür.

Nə olar bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni.
Aşıb bəyaz qarlı hündür dağları,
Vətən torpağına salaydı məni.

Xalqımızın şair ürəkli, rəssam fırçalı mərd oğlu minlərin, milyonların qəlbində, sözündə, nəğməsində Vətənə qayıdır.

Teyyub Qurban
şair

II FƏSİL

SƏN BİR OD PARÇASIYDIN

...Yanvardan İspan və İtalyan dilləri də keçəcəyik. Müxtəsər, institutu qurtarandan sonra dörd dildə mükəmməl danışacağam. Bu bir parça kağızımı möhkəm saxla, bir zaman işlədiyin muzey onu sənin nəvə-nəticələrindən baha qiymətə alar. Çünki mən bu günün heçi, gələcəyin klassik sənətkarı olmaq arzusundayam.

Mehdi Hüseynzadəniu 1938-ci ildə Leninqrad Xarici Dillər İnstitutunda oxuyarkən dostu Mürsəl Nəcəfova yazdığı məktubdan.

MƏN QARDAŞIMLA FƏXR EDİRƏM!

Mehdi 1918-ci ildə Bakı şəhərində anadan olmuşdur. O zaman ailəmiz – atam, anam və mən nənəmizin xüsusi evi olan 1-ci Razyeznoy küçəsindəki (indiki İnşaatçılar prospekti) 171 nömrəli evdə yaşayırdıq. Atamız Hənifə Hüseynov biz çox kiçik ikən 1923-cü ildə vəfat etmişdir. Odur ki, onun haqqında olan xatirələrimiz o qədər dərin deyil. Anam və bibim danışardılar ki, atam çox xoşxasiyyətli, təmkinli, sadə və rəhmdil insan olmuşdur.

Atam 1917-ci ildən Kommunist Partiyası sıralarına daxil olmuş, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə məsul vəzifələrdə işləmiş, zəhmətkeşlər hökumətinin möhkəmlənməsində və yerli düşmən qüvvələrilə qızğın mübarizədə də fəal iştirak etmişdir. Vəfat etdiyi ilədək Bakı milisində inzibati şöbənin mudiri vəzifəsində çalışırdı.

Yadıma gəlir ki, 1922-ci ildə Novxanı bağlarında (Abşeronda Bakı kəndlərindən biridir, bizim əslimiz o kənddəndir) istirahət edirdik. Küləkli gecələrin birində evimizə basqın oldu. Basqınçılar Sovet hökumətindən qaçıb gizlənən qaçaqlar idi. Əlbəttə, onların məqsədi atamı və onun ailəsini məhv etmək idi. Səhərə qədər ara verməyən şiddətli atışmadan sonra basqınçılar 3 nəfər itirərək geri çəkildilər. Yaxşı yadımdadır ki, bibim (atamın böyük bacısı) bir qolu üstündə məni, digər qolu üstündə isə Mehdini gəzdirərək güllələrin dəyə bilməyəcəyi bir yer axtarırdı, axırda bizi Suraxan adlanan bir küncdə gizlətdi, atam bunu görən kimi bizi oradan tez götürməsini tapşırdı və yenidən atışmağa başladı. Ardı-arası kəsilmədən atılan güllələrin parıltısından evimiz sanki elektrik işığına qərq olmuşdu. Axırda bibim əlacsız qalıb bizi pəncərənin qabağında yerə uzatdı və anama bizim üstümüzdə göz olmağı tapşırıb atamın köməyinə getdi.

Bibim hündürboylu, dolğun və görkəmli bir qadın idi. Bütün qohumlarımız ona hörmət edər, ondan məsləhət alar və onun dediyinə əməl edərdilər.

Mehdinin hacıları sağda
Bikəxamm və Hihriyyət xaıum
12 aprel 1957-ci il

Atamın o gecəki qalibiyyətində də bibimin böyük köməkliyi oldu. Basqınçılar evə girəndə o, onları qonaq kimi qəbul edib və atamın bu gün şəhərdən qayıtmadığını deyib, bununla da o biri otaqda yatan atamın yuxudan ayılıb vuruşmağa hazırlaşması üçün vaxt qazanmışdı. Atamın birinci gözlənilməz atəşindən pərakəndə düşən düşmənlər özlərinə gələnə qədər bibim vurulan adamı çölə itələyib otağın qapısını bərk bağlamışdı. Beləliklə, birinci otaqdan arxayın olaraq atamın yanına getmiş, bütün gecəni onun üçün güllə hazırlamış, tez-tez su içirərək ürək-dirək vermişdi. Bədənilə atamın qarşısını tutmuşdu kı, ona güllə dəyməsin. Səhər açılanda basqınçılar çıxıb getdilər. Həyətdə bir nəfərin meyidi və gözəl bir at qalmışdı. Gecədəki güllə səsinə qohum-qonşular tökülüşüb gəldilər. Atamla bərabər mən də evdən çıxdım. Nədənsə, həmin səhər o mənə çox uzun və arıq göründü. O, ağır addımlarla yerə sərilmiş qaçağa yaxmlaşdı və meyidin üzünə baxıb, "*Mən vəhşi deyildim, sən mənə vəhşi köynəyi geyindirdin"*, – dedi və sonra onun bizim qaydada dəfn edilməsini tapşırdı.

Sonralar atam yatarkən bibim onu həmişə özü qoruyardı, heç kəsə ürək qızdırmazdı, gecələr gözünü qırpmadan əlində tüfəng başı üstündə oturardı. O vaxtlar Mehdi hələ çox balaca idi. Amma hər yerdə onun xırdaca bədəni görünürdü.

Ehtimal ki, bu hadisələr onun da yaddaşında dərin bir iz buraxmışdı. Ailəmiz 1922-ci ildən köçüb Qasım İsmayılov küçəsində 122 nömrəli evdə yaşamışdır. 1923-cü ildə atam ağır xəstələnib vəfat etdi və biz,–mən, Mehdi və təzə anadan olmuş kiçik bacım anamla birlikdə tək qaldıq.

– Anam sakit təbiətli, evdar qadın idi. Bütün fikri-zikri balalarını sağlam böyüdüb tərbiyə etmək idi.

Atamızın təqaüdünü alır, bizim ehtiyaclarımızı ödəyirdi .Hər yay Novxanıdakı kiçik bağımıza köçürdük.

Biz o bağları çox sevirdik. Şirin ağ şanısı, ənciri, təmiz qumu və gözəl dənizi vardı. Dəniz kənarı biz uşaqların ən çox sevdiyi gəzinti yeri idi. Hər gün bir neçə dəfə Mehdi öz yaxın yoldaşları olan Mürsəl, Məmmədağa, Səlim, Rəhim, Habil və başqaları ilə birlikdə dənizə gedib saatlarla qumda uzanar, özlərini günə verib qaraldar, üzmək öyrənər və güləşərdilər. Dənizdən onu evə zorla gətirərdik.

Atamın vəfatından sonra bibim birdəfəlik bizim yanımıza köçdü. Bir neçə vaxtdan sonra anam da xəstələnib vəfat etdi. Bu zaman Mehdinin 14-15 yaşı var idi. Mehdi anamın ölümündən çox kədərlənmişdi. Mən bu yaşda olan oğlan uşağının bu qədər kədərlənə biləcəyini təsəvürrümə gətirməzdim. Hər dəfə qəbir üstə gedər, onun vəfat etdiyi günü tez-tez yada salar və ömrünün axırına qədər o günləri özünə matəm sayardı.

Anamın vəfatından sonra bizim tərbiyəmizlə bibim məşğul olmağa başladı. Evimizdə heç bir qaydanın pozulmasına yol verməyərək bizim dərslərimizə daha artıq fikir verməyə başladı. O deyərdi: *"Siz ancaq oxuyun, sonrasıyla işiniz olmasın"*. Odur ki, bizim ev xərcindən və zəhmətindən o qədər də xəbərimiz olmurdu.

Mehdi uşaqlıqda qarayanız, saçları sığallı, qara gözləri bir qədər dərində, enlisifət bir oğlan idi. O kiçik yaşlarında çox nadinc idi, damlara çıxar, ağaclara dırmaşardı. Yaşadığımız evın həyətində milis idarəsi yerləşirdi. Milis işçiləri həyətdə bədən tərbiyəsi ilə məşğul olmaq üçün hər cür tirlər (brusik, turnik) qurmuşdular. Mehdi də səhərdən axşama qədər

onların üstündə oynayardı. Bu həvəs onda axıra qədər davam etdi. Sonralar o, yaxşı üzər, turnikdə hərlənər və ən uca tirin başına hamıdan tez dırmaşardı. Bütün bu dəcəlliyinin üzündən onun bir dəfə qıçının sümüyü çatlamışdı, iki dəfə qolu dirsəkdən düz bitişməyib əyri qalmışdı. Onun bu nadincliyi məni çox darıxdırar və qorxudardı. Mən həmişə onun hərəkətlərinə göz yetirib gözlərim qaralana qədər onun hərlənməsinə baxardım. Bəzən bu hərəkətlərdən ötrü cəzalandırardım. Yaşlarımız arasındakı fərqin üç il olmasına baxmayaraq o, həmişə mənə tabe olar, cəzadan qaçmaz və özünü təmizə çıxartmağa çalışmazdı. Bununla demək istəyirəm ki, o çox sözə baxan, az tələbkar idi. Axşamlar biz gəzməyə çıxanda o evdə qalar və bizi razı salmağa çalışardı, hətta biz evə qayıdana qədər çay qoyar və bacardığı axşam yeməyini də hazırlardı.

Bir dəfə biz ikimiz evdə qalmışdıq. Mehdi mənə: "Bacı, gəl mama üçün halva bişirək – dedi. Mən də razı oldum. Unu, yağı, şiräni hazırladıq və hamısını bir-birinə qatıb oda qoyduq, nəticədə halvaya oxşamayan yapışqan kimi qatı bir kütlə alındı. Başa düşmədik ki, niyə belə oldu. Bibim və bacım evə gələndə *"halva"*nı gördülər, gülüşdülər. Sonra bibim bizi başa saldı ki, unu qovurmadığımız üçün belə alınıb. Heç kim halvadan bir tikə də yemədi.

Mehdi 1925-ci ildə yaşadığımız evin qarşısındakı 19 nömrəli (əvvəllər 77 nömrəli) yeddiillik məktəbə daxil olmuşdu. O zaman yazıçı Süleyman Sani Axundov məktəbin müdiri idi. Mehdinin ilk müəllimi, Azərbaycanın məşhur bəstəkarı mərhum Səid Rüstəmov olmuşdur. Məktəbli ikən o zirək və çox çevik idi. Mehdinin əlindən mıx, çəkic, mişar əsla düşmürdü. Balaca mişarla evimizdəki şəkillər üçün gözəl bəzəkli şəkil çərçivələri düzəldərdi. O, çərçivələrin birinə qara boyayıb anamın şəklini salmış, digərini qırmızı rəngləyib qoymuşdu ki, indi orada onun öz şəkli yerləşir. Mehdi yaşa dolduqca sakitləşir, mehribanlaşırdı. Bibim deyərdi: "Sizə demirdim ki, nadinc uşaq böyüyəndə sakit

olar!" Mehdi evimizə, ailəmizə olan məhəbbətini hər hərəkətilə büruzə verirdi. Yuxarı siniflərə keçdikcə fotoya, şəkil çəkməyə meyli artdı. Mən onun çəkdiyi şəkillərə baxıb incəsənətə olan həvəsini aşkar görürdüm. Nəhayət, yeddiillik məktəbi bitirib bir qrup yoldaşı ilə birlikdə 1932-ci ildə Bakı rəssamlıq texnikumuna daxil oldu.

Mehdi elə bil bununla öz yerini və arzusunu tapmış oldu. Bu illər bizim gəncliyimizin ən qaynar, şirin çağları idi. Mən o zaman Tibb İnstitutunun tələbəsi idim. Hər axşam evimizdə mənim tələbə dostlarım, Mehdinin yoldaşları Mürsəl, Məmmədağa, Paşa və Ənvər yığışıb qızğın söhbət edərdik. Mehdi dərslərinin necə keçdiyini, hər müəllimin necə içəri girib, özünü nə təhər apardığını və danışığını təqlid edər, hərəyə bir məzəli söz qoşar və bizi doyunca güldürərdi. Lakin belə hallarda da işindən qalmazdı. Mehdi axşamlar evdə idarələrdən, kitabxanalardan, Azərnəşrdən aldığı sifarişləri işləyir, rəhbərlərimizin şəkillərini böyüdür, plakatlar çəkir və şüarlar yazırdı. Əlində fırça rəng vura-vura uca səslə danışar, hərdən dayanıb bir oyun çıxarar və yenə işinə davam edərdi. Bizi isə yanından getməyə qoymazdı ki, "siz gedəndə darıxıram. Yoldaşlarını yanında ləngidər, evlərinə zorla buraxardı.

Cavan yaşlarından zəhmətə alışan, heç şeydən narazı olmayan Mehdi həmişə şən, gülərüz, gümrah, kefikök görünərdi. Əliyə verdiyi şəkillərinin birinin arxasında belə bir şeir yazmışdı:

"Əlimdə bir qırıq saz,
Nəşəm çox, kədərim az".

Gördüyü işlərdən aldığı pulun hamısını bibimə verər, özünə az miqdarda xərclik götürərdi. Biz onu nə qədər dilə tutardıq ki, gecələr işləməsin, yuxusuzluq onu yorur, o, qulaq asmır və deyirdi ki, bir qədər pul yığıb təhsilimi davam etdirmək üçün Moskvaya getmək istəyirəm.

Mehdinin adını dodaqlarıma gətirəndə gözlərimin qarşısına qarayanız, enlikürəkli, gülərüzlü, açıq alınlı, düz

Mehdi Hüseynzadənin
atası Hənifə Hüseynqulu oğlu
(1881-1923)

saçlarını geriyə darayan, mütənasib bədən quruluşuna malik ortaboylu bir cavan gəlir. O, yumoru, zarafatı çox sevərdi. Bir dəfə mən ona rənginin qaralığına işarə edərək zarafatyana nəsə dedim. O isə özünü itirmədən hazırcavablıqla dedi: *"Bacı, heç bilirsən mən çox zaman nə üçün küçəyə Ənvərlə çıxıram? Çünki mən Ənvərin yanında kağız kimi ağ görünürəm"*. Doğrudan da yoldaşı Ənvər Mehdidən də qara idi.

Mehdi hər şeyə maraq göstərirdi. Bir dəfə mən onun kitablarını yığışdıranda əlimə üzərində dəlikləri olan bir lövhə düşdü, atmaq istədikdə, Mehdi gördü. Əlimdən alıb yerinə qoydu və izah etdi ki, bu korlar əlifbasıdır. Bilmək olmaz, nə vaxtsa gərək olar. O vaxt mən onu necə var danladım ki, sənin başına niyə belə fikirlər gəlir.

Sonralar bunu xatırlayanda Mehdinin o fikrinə haqq qazandırıram və inanıram ki, bunlar ona bəlkə də dar gündə lazım olmuşdur. Evimizdə həmişə onun qayğıkeşliyi hiss olunardı. Evə zəng çəkər, elektrik ütülərini, çayniklərini təmir edərdi. Ümumiyyətlə, evə hər cür bəzək verməyi xoşlardı, çox zaman döşəmə tavanı özü rənglərdi. İş görə-görə də həmişə dodaqaltı nəsə zümzümə edərdi. Ən çox oxuduğu Cəfər Cabbarlının "*Gördüm üzünü, bağçada laləm yada düşdü"* şeiri idi. Bu səs hələ də mənim qulaqlarımdan çəkilmir...

Mehdi, ümumiyyətlə, ədəbiyyatı çox sevərdi. Dilindən Cəfər Cabbarlının, Vaqifin, Xəyyamın şeirləri düşməzdi. O, şəkil çəkdirməyi çox sevər və özü də bizim şəkillərimizi tez-tez çəkərdi. Hər şəklin arxasında bir beyt şeir yazardı.

Hətta Bakıda olmadığı zamanlar, Leninqraddan yazdığı məktublarında da yeni çıxan kitablardan onun üçün almağı xahiş edərdi. Mən ona Vahidin qəzəllərini alıb göndərmişdim.

1936-cı ildə rəssamlıq məktəbini qurtardıqdan sonra Rəssamlıq Akademiyasına daxil olmaq üçün Moskvaya getdi. Lakin həmin müsabiqədən keçə bilmədi və ikinci ili Leninqradda Xarici Dillər İnstitutunun fransız dili fakültəsinə daxil olub 1940-cı ilin yayına qədər orada oxudu. O, Leninqradda oxuduğu zaman mən institutu qurtarıb, Zəyəmdə (Şəmkir rayonunda) həkim işləyirdim.

Mehdi tez-tez hamımıza məktub yazar, heç kəsi yaddan çıxarmazdı. Kağızları mehriban və səmimi hisslərlə dolu olardı. Hər dəfə xahiş edərdi: "*Bir kəlmə də olsa tez-tez yazın"*. Biz də ona hər dəfə, məktub, pul, sovqat göndərərdik. O, yenə də dəfələrlə şəkillərimizi, uşaqların şəkillərini istəyirdi. Özü isə Leninqradın bütün gözəl yerlərində, Pyotr Sarayının fəvvarələrinin yanında öz yoldaşları ilə birlikdə şəkil çəkdirmiş və hamımıza adbaad (Aqşinə, Güllüyə, Əliyə) göndərmişdi. Şəkillərinin arxasında *"Yadigar saxlayın", "Gənclik və təklik həyatından"*, *"Unutmayın"*, *"Öpürəm"* kimi sözləri yazılmışdı. Mehdi yay aylarında tətilə gələndə özü ilə evimizə şənlik və şadlıq gətirirdi. Hər dəfə bizim ona göndərdiyimiz pullardan qənaət edib uşaqlarımıza bəxşişlər gətirərdi. Aqşini, Güllünü, Svetlananı növbə ilə kürəyində, boynunda gəzdirib dənizə aparardı.

Mehdi bibimizi xüsusi bir məhəbbətlə sevirdi. Ona *"ana"* deyərdi və ömrünün axırına qədər bir dəfə də olsa sözündən çıxmamışdı.

Mehdi səliqəli geyinməyi xoşlayardı. Paltarını təmiz saxlayardı. Bədən quruluşu qüsursuz olduğundan geydiyi paltarlar əynində çox yaxşı oturardı. Dördüncü kursa keçdikdən

sonra məktublarının birində məndən Bakıya keçirilmək üçün icazə almağı xahiş etdi. Mənim, bibimin, bacımın təkidlərinə qulaq asmayaraq, Bakıya, Lenin adma Pedaqoji İnstitutun dil və ədəbiyyat fakültəsinin II kursuna keçirildi. Bizə indi aydın olur ki, onu buraya çəkən şeirə və ədəbiyyata olan məhəbbəti imiş. Bu zaman biz onun şeir yazmaq qabiliyyətini də aşkara çıxardıq. Mehdi Xarici Dillər İnstitutunda, sonra isə ədəbiyyat fakültəsində oxumasına baxmayaraq, şəkil çəkməyini də unutmurdu və biz onu həmişə rəssam kimi tanıyırdıq.

Mehdi Pedaqoji İnstitutda oxuyarkən mən Azərbaycan Tibb İnstitutunun həmin binada yerləşən normal anatomiya kafedrasımn aspirantı idim. Hər gün institutda görüşər, tez-tez bir yerdə nahar edərdik. Onun bütün hərəkətləri mənimlə fəxr etdiyini göstərirdi. Ümumiyyətlə, biz bir-birimizi çox sevirdik. Mehdi öz xırda sevgi macəralarını kiçik bacıma deyər, məndən isə gizlədərdi. Gözəl xasiyyətə malik olan bu adam sevgidən kənar deyildi. Eşitdiyimə görə o uzun saçlı bir qızı sevirdi. Bir dəfə mən Mehdiyə institutun pilləkənində rast gəldim. Aşağıdan məni görən kimi gülə-gülə 3-4 pilləkəni quş kimi atılaraq yanıma gəldi.

"Mehdi, eşitdim evlənmək istəyirsən?"– deyə soruşanda o güldü. Mən isə: *"Hələ tezdir, bir il də gözlə. İnstitutu qurtar, sonra",*– dedim.

Bundan sonra evlənmək məsələsi bir də qaldırılmadı. Bu onun nə qədər təmkinli, böyük sözündən çıxmayan və ağıllı bir oğlan olduğunu sübut edirdi.

Bu hadisədən bir neçə ay sonra Vətənimizin baş üstünü təhlükə aldı. Müharibə başlandı. Bu zaman Mehdi V.İ.Lenin adına Pedaqoji İnstitutda ədəbiyyat fakültəsinin III kurs tələbəsi idi. Ailəmiz Şüvəlan bağlarında istirahət edirdi. Mehdi tətildə olmasına baxmayaraq şəhərdə tək qalırdı ki, birdən çağırış vərəqəsi gələr, onu evdə tapmazlar. Özü də tez-tez gedib xəbər tutur, onu nə vaxt çağıracaqlarını öyrənirdi. Axırda o vaxt gəlib çatdı və biz onu 1941-ci ilin avqust ayında yola saldıq. Gedərkən bizə ürək-dirək verir, gülür, danışır və çox şad görünürdü. Onu yola salarkən elə hey inadla deyirdi

ki, gərək ailəmizin, atamın adını batırmayım. Ordu sıralarına gedərkən Mehdi ÜİLKGİ-nin üzvü idi. Onun çox fikirləri, böyük arzuları vardı. Bu arzu və fikirlərin puça çıxmasına qaniçən alman faşistlərinin vəhşi hücumu səbəb oldu. Ordu sıralarına çağrılandan sonra əvvəllər bir neçə müddət Bakıda, sonra Qusarda, daha sonralar isə Tiflisidəki hərbi məktəbdə kursant olmuşdur. Bütün bu yerlərdə olduğu zaman bibim onun görüşlərinə getmiş və aylarla yanında qalmışdı. Mehdi hərbi paltarda ucaboy görünürdü. Bibimin dediyinə görə Mehdi bu geyimdə atamıza oxşayırdı.

Tiflisdən göndərdiyi məktublarının birində Mehdi yazırdı: *"Məni təbrik edin, bu gün məni partiyaya qəbul etdilər"*. Başqa bir məktubunda isə yazırdı: *"Məndən nigaran qalmayın. Mən sizin adınızı batırmayacağam, mənim haqqımda eşidərsiniz"*.

Hərbi məktəbi bitirdikdən sonra Mehdini Stalinqrad cəbhəsinə yola saldılar. Bu zaman 1942-ci ilin yay ayları idi. Bundan sonrakı məktublarının sayı azalmadısa da, məzmunu dəyişdi, ciddi və yığcam oldu. Bu məktublarında tez-tez kefimizi soruşur, ona ətraflı cavab yazmağı xahiş edirdi. 1942-ci il avqust ayının 2-də göndərdiyi məktubunu belə bir sonluqla bitirmişdi: *"Məktubu sizə düşmən güllələri altında yazıram. Sizə pul göndərdim, unutmayın, öpürəm!"* Bu onun bizə yazdığı axırıncı məktubu oldu və məktublarınm arası kəsildi, bizim də bir neçə ay ərzində yazdığımız məktublar geri qayıtdı.

Mehdinin başındakı macəralarda biz ancaq müharibə qurtarandan sonra onun döyüş yoldaşı Cavad Həkimovun bizə yazdığı məktubundan öyrən. Bu məktub Mehdinin qəhrəmanlıqlarından danışır, onun həlak olmasını dərin hüznlə xəbər verirdi.

Qardaşım Mehdinin bütün mehriban, sakit, hətta bir qədər utancaq xasiyyətini xatırlamaqla yanaşı, eyni zamanda, onun zirəkliyi, hazırcavablığı, hər hansı bir vəziyyətdən tez çıxmağı bacarması da gözlərim qarşısında canlanır və mənə elə gəlir ki, doğrudan da yalnız belə bir üzügülər, sağlam cavan oğlan bu cür xarüqələr yarada bilərdi. Başqa cürdə

ola bilməzdi. Məncə, sovet torpağında böyümüş, boy atmış, vətənini, xalqını sevən hər bir gənc məhz belə olmalıdır.

Mehdinin həlak olması bizi nə qədər ağrıtsa da onunla fəxr edirik, çünki o, Azərbaycandan uzaqlarda Vətənimizin şöhrətini artırmış, xalqımızın adını yüksəklərə qaldırmışdır. O, azadlıq uğrunda öz canını qurban verdi və *"atamın adını batırmayacağam"* vədinə sadiq qaldı.

Bikəxanım Əlizadə,
Mehdinin böyük bacısı

SAĞ OL, ƏZİZ QARDAŞIM!

Bütün bacılar kimi, mən də qardaşımı sonsuz məhəbbətlə sevirəm. Hərdən düşünəndə ki, Mehdi həyatda yoxdur, sanki titrəyirəm, onun şən, gülər üzü, iti və mənalı baxışları gözlərim qarşısında canlanır. Elə bil bu baxışlar mənə deyir ki, *"bacım, mən ölməmişam, qəhrəmanlar da ölərmi?"*

Qardaşımı yada salanda xəyalım məni uşaqlıq illərinə aparır. Mən üç yaşından *"Sünbül"* bağçasına gedirdim. Səhərlər bibimin işi olduğundan məni bağçaya ötürməyi qardaşım Mehdiyə tapşırmışdılar. O zaman Mehdinin 8 yaşı var idi. Mehdi hər gün səhər tezdən durub məni mülayim səslə oxşaya-oxşaya, dilləndirə-dilləndirə yuxudan oyadırdı: *"Mənim qəşəng, ağıllı bacım, mehriban bacım, dur, bağçaya gecikəcəksən"*. Evdə boş vaxtlarımızda Mehdi mənə maraqlı nağıllar danışardı. Qonşuluqda yaşayan uşaqlar Mehdinin xətrini çox istəyirdilər. O, uşaqlara cürbəcür şəkillər çəkər, oyuncaqlar düzəldərdi. Mehdi həmişə mənə tapşırardı ki. yoldaşlarınla rəftarın yaxşı olsun, özündən böyüklərə hörmət elə.

Sonra məktəb illəri! Hər gün onunla məktəbə gedib-gəlirdik. O, məktəbin əlaçı şagirdlərindən idi, Mehdi yarışlarda iştirak edər, konsertlərdə öz şeirlərilə hamını heyran

qoyardı. Mehdi mənimlə bərabər ev işlərində bibimə kömək edərdi. Bəzən işdən boyun qaçırdığım zaman o məni başa salardı ki, *"bacım, iş və zəhmət insanın cövhəridir. Hamı zəhməti sevməlidir. Bibimizə kömək etmək borcumuzdur"*. Leninqradda oxuyarkən Mehdi mənə tez-tez məktub yazar, Leninqradın mənzərəli şəkillərini göndərərdi. Hər göndərdiyi şəklin arxasında yazardı: *"Bibinin sözünə bax, onu incitmə, ağıllı və namusla dolan, pis yoldaşlara qoşulma, mənə tez-tez məktub yaz, dərslərindən geri qalma"*.

Bibimə yazdığı kağızlarda deyərdi ki, ona pul göndərməsin. Yay tətillərində o, Bakıya gələrdi. İşsiz qala bilmədiyindən müvəqqəti də olsa kitabxanaların birində, məsələn Abbas Səhhət adina, Əzizbəyov adına kitabxanalarda işə girərdi. Hər işlədiyi yerdən Mehdi yaxşı xasiyyətnamə və hədiyyələr alardı. Mehdi hələ orta məktəbdə oxuyarkən dram dərnəklərində iştirak edərdi. Bir gün Mehdinin bir nəğməni diqqətlə öyrəndiyini gördüm. Onun nə oxuduğu ilə maraqlandım. O dedi: "Bu yaxınlarda mən Azərbaycan Dövlət Dram Teatrında böyük dramaturqumuz Cəfər Cabbarlının *"Sevil"* pyesində Gündüzün rolunu oynayacağam. Orada pionerlərlə birlikdə həmin nəğməni oxumalıyıq. Mehdi idmanla da məşğul olurdu. O, yaxşı üzmək bacarırdı. Xüsusən tramplindən müxtəlif üsullarla suya tullanmağı çox sevirdi. Mehdi çoxlu mütaliə edərdi. Oxuduğu kitablardakı qəhrəmanların yaxşı cəhətlərini özünə şamil etməyi sevərdi. İndiki kimi yadımdadır. Bir gün Mehdi həyətimizdəki qonşu qızların gəlin-gəlin oynamalarına tamaşa edirdi. Uşaqların içərisində qonşumuz Raziyə xalanın qızının gəlinciyi olmadığından anası kiçik taxtanı parçaya büküb qızı üçün gəlincik düzəltmişdi. Qızlar onun gəlinciyini ələ salıb gülüşürdülər. Bu zaman qız pərtlikdən gəlinciyini atıb ağlamağa başladı. Bu hadisə Mehdiyə pis təsir etdi. Həyətdən çıxıb getdi. Bir azdan qardaşım əlində karton qutu gülərək qıza yaxınlaşdı. İçərisindən qəşəng, yaraşıqlı bir gəlincik çıxarıb qızcığaza uzatdı. Bu hadisədən xəbər tutan Raziyə xala yamanca kövrəldi, Mehdini qucaqlayıb ağladı.

Mehdi Hüseynzadənin
anası Güllü xanım

Mehdi onu sakitləşdirdi: *"Ağlama, Raziyə xala, qoy məktəbi qurtarıb Bakıya gəlim, işləyəndən sonra gör mən sənə necə kömək eləyəcəyəm!"*.

Mehdi zarafat xoşlayandı. Onun zarafatlarından heç kəs inciməzdi. Bəzən onun vaxtilə etdiyi zarafatlar yadıma düşəndə dodaqlarım qaçır, qəlbimi xoş əhval bürüyür. Belə anlarda kədərim, nisgilim bircə anda sabun köpüyünə dönüb yox olur. Dekabr ayının axırları idi, hamı yeni ili qarşılamağa hazırlaşırdı. Mən 9-cu sinifdə oxuyurdum.

Dekabrın 31-də yoldaşlarımla birlikdə məktəbə, bayram keçirməyə getmişdik. Birdən məni çağırıb qardaşımın gəldiyini xəbər verdilər. Mən dərhal şüşəbəndə çıxıb Mehdini gördüm. O, məni evə aparmaq üçün gəlmişdi. Mən isə konsertdə axıra qədər qalmaq istəyirdim. O, şən halda dedi: *"Heç bilirsən evdə sənin üçün nə gözəl yolka bəzəmişik"*. Mən bir neçə yoldaşımla evə qayıtdım. Otağa girəndə pəncərəmizdə bəzənmiş böyük bir küknar ağacı gördüm. Yolka oyuncaqlar ilə yox, yeməli şirniyyat və meyvələrlə bəzənmişdi. Bu ağacı bacım Bikəxamm yoldaşı ilə birlikdə alıb gətirmiş və mən məktəbdən qayıdana kimi bəzəmişdilər. Ağacdan asılmış hər şeyə diqqətlə baxırdım. Hər şeydən artıq xoşuma gələn, ağacın orta hissəsindən asılmış zolaqlı, böyük bir qırmızı alma idi. Mən heç kəsin ağacıma toxunmasına icazə vermirdim. Hər gün ağacdan asılanları yoxlayırdım. Mehdi məni dilə tuturdu ki, ağacdan bir neçə şey qırıb ona verim. Mənsə etiraz edirdim. Bir dəfə mənim nəzərimi ağacda nəsə bir dəyişiklik cəlb etdi. Diqqətlə

baxandan sonra bildim ki, Mehdi konfetləri yeyib, kağızlarmı yenidən büküb asıbmış. Almanın isə ağaca tərəf hissəsini yemişdi. Pərt olduğumu görən Mehdi məni qucaqlayıb dedi:

- Mənə acığın tutmasın, bacım. Məndə təqsir yoxdur. Tamah mənə güc gəldi. Səndə də heç insaf yox imiş. Sənə məsləhətim budur ki, xəsis olmayasan, atalar misalıdır: *"Malını yeməyənin malını yeyərlər"*. Mehdinin bu sözündən evdəkilər qəhqəhə çəkdilər.

Mən 10-cu sinfə keçmişdim. Dərslərin başlanmasına 2-3 gün qalmışdı. Bibimdən xahiş etdim ki, mənim üçün saat alsın. Bibim söz verdi ki, bir-iki aydan sonra alacaq. Mən isə ağlayib birinci gün dərsə saatla getmək istədiyimi bildirdim. Bu, mümkün deyildi. Mehdi yoldaşları ilə evə gələndə mənim bikef olduğumu görüb səbəbini soruşduqda, bibim narazı halda əhvalatı ona danışdı. Mehdi onun əvəzində məni inandırdı ki, o mənə saat alacaq. Ertəsi gün axşam saat 11-də mən yatmışdım. Birdən kiminsə məni oyatdığını hiss etdim. Gözlərimi açanda Mehdini gördüm. O, yumulmuş ovcunu mənə tərəf uzadıb gülə-gülə dedi:

– Əgər bilsən əlimdə nə var?

Mən sevincək qalxıb oturdum, ovcunun içərisində altıkünc bir metal saat gördüm. Demə Mehdi həmin saatı özünə kostyum almaqdan ötrü yığdığı puldan almışdı.

Mehdi belə qardaş idi. O məni çox sevirdi. Bütün dərdlərini mənimlə bölərdi. Bacım Bikəxanım bizim hər ikimizdən böyük olduğu üçün biz ona ana kimi hörmət edirdik. Hər sözü ona deməkdən çəkinərdik. Bəzən Mehdi evə gec gəlməli olduqda, mənə tapşırardı ki, axşam o, evə gəlincəyə qədər yatmayım, qapını onun üçün mən açım. Əgər bibi açsa, saata baxar, gec gəldiyinə görə acığı tutardı.

Mehdi Leninqradda da yoldaşları arasında hörmət qazanmışdı. Hamı onu sevirdi. Qızlardan bəziləri ona tamamilə başqa istək bəsləyirdilər. II kursda oxuduğu zaman Mehdi yay tətilində Bakıya qayıtmışdı. Onunla bir kursda oxuyan bir qız da Mehdi ilə bərabər Bakıya gəlmişdi. Həmin qız Bakıda yaşayan xalasıgilə düşmüşdü. Bir gün o qızı Mehdi

evimizə qonaq çağırdı. Ailəmiz qonağı hörmətlə qarşıladı. Mehdi Azərbaycan dilində məni başa saldı ki, əgər bu qız səndən soruşsa ki, Mehdi nə üçün evlənmir, deyərsən, bibimin xasiyyəti ağırdır, o indi Mehdinin evlənməsinə razı deyildir, həm də bibim Mehdi üçün özü bəyəndiyi qızı alacaq. Bu sözlərin mənasını Mehdidən soruşanda, o mənə belə cavab verdi. *"Bu qız məni sevir. Mənim dostlarımdan biri isə bu qızı sevir və ürək sözlərini mənə danışır. Mən dosta xain çıxa bilmərəm. Qorxuram ki, qız mənə sevgidən söhbət açа. Odur ki, söhbətin açılmasına imkan yaratmaq istəmirəm"*. Mehdi dostluğa sadiq oğlan idi.

Budur, 1940-cı il. Mehdi Leninqraddan Bakıya qayıtmışdı. O, Bakıda V.İ.Lenin adına Pedaqoji İnstitutun dil və ədəbiyyat fakültəsinin II kursunda oxuyurdu. O illərdə mən də həmin institutun xarici dillər fakültəsinin fransız dili şöbəsində oxuyurdum. Bizim müəyyən dərslərimiz Mehdigilin sinfi ilə birlikdə keçirdi. Mehdi həmin dərslərdən azad idi, çünki Leninqrad Xarici Dillər İnstitutunun IV kursundan gəlmişdi. Bir gün evdə söhbət zamanı ondan xəbər aldım: "*Mehdi, heç sənin xoşuna gələn qız varmı?"*. O mənə baxıb gülümsədi: *"Gənc oğlan da sevgisiz olarmı? – dedi. – Əlbəttə, xoşuma gələn bir qız var, özü də bizim sinifdə oxuyur"*.

Mən həmin qızın adını, kim olduğunu öyrəndim. Növbəti dərsimizdə o qızla tanış oldum. Onun haralı olduğunu, ata və anasının olub-olmadığını öyrəndim. Məlum oldu ki, həmin qız da Mehdini urəkdən sevirmiş. Nə isə...

Evə qayıdıb Mehdiyə şad bir xəbər verdim ki, qızın nişanlısı yoxdur, o da səni sevir. O gündən bizim bacı-qardaş gizli söhbətlərimiz başlandı. Mən qardaşımla qız arasında qasid rolunu oynayırdım. Mehdidən qıza məktublar aparırdım. Eyni zamanda qızdan da Mehdiyə gətirirdim. Mehdi qıza yazdığı məktublarında öz imzasını *"Mehriban"* deyə qeyd edirdi. Onlar öz məktublarında heç zaman ayrılmayacaqlarına and içirdilər.

1941-ci il iyun ayının 22-si idi. Bu tarix unudulmayan bir gündür. Bir bacı kimi o gün mənim də xatirimdən silinmir.

Həmin günü Mehdi evə qanıqara gəldi. *"Eşitdinizmi, bu alçaqlar nə etdilər?"– deyə bizdən soruşdu. –" Ax, alçaqlar, bəs sizin bağladığınız müqavilə hara getdi?"* – deyə Mehdi dişlərini bir-birinə sıxdı.

1941-ci il avqust ayımn 9-u idi. Həmin gün qardaşımızla son görüşümüz idi. Bacım Bikəxanım bərk xəstə idi. Mən, bibim və bir neçə qohumlarımız Mehdini yola salmağa toplaşmışdıq. Hələ evdə ikən o məni yanına çağırıb nəsihət və tapşırıqlar verdi. Axırıncı sözü bu oldu: *"Bacım, məndən sonra bibini tək qoyma. Mənim tərəfimdən Aslandan xahiş et ki, mən qayıdana kimi mənim evimdə yaşayın. Mənim qayıtmağımı gözləyin!"*.

Mən 1974-cü ilə qədər qardaşımın evində yaşayıb, onu gözlədim...

Vaxt başa çatdı. Mehdi geyinib evdən çıxdı. Biz Dzerjinski rayon hərbi komissarlığına gəldik. Oraya toplaşan gənclərin adlarını çağırıb sıraya düzdülər. Adı çəkilən gənclərin arasında Mehdinin xoş və gülər üzü göründü. Dəstə irəliləyib Bakı vağzalına çatdı. Qatar dayanmışdı. Mehdi cəld atılıb əlindəki çantasını vaqonların birində yerləşdirdi. Yenə bizim dayandığımız yerə qayıtdı. Mehdinin gözləri kimi isə axtarırdı. Birdən gözləri bir yerə zilləndi. O gülümsünürdü, kimi isə işarə ilə yanına çağırırdı. Mən işarə olunan tərəfə baxanda Mehdinin sevdiyi qızın əlində çiçək dəstəsi dayandığını gördüm. Qız bibimdən utandığı üçün yaxına gəlmirdi.

Mən bibimə və qohumlarımıza işarə ilə bir qədər uzaqlaşmalarını bildirdim. Mehdi qıza yaxınlaşdı, hər ikisinin gözləri bir-birinə dikilmiş, qızın əllərini isə Mehdi bərk-bərk tutmuşdu. Onlar bir-birlərinə and içdilər ki, sadiq qalacaq və gözləyəcəklər.

Qatar son dəfə fit verib ağır-ağır sürünməyə başladı. Mehdi vaqonun qapısında dayanmışdı. Gözdən itənə kimi əli ilə bizimlə vidalaşdı. Artıq əsgər bacısı idim. Mehdi Qusar rayonundan mənə tez-tez məktub yazırdı. O mənə Qusarın mənzərələrindən, təbiətindən yazır və xahiş edirdi ki, ona

məktub yazmağı əsirgəməyim. Məktublarında bəzən özünün yazdığı şeirləri də göndərirdi. Sonralar onu Tbilisi şəhərinə apardılar. Tbilisidən göndərdiyi məktubların birində Mehdi məndən Nizaminin əsərlərini və Ömər Xəyyamm rübailərini göndərməyimi xahiş etmişdi, çünki Mehdi şeirsiz yaşaya bilmirdi. Bir də məktubunda yazırdı ki, onunla bir yerdə olan əsgər yoldaşları Mehdinin xətrini çox istəyirlər. Mehdi Kommunist Partiyası sıralarına üzvlüyə qəbul edildiyini bildirirdi.

Mehdi yazırdı: *"Tbilisi hərbi məktəbini əla qurtardım. Dünən mənə bir avtomat və təzə hərbi libas verdiiər. Görərsən mən, Mehdi, bu avtomat ilə adam öldürə bilərəmmi? Axı, mən heç bir canlının ölümünə razı olmamışam. Mən belə tərbiyə almamışam. Sağ olun! Sabah yola düşürük, çatan kimi olduğum yeri sizə bildirərəm".*

1942-ci ilin axır aylarında Mehdidən Stalinqrad şəhərindən yazdığı məktubu aldım. O, yazırdı: *"Mən cəbhədən yazıram. Burada güclü vuruşmalar gedir. Faşistlərin törətdiyi vəhşiliklərin həddi-hüdudu yoxdur. Onlar hər bir iyrənc hərəkətdən istifadə edirlər. Biz sabah hücuma keçirik. Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldacağam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur!".*

Bəli! Bu Mehdinin son məktubu oldu. Avtomata baxıb canlı insana necə atəş açacağına təəccüb edən Mehdi Stalinqraddan göndərdiyi məktublarda bildirirdi ki, faşistlərin vəhşiliklərini, onların dinc əhaliyə verdikləri işgəncələri, dağıdılmış binaları, əzab ilə ölən uşaqları gördükdən sonra fikri tamamilə dəyişmişdir. Mehdi onun doğma ana yurduna soxulub dinc xalqa əzab verən bu canavarların hansı rəftara layiq olduğunu indi bilirdi. Vətənin son damla qanına qədər müdafiə etməyə and içmişdi. Mehdi öz andına sadiq çıxdı.

Mən Mehdinin bir məktubunu qeyd etməyi lazım bilirəm. Bu məktub Mehdinin sevdiyi qıza yazdığı axırıncı məktub idi.

O yazırdı: ***"Sevgilim... mən bunu cəbhədən yazıram. Güclü vuruşmalar gedir. Salamat qalsam, evə qəhramancasına qayıdacağam. Şikəst qayıtsam, sənə mane olmayacağam. Əgər qayıtmasam, özünə elə bir adam seç ki, onunla yanaşı gedərkən yoldaşların sizə baxıb gülməsinlər!***

İmza: Mehriban"

Mehdi vətəndən çox-çox uzaqlarda olsa da faşist quldurlarına qarşı qəhrəmancasına vuruşdu. Bu, hər bir sovet gəncinin müqəddəs borcu olduğu kimi, Mehdinin də borcu idi. Mehdi başqa cür hərəkət edə bilməzdi. O, kommunist ailəsində anadan olmuşdu. Ona ailədə, düşdüyü kollektivlərdə düzgün və sağlam tərbiyə verilmişdi.

Budur, 1957-ci ilin 11 aprel gecəsi. Bu gecə bizim ailəmiz üçün yaddan çıxmayan bir gecədir. Moskvadan radio vasitəsilə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını verirdilər. Mehdiyə şərəfli ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Mən və bacım bir-birimizə baxıb ağlayırdıq. Lakin biz bununla belə Mehdinin ölməsinə heç cürə inana bilmirik. Heç insan da ölümü əziz adamına yaraşdıra bilərmi? Yox, Mehdi ölməmişdir. O, bizim qəlbimizdə yaşayır, yaşayacaqdır!

Biz qardaşımız Mehdi ilə fəxr edirik. Onunla nəinki ailəmiz, qohumlarımız, hətta qədirbilən Azərbaycan xalqı da fəxr edir. Bunu ayrı-ayrı şəhərlərdən, rayon və kəndlərdən aldığımız məktublar təsdiq edir. Məktublarda bizə həm də gözaydınlığı yazırlar. Məktub yazan gənc qız və oğlanlar Mehdi ilə fəxr etdiklərini qeyd edirdilər.

Mən ağlayıram, bir tərəfdən də başımı uca tutub deyirəm: Əziz qardaşım, sən mərd atanın mərd oğlusan. Sən nəsillərdən-nəslilərə keçən dillər dastanı olacaqsan. Sənin çəkdiyin əzablar heçə çıxmadı. Sən ölməz qəhrəmansan, bizim və xalqımızm qəlbində əbədi yaşayacaqsan.

Hürriyyət Əzizbəyova,
Mehdinin kiçik bacısı

SEVİMLİ ŞAGİRDİM

1925-ci ilin oktyabr ayı idi. Bakı Pedaqoji Texnikumunu qurtarıb şəhərdəki 19 nömrəli məktəbin birinci sinfinə müəllim təyin olundum. Həmin sinfin uşaqlarına 5 il dərs dedim. Buna görə də həmin şagirdləri indi də xatırlayıram. Onların şən sifətləri, oynaq baxışları indi də gözümün qarşısında canlanır. Xalqımızın qəhrəman oğlu, partizan Mehdi Hüseynzadə də o zaman bu uşaqların içərisində idi.

Mehdi intizamlı olması, dərsə diqqətlə qulaq asması ilə başqa şagirdlərdən fərqlənirdi. O, həmişə dərsə hazırlıqlı gələr, cavab verərkən hər sözü yerli-yerində işlətməyi bacarardı. Onun nitqi aydın və səlis idi.

Mehdi təkcə dərsdə, məktəbdə deyil, məktəbdən kənarda da özünü tərbiyəli aparırdı. O, uşaqların hamısı ilə dostluq edərdi. Buna görə də şagird yoldaşları Mehdiyə xüsusi hörmət bəsləyirdilər. Mən də bunu nəzərə alaraq ikinci sinifdə onu sinif nümayəndəsi təyin etdim.

Mehdi sinif nümayəndəsi olduqdan sonra məktəbin ictimai həyatında daha fəal iştirak etməyə başladı. O, sinifdə xüsusi bir səliqə yaratdı.

Mehdi dərsdə sakitliyi sevdiyi kimi, yoldaşları ilə əylənib-oynamağı da çox sevirdi. Dərs vaxtı qaraqabaq görünən Mehdi oyunda şən və zarafatcıl idi. Uşaqların keçirdiyi idman xarakterli oyunlarda Mehdi həmişə qalib gələrdi. O cəldliyi, vəziyyətdən baş çıxarması ilə yoldaşlarından fərqlənirdi. Mehdinin yaxşı əl qabiliyyəti də var idi. O, gözəl şəkillər çəkirdi. Öz müəllimlərinə xüsusi hörmət bəsləyirdi. 1930-cu il iyun ayının 6-da yanıma gəlib utana-utana dedi:

– Müəllim, gəlin birlikdə şəklimizi çəkdirək!

Onun arzusuna görə birlikdə şəkil çəkdirdik.

Mehdi 19 nömrəli məktəbi qurtardıqdan sonra da mənimlə əlaqə saxlayırdı. O, Bakı rəssamlıq məktəbində oxuyarkən tez-tez yanıma gələr, çəkdiyi rəsmlər haqqında mənə məlumat verərdi. Mehdi Leninqradda oxuduğu və sovet ordusunda xidmət etdiyi illərdə də mənə məktub göndərirdi.

Soldan: Mehdi Hüseynzadə, müəllimi bəstəkar Səid Rüstəmov və Mürsəl Nəcəfov, 1930-cu il

Misilsiz igidliyinə görə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilməsi məni də çox sevindirdi. Axı o mənim ən sevimli şagirdim olmuşdu.

Səid Rüstəmov,
Azərbaycan SSR xalq artisti,
Respublika dövlət mükafatı laureatı

SƏNİ UNUTMAQ OLMAZ, ƏZİZİM!

Gələcək bizimdir, yaxın bir zaman,
Sevincdən, dostlarım, gülüb-ağlaram.
Mehdi Hüseynzadə,
avqust 1944-cü il

1945-ci ilin dekabr ayında mən Budapeştdən Bakıya qayıdırdım. Rostovda bir neçə nəfər azərbaycanlı zabitlə rastlaşdım. Hamımız neçə ildən bəri səbirsizliklə Bakını, evimizi, öz ailəmizi, qohum-əqrəbamızı görməyə can atırdıq. Rostovdan Bakıya kimi cəbhə epizodlarından danışırdıq. Mənimlə bir kupedə gedən baş leytenant rütbəsində bir cavan oğlan Stalinqrad hadisələrindən söhbət saldıqda, mən ondan Stalinqradda olmuş bir neçə yaxın qohum və tanış haqqında, o cümlədən, dostum Mehdi haqqında soruşdum. Baş leytenant (onun ad və familiyasını unutmuşam) Mehdinin adını eşitmişdi və öz cəbhə yoldaşlarından eşitdiyi bir əhvalatı danışdı. Məlum oldu ki, bakılı leytenant Mehdi Hüseynzadə Stalinqrad vuruşmalarından birində itmiş, sonralar isə ondan xəbər tutan tərxis olmamışdı...

Ordudan təxris, olunub evə qayıtmağımı eşidən qohumlarım və eləcə də rəssam yoldaşlarım mənim görüşümə gəlirdilər. Mehdinin bibisi Mahsənəm də bizə gəldi. O, məni qucaqlayıb ağladı və dedi:

– Oğul, səni gördüm, elə bil Mehdini gördüm.

Mən bibiyə (biz də Mehdi və bacıları kimi Mahsənəmə bibi deyirdik) Mehdi haqqında eşitdiklərimi danışdım və onu sakitləşdirməyə çalışdım: *"Sağlıq olsun – dedim, – Mehdi də gəlib çıxar, səni intizarda qoymaz..."*.

Bir ildi ki, ordudan ayrılmışdım. İşimlə əlaqədar olaraq Türkmənistana getmişdim. Nebit-Dağda yeni neft mədənlərindəki azərbaycanlı yoldaşlarla söhbət zamanı öyrəndim ki, burada Mehdi ilə partizan dəstəsində birgə vuruşmuş bir nəfər yaşayır. Həmin gün mən onunla

görüşdüm. Biz fəhlə yeməkxanasında bir stol arxasında oturub xeyli söhbət etdik. Məlum oldu ki, Ermənistandan olan bu adam əsirlikdən qaçıb partizanlara qoşulmuş və bir müddət Mehdinin olduğu partizan batalyonunda bölük komandiri olmuşdur. O, mənə Mehdinin partizanlıq həyatından, onun adı ilə bağlı olan döyüş epizodlarından danışdı. Mən Mehdinin Triyestdə faşist qəzeti çap olunan mətbəni dağıtdığını, kinoteatr binasını partlatdığını, neçə-neçə qatarı yoldan çıxardığını, nəhayət, qəhrəmancasına həlak olduğunu ilk dəfə burada Nebit-Dağda eşitdim. Mehdinin cəbhə yoldaşı məni yaşadığı baraka aparıb Mehdinin cib dəftərçəsini və bir neçə şəklini verdi, evlərinə çatdırmağımı xahiş etdi.

Bakıya qayıtdıqdan sonra Mehdinin böyük bacısı Bikəxanımla görüşdüm və Mehdi haqqında Nebit-Dağda eşitdiklərimi ona danışdım. Cib dəftərçəsini və şəkilləri də ona verdim. Neçə ildən bəri həsrətində olduğu, əziz və yeganə qardaşının ölüm xəbəri Bikəxanımı hədsiz dərəcədə kədərləndirdi. O, məndən xahiş etdi ki, bibiyə heç bir söz deməyim. Bibi Mehdinin yolunu səbirsizliklə gözləyirdi. O, dəfələrlə Biləcəri stansiyasına gedib, oradan keçən hərbi qatarları axtarır, ordudan tərxis olunub Vətənə qayıdan döyuşçülərdən Mehdini xəbər alırdı. Bibi Mehdinin evdə qa-

lan kostyumunun cibinə min manat pul qoyub qarderobdan asmışdı. O, deyirdi ki, bu muştuluqdur, hər kəs Mehdidən şad xəbər gətirmiş olsa, kostyumu da, pulu da ona muştuluq verəcək...

Mən bibiyə şad xəbər gətirə bilmədim, kədərli xəbəri isə ona deməyə dilim gəlmədi. Bibi son nəfəsinə kimi (o, 1953-cü ildə vəfat etdi) Mehdinin yolunu gözləyirdi...

1957-ci ilin baharı... Dostumuz Mehdiyə Vətən müharibəsində böyük rəşadət göstərdiyinə görə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Bu xəbər onun qohumlarını, dostlarını, onu yaxından tanıyanları nə qədər sevindirmişdi! Mən fərmanı oxuyuram. Sevincdən gözlərim yaşarır. Öz-özümə deyirəm: *"Nə olaydı, bibi sağ olaydı, bu günü görəydi..."*

Qəzetlər birinci səhifədə Mehdinin şəklini və onun tərcümeyi-halını dərc etmişdilər. Onun həyatı nə qədər sadə, nə qədər mənalıdır! *"Uzaq sahillərdə"* povesti onun həyatının, şücaətinin çox az hissəsini təsvir edir. Mehdinin uşaqlığı, rəssamlıq məktəbində oxuduğu illər, Leninqradda keçirdiyi günlər, onun dostluğu, yoldaşlığı, sevgisi... Bütün bunlar yeni povestlər, poemalar, tablolar və heykəllər yaratmaq üçün zəngin material vermirmi?

Hərdən Mehdinin yeniyetməlik çağlarını xatırlayıram. Onun surəti gözlərim önündədir: xoş xasiyyəti, sözü-söhbəti, qəribə adətləri, şən zarafatları, şəkil çəkməyi, şeir yazmağı, dənizdə üzməyi, güləşməyi – hamısı yaxşı yadımdadır. Onunla keçirdiyimiz günləri xatırladıqca, məktublarını təkrar-təkrar oxuduqca öz-özümə təsəlli verirəm: *"Yox, Mehdi ölməyib, o, sağdır, o, bizimlədir, o, daima bizimlə olacaqdır!"*.

Mehdi ilə mən bir ildə anadan olmuşuq. Bizim ailələrimiz bir-birilə dost olmuşdur. Mən Mehdinin atasını görməmişəm, amma onun haqqında çox şey eşitmişəm. Deyilənə görə, Mehdinin atası Hənifə Hüseynovun (ona Bakıda Çərkəz oğlu Hənifə deyirmişlər) Bakıda və Abşeron kəndlərində sovet hakimiyyətinin möhkəmlənməsində böyük xidmətləri

olmuşdur. Ta uşaqlıqdan biz eşitmişdik ki, Hənifə çox igid və iradəli adam olmuşdur. İyirminci illərin əvvəllərində yay vaxtı Hənifənin ailəsi Novxanı bağlarında olduğu zaman bir gecə onların evinə qaçaqlar basqın etmişdilər. Mehdinin bibisi Mahsənəm əhvalatdan xəbərdar olan kimi lampanı söndürmüş və evdə olan dolu un kisələrini qapının dalına yığmışdı. Sonra Hənifə pəncərədən qaçaqlarla atışıb onları qovmuşdu. Bu hadisədən sonra Hənifə Hüseynov ağır xəstələnmiş və 1923-cü ildə vəfat etmişdir. Bundan sonra Mehdini və onun iki bacısını anaları Güllü xanım və bibisi Mahsənəm tərbiyə etmişdir. Onlara atalarının xidmətinə görə dövlət təqaüdü verilirdi.

Əvvəllər Mehdigil keçmiş Skobelev dəyirmanının həyətində yaşayırdılar. Sonradan onlara indiki 4-cü milis şöbəsinin həyətində mənzil verilmişdi. Bizim evimiz Mehdigilin yeni mənzillərinə yaxın idi. Odur ki, mən lap kiçik yaşlarımdan tez-tez Mehdinin yanına gedərdim. Biz onların yaşadığı həyətdə oynayardıq. Mehdi hələ o vaxtlar rusca danışmağı, şəkil çəkməyi və əzbərdən şeir oxumağı öyrənmişdi.

1925-ci ildə, yeddi yaşlı Mehdini evlərinin qarşısında Süleyman Sani Axundovun müdir olduğu məktəbə qoymuşdular. Birinci sinifdə Mehdinin müəllimi Səid Rüstəmov olmuşdur. Mehdi həmişə fəxr edirdi ki, onun Səid müəllimi yaxşı tar çalır. O, müəllimini çox sevirdi. Səid müəllim də Mehdiyə mehribanlıq göstərirdi. Hətta onlar bir yerdə şəkillərini də çəkdirmişdilər.

Mehdi Səid müəllimdən başqa iki adamın da adını tez-tez çəkərdi. Onlardan biri şair Mir Mehdi Seyidzadə, ikincisi isə rəssam Hüseynqulu Hüseynov idi. Bunların hər ikisi Mehdigilin ailəsinə çox yaxın idilər. Yəqin ki, Mehdinin şəkil çəkməyə sövq edən də Hüseynqulu Hüseynov olmuşdu. O, tez-tez Hüseynqulunun yanına gedər, evə qayıtdıqdan sonra çəkdiyi şəkilləri bizə göstərərdi. Mənim də həvəslə şəkil çəkməyimə Mehdi səbəb olmuşdu. İlk əvvəl biz Mehdigilin

evində olan bir mənzərəni çəkmişdik. Mehdi yağlı boyalarla işləməyi lap qabaqcadan bilirdi. Biz kiçik faner parçaları üzərində yağlı boyalarla mənzərələr çəkərdik. Özü də bu mənzərələrdə mütləq dağ, ağac və axar çay təsvir edərdik. Yadımdadır ki, biz yağlı boyaları ağ neftlə qarışdırardıq, o vaxt nə Mehdi, nə də mən bilmirdik ki, ağ neft boyaları parçalayıb dağıdır və şəkli qaraldır. Bəzən Mehdidə olan açıqcalardan şəkillərin üzünü köçürərdik. Ən çox rəssam Şmerlinqin Qafqaz tiplərini köçürərdik (Şmerlinq inqilabdan əvvəl "Molla Nəsrəddin" jurnalında fəal iştirak edən rəssamlardan biri idi). Mehdi oxuduğu məktəbdə şagirdlər arasında ən yaxşı şəkil çəkən olduğundan, divar qəzetinin tərtibatını həmişə ona tapşırardılar. Arabir məni də özü ilə oxuduğu 19 nömrəli məktəbə aparardı. Mənim xəttim daha yaxşı olduğundan məqalələri təmiz köçürmək, onlara rəngli başlıqlar yazmaq mənim üzərimə düşərdi. Bəzən biz mənim oxuduğum 40 nömrəli məktəbə də gedərdik, orada ya şüar yazar, ya da divar qəzeti buraxardıq.

Mehdigildə bir royal var idi. Mən hər dəfə onlara gələndə həmin royalda çalırdım. Mehdi özü isə royala heç yaxın düşməzdi. Mehdinin bacıları royalda çalmağı öyrənmişdilər. Biz sakitcə oturub Bikəxanımın və Hüriyyətin çaldığı mahnılara qulaq asardıq...

1930-cu ildə Mehdinin anası Güllü xanım uzun sürən ağır xəstəlikdən sonra vəfat etdi. Onu Bakıda və Tbilisidə təcrübəli həkimlər müalicə edirdilər. Amma müalicə fayda vermədi. Mehdi və bacıları Mahsənəm bibinin himayəsində qaldılar. Bibi onlara həm ana oldu, həm də ata.

Yay aylarında onlar Novxanıda bizə qonşu bağda olurdular. Biz vaxtımızın çoxunu dəniz kənarında keçirirdik. Hamımız yaxşı üzmək öyrənmişdik. Bəzən elə olurdu ki, sübh açılandan ta günortaüstünə kimi dənizdə çimirdik, uzaqlara üzüb qayıdırdıq, balıq tuturduq, quma uzanırdıq. Mehdi çox yaxşı üzürdü. Axşam tərəfi yenə də dəniz kənarına gedirdik. Çox zaman Mehdinin bacısı Bikəxanım, mə-

nim böyük qardaşlarım müxtəlif oyunlar təşkil edib, bizi də özlərinə qoşardılar.

Novxanı bağlarında mənim başıma gələn bir hadisə heç vaxt yadımdan çıxmır. Bir axşamçağı biz qonşuluğumuzda olan ikimərtəbəli evin yanında, qumluqda toplaşmışdıq. Hər kəs öz bacarığını göstərirdi. Mehdi ikimərtəbəli evin damının qırağında əlləri üstə durub, sonra havada mayallaq aşaraq ayaq üstə yerə, qumun üstünə düşürdü. Mən də Mehdi kimi dama çıxıb, lap qıraqda əllərim üstə durduqdan sonra özümü yerə atdım. Lakin havada vəziyyətimi dəyişə bilmədiyimdən başı üstə quma düşdüm. Mən huşumu itirdim. Gözümü açanda özümü həyətimizdə uzanmış gördüm. Yaxşı ki, yer qumluq idi, daş və ya torpaq olsaydı, o hündürlükdə yerdən başı üstə yıxılan sağ qalmazdı. Mehdini təqsirləndirirdilər ki, o, dama çıxıb yerə atılmasaydı, mən də ona baxıb çıxmazdım və bu hadisə baş verməzdi. Əslində Mehdi günahkar deyildi. Mən damda əllərim üstə durub yerə atılanda, bir anlığa özümü dəniz hamamında hiss etmişdim. Bu da səbəbsiz deyildi. Çünki şəhərdə olarkən biz Mehdi ilə birlikdə dəfələrlə dəniz hamamında olan tramplinlərdən suya atılırdıq. Elə zaman olurdu ki, biz on metr hündürlükdən tramplində əllərimiz üstə durub həmin vəziyyətdə özümüzü suya atırdıq.

Mən xəstə olub yatdığım günlər Mehdi yanımdan əl çəkmirdi. Nə isə, o da özünü günahkar bilirdi. Sonralar bu hadisəni xatırladıqca Mehdi gülüb deyərdi: *"Mürsəl quma atılmaq üzrə Novxanı çempionudur"*.

Elə oldu ki, biz rəssamlıq məktəbinə daxil olmaq qərarına gəldik. Bağda tez-tez akvarel boyalarla mənzərə və etüdlər, meyvələrdən qurulmuş natürmortlar, eskizlər çəkərdik. Arabir palçıqdan barelyef də düzəldərdik.

1932-ci ilin yayında Mehdi ilə birlikdə imtahana hazırlaşırdıq. Çəkdiyimiz şəkilləri rəssamlıq məktəbinə aparıb müəllimlərə göstərməli idik. Avqustun axırlarında rəsm dərslərindən imtahan verib birinci kursa qəbul olunduq. Sonradan bizimlə birlikdə imtahan verib rəssamlıq məktəbinə

qəbul olunanları iki hissəyə ayırdılar. Birinci hissəni əsas sinfə (yəni birinci kursa), ikinci hissəni isə hazırlıq sinfinə göndərdilər. Mehdi və mən birinci kursa düşdük. Kursumuzda azərbaycanlılar, ruslar, ermənilər də vardı. Yalnız ana dili, riyaziyyat və digər ümumi təhsil dərslərini ayrı keçirdik.

Mehdi ixtisas məşğələlərinə (rəsm, kompozisiya, incəsənət tarixi və s.) xüsusi bir həvəslə diqqət verərdi. O, çox zaman məktəbə hamıdan əvvəl gəlib öz molbertini, kətilini, rəng qutusunu yerbəyer edərdi. Şəkil çəkdiyimiz zaman arabir gülməli söz deyər, bizim hamımızı güldürərdi. Sinifdə müəllim olmayan (rəsm dərslərində bəzən biz müəllimsiz, sərbəst işləyirdik) Mehdi bizim üçün əzbər bildiyi qəzəl və qoşmalardan oxuyardı. O, bizim el məsəllərini və ya atalar sözlərini çox qəribə, yarırusca, yarı azərbaycanca ifadə edərdi. Məsələn: *"Adamın yerə baxanından, suyun lal axanından qorx!"* məsəlini ruscaya belə tərcümə etmişdi: *"Esli çelovek yerə baxır, eqo boimsya, esli voda tixo axır, ee boimsya"*, yaxud *"Səbr elə, halva bişər, ey qora, səndən"* misrasını *"Podojdi, ey kislıy vinoqrad, skoro s tebya xalva budet"* və i. a.

Mehdi ilə bir zamanda oxuyan rəssam yoldaşları, onun şən zarafatlarını, yumorla dolu söhbətini, zərb-məsəllərini hələ də unutmamışlar. O, sinif yoldaşlarının hərəsinə bir ləqəb qoymuşdu. Çox zaman onları adları ilə yox, ləqəbləri ilə çağırırdı. *"Xoş gördük, ay asfalt Səfərəli!"*, *"Pamazılar aliminə eşq olsun!"*, *"Zenon Əlinin kefi necədir?"* və sairə kimi zarafatyana dediyi sözlərlə yoldaşlarını güldürərdi. Təəccüblüdür ki, Mehdinin zarafatlarından heç kim incimirdi. Əksinə, hamı onun zarafatlarına ehtiyac hiss edirdi. Mehdi bir gün dərsdə olmayanda sinfimizdə bir süstlük əmələ gəlirdi...

Mehdinin müəllimlərə və tələbə yoldaşlarına münasibəti çox səmimi idi. Onun zarafatları o qədər təbii olurdu ki, çox zaman müəllimlər heç bir şey hiss etmirdilər. Bir-iki qəribə hadisəni mən heç bir zaman unuda bilmirəm.

Bizə plastik anatomiyadan dərs deyən doktor çox səliqəli bir adam idi. O, tələb edirdi ki, onun dərsindən qa-

baq sinif təmizlənsin (bizim sinif otaqları bir qayda olaraq təmiz olmurdu, çünki rənglə şəkil çəkərkən çox zaman otağı zibilləyirdik) və mütləq bir nəfər tələbə növbətçi olsun. Növbətçi yazı taxtasını, stolu, stulu silib təmizləməli, bir sözlə, bütün dərs müddəti müəllimə xidmət etməli idi. Mehdi öz xoşuna bu vəzifəni üzərinə götürmüşdü və demək olar həmişə doktorun dərsində növbətçi olurdu. Doktorun adətən türk ləhcəsində verdiyi suallara (o, Türkiyədə təhsil almışdı) Mehdi də həmin ləhcədə cavab verirdi. Mehdinin türkcə dediyi *"şimdi"*, *"xayır"*, *"əvət"*, *"pək eyi"* və s. sözlərə gülməkdən özümüzü saxlaya bilmirdik. Doktor isə Mehdidən razı qalırdı.

İkinci bir əhvalat: bir dəfə mən nə üçünsə dərsə gedə bilmədim. Həmin gün alman dilindən dərs deyən müəllimimiz yazı dəftərlərimizə baxıb bizə qiymət verəcəkdi. Səhər tezdən mən alman dilindən yazı dəftərimi aparıb Mehdiyə verdim və xahiş etdim ki, adımı çağıranda müəllimə göstərsin və xəstə olduğum üçün dərsə gələ bilmədiyimi ona desin. Həmin gün axşam yoxlamanın nəticəsini öyrənmək üçün Mehdinin yanına getdim. Mehdi məni görən kimi qışqırdı:

– Evini Allah yıxsın, yıxdın evimi.

Mən təəccüblə soruşdum:

– Nə olub ki?

Bundan sonra o mənə əhvalatı danışdı:

– Elə ki, müəllim sənin adını çağırdı, mən ayağa qalxıb irəli gəldim və dedim ki, Nəcəfov bu gün xəstədir, dərsə gəlməyib, amma dəftərini yollayıb, buyurun baxın. Müəllim dəftəri alıb soruşdu ki, Nəcəfov kimdir, nə üçün mən onu tanımıram? Mən dil açıb səni o ki var tərifləmişəm, *"çox yaxşı oğlandır, – dedim, – dərsinizdən də həmişə əla alır"*. Müəllim bir qədər fikirləşəndən sonra birdən dedi: *"Bəli, bəli, yadıma düşdü, həqiqətən Nəcəfov yaxşı oxuyur, çalışqandır"* və i. a... Sonra sənin dəftərini vərəqləyib baxdı və mənə qaytarıb dedi: *Ona deyərsən ki, müəllim sənə "əla yazdı."*

Mən Mehdinin gözlərinə diqqətlə baxıb soruşdum:

– Yaxşı daha mənə niyə qarğalayırsan?

O dedi:

– Bir dayan gör sonrası nə oldu. Gördüm ki, bu çox yaxşı üsuldur. Özün olmaya-olmaya müəllim sənə *"əla"* verdi. Bəlkə o heç səni tanımadı da. Dəftərinə baxıb qiymətini yazdı. Odur ki, mənim adımı çağıranda yenə də ayağa qalxıb dedim:

"Müəllim, Hüseynzadə Mehdi bu gün dərsə gəlməyib, amma dəftəri burdadır. Buyurun." Dəftəri müəllimə verib dayandım. Müəllim bir qədər fikirləşdikdən sonra soruşdu: *"Hansıdır o Hüseynzadə, nədənsə xatırlaya bilmirəm"*. Mən öz-özümü tərifləməyə başladım. *"Müəllim*, – dedim – Mehdi Hüseynzadə çox yaxşı oğlandır, əlaçıdır, özü də ən fağır tələbələrdəndir, həmişə sizin dərsinizdən *"beş" alıb"*. Müəllim başını bulayıb dedi ki, Mehdi Hüseynzadəni tanımır, belə bir adam yadına düşmür. Mən təzədən dil tökdüm, Mehdini o ki var tərifləmişdim. Uşaqlar da altdan-altdan gülürdülər. Birdən müəllim səsini ucaldıb dedi: *"Aha, yadıma düşdü, yaxşıca yadıma düşdü, o tənbəlin biridir, başı boşdur, alman dilindən bir kəlmə söz bilmir"*. Ona *"pis" qiymət yazacağam"*. Məni dəhşət götürdü. İşi korlamışdım, nə olursa-olsun müəllimi fikrindən yayındırmalı idim. Təzədən dil tökdüm, özümü tərifləmişdim, kömək eləmədi. Müəllim mənə *"iki"* verdi. Sən bais oldun, yoxsa ən azı *"dörd"* alacaqdım...

Rəsm məşğələlərindən başqa Mehdi bir də ədəbiyyat dərslərini çox sevirdi. Hələ uşaqlıqdan onda şeirə maraq oyanmışdı. Rəssamlıq məktəbində bu maraq daha da artdı. Mehdi özü də arabir şeir yazırdı. Şeiri çox yaxşı və ifadəli oxuyurdu. Ədəbiyyat müəllimimiz Mehdinin şeirlə çox maraqlandığını bilirdi. Odur ki, sinifdə şeir oxumaq lazım gələndə Mehdiyə oxudardı. Mehdidə elə bir qabiliyyət var idi ki, o, istədiyi vaxt bədahətən qafiyə düzəldə bilirdi. Elə olurdu ki, keçilən dərsi şeirə salıb tənəffüs zamanı bizə oxuyurdu. Yaxşı yadımdadır, bir gün hərbi dərsdə müəllimimiz bizə tüfəngin hissələrini öyrədirdi. Əvvəlcə o özü danışır,

hissələri göstərir, sonra tələbələrdən birinə təkrar etdirirdi. Dərsin axırına yaxın söhbət güllənin hədəfə düz dəyməsi şərtlərindən, atıcının vərdişlərindən gedirdi. Müəllimin, "Kim təkrar edə bilər? sualını eşidən Mehdi əlini qaldırıb ayağa durdu və fikirləşmədən cavab verdi:

Dəyməməsi güllənin
Asılıdır üç səbəbdən:
Əsgərdən, tüfəngdən, hədəfdən.

Və sonra əlavə etdi:

–Nə qədər uzun olsa lülə, O qədər ızaq gedər güllə.

Biz başa düşdük ki, Mehdi müəllimin dediyi sözləri qafıyələndirərək ona cavab verir. Sinfə gülüşmə düşdü. Yalnız müəllim gülmədi, bizə acıqlandı və Mehdini yerində oturtdu.

Bütün bunlara baxmayaraq, Mehdidən nə müəllimlər, nə də tələbələr narazılıq etmirdilər. Əksinə, get-gedə ona məhəbbət artırdı, çünki onun zarafatlarına hamı alışmışdı. O heç bir zaman qəsdən dərsə mane olmaq, intizamı pozmaq hallarına yol vermirdi.

Mehdi yoldaşlıqda son dərəcə sədaqətli və möhkəm idi. Yoldaş üçün heç bir şey əsirgəməzdi. Rəssamlıq məktəbində, qohumları və dostları arasında onun mehribanlığını, əliaçıqlığını hiss etməyən adam tapılmazdı. Sinif yoldaşlarımızdan biri xəstə olanda hamıdan əvvəl ona Mehdi baş çəkər, köməklik göstərərdi.

Mehdinin xasiyyətində bəzən qəribə hallara təsadüf etmək olurdu. O, eyni zamanda həm utancaq, təvazökar, həm də çox zirək və işbacaran idi. Nədənsə izdihamlı küçələrdən keçməzdi. Məktəbə və ya başqa bir yerə gedəndə ən xəlvət küçələri seçərdi. Ondan bunun səbəbini soruşanda deyirdi:

- Nəyə lazım ki, məni tanış-biliş görsün.

Evlərindən kənar yerdə, hətta öz qohumlarının və yaxın dostlarının evində onun yeyib-içdiyini görən olmamışdı. Bizə çox tez-tez gəlməyinə baxmayaraq, bizim evdə bir stəkan

çay belə içməmişdi. Böyüklər ondan hal-əhval soruşanda elə nəzakət və utancaqlıqla cavab verərdi ki, hamı onu bizə nümunə göstərərdi. Amma elə ki, küçəyə çıxdı, dönüb başqa adam olurdu, yenə də deyib gülər, zarafat edərdi...

Mehdi rəssamlıq məktəbində dörd il oxudu. Bu müddət ərzində orta rəssamlıq ixtisasına yiyələndi. O, məktəbi bitirərkən öz diplom işini neftçilərlə kolxozçuların dostluğuna həsr etmişdi.

Diplom işindən sonra Mehdi bir kompozisiya üzərində də işləmişdi. Sərbəst çəkdiyi bu şəkildə gənc rəssam Qızıl Ordu döyüşçülərinin düşərgə həyatını təsvir edirdi. Meşədə, şam ağacları arasında bir dəstə əsgər oturmuşdu. Bir qədər aralıda ayaq üstə dayanmış komandir onlara əlindəki qəzetdən məqalə oxuyurdu. Mehdinin bu şəkli 1938-ci ildə Bakıda, Qızıl Ordunun ildönümünə həsr olunmuş sərgidə nümayiş etdirilmişdi. Bu əsərlərin hər ikisi indi də bacılarının evində saxlanır.

***

Mehdi hələ rəssamlıq məktəbində oxuyarkən qət etmişdi ki, məktəbi qurtarandan sonra Leninqrada gedəcək və Rəssamlıq Akademiyasına daxil olacaq. O, öz arzusu ilə, 1936-cı ildə Bakı rəssamlıq məktəbini bitirib Leninqrada getdi. Lakin akademiyaya girə bilmədi. Mehdi Bakıya qayıdıb M. Əzizbəyov adına kitabxanaya işə düzəldi. O zaman mən də Abbas Səhhət adına kitabxanada işləyirdim. Biz əvvəlki qayda üzrə yenə də tez-tez görüşurdük. Mehdi kitabxanada şəkil çəkər, fotomontajlar düzəldərdi. O, indi şeirlə daha çox məşğul olurdu. Tez-tez Yazıçılar İttifaqınadakı yaradıcılıq gecələrinə, teatr tamaşalarına gedərdik. Biz arabir müxtəlif təşkilatların sifarişilə birgə işləyib portretlər və başqa şəkillər çəkərdik, qırmızı parça üzərində şüarlar yazardıq. Mehdi Azərnəşrdə bir neçə kitab cildi də çəkmişdi. O, qazancını qəpiyinə qədər evə gətirər, bibisinə verərdi...

Bir ildən sonra o, yenidən Leninqrada getdi. Lakin bu dəfə də akademiyaya daxil ola bilmədi. Mehdi geri qayıtmadı. O,

hələ Bakıdan gedəndə söz vermişdi ki, geriyə qayıtmayacaq, hansı institut olursa-olsun imtahan verib oxuyacaqdır. O, belə də etdi, Leninqrad Xarici Dillər İnstitutuna daxil oldu.

Mehdi Leninqradda oxuduğu zaman biz ancaq yay tətili zamanı görüşürdük. Bundan başqa 1928-1940-cı illərdə mən iki dəfə Leninqrada gedib Mehdi ilə görüşmüşdüm. Leninqradda ilk görüşümüz belə oldu.

1938-ci ilin payızında bir iş üçün mən Moskvaya getməli idim. Bibi mənə tapşırdı ki, imkan tapsam, Leninqrada gedib Mehdidən xəbər tutum, onun oxuduğu məktəbi, yaşadığı yeri görüm, yoldaşları ilə tanış olum. Üstəlik o, mənə Mehdiyə çatdırmaq üçün bir sovqat da verdi. Sovqatda şəkərbura, paxlava və başqa şirniyyatlar var idi. Moskvada işimi qurtarıb Leninqrada getdim. Mehdinin oxuduğu institut Smolnı tərəfdə idi. Mən tramvaya oturub oraya getdim. İnstitutu tapıb Mehdini soruşdum. O, evdə olmadı. Məktub yazıb qoydum, gəldiyimi bildirdim, səhər məni evdə gözləməsini tapşırdım. O, gecəni vağzalda keçirdim, səhər sovqatı götürüb instituta yollandım. Tramvaydan düşəndə uzaqdan Mehdini tanıdım. O, məktəbin qabağında durub məni gözləyirdi. Əynində qara paltosu var idi, amma başı açıqdı. Mən təəccüb etdim: bu niyə papaq qoymayıb, bayırdakı qarı görmür? Doğrudan da səhər hava çox soyuq idi, ətrafda da xeyli qar görünürdü. O, məni görcək cəld addımlarla qarşıma gəldi. Biz qucaqlaşdıq. Mənim birinci sualım bu oldu:

– A Mehdi, baş açıq niyə?

O, bir söz demədən güldü və uzun paltosunun düymələrini açdı. Mən gözlərimə inanmadım: Mehdi təkcə bir trusikdə idi. Yerindən duran kimi paltosunu lüt bədəninə geyib küçəyə çıxmışdı... Birlikdə onun yaşadığı otağa gəldik. Otağın bir tərəfində Mehdi səliqə ilə özü üçün yataq düzəltmiş, Bakıdan apardığı xalçanı da divara asmışdı. Baş tərəfdə divara bacılarının, öz dostu Məmmədağa Tərlanovun fotoşəkillərini və mənim şəklimi vurmuşdu...

Leninqradda dörd gün qaldım. Oktyabr bayramı günləri idi. Odur ki, Mehdinin boş vaxtı çox olurdu. Biz onunla birlikdə muzeyləri gəzib dolaşdıq. O məni mağazaya aparıb parçaları göstərərək soruşurdu: *"Pamazı bunların hansıdır?"*, *"qanovuz yaxşıdır, yaxud hacı, bəri bax?"*. O, uşaqlıqdan mənə *"pamazı alimi"* ləqəbi qoymuşdu. Buna da səbəb o idi ki, mən parçaların adını yaxşı bilirdim, amma Mehdi bilmirdi...

Noyabrın 7-də, axşam Mehdi məni özü ilə bir yerə qonaq apardı. Gəldiyimiz ev Mehdinin Leninqradda yaşayan erməni dostlarından birinin evi idi. Burada mən bir neçə azərbaycanlı tələbə ilə tanış oldum. Məclisimiz çox şən keçdi. Bütün gecə Mehdinin zarafatları hamını güldürürdü. Qonaqlardan biri yaxşı piano çalırdı. O, segah çaldı, Mehdi də oxudu. Onun oxumağı da çox qəribə idi, çox zaman muğamatı rusca oxuyardı.

İkinci dəfə Leninqrada gəlişim fin müharibəsinin başlanmasına təsadüf etdi. Leninqradda müharibənin yaxınlaşdığı hiss olunurdu. İki gündən sonra Bakıya qayıtmalı oldum. Mehdi məni vağzalda yola salarkən, təkrar-təkrar bibidən və bacısı Hüriyyətdən muğayat olmağımı, tez-tez kağız yazmağımı tapşırdı. Mehdi institutda fransız dilini mükəmməl öyrənmişdi. O, başqa Avropa dillərini də müəyyən qədər bilirdi. Lakin institutu bitirmək ona müəssər olmadı. 1940-1941-ci tədris ilində Bakıda V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirdi.

Mehdi Leninqradda olduğu zaman ailəsilə, qohumları və yaxın dostları ilə məktub vasitəsilə əlaqə saxlayırdı. O, mənə də tez-tez məktub yazırdı. Çox zaman bibiyə yazdığı məktubları mənim adıma yollayırdı. Mən bibinin yanına gedib məktubu ona oxuyurdum. Cavabını da əksər hallarda mən yazırdım. Mehdi məktublarını bəzən şeirlə yazırdı. Məktublarından bir neçəsində fransızca yazılmış parçalar da vardı. Mehdinin məktublarını oxuduqca onun arzu və istəklərini, şeirə və sənətə həvəsini, ailəsinə, dostlarına və

yoldaşlarına bəslədiyi məhəbbətini, onun xeyirxahlığını, nikbinliyini duyursan. Əvvəldən axıra kimi şeirlə yazılmış bir məktubunu o belə qurtarır: *"Bu parça kağızımı möhkəm saxla, bir zaman işlədiyin muzey onu sənin nəvə-nəticələrindən baha qiymətə alar. Çünki mən bu günün heçi, gələcəyin klassik sənətkarı olmaq arzusundayam..."*.

Mehdinin Leninqradda yazdığı məktublardan götürülmüş bu parçalar onun xarakterini açmağa kömək edir:

"...Halım olduqca yaxşıdır, Leninqrad mənə çox xoş gəlir. ...Leninqrad cənnətdir. Özüm də hələlik əla oxuyuram. Dərsimiz çox çətindir, leksiyaları akademiklər və professorlar deyir... Bir firənk dilindən doqquz professor dərs deyir. Qaldı xüsusi kefimi və buranın neçə olduğunu bilmək istəsən, icazə ver təbim gəldiyi üçün öz şeirimlə deyim. Yaxşı şeir yazardım, amma evdə kağız yoxdur, darıxıram, həm də nigaranam. Budur, qulaq as". Sonra keçirdiyi günləri əlli misralıq şeirdə nəzmə çəkmişdi...

***

"Ən sevimli anam, bibi!

...Leninqradda bu saat 26 dərəcə soyuq var. Səhər qarı təmizləyirlər, axşam qar əlindən keçmək mümkün olmur... İndi bir imtahanımı verdim. Bibi, qadanı alım, səndən ötrü darıxıram, əgər yanvarda gəlməsəm bağrım çatlar... Mürsəl, mənə kitab göndər, qəzetə bük və 50 qəpiklik marka vurub mənim adresimə göndər. Bacar "Qoşmalar" olsun, özü də cildi zərli olsun...".

***

"...Bibi, sənin söhbətin dilimdən düşməyir, hər yanda sənin rusca danışmağından söhbət edirəm. Mənə öz dilində, öz qaydanda 20 vərəqə kağız yaz... Nigaran qalmayım. Səndən çox razıyam. Mənim anam ölməyib, sənsən mənim anam. Pasılka və ya başqa şey göndərməyin, sizin sağlığınız mənə bəsdir, ancaq kağız yazın. Öpürəm sizi...".

***

"...Duz bir aydır ki, heç kimdən, qəti heç kimdən məktub almıram... Mənə xəbər ver görüm, bibim, bacılarım sağdırmı? Əgər hamı yerindədirsə heç kəsə bildirmə ki, mən onları xəbər aldım, niyə narahat edəsən...".

"...Göndərdiyiniz spravka gec gəlib çıxdığı üçün sentyabr ayında stipendiya ala bilmədim. Bibiyə demə ki, Mehdi stipendiya almayıb... Yanvardan ispan və italyan dilləri də keçəcəyik. Müxtəsər, institutu qurtarandan sonra dörd dildə mükəmməl danışacağam...".

***

...Mehdi ilə son görüşümüz 1941-ci il avqust ayının əvvəllərində oldu.

Biz onu orduya yola salırdıq. Həmin il avqustun axırlarında mən özüm də ordu sıralarına getdim.

Mən Mehdinin məktublarını və məndə olan şəkillərini qiymətli bir xatirə kimi saxlayıram. Mehdinin surəti qəlbimdə və şüurumda sanki qabil bir sənətkarın məharətli əli ilə əks olunmuşdur.

Mehdinin xatirəsi onu tanıyanların qəlbində daima yaşayacaqdır.

Mürsəl Nəcəfov,
sənətşünaslıq elmləri doktoru, professor

TƏLƏBƏ YOLDAŞIM

Mehdi Hüseynzadə ilə 1932-ci ildən 1936-cı ilə qədər Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq texnikumunda birgə oxumuşam. Birinci gün sinfə daxil olduğumuz andan qarayanız bir oğlan özünün şirin danışığı və zərif məzəli sözləri ilə nəzəri cəlb edirdi. Onun səmimi söhbətləri ən çox özünün yaxın yoldaşları ilə olurdu. Həmin oğlan Mehdi, yoldaşları isə Mürsəl və Məhəmmədağa idi. Əgər Mehdi dərsə geciksə idi və yaxud dərsdə olmasaydı, həmin gün sinifdə, bütün yoldaşlarda bir süstlük əmələ gəlirdi. Sinifdə olan yoldaşlarımız milliyyətindən (sinfimiz beynəlmiləl idi, bizimlə rus, erməni, gürcü, yəhudi və b. millətlərin nümayəndəsi oxuyurdu) asılı olmayaraq birbirlərindən soruşardılar: «Görəsən Mehdi bu gün niyə yoxdur?».

Mürsəldən və ya Məhəmmədağadan soruşardılar ki, Mehdi niyə gəlməyib. Demək istəyirəm ki, onun sinifdə olmaması dərhal hiss olunurdu.

Ən çox da ixtisas dərslərində onun incə yumorlu sözləri tələbələrdə müsbət əhval-ruhiyyə yaradardı. – Hərdən atalar sozü və məsəlləri Azərbaycancadan ruscaya tərcümə edirdi. Rus və qeyri millətdən olan yoldaşlarımız gülməkdən uğunardılar. Ondan bir başqasını söyləməyini xahiş edərdilər. Misal üçün: «Adam var ki, adamlarm naxşıdır, adam var ki, heyvan ondan yaxşıdır, adam var ki, dindirərsən can deyər, adam var ki, dindirməsən yaxşıdır».

Bu atalar sözünü Mehdi belə tərcümə edərdi:

«Есть человек, есть человек хороший,
Есть человек осел ондан хорощий,
Есть человек разговориш джан,
Есть человек не разговор хороший».

Bu sözləri deyəndə hamı bir ağızdan gülürdü. Hətta müəllim də bizə qoşulurdu, dərsin qaldığını görən müəllim: – Mehdi bəsdir, qalanını tənəffüsdə deyərsən.

Hazırcavab Mehdi isə tez deyərdi: «Söz gəldi, demək lazımdır». Ona görə da uşaqlar ixtisas dərsini və tənəffüsü səbirsizliklə gözlərdilər.

Riyaziyyat müəllimimiz çox məzəli bir adam idi. Bir dəfə isə riyaziyyat dərsimizdə bir yoldaşımızı lövhəyə çağırdı və ondan bir teoremanı həll etməyi tələb elədi. Tələbə teoremanı həll edə bilmirdi. Mehdi ona him-cim ilə başa salırdı ki, necə həll etmək lazımdır. O isə düzgün başa düşmür və tamamilə başqa şeylər yazırdı, biz gülürdük. Müəllim hamını sakitləşdirir və deyirdi: "*Sən elə bilirsən ki, sən də rəssam olacaqsan? Yox! Sən riyaziyyatı bilmirsən, rəssam olmayacaqsan, sən kütsən, məktəbi bitirdikdən sonra da küt qalacaqsan"*. Mehdi tez yerdən: *"Müəllim, – dedi,– onun yaddaşı yadından çıxıb evdə qalıb"*. Müəllim cavab verdi: *"Riyaziyyatda yaddaş kağızda yox, başda olmalıdır"*.

Mehdi 45 dəqiqə ərzində demək olar ki, 45 şəklə düşürdü: gah gülür, gah ciddi sima alır, gah şeir oxuyur, gah da öz yoldaşlarımızı adları ilə yox, onlara qoyduğu adlarla çağırardı. «Adə, asfalt qalalı və ya burnum Əli, Eretina (qızın familiyası Eretina idi), ya da bir başqasına sestra deyə səslənərdi.

Bir də görərdik ki, bir əlində döşəmə ağacı, bir əlində xidmətçinin vedrəsi Ülvi Rəcəbin hərəkəti ilə *"Otello"* rolunda, *"Dezdemona, gəlirəm səni öldürməyə"*–deyib tələbə Nina Qruzionovanın üstünə hücum edirdi.

Kazım Kazımzadə,
Azəvbaycan Respublikasının Xalq rəssamı,
Dövlət mükafatı laureatı

DOSTUMU XATIRLAYIRAM

Mehdi Hüseynzadə məndən bir yaş kiçik idi. Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə (texnikumuna) məndən bir il sonra daxil olmuşdu. Biz necə öyrənmək məqsədilə tez-tez özümüzdən yuxarı sinif tələbələrinin işlərinə baxırdıq. Eyni zamanda onlar da bizim kurs işlərimizlə tanış olurdular. Mehdi və onun yoldaşlarından K.Kazımzadə, M.Nəcəfov, Ə.Zeynalov, M.Tərlanov tez-tez bizim işlərimizə baxmağa gəlirdilər. Mehdi çox utancaq idi və bu işə Mürsəl başçılıq edirdi. İş elə gətirdi ki, mənim çəkdiyim şəkillər Mehdinin xoşuna gəldi, aramızda dostluq münasibəti yarandı. O vaxt 26-lar klubunun idman zalında bizim idman dərnəyi fəaliyyət göstərirdi. Tələbələrdən C.Qaryağdı, P.Karpov, Ə.B.Kazımov, T.Saibova, M.Hüseynzadə və başqaları da həmin dərnəyə yazılmışdı.

Mehdi ilə burada daha da yaxınlaşdıq. Biz eyni küçədə yaşayırdıq: Qasım İsmayılov küçəsinin əvvəlində Mehdi, axırında isə mən. Mehdi şəhər mərkəzinə düşəndə bizim evin qabağından keçirdi. İdman məşğələsinə gedəndə də həmişə məni səsləyirdi. Sıraya düzüləndə, məndən bir baş hündür olmağına baxmayaraq sonra dayanardı. Bunu görən müəllimimiz onu sırada qabağa keçirmək istədi. Mehdi isə müəllimin cavabında: «Tağı yaşca böyükdür, texnikumda da bir kurs irəlidi... İxtiyarım yoxdur», – deyib zarafat elədi. Ümumiyyətlə, yerli-yerində, incə yumoru var idi. Müəllim də razılaşdı, bir də bu məsələnin üstünə qayıtmadı. O vaxt çəkdirdiyimiz şəkildə də bu, aydın görünürdü. Mehdi elə dayanıb ki, guya boyumuz arasında bir o qədər fərq yoxdur.

Ümumiyyətlə, Mehdi böyük-kiçik yeri bilən idi. Böyüklərə hörmət etməyi özünə borc bilirdi. Ciddi olması səbəbindən bəzən lal–dinməz, az danışan adam təsiri bağışlayırdı. Lakin yaxşı tanıdığı, xüsusilə məhəbbətini qazandığı dostları ilə çox şən, məzəli zarafatlar edərdi. Şeiri çox xoşlayırdı. Odur

ki, «O olmasm, bu olsun», «Arşın mal alan» operettalarından bəzi gülməli bəndləri rus və alman dilinə tərcümə edərək oxuyurdu. Bunları öz sinif yoldaşlarına da öyrətmişdi. Texnikumun direktoru Ə.Əzimzadə də təbiətən yumorist adam idi. Əvvəlcə Mehdiyə etiraz etsə də, sonra özü də onun hərəkətlərinə ürəkdən güldü. Beləliklə, müəllimlər arasındakı narazılığa son qoydu. Sonra bu bəndləri az qala bütün məktəb oxumağa başlamışdı. Mehdi əliaçıq və gözütox idi. Dostları üçün heç nəyi əsirgəməzdi. Yenə bir hadisəni xatırlayım.

İstirahət günlərinin birində M.Nəcəfov bizi evlərinə qutaba qonaq çağırmışdı. Şən keçən bu məclisdən sonra, evə qayıdanda Mehdi təkid etdi ki, onlara gedək. O, bukinist mağazasından çoxdan axtardığı «İntibah dövrü rəssamları» albomunu almışdı. Bu, 30x25 santimetr ölçülü albomda 20-yə qədər reproduksiya var idi. Albomun cildi tünd qırmızı rəngdə idi, üstü isə zərlə yazılmışdı. Albom iri olmasa da gözəldi, hamının xoşuna gəlmişdi. Albomu mən də tərifləmişdim. Sabahı gün idman məşğələsindən qayıdanda Mehdi əlindəki zərfi mənə verib, *"Evdə açarsan"*, – dedi. Zərfi açanda dünənki qırmızı rəngli albomu gördüm. Üstündə «Qardaşım Tağıya əbədi xatirə» sözləri yazılmışdı.

Mehdi Hiiseynzadə intibah dövrünün rəssamlarını xoşlayırdı, xüsusilə Mikelancelonu... Ancaq buna baxmayaraq albomu mənə bağışladı. Bu kiçik faktın özü də göstərir ki, o necə xeyirxah və ürəyiaçıqdı. Mən işin belə şəkil aldığından pərt olmuşdum. Albomu qaytarmaq istədim, lakin onun mehriban siması gözlərim qarşısında canlanaraq elə bil məni məzəmmət edirdi. Sanki deyirdi: «Hədiyyəni geri qaytarmaq olarmı?» Özü də əbədi xatirəni?»

Ertəsi gün məktəbdə görüşəndə ona öz minnətdarlığımı bildirdim. Sonra yarızarafatla dedim:

- Darıxma, rəssam olan kimi mütləq İtaliyaya gedəcəyəm və xəcalətindən çıxacağam. Sənin üçün Mikelancelonun italyan dilində iri albomunu gətirəcəyəm.

O, hazırcavablıqla:

-Tağı, mənə elə gəlir ki, İtaliyaya səndən qabaq gedəcəyəm, ürəyimə damıb, – dedi.

Dünyanın işinə bir bax, doğrudan da Mehdi İtaliyada məndən xeyli qabaq oldu.

Tağı Tağıyev,
Azərbaycanın xalq rəssamı

SƏDAQƏTLİ DOSTUM

Mənim Mehdi ilə axırıncı görüşüm 1941-ci ilin 23 iyununda olmuşdur. Mehdi məni Bakı sərnişin vağzalından qatarla təcili olaraq Leninqrada yola saldı. Mən onunla vağzalda son dəfə olaraq səmimi dost və doğma qardaş kimi öpüşüb vidalaşdım.

Böyük Vətən Müharibəsinin başlanmasından təxminən bir həftə əvvəl mən Leninqraddan Bakıya yay tətilinə gəlmişdim. O zaman mən Leninqradda Ümumrusiya Rəssamlıq Akademiyasının tələbəsi idim. Mehdi isə Bakıda Azərbaycan Pedaqoji İnstitutunun nəzdində yenicə təşkil edilmiş xarici dillər şöbəsinin üçüncü kurs tələbəsi idi.

Bakıya gələn gündən biz Mehdi ilə birlikdə şəhəri gəzir, köhnə dost və bakılı yoldaşlarımızı tapıb onlarla görüşürdük. O, günlərdə Nizami Gəncəvinin 800 illiyi münasibətilə açılacaq müzeyin tərtibatı ilə əlaqədar olaraq İsmayıl Axundov və Lətif Kərimov tərəfindən Mehdi ilə mənə bəzi rəssamlıq işləri tapşırılmışdı.

Mehdi ilə iyun ayında olan son görüşümüzdən, onun Leninqraddan Bakıya gəlməsindən təxminən dörd ay keçmişdi. Bu vaxta qədər o, ikinci Leninqrad Pedaqoji Xarici Dillər İnstitutunun fransız dili fakültəsinin III kurs tələbəsi idi. Bakıda təhsilini davam etdirməyə səbəb isə onun ailə vəziyyətində baş vermiş yeniliklər olmuşdu. Bir tərəfdən Mehdinin kiçik bacısı Hürriyyətin nişanlanması və ərə getməsi, evdə qoca bibinin tənha qalması, digər tərəfdən isə,

bu zaman V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun tərkibində xarici dillər şöbəsinin mövcud olması, Mehdinin Bakıya gəlməsini tələb edirdi.

Müharibə başlanan kimi mənim Leninqrada qayıtmağım isə yaşadığım şəhərin müvafiq rayon hərbi komissarlığından ordu sıralarına getməyim ilə əlaqədardı.

Müharibənin başlanmasına bir neçə gün qalmış, Bakıda sensasiyalı bir mühakimə prosesi gedirdi. Onun nəticəsi bazar günü iyun ayının 22-ə təyin edilmişdi. Bu işdən biz də xəbərdar olduğumuzdan Mehdi ilə birgə səhər saat 9-da Leytenant Şmidt küçəsində yerləşən keçmiş yəhudi kilsəsinin (Sinoqoq) binasında idik. Məhkəmə prosesi saat on ikidə qurtardı. Biz binanı tərk edib küçəyə çıxdıq və təəssürat altında söhbət edə-edə Şaumyan bağı ilə (indiki 26 komissarları memorialı) gedirdik. Bağın ortasında çoxlu adamların toplanıb radio verilişinə qulaq asmalarına təsadüf etdik. Azərbaycan və rus dillərində dəfələrlə təkrar verilişdən aşkar oldu ki, iyunun 22-də səhərə yaxın hitlerçilər ölkəmizə hücum edib bizimlə müharibəyə başlamışlar. Təbiidir ki, iyirmi dəqiqə bundan qabaq gördüyümüz məhkəmə təəssüratı dərhal unuduldu və biz Mehdi ilə onların qonşuluğunda yerləşən Oktyabr rayon hərbi komissarlığına yönəldik. Bura çoxlu adamlar çağırılmışdı və bizim çətinliklə aldığımız məlumata görə, mən mütləq Leninqrada qayıtmalı, Mehdi isə Bakıda komissarlığın göstərişlərini gözləməli idi.

Hərbi komissarlıqdan biz Mehdigilə gəldik. Evdə Mehdinin bibisi, böyük bacısı Bikəxanım, onun həyat yoldaşı Əliqulu və əmisi oğlu Ələkbər ilə görüşdük. Müharibənin gözlənilmədən başlanması ilə əlacədar ailəvi fikir mübadiləsindən sonra, mən onlardan ayrılıb evə getdim və səhər görüşmək üçün Mehdi ilə vədələşdim

Müharibənin qəflətən başlanması, əvvəllər adi və sadə yollarla həll olunan həyati məsələləri çətinləşdirirdi. Odur ki, qatara bilet tapıb Leninqrada getmək məsələsi asan iş deyildi. Bütün belə işlər şəhər hərbi komendantının

sərəncamına verilmişdi. Səhər tezdən iyunun iyirmi üçündə mən Mehdi ilə hərbi komendantlığın binasında təsadüfən Leninqradın Puşkin adına dram teatrının inzibati işçisilə Azərbaycan SSR Xalq Komissarlar Şurasının nəzdində olan incəsənət işləri idarəsinin nümayəndəsinə rast gəldik. Onlar hərbi komendantlıqdan Leninqrada getmək üçün üç minik və iki yük vaqonunun icazəsini almışdılar. Onlarla söhbətdən aydın oldu ki, Leninqradın Puşkin adına dram teatrı bu günlərdə Bakıya qastrola gəlib. Lakin müharibənin başlanması ilə əlaqədar teatr təcili olaraq qastrol vermədən Bakıdan Leninqrada qayıtmalı idi. Mənim təcili Leninqrada getmək məsələmi biz həmin nümayəndədən xahiş etdik və o, buna icazə verdi.

Beləliklə, həmin gün, yəni iyirmi üç iyunda günorta çağı mən Leninqrad teatrının tərkibində, məni ötürən Mehdidən ayrılıb yola düşdüm. Qatar xüsusi təyinata görə, heç bir stansiyada dayanmırdı. Ara bir ən böyük stansiyalarda bir neçə dəqiqə dayanırdı. Beləliklə biz iyirmi beş iyunda axşam çağı Leninqrada çatdıq. Mən dərhal Rəssamlıq Akademiyasına getdim. Lakin Akademiyanın həyətində olan tələbələrin ümumi yataqxanasının və müəllimlərin yaşayış evlərinin bombardman nəticəsində tamam dağıdılmasını gördüm.

Bu gözlənilməz mənzərə mənə çox təsir etdi və böyük təəssürat altında yaxında olan Basiliostrov rayon hərbi komissarlığına getdim. Məni, dərhal siyahıya alıb 10-15 dəqiqə ərzində əlli nəfərə qədər adamla Finlandiya vağzalına apardılar.

Vağzalda səfərbər olunmuş yüzlərlə adam vaqonlara yerləşirdilər. Axşam təxminən yeddi-səkkiz radələrində qatar yola düşdü. Biz hara getdiyimizi bilmirdik. Lakin Leninqraddan şimala tərəf getdiyimizə şübhə yox idi. İyun ayının 27-də günorta çağı Kandalakşa adlı böyük olmayan şəhərdə qatardan endik və hərbi hissəyə aparıldıq. Həmin gün bizə hərbi paltar geyindirib və silahlandırıb ağ gecələrdə 160 kilometrlik məsafədə olan cəbhə xəttinə tərəf getməyimizi əmr etdilər. Beləliklə, iyunun 29-da bombard-

man altında, biz böyük Kuloyarva adlanan yerə, Kuokala gölünün sahilinə çatdıq. Bura artıq Finlandiya ilə sərhəd torpağı olub, cəbhənin ən qabaqcıl xəttini təşkil edirdi. Gölün bir sahilində Alman-fin əsgəri qüvvələri, digər sahilində isə bizim qoşunlar yerləşirdi. Bu cəbhə əvvəllər Şimal, bir az sonra isə Kareliya cəbhəsi adlandı.

Mehdi ilə mən Leninqrada 1941-ci ilin mart ayına qədər Leninqrad Xarici Dillər İnstitutunda oxumuşduq. Məndən bir il qabaq buraya daxil olmuş Mehdi Leninqrada bələd idi. O, hələ bu instituta 1938-ci ildə daxil olmuş, mən isə 1939-cu ildə hazırlıq şöbəsinə girmişdim.

Bizim Leninqrad dövrümüz Mehdi ilə çox işgüzar və şən keçirdi. Biz institutda oxuduğumuz zaman institutun binasında yerləşən yataqxananın iki nəfərlik otağında yaşamışıq. Mehdi əsas kursda olduğundan səhər dərsə gedir, mən isə hazırlıq kursunda oxuduğumdan dərsə axşamlar gedirdim. Gündüz saatlarım boş idi. Ona görə institut komenantlığında mən işə girdim. Mənə rəssamlıq məsələləri ilə məşğul olmaq vəzifəsi tapşırıldı. Adətən institutda böyük şuarların hazırlanması, xırda tərtibat işlərinin görülməsi, lövhə və stendlərdə müxtəlif elanların yazılması və s. bədii işləri mən gördüm.

Çox zaman bu tipli rəssamlıq işlərini biz Mehdi ilə birgə icra edərdik. O, həmişə belə işləri icra edəndə öz-özünə dodaqaltı zümzümə edir və astadan bayatılar deyirdi. O, aşıq mahnılarını çox sevirdi. Onun yataqxanada stolüstü kitabları içərisində, adətən, «Aşıqlar», «Aşıq Ələsgər», «Atalar sözü» və s. bu kimi kitablar olurdu. Yaxşı yadımdadı, bir dəfə biz Oktyabr bayramı nümayişində, əldə aparmaq üçün çoxlu şüarlar hazırlamalı idik. Belə işləri, adətən, biz gecələr görürdük və bir neçə gecə buna sərf olunurdu. Belə hallarda o nisbətən yüksək səslə aşıq şeirləri söyləyirdi. Zarafatla bəzi vaxt bu şeirlərdə mənim adımı da deyirdi. Mən ona baxanda, o, tez cavab verirdi: *"Mən sənin adını çəkirəm ki, birdən yatarsan və şüarda səhvə yol verərsən"*. Bu kimi zarafatlar daima bizim birgə işlərimizi müşayiət edirdi.

İnstitutda oxuduğumuz zaman Mehdi müəllimlər və tələbələr arasında böyük nüfuza malik idi. Onu institutda çox hazırcavab, şən və zarafatcıl bir tələbə kimi tanıyırdılar.

Mehdi institutda fəal bir tələbə kimi tanınmışdı. O, institutun çoxlu ictimai işlərində çalışırdı. Adətən, Mehdi bir rəssam kimi fakültənin divar qəzetlərinin tərtibatını verirdi. Onun qəzet üçün çəkdiyi bir sıra şarj və karikaturalar onu şöhrətləndirmişdi. Onun bilik səviyyəsi, ictimai işi və komsomolçu kimi fəaliyyəti təqaüd almasına səbəb olmuşdu.

Mehdi ədəbiyyat sahəsini çox sevirdi. İnstitutda oxuduğu zaman dil, dilçilik məsələləri ilə çox maraqlanırdı. İnstitutda təşkil edilmiş türk və fransız dillərinin müqayisəli qrammatikası dərnəyinin fəal üzvü idi. Bundan başqa o, Avropa və rus dillərində mövcud olan «Sözyaranma» prinsiplərini öyrənən dərnəkdə iştirak edirdi. Ona görə Mehdi vaxtının çoxunu Leninqrad kitabxanalarında keçirir, xüsusi mühazirələrə gedir və öz sənətinin əsaslarına yiyələnirdi.

Biz Leninqrad şəhərini gəzir, onun tarixi memarlıq və heykəltaraşlıq abidələri ilə tanış olurduq. Vaxtımızın çox hissəsi Leninqrad müzeylərində və sərgi salonlarında keçirdi. Ermitaj, rus muzeyi bizim daimi getdiyimiz yerlərdən biri idi. Bunlarla yanaşı biz Leninqrad ətrafında olan Peterqof, Duderqof, Qatçina, Kronştat və s. yerləri gəzmiş və buralarda olan tarixi və inqilabi abidələrlə tanış olmuşduq.

Oxuduğumuz Xarici Dillər İnstitutu əsas Smolnı binasının arxa tərəfində yerləşən Smolnı monastırı idi. Bu binanın böyük həyətı var idi. Orada qış vaxtı idman dərsləri keçirilirdi. Burada biz lıj sürməklə məşğul olurduq. Yeri gəlmişkən deyim ki, Mehdi mənə nisbətən idmanı çox sevirdi və idmanla daha çox məşğul olurdu. Ona görə də, o tez-tez şəhər OSO Aviaxim təşkilatının hovuzuna gedir və orada üzmək və suya tullanmaqla məşğul olurdu. Bir neçə dəfə məni də özü ilə ora aparmışdı. Orada o, üç, beş və on metrlik hündür kürsülərdən suya müxtəlif fıqurlarda atılır və bundan çox şadlanırdı.

Bir dəfə mənə kürsüdən suya atlanmağı təklif etdi. Mən maraq üçün razılıq verdim. Beş metrlik kürsüdən üzü üstə

suya elə atıldım ki, bu atılma mənim üçün bütün ömrüm boyu birinci və axırıncı dəfə oldu. Sonralar Mehdi mənim bu şücaətimi söyləyib yoldaşlar arasında gülərdi.

Mehdi ilə dostluğumun Leninqrad dövrü çox maraqlı keçmişdi. Bir yoldaş və dost kimi Mehdi olduqca mehriban adam idi. O, yoldaşa və dosta böyük qayğıkeşliklə yanaşırdı. Biz nadir hallarda Leninqrada oxuyan azərbaycanlı tələbələrə rast gəlirdik. Mehdi dərhal onların hansı institutlarda oxumalarını öyrənirdi, nəyə ehtiyac duyduqlarını soruşardı və bəzən də onları bizim instituta yataqxanaya dəvət edərdi. Belə keçmiş tələbələrdən universitetin tarix fakültəsini bitirmiş, tarix elmləri namizədi İsa İsayev və həmin universitetin filoloji fakültəsini bitirmiş, dosent Adilə İsmayılova yaxşı yadımdadır.

Doğma Bakıdan uzaqlarda böyük elm və mədəniyyət şəhəri olan Leninqradda Mehdi ilə tələbəlik illəri mənim xatirəmdə silinməz səhifələr kimi daim canlanır.

Mənim Mehdi ilə yaxın dostluğum Leninqraddan başlanmamışdır. Biz Mehdi ilə həmyerliyik, yəni bizim ata-analarımız və hətta babalarımız da Bakının Novxanı kəndindəndirlər. Adətən, Bakının yerli əhalisinin Abşeron yarımadasının bütün dənizkənarı boyu bağları olur. Yay vaxtı əhalinin bir hissəsi bu bağlara köçür və orada yaşayır.

Bizim Mehdi ilə uşaqlığımız da Novxanı bağlarında keçmişdi. Yay vaxtları qonşu uşaqları bir yerə yığılır və öz vaxtımızı da dəniz kənarında tilovla balıq tutmaqla, yaxud da bərk isti vaxtı ağacların kölgəsində kitab oxumaq və sair əyləncələrlə keçirərdik. Bu kimi görüşlərimiz hər il Mehdi ilə ancaq yayda, tətil zamanı olurdu.

Mehdi hələ uşaq ikən vaxtının çox hissəsini dəniz kənarında keçirərdi. O, çimməyi, idmanla məşğul olmağı, habelə güləşməyi çox sevərdi.

Başqa uşaqlara nisbətən Mehdi bir az qüvvətli və gövdəli idi. Odur ki, o bizə həmişə qalib gələrdi.

Biz Mehdi ilə ayrı-ayrı ibtidai məktəblərdə oxuyurduq. Ona görə də şəhərdə oxuduğumuz vaxt bir-birimizə rast

gələrdik. Təbiidir ki, görüş düyümüz zaman başqa söhbətlərlə bərabər, bağ macəralarımızı bir-birimizə söyləyib gülüşürdük.

1931-ci ilin yay fəsli bağda yenə Mehdiylə görüşdük. Bu dəfə bizim görüşümüz bir növ işgüzar məzmun daşıyırdı. Çünki bu il biz yeddillik məktəbi bitirmişdik, söhbətimiz ancaq kimin hansı orta məktəbdə oxuyacağından gedirdi.

Mən öz sənədlərimi o zaman N. Nərimanov adına Sənaye Texnikumunun inşaat şöbəsinə vermiş və imtahansız qəbul olunmuşdum, lakin Mehdi ilə söhbət zamanı o, mənə rəssamlıq texnikumunda oxuyacağını söylədi və Mürsəl Nəcəfovun da oraya ərizə verdiyini dedi. Bu söhbətimiz onunla nəticələndi ki, mən sənədlərimi Nəriman Nərimanov adına texnikumdan geri alıb rəssamlıq texnikumuna verdim.

Dörd il rəssamlıq texnikumunda bir sinifdə oxumuşduq. Bizimlə bir sinifdə Azərbaycan SSR xalq rəssamı Kazım Kazımzadə, musiqili komediya teatrının baş rəssamı Əsgər Abbasov, rəssam Əli Zeynalov, sənətşünas Mürsəl Nəcəfov, rəssam Həbib Əzimzadə, Əli Sultanov, rəssam Ələsgər Dostəliyev və başqaları oxumuşlar. Məktəb illərində Mehdi qabaqcıl tələbələrdən biri idi. O, öz sadə xasiyyəti, hazırcavablığı ilə sinifdə olan tələbələrin hörmətini qazanmışdı. Öz zarafatcıl sözləri ilə, o, tənəffüs zamam bütün tələbələri güldürərdi.

Mehdinin bu şən və üzügülər xassiyyəti nəinki məktəbin tələbələri, hətta müəllimləri tərəfindən yaxşı qarşılanırdı.

Adətən, biz Mehdi ilə təcrübə işlərində bir yerdə olardıq. O, öz işinə böyük həvəs göstərərdi. Yay tətili zamanı isə bir yerdə, çox zaman bağda müəyyən naturalar və mənzərə etüdləri çəkərdik. O, iş zamanı həmişə dodaqaltı oxuyur və hərdənbir gülmək üçün qəzəlləri rus və alman dilində də deyərdi. Onunla tanış olmayan adamlar onun bu davranışlarından çox təəccüblənirdilər.

Mehdi bədii ədəbiyyatı çox sevərdi. O, həmişə macəra kitabları oxuyar və bəzi yerlərini əzbərlərdi. Onun ən çox sevdiyi Azərbaycan şairlərinin əsərləri idi. Aşıq şeirlərini xüsusilə xoşlayırdı. Çox vaxt yeri gələndə, aşıq Ələsgərin

şerlərinin və deyişmələrinin əksəriyyətini əzbərdən söylərdi. Rəssamlıq məktəbində Mehdi ilə keçirdiyimiz illər çoxlu xatirələr ilə doludur.

Biz aldığımız təqaüdə həmişə incəsənətə aid çoxlu kitab, Qərbi Avropa və rus rəssamlarının əsərlərindən reproduksiyalar alardıq. O, belə vaxtlarda özü seçdiyi kitabdan, yaxud şəkildən mənim üçün də götürərdi və həmişə aldığı şeyin üzərində yazardı: «Mehdidən yadigar». Çox zaman mənim seçib aldığım kitab və şəkillərin üzərində də Mehdi eyni sözləri yazardı. Bir dəfə mən buna zarafatyana etiraz etdikdə dedi: «Sən ki, bu kitabı mənim yanımda aldın, deməli, bu kitab məndən sənə yadigar olmalıdır». V.Nikolskinin «İstoriya russkoqo İskusstvo», N.Bayevin «Oçerki istorii iskusstvo» kitabları indiyə kimi məndə durur. Bu dövrdə biz bir yerdə çoxlu foto-şəkillər də çəkərdik, parklarda, dəniz kənarında, bağlarda, evdə, sinifdə və başqa yerlərdə çəkdiyimiz çoxlu foto-şəkillərimiz indi də məndə durur.

Rəssamlıq məktəbində biz diplom işlərimizi verib 1936-cı ildə oranı qurtardıq. Mehdi öz diplom işini «Qızıl Ordu döyüşçüləri düşərgədə» mövzusuna həsr etmişdi. Mən isə «Neftçilər» tablosunu çəkmişdim.

Rəssamlıq məktəbini bitirdikdən sonra bir qrup gənc rəssamı, o cümlədən, Mehdi və məni Bakı xalq maarifi şöbəsinin sərəncamına göndərdilər. Bizi Bakı məktəblərində rəsm dərsi deməyə dəvət etmişdilər. Mehdi Suraxanı, mən isə Sabunçu ibtidai məktəblərində rəsm dərsi deməyə göndərildik. Lakin bir-iki aydan sonra bizim dərslər tədris proqramı üzrə tamam kəsildi və biz müəllimlikdən əl çəkdik.

Biz Mehdi ilə hələ məktəbdə dərs dediyimiz vaxtlar kitabxanada işləyirdik. Mehdi Abbas Səhhət adına kitabxanada qiraətxana müdiri idi, mən isə Məşədi Əzizbəyov adına kitabxanada kitabxanaçı işləyirdim. Şübhəsiz, kitabxanada işləyən dövrümüz bizi gündəlik mətbuat və ədəbiyyatla çox yaxından tanış etmişdi. Bu vaxtlar Mehdi çoxlu şeirlər oxumuş və özü də şeir yazmışdı. Onun çox sevdiyi şairlər Hüseyn Cavid, Mikayıl Müşfiq, Səməd Vurğun və Süleyman Rüstəm idi. Mehdi onların şeirlərinin əksəriyyətini əzbər bilirdi.

1937- 1938-ci illər bizim əsas işimiz kitabxanalarda davam edirdi. Elə bu illər Mehdi ilə mən bir neçə dəfə Bakı şəhərinin ictimai binalarının bədii tərtibatı ilə bir rəssam kimi məşğul olmuşduq. Yaradıcılıq işində bir yerdə iki, yaxud üç nəfərin işləməsi çətin məsələdir. Lakin bizim Mehdi ilə yaradıcılıq işimiz çox şən və mübahisəsiz olmuşdur.

1937-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının XX ildönümü münasibətilə Mehdi və mən M.Əzizbəyov adına doğum evinin bədii tərtibatını vermiş və özümüz də icra etmişdik. Bu tərtibatda biz Mehdi ilə «Keçmişdə və indi» adlı böyük pannolar çəkmişdik. Bundan əlavə, 1938-ci il 1 May bayramı münasibətilə APİ-nin keçmiş binasının da bədii tərtibatını Mehdi ilə işləmişik. Həmin ildə Bakı Şurası binası üçün beş marşalın portretlərini birgə işləmişik.

Bizim Mehdi ilə bir yerdə gördüyümüz belə böyük və kiçik həcmli rəssamlıq işləri çoxdur.

1937-ci ildə biz Mehdi ilə Leninqrad Rəssamlıq Akademiyasına ərizə verib oraya daxil olmaq arzusunda idik. Lakin böyük müsabiqə olduğundan biz ora daxil ola bilmədik. 1938-ci ilin yayında Mehdi sənədlərini yenidən Leninqrada aparıb Akademiyaya vermək istəyirdi. Sonradan onun mənə yazdığı məktubdan aydın oldu ki, onu yenə Akademiyaya qəbul etməmişlər. Onda Mehdi sənədlərini Leninqrad Xarici Dillər İnstitutuna vermiş və qəbul imtahanından sonra orada qalmışdı. Mən isə həmin il Azərbaycan Dövlət İncəsənət müzeyində yeni işə girdiyimdən Leninqrada gedə bilməmişdim. Mehdi isə Xarici Dillər İnstitutunun fransız fakültəsində oxumağı davam etdirirdi.

Bir il mən Mehdidən ayrı olmuşam, lakin bu bir ildə biz davamlı məktublaşmışıq. Mehdi öz məktublarında daim məni Leninqrada çağırırdı. O, Leninqrada Xarici Dillər İnstitutunda müvəqqəti oxuyaraq sonradan Rəssamlıq Akademiyasına girəcəyini yazırdı. Məktublardan görünürdü ki, Mehdinin seçdiyi bu işdə, yəni dil öyrənmək işində böyük müvəffqiyyəti var və bu işin gələcək rəssama böyük köməyi olacağını mənə yazırdı. Mehdi institutda tələbələr

və müəllimlər arasında yaxşı nüfuza malik idi. Onun 1938-ci ildə Leninqradda keçirdiyi bütün günlərindən mən məktublar vasitəsilə xəbərdar idim. O, gündəlik sərgüzəştlərindən, dərsindən, yaşayışından və yeni tanış olduğu tələbə yoldaşlarından məktublar yazar, o cümlədən, cürbəcür foto-şəkillər yollayırdı. Nəhayət, 1939-cu ilin yayında mən də Leninqrada gedib həmən instituta girdim. Biz Mehdi ilə həmin institutda bir yerdə oxumuşuq, Mehdi məndən iki kurs yuxarı oxuyurdu. 1941-ci ilin mart ayına kimi biz bir yerdə, hətta bir otaqda yaşamışıq. Bu vaxtlar bizim bütün işimiz birgə olmuş və hər bir işdə, yaxud dərsdə həmişə bir-birimizə köməkliyimiz olmuşdur. Demək lazımdır ki, fransız dilinə Mehdinin çox böyük marağı vardı. Mehdi həmişə başqa tələbələrdən yaxşı oxuması ilə fərqlənirdi. Xatırımdadır, Mehdi və mən dərsdən əlavə olaraq fransız və fars dillərinin müqayisəli qrammatikasını öyrənirdik. Bu işdə Mehdi nümünəvi tələbə sayılırdı. Bizim Mehdi ilə xüsusilə yaxın olduğumuz tələbə yoldaşlarımız var idi. Onlardan bəziləri ilə indi də məktublaşır və hərdənbir görüşürəm.

Dərsdən kənar boş vaxtda hər ikimiz işləyirdik. Mehdi öz institutumuzda rəssamlıqdan mənə daim kömək edirdi. Bir müddət sonra mən Saltıkov - Şedrin adına kitabxananın SSRİ xalqları ədəbiyyatı şöbəsində işləyirdim.

İnstitutda oxuduğumuz vaxtlar bizim bütün günümüz səmərəli keçirdi. Mehdi həm də su idmanı ilə məşğul olurdu. Bu işdə Mehdi böyük usta olmuş və Leninqradda institutlararası yarışda birinci yeri qazanmışdı.

Leninqradda Xarici Dillər İnstitutunda oxuduğumuz illərdə biz hər yerə həmişə bir yerdə gedirdik. Leninqradın bütün gəzməli yerlərini görmüşdük.

Bu dövr çox maraqlı və unudulmaz olmuşdur. Mehdi həmişə özünü həqiqi bir dost kimi tanıtdırmışdı. Onun əvvəlki kimi etdiyi zarafatları həmişə onu şən və sevimli bir yoldaş etmişdi.

Məmmədağa Tərlanov,
professor, Əməkdar Mədaniyyət xadimi

BİR ŞƏKLİN TARİXİ

Sevimli Mehdi Hüseynzadənin unudulmaz xatirəsi mənim qəlbimdə dərin izlər buraxmışdır. Yaxşı yadımdadır, 1937-ci il martın 28-də Bakıda küləkli bir gün idi. Bu vaxt Məşədi Əzizbəyov adına kitabxananın müdir otağının qapısı aramla açıldı; içəri enlikürək, gülərüzlü cavan bir oğlan daxil oldu. Bu, Mehdi idi. O, əlində tutduğu kağız parçasını müdirə uzadıb bizim kitabxanada işləməyə göndərildiyini bildirdi.

Mehdinin bu arzusu tezliklə həyata keçirildi. 28 mart 1937-ci il tarixli əmrlə Mehdi Hüseynzadə qiraət zalında müdir vəzifəsinə işə götürüldü. Bu əhvalatdan çox keçmədi, Mehdi bütün kollektivin və oxucuların hüsn-rəğbətini qazandı, minlərlə oxucunun sevimlisi oldu. Mehdi az bir müddətdə özünü ən yaxşı mədəni-maarif işçisi kimi göstərdi. O, kitabxanada və əhali arasında kütləvi tədbirlərdə, əsər müzakirələrində və oxucu konfranslarında fəal iştirak edirdi.

Mehdi zarafatı çox sevirdi və onun arabir şeir deməyi də var idi.

Heç yadımdan çıxmaz, bir dəfə onun sol əlinin çeçələ barmağındakı üzüyə işarə edərək nə üçün o üzüyü gəzdirdiyini soruşdum. Mehdi gülə-gülə dedi: «Törə bacı, bu üzükdən kimin barmağında görsəniz bilin ki, o, rəssamlıq sənətinin vurğunudur».

Mən Mehdinin gözəl şəkillər çəkdiyini bilirdim, indi isə onun bu sənətə nə qədər vurğun olduğunu və məhəbbət bəslədiyinin şahidi oldum..

Kitab sərgilərinin keçirilməsində, divar qəzetindəki şəkillərin çəkilməsində Mehdinin böyük əməyi olurdu. O, cəm bir neçə gündə müdiri olduğu oxu zalının lövhə və plakatlarını özünün çəkdiyi rəsmlərlə bəzədi.

Bir dəfə nahar vaxtı idi. İşçilərin hamısı nə münasibətləsə oxu zalına yığışmışdı. Birdən Mehdi «Heç kəs, heç yerə getməsin – dedi,– indi şəkil çəkdirəcəyik». Buna baxmayaraq, qızların hamısı iş yerinə qaçdı; kimi güzgüdə özünü

düzəldir, kimi daranır, kimi də paltarını yaraşığa salırdı. Mən də öz otağıma qayıtdım. Mehdi arxamca gəlib gülə-gülə: *«Törə bacı, gedək xatirə üçün şəkil çəkdirək, məgər bəzənmək mütləq lazımdır bacım, siz onsuz da gözəlsiniz"* – deyib zarafat elədi. - *"Onu da bilin ki, insanın hər anı, hər dəqiqəsi gözəldir. Qoy bu anın gözəlliyi də o şəkildə qalsın"*. Qızlardan heç biri bu mehriban oğlanın sözünü yerə salmadı. Bu şəkil doğrudan da həyatımızın gözəl bir anını əbədiləşdirdi.

İndi kitabxanamızın bəzəyi olan həmin şəkil qəhrəman Mehdidən bizə əziz yadigardır. İllər öz işini görüb. Əlli il əvvəl çəkilən bu şəkildə hamımız cavan qalmışıq. Misilsiz qəhrəmanlıqla həlak olan Mehdi isə həmişəlik cavan qaldı.

1938-ci ildə Mehdi Lemninqrada oxumağa getdi. O bizimlə həmişə əlaqə saxlayırdı. Qış və yay tətillərində bizimlə görüşə gələr, Leninqraddan yazdığı səmimi məktubları ilə bizi sevindirərdi.

Sovet xalqlarının azadlığı uğrunda öz canından keçən, Azərbaycanın qəhrəman oğlu, ölməz Mehdimizin şanlı xatirəsi bizim qəlbimizdə həmişə yaşayacaq və qəhrəmanlığı nəsillərdən-nəsillərə nümunə olacaqdır.

Törəxanım Babayeva
Respublikanın əməkdar kitabxanaçısı

ƏBƏDİYYƏT ULDUZU

Leninqradda mənimlə bir mənzildə yaşamış, sevincimə, kədərimə şərik olmuş, son tikəsini mənimlə yarıya bölmüş Mehdi ilə o qədər yaxın olmuşuq, elə qaynayıb-qarışmışıq ki, onun barəsində xatirə yazmağı xəyalıma belə gətirməmişəm. Bu da var ki, xatirə sərhəd tanımır, düşündüyün, xəyalına gətirdiyin adamı sənə yaxınlaşdırır, gözlərin önündə dayandırır, yenə də həmsöhbət olursan. Həmin adam sənin yoldaşına çevrilərək yaddaşından silinənləri xatırlamaqda kö-

məyinə çatır. Bütün bunlardan ötrü isə ölməzliyə, əbədiyyətə qovuşmalısan ki, xatirələrdə yaşayasan.

Nəhayət, uzun illərdən sonra bir daha keçmişə qayıtmağı, Mehdini yad etməyi özümə borc bilmişəm. Mənim üçün keçmişə qayıtmaq ona görə vacibdir ki, Mehdinin igidliyini, öiməzliyini, böyük şücaətini, təmiz və mənali gülüşünü, ciddi görkəmini, yaddaqalan yerişini, yağlı boya ilə yaratdığı dəyərli tablolarını bir daha xatırlayaraq gözüm önündə canlandıracağam.

1937-ci ilin sentyabr ayı. Leninqrad Xarici Dillər İnstitutunun yataqxanasında tək idim. Gecədən xeyli keçmişdi. Yoldaşlarıma hədiyyə vermək üçün Kirovabaddan gətirdiyim şərabı şüşələrə doldururdum. Qapı astadan döyüldü. Açdım. Qarşımda ucaboy, qara və qaynar gözlü bir gənc dayanmışdı. Onun görkəmində və baxışlarında bir təəccüb və kədər duyulurdu. İçəri dəvət etdim. Biləndə ki həmyerlimdir, qəlbim iftixarla döyündü.

Buradaca bir haşiyə çıxmaq istərdim. Böyük Vətən Müharibəsindəki tarixi qələbəmizdən sonra mən evə qayıdanda gecədən xeyli keçmişdi. Səhər tezdən məni ilk dəfə dayım qucaqladı. O, Zazalı dəmir yol stansiyasında işləyən iki azərbaycanlı dostu ilə gəlmişdi. Onların hərəsi bir qoyun gətirmişdi. Sağlığıma badə qaldıran azərbaycanlı qonaqlardan biri dedi:

–Usta Muxi (dəmirçi atamı belə adlandırırdılar), oğlun Gəncə narının bir dənəsidir. Ürəyi də bir nar dənəsi boydadır. Bu narı yeyənlər ocaq qoruyan, vətən sevənlərdir. Əgər dənələr bir yerə toplanmasa, bir-birinə qısılmasa, nar əmələ gəlməz. Vətəni qoruyanlar da narın dənələri kimi çiyin-çiyinə verən, bir-birinə arxa olan insanlardır. Həyat, dünya bir yola bənzəyir, oğlum, nəhayət bir yerdə dayanacaqsan. Lakin o yolda gərək elə dayanasan ki, ordan keçənlər sənin dayandığına heyifsiləsinlər...

Mehdi ilə ilk görüşümüzü xatırlayanda nar dənəsi barədəki söhbət yadıma düşür.

...Mehdi oturdu. Mən şərabla dolu qədəhi ona uzadaraq dedim:

– Bura bizim öz evimizdir. Bu qədəhləri içək ilk tanışlığımızın sağlığına.

Bir azdan süfrəmiz Azərbaycan torpağının nemətləri ilə dolu idi...

Yataqxanalardan biri təmir olunduğundan tələbələrin qonşu yataqxanada yerləşmələri üçün göstəriş verilmişdi. Mehdi mənim yanımda qaldı. O zaman haradan biləydim ki, bir vaxt bu gənc parlaq ulduza çevriləcək, bütün dünya onun igidliyindən söhbət açacaq. Haradan biləydim ki, mənim otaq yoldaşım əfsanələşəcək, təkcə bir xalqın deyil, böyük bir ölkənin iftixarı olacaq. Mən bunu onunla yoldaşlıq etdiyim illərdə bilmirdim. Nə yaxşı ki, bilmirdim. Yoxsa Mehdi gözlərimdə yüksələr, xəyala çevrilərdi: onun hər bir addımını, hərəkətini izləyər, hər kəlməsini təhlil edər, bir sözlə, ona adi tələbə kimi yox, ilahi bir şəxs kimi baxardım... Mehdini başqalarından fərqləndirən xüsusi cəhətlər az idi. O da başqaları kimi gülər, kədərlənər, düşünərdi. Lakin baxışlarında yalnız özünəməxsus təsirli, mənalı ifadə və dərinlik vardı. Mehdi düşüncələrə dalanda onun gözlərinin içinə baxmaq mümkün deyildi. O qaynar baxışlarında inam, igidlik, qorxmazlıq duyulardı. Tələbə dostum qürrələnməyi sevməz, özündən deməyi xoşlamaz, yoldaşının qələbəsinə daha çox sevinərdi.

Mehdi Səməd Vurğunu çox sevirdi. Vurğun şerinin dərinliyi, xəlqiliyi, böyük təsir gücü Mehdini heyran edirdi. Vurğun poeziyasının təsiri altında yarandığından Mehdinin öz şeirləri də oxunaqlı və maraqlı olardı.

Mehdi çox çevik idi. O sürətlə yeriyərdi. Lakin, necə deyərlər, yüngüllük etməzdi. Əgər tələbələrin itirdikləri mənasız, əhəmiyyətsiz saatları hesablamaq mümkün olsaydı, ən az itki Mehdinin payına düşərdi. O, vaxtını boş yerə sərf etməzdi. Mehdi möhkəm və kəskin hafizəyə malik idi. Yaxşı yadımdadır, Mehdi ilə birlikdə Ermitaja getmişdik. Salonların birində o, qəflətən dayandı, dörd tərəfini seyr etdikdən

sonra dilləndi: "Rembrantın məşhur "Müqəddəs ailə" tablosu buradan asılmışdı, indi necə olub?

...İki yaşlı qızım Astğiki anası Leninqrada gətirmişdi. Onu yola salandan sonra mənzilimə qayıtdım. Otağın divarlarından asılmış tablolardan qızım gülə-gülə mənə baxırdı. Onun gülüşü ulduzların içində təsvir olunmuşdu. Axı, ermənicə Astğiq-azərbaycanca ulduz deməkdir. Qızım sübhün ulduzları içərisində boylanırdı. Bir anda mənə elə gəidi ki, Mehdi günün-günorta çağı göydəki ulduzları otağıma doldurub... Mehdinin çəkdiyi bütün şəkillərdə Astğikin dəstələnmiş saçı sol çiynində təsvir olunmuşdu...

Bir dəfə *"adlar oyunu"* oynayırdıq. Bu oyunu uşaqlar yaxşı bilirdilər. İştirakçılardan biri məşhur bir adamın adını çəkir. Digəri onu tanımasa yeni bir ad deməlidir. Beləliklə, oynayanlardan biri qalib gəlir. Həmin oyunda iyirmi nəfər uduzub sıradan çıxmışdı. Mehdi və bir qız qalmışdı. Növbə Mehdinin idi. O, sevdiyi məşhur adamın–Nizami Gəncəvinin adını dedi. Tələbə qız donub qaldı. Mehdi təəccübünü gizlədə bilməyib üzümə baxdı. Onun baxışlarından bu sözləri oxumaq olardı: *"Doğrudanmı tanımır? Yoxsa bizi ələ salır?"* (O illərdə Şərqin dahi sənətkarı indiki qədər təbliğ olunmamışdı). Mehdi mütəəssir oldu, sonra Nizaminin bir neçə misrasını rus dilində əzbərdən dedi...

Heç yadımdan çıxmaz, yataqxanada xəstə yatırdım. Mehdi yaşadığımız kiçik otaqda zəngin aptek yaratmışdı. Vəziyyətimin yaxşılaşdığını görəndə məndən ürəyimin nə istədiyini soruşdu. Ağ su bulağından bir bardaq su.

Mehdi mehribanlıqla gülümsədi. O, o qədər mənalı baxdı ki, elə bil bu saat həmin suyu gətirəcəkdi. Və "gətirdi. Bu, Səməd Vurğunun məşhur *"Yadıma düşdü"* qoşması idi:

Vurğunun xəyalı gəzdi aranı,
Gözümdə oynadı dağın boranı,
Qışın buz qatığı, yayın ayranı,
Payızın qaymağı yadıma düşdü.

Mehdi şeiri söylədikdə mən özümü xəyalən Çaykəndin meşələrində, Göy gölün sahilində, Kəpəzin zirvəsində sanır, yaylaqlarda qaymaq yeyir, sərin ayran içir, Ağsu bulağının sərinliyini duyurdum.

Səhərisi gün mən artıq sağalmış və ayağa durmuşdum. Özgələrini bilmirəm, mən poeziyanı çətin anlarda insanın dadına çatan xilaskara bənzədirəm. Həqiqi poeziya insana mənəvi qida verməklə yanaşı, həm də onu yaşamağa ruhlandırır.

Poeziya həyatımda üç dəfə dadıma çatıb. Birinci dəfə Səməd Vurğun şeiri, ikinci dəfə Leninqradda ağır vəziyyətdə xəstəxanada yatarkən Lermontov lirikası, üçüncü isə Hamo Sahyanın dəmirçi atama həsr etdiyi məşhur şeiri!

Səməd Vurğunla görüşlərimdən birində bu üç maraqlı hadisəni ona danışdım. O gülümsədi və dedi: *"Əgər qəlbin təmiz olmasaydı, nə Lermontov, nə də mən heç bir şey edə bilməzdik. Poeziya hər dərdə şərik olmur..."*

Ağ finlərlə müharibə başlamışdı. Hərbi komissarlıqdan çağırış vərəqəsi almışdım. Mehdi ilə vidalaşmaq istəyirdim. Amma o otaqda yox idi. Bir məktub yazdım: *"Hərbi komissarlığa getdim. Yəqin ki, oradan da cəbhəyə yollanacağam. Sağlıqla qal! Vazgen"*.

Smolnıdan bir az aralı, məktəbin həyətində çoxlu adam vardı. Buraya yüzlərlə leninqradlı toplaşmışdı. Onlar övladlarını, qohumlarını yola salmaq və vidalaşmaq üçün gəlmişdilər. Mənim arxamca isə heç kim gəlməmişdi. Axı Leninqradda heç kəsim yox idi.

Mehdi adamları yara-yara qəflətən irəli çıxdı. O, çox həyəcanlı idi. Necə fərəhləndiyimi indi də təsəvvürümə

gətirə bilmirəm. Həmin gün o, doğma qardaş kimi mənə yaxşı yol dilədi. Sağ və salamat qayıtmağımı arzuladı. Onun gözləri dolmuşdu.

Bir neçə gündən sonra məni geri qaytarıb *"hələ növbən çatmayıbdır"*,– dedilər. Doğrusu, sevinməkdən çox, kədərləndim. Çünki yarıyoldan qayıtmaq yaxşı əlamət deyildi. Bir də ona görə yaxşı deyildi ki, yoldaşımın göz yaşlarını və mənə *"Yaxşı yol"*– deyərək havada yellətdiyi əlini görmüşdüm. Döyüşməyi təxirə salmaq mümkün olsa da, göz yaşlarını geri qaytarmaq mümkün deyildi.

Evə çatanda balıncımın üstündə dostum Diyatkonun məktubunu gördüm: *"Cəbhəyə yollandım. Bəlkə də orada görüşdük."*

Bir neçə aydan sonra döyüşdə fərqləndiklərinə görə təltif olunanların *"Pravda"* qəzetində dərc edilmiş siyahısında Leonid Ivanoviç Diyatkonun da adı vardı. Onu Mehdi də yaxşı tanıyırdı. Hər ikimiz sevindik. Lakin düşünəndə ki, ağır yaralananlar və həlak olanlar da təltif olunurlar, narahatlığımız artdı. Leninqradın bütün qospitallarını axtardıq. Çətinliklə də olsa Leonidi tapdıq. Yoldaşımız ağır yaralanmışdı. Çoxlu qan itirdiyindən həkimlər *"Saberov"* şərabı içməyi məsləhət görmüşdülər. Müharibə illərində *"Saberov"* tapmaq yuxumuza da girməzdi. Hansı mağazaya gedirdiksə, *"yox"* cavabı alırdıq. Bəzən isə belə bir sual verdiyimiz üçün bizə gülürdülər. Axırda *"Astoriya"* restoranına getdik. Əvvəlcə *"yox"*– dedilər, sonra həyəcanla soruşduğumuza görə bufetçi qız anladı ki, bir insanın həyatı bu şərabdan asılıdır...

Adətən həyatda insanlar bir-birinə borclu olurlar. Mən də Mehdiyə borcluyam, onun mənə, tələbə yoldaşına etdiyi yaxşılıqlarına borcluyam.

Mehdi Hüseynzadənin uzaq sahillərdəki əfsanəvi qəhrəmanlığını çox gec eşitdim. Bundan Leninqradda, məzunların ənənəvi görüşlərindən birində xəbər tutdum.

O vaxtdan ilk qədəhi Mehdi Hüseynzadənin sağlığına içirik. Onun dolu qədəhi həmişə masamızın üstündə olur.

Bu gün Mehdi ilə görüşümüzdən çox illər keçməsinə baxmayaraq tələbə yoldaşıma cərgəmizdə yaşayan bir insan

kimi, ölməz bir yoldaş kimi müraciət etmək istəyirəm. Demək istəyirəm ki, sən uzaq sahillərdə həlak olsan da, ölmədin, Vətənimizin, doğma Azərbaycanın göylərində sönməz ulduza çevrildin. Ulduzlar isə bir xalqa məxsus ola bilməz. Bu şərəf az adamlara qismət olur. Mən səni ölməzliyə, əbədiyyətə qovuşmamışdan əvvəl tanıyırdım. Elə o illərdə də səndə ulduz şəfəqi, ulduz paklığı hiss olunurdu. Yolun ulduzlu idi, yolun ulduzlara doğru idi. Belə də oldu!

V. Mnasakan,
ədəbiyyatşünas

BİR SƏFƏR HAQQINDA

2007-ci ilin oktyabr ayının 22-də mən və həyat yoldaşım Mədəniyyət Nazirliyinin dəvəti ilə Sloveniyaya uçduq. Səhərisi gün biz artıq Avstriyanın paytaxtı Vyana şəhərinə çatdıq. İki saatdan sonra Sloveniyaya məxsus olan təyyarə ilə Avstriyadan yola düşdük.

Sloveniya hava limanında bizi Maykl adlı bir cavan qarşıladı və Novoqoritsa şəhərinin *"Park otel"* mehmanxanasına çatdırdı. Novoqoritsa şəhəri İtaliya ilə həmsərhəddir. Burada, mehmanxanada yerləşəndən sonra şəhərlə tanış olmaq üçün gəzməyə çıxdıq. Oktyabrın 24-də otel işçilərindən xahiş etdik ki, bizim üçün taksi sifariş etsinlər. Biz sürücü Karlo ilə tanış olduq. O italiyan idi. Eşidəndə ki, biz Mixaylonun yaxın qohumlarıyıq, çox şad oldu və ağız dolusu ona məxsus olan hörmətdən danışdı.

Ondan xahiş etdik ki, bizi Mixaylonun dəfn olunduğu qəsəbəyə, Çepovani kəndinə aparsın. Çepovani kəndi Novoqoritsa şəhərindən 25 kilometr aralıda yerləşir. Karlo böyük məmuniyyətlə bizi ora apardı. Biz Çepovani kəndinə yola düşdük, o öz tanışı olan Boris adlı bir şəxslə əlaqə saxlayıb dedi ki, qonaqları ilə kəndə gəlir. Çepovani

kəndinə çatanda bizi Boris qarşıladı. O bizi Mixaylonun dəfn olunduğu yerlə tanış etdi və partizanların fəalliyyətindən geniş söhbət açdı. Səhəri gün Mehdinin heykəlinin açılışı günü idi. Səhər *"Park otel"* mehmanxanasına Azərbaycan nümayəndə heyətinin sədri Elçin Əfəndiyev, Avstriyadakı səfirimiz Fuad İsmayılov gəldilər. Biz nümayəndə heyətinin tərkibində əvvəl şəhərin meriyasına dəvət olunduq.

Burada bizi şəhərin meri Mirko Brulç qəbul etdi. O Mehdi Hüseynzadə haqqında söhbət etdi. Sonra Novoqoritsa partizan – veteranlar şurasının sədri Mehdinin fəaliyyətindən geniş danışdı. Bu görüşdən sonra biz Yitovle kəndinə yola düşdük. Orada Mehdinin həlak olduğu yeri ziyarət etdik. Həmin yerdə ağ mərmərdən lövhə vurulmuşdu. Lövhədə birinci Mehdinin adı Sovet qəhrəmanı kimi yazılmışdı.

Yerli əhali ilə çoxlu görüşlərimiz oldu. Onların əksəriyyəti partizan hərəkatında iştirak edən insanlar idi. Onlar Mixaylodan çox maraqlı epizodlar danışdılar. Vitovle kəndindən sonra biz Şempas qəsəbəsinə yollandıq. Burada müharibə zamanı partizanların qərargahı yerləşmiş binanın yanında, mənzərəli bir yerdə Mehdinin heykəli ucalırdı. Bütün əhali buraya toplaşmışdı. Açılış çox təntənəli keçirildi. Novoqoritsanın meri Mixaylonun fəaliyyətindən danışdı. Dedi ki, Sloveniya xalqı Mixaylo ilə fəxr edir, O insanların ürəyində dərin iz qoyub.

Açılış zamanı Mehdi ilə çiyin-çiyinə vuruşan keçmiş partizanlar 1941 -1945-ci ilin hərbi formasında gəlmişdilər. Onların əllərində Sloveniya və Azərbaycanın bayraqları dalğalanırdı.

Mərasimdən sonra biz nümayəndələrlə bir yerdə Çepovani kəndinə yollandıq. Burada Mehdinin dəfn olunduğu yeri ziyarət etməklə tədbir başa çatdı.

Mehdi Əzizbəyov,
M.Hüseynzadənin
bacısı oğlu

III FƏSİL

MEHDİ QƏLBİMİZDƏDİR

Azərbaycan xalqının igid oğlu, adı dillər əzbəri olan partizan-kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Bakıda ucaldılmış abidəsi vətənimizi qorumaq üçün canından keçmiş qəhrəmanlara ümumxalq hörmət və məhəbbətinin parlaq ifadəsidir.

Heydər Əliyev

...Mən cəbhədən yazıram. Burda güclü vuruşmalar gedir.Biz sabah hücuma keçirik. Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldağacam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur.

Mehdi Hüseynzadənin 1942-ei ilin noyabrında Stalinqraddan kiçik bacısı Hürriyyət Əzizbəyovaya yazdığı məktubdan.

ТОВАРИЩ МИХАЙЛО

Г.А.Жиляйев (Люберцы, Московская область) делится своими воспоминаниями о боевых действиях советского партизанского батальона, созданного при 9-ом корпусе Народно-освободительной армии Югославии. Этот батальон состоял из молодежи, угнанной в фашисткое рабство в Австрию и Италию и бежавшей оттуда, и военнопленных, вырвавшихся из гитлеровских лагерей смерти. Батальон входил в состав 18-й словенсклой партизанской бригады « Сошке ».

Советский партизанский батальон совершил вместе с югославскими партизанами целый ряд нападений на вражеские опорные пункты: Тольмин, Идрию, Постойну, Випаву, Опчино, Раздерто и другие. Насиление приморской Словении оказывало советским бойцам активную поддержку во всех их действиях.

Батальон совершил также несколько рейдов в Славенскую Беннечию и Юлийские Альпы, где нанес фашистским оккупантам серьезные потери. В конце апреля и начале мая 1945 года советский партизанский батальон совместно с частями IV Югославской Народно-освободительной армии, штурмовал город Трийест.

Во время крупных карательных экспедиций фашистов советский батальон трижды приходил на выручку югославским партизанским частям 9-го корпуса. Это было отмечено в приказах главного штаба народно-освободительных войск Словении. Многим советским бойцам, командиром и политработникам правительство Югославии выручило ордена и медали.

В советском партизанском батальоне прославился своими подвигами азербайджанец Мехти Гусейнзаде. О его боевых делах и теперь еще, наверное, помнит население приморской Словении. Его знают в Триесте и Пастойне, в Горице и Любляне. « Товарищ Михайло » - любовно и благодарно назвали в Словении Мехти Гусейнзаде, отдавшего свою жизнь во имя свободы и счастья братского югославского народа.

Свое письмо Г.А.Жиляйев заканчивает призывом крепить и расширять дружбу советского югославского народов.

газ-"Правда" N52 (13815)
31 Мая, 1956 Год

"İVAN RUSSKİ" KİMDİR?

*İtaliya müqavimət hərəkatının qəhrəmanı, İtaliyanın **"Qızıl ulduz"** medalı və **"Şərəf nişanı"** ordenləri ilə təltif olunmuş **Bağırov Məmməd Səməd oğlu**.*

–1942-ci ildə mən əsir düşdüm, bizi sovet hərbi zabitləri və əsgərləri üçün təşkil edilmiş Proskurov düşərgəsinə gətirdilər. Burada mən ilk dəfə Mirdamət Seyidovla rastlaşdım. O əyninə sovet zabitinin paltarını geymişdi, qolunda isə alman ordusunun nişanı var idi.

Mirdaməti heç cürə yaddan çıxartmaq olmazdı, əsirlərin hamısı onu elə ilk gündən yaddaşlarına həkk eləmişdilər. Mən onun əsl adını sonralar öyrəndim. Düşərgədə isə Mirdaməti *"Russki İvan"* deyə çağırırdılar.

O, əlindəki dəyənəklə əsirlərin baş-gözünə vurub həmişə də eyni sözləri təkrar edərdi: *"Svinya Russki İvan"*. Elə bu sözü də ona ləqəb qoymuşdular.

Maraqlı faktlardan biri budur ki, Mirdamət Seyidov müharibədən sonrakı dövrlərdə özünün partizan həyatından söhbət açan kitablarında yazır ki, guya o, bu adı Triyest şəhərinin ətrafında olarkən alıb.

Sonralar mən onu Proskurov düşərgəsində bir neçə dəfə gördüm.

Təəssüflər olsun ki, tale bizi ikinci dəfə görüşdürdü. Bu hadisə belə oldu.

1952-ci il idi. Xalamoğlu Oqtay Nəzərli o vaxtlar DTK-də xüsusi işlər üzrə baş müstəntiq vəzifəsində çalışırdı. Mən ona müraciət etdim ki, müharibə illərində İtaliyada partizan

olmuşam, ancaq bu haqda heç bir sənədim yoxdur, mənə kömək elə, bəlkə bir sənəddən-zaddan alam. Dedi ki, şəhər (o vaxtı 26 Bakı komissarı rayonu) milis şöbəsində bir tanışım var, gedək onun yanına.

Milis şöbəsində həmin adamla görüşdük. O soruşdu ki, harda olmusan? Cavab verdim ki, Modiko-Florensiya arasında, Apenin dağlarının ətəyində. Dedi ki, yalan deyirsən, o tərəflərdə partizan olmayıb. Mən əsəbləşib qışqırdım: *"Yoldaşlarımın hamısının adını deyə bilərəm"*. O, öz sözünün üstündə durub təkrar etdi ki, yalan deyirsən, xeyri yoxdur, sübüt edə bilməzsən. Bu anda hansısa qüvvə mənə anlatdı ki, onu tanıyıram.

"Səni Proskurovda görmüşəm"–dedim. O, bu sözləri eşidib bir anlıq tutüldu və xalam oğlu Oqtaya dedi ki, qoy sonra gəlsin, kömək edərəm, indi məni rəis yanına çağırır. Bu adam Mirdamət Seyidov idi.

Bayıra çıxıb hər şeyi olduğu kimi xalam oğluna danışdım.

O vaxtdan etibarən mən tez-tez yaşayış yerimi dəyişib Mirdamətdən qaçırdım. Gah Tiflisdə, gah Çarjouda, gah da ki, Bakıda yaşayırdım.

1955-ci ildə atam rəhmətə getmişdi. Tiflisə hüzr yerinə gələn Oqtay mənə dedi ki, Mirdamət səni axtarırdı, mən də Çarjoudakı ünvanımı ona verdim. Elə bil yer ayağımın altından qaçdı. Oqtay təsəlli verib dedi ki, qorxma, sənə heç nə edə bilməz.

Çarjouya qayıdanda qatarda məni tutdular. Dövlət əmlakını oğurlamaq adıyla iş kəsib Komiyə göndərdilər.

Sonralar biz Bakıda görüşdük. O, dəfələrlə məni hədələyib deyirdi ki, başına ikinci dəfə elə oyun açaram ki, bir də yönün bu tərəflərə düşməz.

Bütün bunlar acı xatirəyə çevrilib. Məni hal-hazırda maraqlandıran odur ki, qoy Mirdamət mətbuatda çıxış eləyərək etiraf etsin ki, Mehdi Hüseynzadə ilə heç bir döyüşdə iştirak etməyib. İstəyirəm ki, o, Mehdinin şücaətlərinə şərik çıxmasın.

Cavad Həkimov (Mehdi Hüseynzadənin silah yoldaşı və ən yaxın dostu olub. Onlar ilk dəfə Prilukidə rastlaşıblar):

–Mirdaməti 1943-cü ilin sentyabrında Almaniyanın Ştrans şəhərindəki legionda gördüm. Burada olanların əksəriyyəti azərbaycanlılar idi. Bir müddətdən sonra bizi İtaliyanın Romanzakko kəndinə gətirdilər. Ştransa nisbətən burada yaxşı dolanırdıq. Yerli əhali bizi gülərüzlə qarşılayıb gizlin şəkildə ərzaqla təmin edirdilər.

Nəhayət, 1944-cü ilin 6 fevralında Mehdi Hüseynzadə, Əsəd Qurbanov və mən cəsur kəşfiyyatçılar Yuliya (ləqəbi– Saava) və Aleksandrın köməkliyilə legiondan qaçıb birlikdə İvan Qradnik adına 3-cü zərbə briqadasının tərkibində alman faşistlərinə qarşı vuruşduq.

Mirdamət dəstəyə bir az sonra gəldi. Mart ayının 19-da Mirdamət mənə yaxınlaşıb dedi ki, icazə ver, Mehdinin kəşfiyyat qrupuna gedim.

Bir gün keçmiş Mehdi mənə dedi: *"Mirdamət sənə lazımdırmı?"*. Gülərək cavab verdim ki, *"hansı orduya əsgər lazım deyil". Ancaq sənin işin daha vacibdir, lazımdırsa apar. "Yaxşı, qoy bir az qalsın"*,–deyə Mehdi mənimlə razılaşdı. Qısa müddətdən sonra, almanlar Mirdaməti velosipedlə gedəndə tutub harasa apardılar.

Müharibədən bir ay sonra Rza Orucov onu Daxay konslagerinin önündə təşkil edilmiş stendlərə baxanda görüb və təəccüblə soruşub ki, səni almanlar tutmuşdular, nə yaxşı sağ qalıbsan?

1957-ci ildə kinostudiyada Mehdi Hüseynzadə haqqında kino çəkirdilər, məni də dəvət etmişdilər. Orada Mirdaməti professor Qaraş Mədətovla söhbət eləyəndə gördüm. O deyirdi ki, Mehdini o boyda şişirdirsiniz ki, guya biz heç nə eləməmişik.

Əsəbiləşib onun üzünə bozardım:

–Sən Mehdi ilə heç bir döyüş əməliyyatında iştirak etməmisən, ancaq özünü ondan üstün tutursan.

Və bu məqsədlə 1969-cu ildə dəstəmizin üzvləri tərəfindən tərtib edilmiş sənədi sizin nəzərinizə çatdırırıq.

(Sənəd rus dilində yazılmışdır, tərcümə zamanı orijinal öz ilkinliyini müəyyən qədər itirdiyinə görə onu olduğu kimi dərc etməyi qərara aldıq)

ДУТАЯ СЛАВА
(Мирдамат Сеидов)

Хотелось бы получить от Вас разъяснение по вопросам, волнующих и меня и многих моих боевых друзей. Думается, эти вопросы, несомненно представят некоторый интерес и для общественности.

В опубликованных очерках Владислава Степанова « Иван Русский » - «Известия» От 19.05.1964 г.) и А. Кикнедзе « Как жизнь, Мирдамат? » - («Советский спорт» от 12.11.1967 г.) рассказывается о Вашей героической боевой деятельности в Словенском Приморье в годы минувшей войны. В этих очерках, в частности, говорится о Ваших совместных с Мехти Гусейнзаде - «Михайло» - диверсиях в Триесте. Об этом же Вами подробно написано в воспоминаниях сборника «О чем не говорилось в сводках « Госполитиздат 1962 г. Стр. 152-162- и в Вашей книжке «Записки партизана» , изданной в Баку в 1960г.

Везде Вы утверждаете, причем в разных вариантах, что вместе вы с Мехти Гусейнзаде - « Михайло » - совершили несколько крупных диверсий в Триесте, а именно: взрыв кинотеатра во время сеанса для фашистких вояк в пригороде Триеста-Опчине 2 апреля 1944 г. и взрыв « Дейче солдатенхейма » - военного клуба на Виа Гега в Триесте 22 апреля 1944 г.

Замечу, кстати, повсюду Вы говорите, что играли в этих дерзких, широко известных операциях чуть ли не главную роль.

На основании собранных мною документов смею заявить, что ни в одной из боевых операций вместе с Мехти Гусейнзаде участия Вы не принимали.

Красноречивее всего об этом свидетельствуют югославские источники:

Вопервых, сообщение газеты «Борьба» от 5-6 июня 1955 г. N 132-133 «Две акции в Триесте». Речь идет о взрыве кинотеатра и военного клуба.

Во-вторых, словенская партизанская газета «ТВ-15» от 21.09.1965 N 37 со ссылкой на арх. докимент N 192/120, хранящийся в Институте рабочего и революц: движения в Любляне.

В третих, «Сорник документов и сведений о народно-освободительной войне в Югославии 1941-45 гг.» VЫ том книги 12-

13 (Словения, 1944). Документы N 78,79 стр 251,353-354.

В четвертых, документальная хроника бывшего начальника штаба III Ударной бригады «Ивана Градника» Станко Петелина-Войко «От Три глава до Триеста» (История 31 дивизии), на словенском языке стр. 220-223. Изд. «Борец» Любляна 1964г.

В этой хронике приводится даже заметка Мехти Гусейнзаде – «Михайло» из партизанской стенгазеты «Эхо» N 1, выпущенной при I батаьоне III на «Ивана Градника» о своей акции в Триесте (подробности взрыва военного клуба). Рассказывается на этих страницах также о других важных диверсиях знаменитого диверсанта, кратко изложена биография героя.

В нашей стране в нескольких сборниках и в периодической печати также рассказано о героических делах советского партизана-диверсанта Мехти Гусейнзаде – «Михайло» . Назову хотя бы книгу И.Касумова и Г.Сейидбейли «На дальних берегах», очерк И.Касумова в сборнике «Люди легенд» 1965 г., книга воспоминания бывшего начальника штаба Советской Ударной бригады в Югославии Джавада Акимова и Вели Сеидова «Интигам» («Месть») Ереван 1963 г.

Джавад Акимов – Ваш бывший командир в «Рускечете» ЫЫЫ бригады «Иван Гардника». Он прекрасно знает Вас и ваши дела. На стр. 134, 138 «Интигам» узнаем, что во время диверсии «Михайло» в кинотеатре 02.04.1944 г. Вы находились с группой партизан в боевом охранении и нескольких километрах от места диверсии.

Как в перечисленных мною югославских источниках, так и в советской печати, говоря о данных, конкретных диверсиях (кинотеатр и военный клуб) подверждается и утверждается, что они были взорваны лично Мехти Гусейнзаде – «Михайло» и нигде, никто ни единым словом не упомянул Вас – Мирдамета Сеидова.

О том, что Вы не учавствовали ни в одной из диверсий вместе с Мехти Гусейнзаде – «Михайло» написали мне в разное время и рассказали Ваши, Мирдамет, товарищи по Югославии: Джавад Ахимов, Энвер Мамедов, Гусейн Гусейнов, Сулейман Алекперов, Кадыр Искендеров, Рза Оруджов, Джаббар Алиев. Это же утверждают и бывшие партизаны: Николай Якунин, Михаил Аджибегашвили, Бейсен Раисов, Анатолий Дьяченко, Харцха Бадмеев, Анатолий Шанов и многие другие.

Некоторые из них читали очерки о Вас и Ваши онусы о «бравых ротных» делах Ваших и возмущены до глубины души присвоением Вами, Мирдамет Сеидов чужих заслуг и славы Героя Советского Союза Мехти Гусейнзаде - «Михайло».

Напрашиваются вопросы: Почему Вы молчали до 1956 г. т.е. не рассказали своих «доблестных делах» ?

Почему Вас не видно на фото диверсионной партизанской группы вместе с «Михайло», Фрицем, Таги Алиевым, Энвером Мамедовым..?

«Где Вы были после мая 1944?»

Попытаюсь ответить на эти вопросы.

31 мая 1956 г. в «Правде» мною впервые было коротко сообщено о героических делах Мехти. Осенью этого года я представил Институту истории АН Азербайджана документы, рассказывающие о подвигах «Михайло» после чего 11 апреля 1957 г. ему было (посмертно) присвоено звание Героя Совеского Союза.

В этом же году на экранах страны появился фильм «На дальних берегах» консультантом которого я был.

Авторы сценария И. Касумов и Г. Сейидбейли ввели персонаж партизана Веселина, друга Мехти. Это, конечно, творческая фантазия авторов. Ведь фильм художественный. И почти все герои как и многие события – вымышлены. А Вы Мирдамет, сочинили легенду: «Веселин – Василий не кто иной, как я – Мирдамет Сеидов...» И пошла писать губерния...

Когда Вам расчистили почву, Вы сказали: «Время брать быка за рога». Для этого постарались у сердобольных югославских товарищей кое-какими документами, рассказав им «сказку про белого бычка»...

Надо отдать Вам должное: действовали Вы истинно по-партизански проявив незаурядную изобретательность, наглость и находчивость.

Действовали расчетливо и напористо.

Вам даже удалось настырно «прорваться» к самому заместителю Министра Иностранных дел Душану Кведеру, где назвались «Иваном – Русским».

На стр. 155 «О чем не говорилось в сводках» Вы ни что же сумняшеся пишите, что занятия с Вами в марте 1944 г. проводил подполковник Душан Кведер.

К Вашему сведению, Душан Кведер-Томаж с 1943 г. и до конца войны был бессменным начальником Главного штаба Народно-освободительных войск и партизанских отрядов Словении и в 1944 г. он всего лишь 2-3 раза бывал в Приморской Словении во время кратковременных инспекционных визитов.

И знать Вас Душан Кведер при занятости не знал ни слухом, ни духом , ни в глаза не видел.

Покойный Душан Кведер-Томаж, как все югославы любил и уважал советских людей и, вполне понятно, радушно Вас принял. На сей раз Вам удалось добиться многого и даже – наград.

В общем, - Ваша диверсия удалась.

Семафор Вам был открыт и Вы карьером помчались за карьерой за лаврами и литаврами.

Вы стали завсегдатаем в Советском Комитете Ветеранов войны, в редакциях газет и радио, в издательствах и, в общем, стали почитаемым человеком.

Как говорят: «Из грязи да в князи»...

К Вам, Мирдамет, пришла слава (Вы ее упорно и настойчиво искали, а не она Вас как об этом пишет в своем очерке А. Кикнадзе). Но Вам хотелось большей. Вам даже стала сниться звезда Героя. И Вы решили любыми средствами достать ее.

Посудите сами, ну какой же Вы герой?

Попав в плен. Вы одели немецкую военную форму и с оружием в руках верой – правдой служили в 314 полку 162-ой «Туркестанской» дивизии под вдованием генерала Нидермайера.

После капитуляции Италии, особенно в ноябрьских боях 1943 г. нам, советским партизанам в Словении, не раз приходилось иметь дело с 314 полком. И легионерам неоднократно обращались с листовками, чтобы они уходили в горы. Многие сознательные Ваши коллеги при первой возможности пришли к нам.

А Вы не спешили. Вы ждали. В конце февраля 1944 г. Вы, Мирдамет, наконец, явились в III партизанскую бригаду «Иван Градник» при 31 дивизии Девятого корпуса. Были Вы, Мирдамет, назначены санитаром (по своей дальности) в «Рускучету», где командиром тогда был Джавад Акимов.

В мае 1944 г. когда Вам приспичило, когда стало туго, Вы постарались покинуть своих боевых друзей и приютились в затишке у знакомых в укромном местечке Монрипуно (Риппентабор) под Триестом.

Там Вы припеваючи пили-поживали под видом гражданина Джиованни Скабара. Спокойнечко жили себе ни тужили в то время, как Ваши боевые друзья исходили кровью, кормили вшей, голодали, погибали в жестоких боях.

На групповом снимке диверсантов-разведчиков Вас не видно рядом с Мехти Гусейнзаде потому, что Вы никогда не были ни разведчиком, ни диверсантом.

На похоронах Мехти Гусейнзаде- «Михайло», к чьей славе Вы, Мирдамет примазываетесь, Вас, конечно, не было. А было это 19 ноября 1944 г. в местечке Чепован. К тому времени Вы уже давным-давно с августа 1944 г. находились в Германии.

Как видите, Ваша партизанская одиссея длилась совсем недолго и была с гулький нос.

Ну какой же Вы, право, после всего этого герой?

А в Югославию и Триест Вам, Мирдамет, все же удалось попасть вторично осенью 1967 г.

На сей раз- в качестве почетного гостя на международный слет освободителей Триеста.

Узнал об этом из югославской прессы и знаю, какую Вы там «речугу закатили» ... то имени освободителя.

Ей-богу, смешно. Ну какой же освободитель?

Не зря Джавад Акимов в своем письме называет Вас – АВАНТЮРИСТ и надо, по – своему, добавить - -САМОЗВАНЕЦ. А что Вы к тому же и КАРЬЕРИСТ. Так же уже само-сабою разумеется.

Нашелся освободитель!

Триест освобождали майской порой 1945 г. Ваши боевые друзья. Многие из них, как например, Энвер Мамедов были искалечены, многие не увидели дня Победы.

Не кажется ли Вам, Мирдамет Сеидов, что погоня за чужой славой за славой героических подвигов «Михайло» - кощунство.

Светлая память о Герое Советского Союза Мехти Гусейнзаде – «Михайло» нетленна и неприкоснавенна. А Вы, Мирдамет, из-за раздутого-тщеславия посягаете на славу Героя, а следовательно, на его бесмертные деяния.

Остается только удивляться как Вам, словно гипнотеизер целых десять лет безнаказанно удавалось околпачивать запросто, как доверчивых простаков , кореспондентов газет и работников советских учреждений, и всех советских людей.

Хочется верить, что наши тщательно разберутся в неприглядных Ваших поступках и оценит их по достоинству.

Григорий Жиляев
4.05-1969 год.
Бывший пропагандист Советской
Ударной партизанской бригады в Югославии

P.S. 1969-cu ildən bu günə qədər Mirdamət Seyidovun *"Dutaya slava"ya–"Üfürdülmüş şöhrət"*inə cavabı yoxdur.

MEHDİ QƏLBİMİZDƏDİR

Bizim elliklə fəxr etdiyimiz, qəhrəmanlığı ilə öyündüyümüz igidlərdən biri də Mehdi Hüseynzadədir.

Sonsuz qururla səslənən *"Mixaylo şəhərdədir!* sözləri heç vaxt unudulmayacaq.

Bu sözlər bizim üçün *"Mehdi qəlbimizdədir!"* demək idi. İndi isə ...

"Gündəlik xəbərlər" qəzetinin yazdığına görə (15 mart 1996-cı il, N 7), Mehdi Hüseynzadə, sən demə, *"bizim şöhrət panteonunda ...yöndəmsiz bütlərdən biri"* imiş. Özü də bu sözləri kim desə yaxşıdır? Keçmiş partizan və milis polkovniki Mirdamət Seyidov. Onun "*Siz kimsiniz, Mehdi Hüseynzadə?"* başlığı ilə verilmiş müsahibəsindən göründüyü kimi, bir sual illər uzunu M.Seyidova rahatlıq verməyib: *"Nə üçün Mixaylo surətində Mirdamətdən heç nə yoxdur?"* Və nə qədər qəribə də olsa, məhz indi M.Seyidov heyfsilənir ki, "uzun illər susmaqla, yalan mifin yaranmasının iştirakçısı olub.

Oxucunun artıq başa düşdüyü kimi, sən demə, bu "mif*"* Mehdi Hüseynzadə imiş.

Sağlığında Mehdiyə xəyanət etmişdilər.

Ölümündən sonra da ona, onun xatirəsinə xəyanət edirlər.

Lakin bu, təkcə Mehdinin deyil, bizim hamımızın – bütün xalqın faciəsidir.

M.Seyidovun *"Siz kimsiniz, Mehdi Hüseynzadə?"* adlı *"düşüncələr və ifşaları"* keçmiş milis işçisi üçün bağışlanılmaz məntiqsizlik və xaotik fikirlərlə doludur. Və iş yalnız onda deyil ki, o, bir tərəfdən Mehdini *"mif"*, onun haqqında yazılanları *"nağıl", "insanları dəhşətə gətirən yalanlar"* adlandırır, digər tərəfdən isə bunları Mixaylo ilə özünün guya birgə keçirdiyi hərbi əməliyyatlar barəsində xatirələri ilə və İosif Broz Titonun məktubundan sətirlərlə istər-istəməz təkzib edir. Eyni zamanda açıqca deyir ki, Mehdi Hüseynzadə heç nə etməyib, heç bir qəhrəmanlıq göstərməyib, əsl qəhrəman mənəm, lakin layiqincə qiymətləndirilməmişəm.

Siz, hansı mükafatı, hansı qiyməti istəyirsiniz, Mirdamət Seyidov?

Məlumdur ki, Mehdi Hüseynzadə cəmi 26 il yaşadı. Və qısa ömrü ərzində çox böyük bir iş gördü: özünün cəngavərliyi, igidliyi ilə vətəninə şöhrət gətirdi. Nə bir xoş gün gördü, nə ailə qura bildi, nə də ev-eşik, oğul-uşaq sahibi oldu. O yalnız əfsanəvi Mixaylo kimi xatirələrdə yaşadı.

Siz isə müharibədən sonra institut da bitirdiniz. Məsul vəzifələrdə də çalışdınız, ev-eşik də qurdunuz və milis polkovniki oldunuz. Sizin mükafatınız yaşamaq oldu, həyat oldu, bundan artıq nə mükafat, nə şöhrət istəyirsiniz?

Xalqımız öz qəhrəman övladı M.Hüseynzadə ilə, biz isə Mixaylo kimi bir igidi yetirmiş xalqımızla fəxr edirik. Adı İkinci dünya müharibəsinin və bütövlükdə XX əsvin ən görkəmli kəşfiyyatçıları ilə bir sırada çəkilən Mehdi Hüseynzadə həmişə cəsarət, yurdsevərlik və qeyrət rəmzi olacaqdır.

Özünü misilsiz hünərlər göstərmiş partizan kimi qələmə verən M.Seyidovun isə cəhdləri əbəsdir, Mehdi Hüseyn-

zadənin məhəbbətini o, bu xalqın qəlbindən heç vaxt çıxara bilməyəcəkdir.

Xırda, miskin fikirlərə, əlçatmaz xülyalara düşüb, müqəddəs mənəvi dəyərlərə məhəl qoymayan, xalqın fədakar oğullarının xatirəsinə əl qaldırmaqdan belə çəkinməyən belə adamlara demək lazımdır: Kifayətdir, cənablar! Şair demişkən, *"insanın üzündə həya gərəkdir!"*

Mən inanıram ki, unudulmaz Mixaylonun keçmiş döyüş dostları–sağ qalmış Yuqoslaviya partizanları M.Seyidovun "Gündəlik xəbərlər qəzetindəki çıxışına biganə qalmayacaq və bu adamın əsl simasını açıb ictimaiyyətə göstərəcəklər.

P.S. Bu yazını redaksiyaya təqdim edəndə "Respublika" qəzetinin 1996-cı il 27 mart tarixli nömrəsilə tanış oldum. Qəzetdə Yuqoslaviya - Sovet partizanları zərbə briqadasının *"Ruska Çeta"* ***dəstəsinə iki il komandirlik etmiş Cavad Həkimovun "Mehdi Hiiseynzadə əbədi qəhrəmanlıq rəmzidir" adlı məqaləsi dərc edilmişdir. C.Həkimov dəqiq faktlar əsasında sübut edir ki, M.Seyidovun Mehdi Hiiseynzadə haqqında dedikləri başdan - ayağa iftiradır. M.Seyidov müharibə vaxtı heç nə ilə fərqlənməyib və uzun illərdir ki, Mehdinin hünərinə şərik çıxmaqla məşğuldur. Bu, bumeranqdır–qayıdıb böhtançının özünə dəyir...***

İlham Əmiraslanov
ADSP Siyasi Şurasının üzvü

MEHDİ HÜSEYNZADƏ ƏBƏDİ QƏHRƏMANLIQ RƏMZİDİR

Lakin buna şübhə edənlər də tapılır

Ötən il *"Vestnik"* qəzetinin 15-ci sayında "Faşizmə qarşı bütün dünya' vuruşurdu, yaxud Sloveniyada *"İvan Russki" adlandırılan azərbaycanlı Mirdamət haqqında hekayə"* adlı məqalə dərc olunmuşdu. Lakin Yuqoslaviya partizan

hərəkatının digər iştirakçısı Cavad Həkimov məqalədə göstərilən saxtalaşdırmalara cavab verməyə macal tapmamış həmin ruhda daha bir cızma-qara *"Gündəlik xəbərlər"* həftəliyinin səhifələrində işıq üzü gördü. Cavad Həkimovun qeydlərinin oxucular üçün maraq doğuracağına şübhə etmirik.

Məqalənin məzmunu ilə tanış olduqdan sonra əfsanəvi qəhrəman Mehdi (Mixaylo) Hüseynzadənin ən yaxın silahdaşı, dostu və həm də Yuqoslaviya partizan hərəkatının təşkilatçılarından biri kimi tarixi hadisələri saxtalaşdıranlara öz münasibətimi bildirməyə məcbur oldum. Tarixi saxtalaşdırmaq olmaz və gələcək nəsillərə yalnız həqiqəti çatdırmaq lazımdır.

Yuqoslaviya partizan hərəkatı, onun iştirakçıları və döyüşçülərinin şəxsi fəaliyyəti haqqında müxtəlif vaxtlarda yazılmış mənbələr–kitab, jurnal, məqalə və kifayət qədər arxiv sənədləri və məlumatları vardır. 50 ildən artıq vaxt keçmiş, hadisələrin canlı şahidlərinin çoxu dünyasını dəyişmişdir. Mirdamətlər özləri barədə *"qəhrəmanlıq dastanları"*

May 1945-ciil. Ikinci rus batalyonunun beşinci rotasının bir qrup əsgər və zabiti.
Sağdan birinci: Cavad Ataxəlil oğlu Həkimov (1914-2006)

quraşdırmağa, arxivləri öz istədikləri kimi dəyişdirməyə və tarixdə özlərinə "şərəf" gətirən yeni səhifələr açmağa yorulmadan cəhdlər göstərirlər.

Təəssüflə qeyd etmək lazımdır ki, məqalənin məzmunu ifrat dərəcədə şişirdilmiş uydurma və iftiradan başqa bir şey deyildir. Təsvir olunan hadisələri təsdiqləyən heç bir sübut və dəlil yoxdur. Hətta iş o yerə çatmışdır ki, Mirdamət Seyidov məqalədə özünə yeni *"İvan Russki"* ləqəbi qondarmaqla Mixaylonun məşhur əməliyyat və təxribatlarına nəinki şərik çıxır, hətta bu əməliyyatlarda dəfələrlə *"İvan Mehdi ilə birlikdə"* kimi ifadələri ilə çəkinmədən və adını birinci yerdə (əsas rolda), Mixaylonu isə ikinci yerdə (köməkçi rolunda) yazmaqla adi etika qaydalarını belə kobudcasına pozur. Bununla da M.Seyidov Mehdi Hüseynzadənin misilsiz xidmətlərini kölgə altına alaraq onun böyük şəxsiyyətinə hörmətsizlik edir.

Məqalədə təsvir olunan *"döyüş epizodları"* isə büsbütün mənim əvvəllər yazdığım qeydlərdən, ifadələrdən, kitab və məqalələrdən götürülmüşdür.

Bununla belə məqalədə verilən bir sıra qondarma hadisə və faktlara öz iradımı bildirməyi zəruri hesab edirəm:

1. *"İvan Russki"* ləqəbi M.Seyidovun özünün mənasız və gülünc uydurmasıdır. Hamıya məlumdur ki, rusa –İvan, ermənіyə–Karapet, gürcüyə–Şaliko, azərbaycanlıya -Məmməd, yəhudiyə–Abram, almana–Fris, ingilisə–Tommi və s. deyilir.

Primorskidə, eləcə də partizanların olduqları yaşayış məntəqələrində bütün partizanlar və yerli əhali yalnız bir nəfəri *"İvan Çernı"* ləqəbi ilə tanıyırdılar. O, Mehdinin (Mixaylonun) köməkçisi, yaxın dostu və gözəl kəşfiyyatçı mərhum bakılı Tağı Əlizadə idi. Tağı qarayanız, olduğuna görə onu *"İvan Çernı"* adlandırırdılar.

Hələ 1957-58-ci illərdə qəzet və jurnallarda Mehdi Hüseynzadə haqqında dərc edilmiş xatirələrdə *"İvan Çernı"* adı ilk dəfə qeyd olunarkən M.Seyidov aləmə car çəkdi ki, *"İvan Çernı"* elə onun ləqəbidir. O, bir şeyi unutmuşdu ki,

özü qara yox, sarışındır. Rəhmətlik Tağının bu haqsızlığa dözməyən partizan dostları M.Seyidovu hiddətlə ifşa etdilər.

Hətta vaxtilə H.Seyidbəyli və İ.Qasımovun *"Uzaq sahillərdə"* əsəri çapdan çıxanda da M.Seyidov deyirdi ki, oradakı *"Vasya"* (Yeselin) obrazı elə onun özüdür. Ancaq o, başa düşmürdü ki, Vasya bədii obrazdır. Aradan yarım əsr keçdıkdən sonra M.Seyidov özünə yeni bir partizan ləqəbi -İvan Russki kəşf etdi.

2. Müəllif yazır ki, M.Seyidov əsir düşdükdən sonra onları Cankoydan (Krım yarımadası) birbaşa Şərqi Prussiyaya və oradan da Şimali İtaliyaya göndəriblər. Göstərilən marşrut qətiyyən həqiqətə uyğun deyildir. Əslində isə hərbi əsirlərin demək olar ki, hamısını Krım yarımadasından Cankoyu keçməklə Xerson, Nikolayev, Xarol, Lubnı, Kriluki və başqa şəhər və kəndlərə göndərirdilər. Nikolayev şəhərində (Ukrayna) əsirlər milliyyətlərinə görə qruplara ayrılırdı, ayrı məskunlaşdırılırdı. Prilukindən sonra marşrut Almaniyanın Ştrans qəsəbəsinə idi. Bu qəsəbədə 314-cü atıcı alayı təşkil olundu və onun komandiri alman podpolkovniki Polle oldu və M.Seyidov, 1942-ei ildə həmin alayın tərkibində legioner idi. Axı, bunu necə danmaq olar?

1943-cü il sentyabr ayının 25-də İtaliya ordusunun tərksilah olunması ilə əlaqədar 314-cü alay Almaniyanın Ştrans qəsəbəsindən eşelonla Şimali İtaliyanın Udine şəhərində gətirildi. Buradan piyada birbaşa Remanzakko və Qradişka kəndlərinə apardılar. Burada biz İtaliya ordusunun atıb getdiyi silah və hərbi sursatları anbarlara yerləşdirdikdən sonra uzaq reydə çıxdıq. Reyd Qradişka, Qoritsa, Aycovşina, Razdarta, Postoyna, Tserknitsa, Novıy Vas, Rabnitsa, Koçevya və Novometso marşrutu üzrə aparıldı. Axırıncı məntəqədə 3-4 gün dayandıqdan sonra 1944-cü il yanvarın 4-5-də həmin marşrutla geriyə döndük.

Yanvar ayının 5-10-da alay Triyest şəhərinin ətrafandakı möhkəmləndirilmiş Villa Opçina qəsəbəsində məskunlaşdı.

3. Məqalədə bildirilir ki, M.Seyidov 1943-cü il oktyabr ayının 1-dən Yuqoslaviya Xalq Azadlıq Ordusunun xeyrinə

işləməyə başlayır. O, ilk dəfə olaraq Opçinada Xalq Azadlıq Cəbhəsi ilə əlaqəyə girərək Savva və Katranın əməkdaşı olur. Cəbhənin göstərişi ilə Sovet hərbi əsirlərinin düşərgələrdən qaçırılmasını təşkil edirdi. 1944-cü ilin fevralında isə özü də qaçıb partizan sıralarına daxil olur. Guya o, qızıl əsgərlərdən Mehdi Hüseynzadə, Cavad Həkimli, Əsəd Qurbanov və başqalarını da partizan qərargahına gətirir.

Əslində isə biz Opçinaya gələndən sonra Mehdi Hüseynzadə bildirdi ki, o, Aleksandr adlı bir nəfər satıcı ilə tanış olub. Ertəsi gün ikimiz də onunla mağazada görüşəsi olduq. Təxminən yanvarın ikinci yarısında artıq biz onunla nəzərdə tutulan dəstələrlə qaçışın təşkili barədə açıq söhbətlər aparırdıq. O, Triyestdəki yerli partiya təşkilatları ilə əlaqəni həyata keçirmək üçün IX Sloveniya korpusunda qərargahın məxfi nümayəndəsi idi. IX partizan korpusunun Opçinadakı yerli partiya təşkilatları və nümayəndələri ilə heç kəs yox, yalnız bizim rəhbərlik etdiyimiz gizli təşkilat daimi əlaqə saxlayırdı.

Mehdinin silahdaşlarından biri Qədir Süleyman oğlu Məmmədov (1921-2007) Lori nahiyəsinin Yuxarı Körpülü kəndi

Deməli, 1944-cü ilin yanvarına kimi heç kəsin, o cümlədən M.Seyidovun da heç kimlə əlaqəsi yox idi. Həm də bu fiziki olaraq mümkün deyildi. Belə ki, 314-cü alay 1943-cü il sentyabrın 25-dən eşelonda idi, ya da Sloveniyanın cənubi-şərq rayonları üzrə yuxarıda göstərilən marşrutla reyd edirdi.

Onu da qeyd edim ki, şəxsən mən (Cavad Həkimli–Ş.N.) azərbaycanlı əsirlərdən yaratdığımız bu gizli təşkilatın və Mikayıl Qulubəyovun köməkliyi ilə

alman zabiti ober-leytenant Şpetin planşetindən yerli alman müdafiə sisteminin atəş xərtələrinin yerləşdiyi sxemin surətini çıxartdım. Bunu həyata keçirmək üçün mən bir aydan çox idi ki, fürsət axtarırdım.

M.Hüseynzadə, Ə.Qurbanov və mənim üçlükdə əsirlikdən qaçmağımız həmin gizli təşkilatın köməkliyi ilə 1944-cü il fevralın 6-da gündüz saat 12-də oldu. Biz kəşfiyyatçı qız Savvanın bələdçiliyi ilə Dutovle kəndindən Qaberye kəndində yerləşən "İvan Qradnik adına III zərbə briqadası"nın qərargahına gəldik. Burada özümüzü və silahlarımızı təqdim etdik. Mən həm də yuxarıda adı çəkilən sxemi IX korpusun kəşfiyyat şöbəsinin nümayəndəsi Boyana təqdim etdim.

1944-cü il fevralın 8-də Mehdi və mən III zərbə briqadasının qərargahında sorğu - sual zamanı əsirlərin düşərgələrdən dəstə ilə qaçırılmalarının təşkili barədə öz niyyətimizi bildirdik. Biz burada əsirlərin qaçırılmasını təşkil etmək üçün 50 nüsxədə qısa müraciət məktubu hazırladıq və bu müraciətnamələri Savvanın əli ilə gizli təşkilata çatdırdıq.

Beləliklə, 1944-cü il fevralın 13-də məktubu çatdıran şəxsin təyin etdiyi vaxtda və yerdə 57 nəfərin əsirlikdən qaçırılmasına nail ola bildik. Hətta M.Seyidovun özü də bu 57 nəfərin tərkibində idi. Əsirlərin, xüsusən də M.Hüseynzadə, C.Həkimov və Ə.Qurbanovun qaçırılmasında, göründüyü kimi, M.Seyidovun heç bir fəaliyyəti olmamışdır. Onun Savva ilə də heç bir əlaqəsi olmamışdır. Katra isə onun öz uydurmasıdır. Əsirliyə qədər C.Həkimov baş leytenant, M.Hüseynzadə isə leytenant rütbəsində Sovet ordusunun zabitləri idilər. Onlar M.Seyidovun göstərdiyi kimi sıravi əsgər deyildilər.

4. Göstərildiyinə görə *"yoldaş M.Seyidov - İvan"* rus rotasının tərkibində (!) Tserkna Ottitsa, İdriya, Çrneqa-Vrxa yaxınlığındakı döyüşlərdə iştirak etmiş və Qodoviçdəki döyüşdə onunla fərqlənirdi ki, o öz rotasına başçılıq edir.

5. Məntiqə likir verilsə, məlum olar ki, eyni bir vaxtda, eyni bir döyüşdə M.Seyidov həm rotanın tərkibindədir, həm də öz rotasına bu hücumlarda başçılıq etmişdir.

Fevralın 13-də briqada komandiri Martin Qreyf-Rudi, qərargah rəisi Frans Rusta Çançi qaçıb gəlmiş 57 nəfəri cərgəyə düzərək tanış oldu və əmr verdi ki, təzə rota yaradılsın və bu rota *"Ruska Çeta"* adlandırılsın. Bu rotanın komandiri Qızıl Ordunun baş leytenantı Cavad Həkimov və siyasi hissə üzrə müavini leytenant Mehdi Hüseynzadə təyin edilsin.

Axı bu partizanların yaddaşlarındadır. Bu, həm də partizan hərəkatı üzrə bir çox araşdırılmış materiallarda, o cümlədən, Stanko Petelin 1966-cı illə Nova Qoritsada (Sloveniya) nəşr edilmiş kitabının 201, 222, 224 və 225-ci səhifələrində də həkk olunmuşdur.

M.Seyidov *"Ruska Çeta"*da çox az müddətdə (cəmi 35 gün), yəni 1944-cü il fevralın 13-dən martın 19-na kimi olmuşdur. Bu müddətdə o, ancaq sıravi partizan olmuş və yalnız bir dəfə (!) (martın 18-də) Qodoviç kəndindəki alman dayaq məntəqəsinə rotanın hücum əməliyyatında bir sıravi partizan kimi iştirak etmişdir. O, hücum zamanı heç kəsdən fərqlənməmişdir. Alman patrulları ilə cüzi toqquşmaları və Qodoviç əməliyyatını nəzərə almasaq, rota göstərilən müddətdə alman kolonlarına qarşı hücum və pusqu üçün heç bir döyüş əmri almamışdır.

Mən qətiyyətlə deyə bilərəm ki, M.Seyidov heç bir yerdə heç zaman və heç bir hərbi bölgələrə komandanlıq etməmişdir.

6. Məqalədə göstərilir ki, guya yoldaş İvan almanca yaxşı danışırdı, yoldaş Mixaylo isə almanca bilmirdi, o fransızca yaxşı bilirdi...

Bununla ona cəhd göstərilir ki, doğrudan da, Mixaylonun məşhur təxribat işlərini o yox, sən demə İvan - M.Seyidov törədirmiş, Mixaylo isə ona köməklik edirmiş. Partizanlar Mixaylonun almanca bilməsinin canlı şahididirlər. Düzdür,

o, Leninqradda fransız dili fakültəsində oxumuşdur. Lakin bu onun almanca bilməsini heç də inkar etmir.

"Pravda" qəzetinin 12 aprel 1957-ci il nömrəsində qeyd edilir: *"O, bir neçə dildə yaxşı danışır..."*.

Yazıçı-jurnalist, vaxtilə həmin cəbhələrdə iştirak etmiş Vasiliy Sokolov Mixaylo haqqında yazırdı: *"O, alman dilini səlis bilirdi"*. Belə faktlardan yenə də göstərmək olar. Bunlar həm də o nəticəyə gəlməyə əsas verir ki, M.Seyidov Mixaylonu dərindən tanımamışdır və onunla yaxınlıq etməmişdir.

7. Məqalədə yazılır ki,1944-cü ilin mart ayında M.Seyidovu və Mixaylonu Dövlət Təhlükəsizliyi Qoşunlarının təxribat qrupuna keçirmişlər. 1944-cü ilin mart ayında onlar guya Dövlət Təhlükəsizliyi Qoşunlarının qərargahının tapşırığı ilə Triyest yanındakı Opçinada kinoteatr binasını partlatmışlar. Partlayışda 90-a qədər alman həlak olmuş və 10 nəfər yaralanmışdır.

Onlar 1944-gü il aprelin 22-cə Triyestin Geq küçəsində yerləşən *"Doyçes Soldatenhaym"* alman yeməkxanasını partlatmışlar. Burada 51 nəfər alman həlak olmuşdur.

1944-cü ilin mayından *"İvan* Cənubi Primorski təxribatçılarının 2-ci vzvodunda olmuşdur. O, dəmiryol xətlərinin dağıdılmasında iştirak etmişdir.

1944-cü ilin iyun ayında yoldaş İvan və yoldaş Mixayloyla Triyest yaxınlığındakı Nebrejinedə alman zabiti Ketnerin 25 nəfərlik cəza dəstəsinin yerləşdiyi binanı partlatmışlar. Onun təxribatçılıq fəaliyyəti bunlarla bitmir.

Əgər bu təxribatlar heç olmazsa onun bilavasitə iştirakı ilə edilirdisə, onda bəs niyə yüksək məbləğdə mükafatları almanlar Mixaylonun başı üçün təyin edirdilər? Yəni almanlar bu qədər avam idilər?

M.Seyidovun *"xidmətləri"* barədə onu demək kifayətdir ki, bunların hamısı ancaq və ancaq sonralar hazırlanmış uydurmalardır. Həqiqətən isə rotanın Qodoviç əməliyyatından sonra o, məndən Mehdinin təxribat qrupunda

tanışları ilə görüşmək üçün Krasa getməyə icazə istədi. Mən ona icazəni o şərtlə verdim ki, 10 gündən sonra gecikmədən rotaya qayıtmalıdır. Lakin o, bir daha geri qayıtmadı. 15-20 gündən sonra məlum oldu ki, o, velosipedlə qonşu kəndə gedərkən *"pusqu"ya* düşür və almanlar onu ikinci dəfə *"əsir"* götürürlər. M.Seyidovun "əsir düşməsi partizanlara çox baha başa gəldi...

Opçinada kinoteatr binasını partlatmaq üçün heç bir komandanhq əməliyyat tapşırığı verməmişdir. Kinoteatrı mart ayında deyil, 1944-cü il aprelin 2-də Mehdi şəxsən özü təkbaşına partlatmışdır. Həlak olanlar yalnız zabitlər idi. Eləcə də Triyestdəki zabitlər restoranını da aprelin 22- də şəxsən Mehdi partlatmışdır. Burada həlak olanlar yalnız zabitlər idi. Mehdinin kiçik təxribat qrupuna yalnız Tağı Əlizadə (*"İvan Çornı"*) Ənvər Məmmədov, Dorçik Maryo, Fris və iki nəfər qız daxil idi.

Buradan M.Seyidova deyiləsi maraqlı suallar meydana çıxır:

a) Nə üçün sizi 8 aylığına Almaniyaya göndəriblər?

b) Siz italyan dilini bilmədiyiniz halda əldə etdiyiniz itlayan pasportu ilə özünüzü necə təqdim edə bilərdiniz?

v) Siz müharibədən sonra Bakıya qayıtdınız və hətta Bədən Tərbiyəsi İnstitutunda dörd il təhsil aldınız. Siz nə üçün bu müddətdə bir dəfə də olsa, döyüş *"dostunuzun"* ailəsini axtarıb üz vermiş ağır itki barəsində onlara məlumat verməyibsiniz?

q) Bakıda yaşadığımz halda "Uzaq sahillərdə filmi çəkilərkən nə üçün məsləhətçi kimi sizi yox, Ermənistanın *"Ararat"* trestinin işçisi C.Həkimov dəvət edilmişdi? Axı, siz guya *"Ruska Çeta"*nın *"rəhbəri"* olubsunuz, həm də təxribat əməliyyatlarını Mehdi ilə birlikdə aparıbsınız...

d) Sizin keçmiş məlumatlarınızda göstərilirdi: *"Ruska Çeta"*da guya təlimatçı sanitar olubsunuz. Əgər bu doğrudursa, onda *"Ruska Çeta"*da Karolina Fayt adlı gözəl və mədəni qız kim idi? Mənim məlumatıma görə, siz Sloveniyaya olan "qastrol səfərlərinizin birində onunla da görüşübsünüz.

e) Sizin mətbuatda, radio və televiziyada çıxış üçün həmişə böyük imkanlarmız olmuşdur. Bəs nə üçün Sloveniyada apardığınız əfsanəvi təxribatlarınız haqqında bu vaxta kimi məlumat verməyə cəsarət göstərmirdiniz?

j) *"Kommunist"* qəzetinin 10 oktyabr 1985-ci il tarixli 235-ci sayında Nyunberq prosesinin 40 illiyi münasibətilə nəşr edilmiş *"Partizanların qardaşlıq və dostluğu yaşayır"* məqaləsində özünüzü *"Daxau düşərgəsində dustaq"* kimi qələmə verirsiniz. Maraqlıdır, siz ora hansı il, ay və gündə düşmüşsünüz?

z) Sizin "Daxau düşərgəsində olmağınız barədə göstərdiyiniz 117848-ci nömrə dəqiqləşdirilərsə bu, təsdiq olunarmı?

i) Bu yaxınlarda qəzetlərdə keçmiş SSRİ vətəndaşı olan 92 nəfər Daxau məhbuslunun siyahısı çap edilmişdir. Bəs necə olub ki, sizin kimi "məşhur qəhrəman partizanın o siyahıda soyadını yazmaq yaddan çıxıb?

k) Şahidlik aktı nə vaxt və nə məqsədlə tərtib edilmişdir? Bu akt nə üçün qələbəmizdən yarım əsrdən artıq vaxt keçdikdən sonra nümayiş etdirilir?

M.Seyidovun məqalədə verilmiş fotoşəklinin altında *"Sejana, 26 noyabr 1963-cü il"* sözləri yazılmışdır. Bu məqalədəki başqa təsvirlər göstərir ki, M.Seyidov son zamanlar oralarda olmuşdur, özü də bir dəfə yox.

Təəssüflə qeyd etməliyəm ki, belə səfərlər əsl partizanlardan heç kəsə qismət olmamışdır. Şəxsən mən uzun illərdir Mehdinin məzarını heç olmasa, bir dəfə ziyarət etmək arzusu ilə yaşayıram... Mənim Mixaylo ilə tanışlığım alman əsir düşərgəsindən başlayıb. Onun son nəfəsinə qədər biz birlikdə çiyin-çiyinə fəaliyyət göstərmişik. 1944-cü il noyabrın 11-12- də Mehdinin cəsədinin oğurlanması, yuyulması və dəfn mərasimi mənim rəhbərliyimlə həyata keçirilib. Məzar daşını mən öz əllərimlə yazmışam.

Yuqoslaviya dağlarında iki il briqadanın tərkibindəki 87 nəfər azərbaycanlıya bir komandir kimi rəhbərlik etmişəm.

M.Hüseynzadəyə aid olan bütün məlumat və materialları, sənədləri, məktubları, fotoşəkilləri, şəxsi əşyaları və s. çətin şəraitdə uzun illər mühafizə edib saxlayan və 1946-cı ilin dekabr ayında Bakıya qayıdarkən onları bacılarına çatdıran da mən olmuşam. Bir-birimizə olan əhdimizə sadiq qalaraq onun ailəsi və qohumları ilə müntəzəm əlaqə saxlayıb xəbər tuturam...

Deyilənlərə yekun vuraraq bir daha qətiyyətlə demək istəyirəm ki, M.Seyidovun şəxsiyyəti, partizanlıqdakı qondarma fəaliyyəti və uydurma təxribatları bütün partizanlara və tədqiqatçılara məlumdur. Onun fəaliyyətini hələ 60-cı illərdə Yuqoslaviya-Sovet partizanları zərbə briqadasının keçmiş təbliğatçısı Qriqoriy Jilyayev diqqətlə araşdırmış və yazdığı *"Şişirdilmiş şöhrət"* (*"Dutaya slava"*) adlı məşhur təkzibini qəzet redaksiyalarına və əlaqədar təşkilatlara göndərmişdir. O, göstərmişdir ki, M.Seyidov nə kəşfiyyatçı, nə də təxribatçı olmuşdur. Onun özü haqda məlumatları avantüradır.

Yaxın vaxtlarda müəllif Babəkin "Mübarizə qəzetinin 6 iyul 1991-ci il tarixli sayında dərc etdiyi *"İvan Russki kimdir?"* və oradaca Q. Jilyayevin *"Özgə şöhrəti dalınca"* (*"Poqonya za çujoy slavoy"*) başlıqlı təkziblərində də M.Seyidovun olduqca müəmmalı xidmətləri və iddiaları kəskin ifşa edilir.

Bu nağıllar bəs deyilmi? Nə qədər davam edəcək?

Bu saxtakarlıqlar hər şeydən əvvəl əfsanəvi qəhrəman və indi bizim xalq üçün müqəddəs olan Mehdi (Mixaylo) Hüseynzadənin əziz xatirəsinə hörmətsiziik və ehtiramsızlıqdan başqa bir şey deyildir. Mən tam məsuliyyətlə deyə bilərəm ki, Mehdi göstərdiyi şücaət və qəhrəmanlıqla hər şeydən qiymətli olan gənc həyatını doğma Bakı və Azərbaycan xalqının adını yüksəklərə ucaltmaq üçün fəda etmişdir. Onun şəxsiyyəti və xidmətləri toxunulmazdır.

Bu gün M.Seyidov müharibənin və partizan hərakatının qanlı-qadalı günlərindən mənim və rəhbərlik etdiyim *"Rus-*

*ka Çeta"*nın fəaliyyətini və xalqımızın yolunda onun xidmətlərini heçə çıxarmaqla mənim də şəxsiyyətimi təhqir edir.

Bu məqaləni yazmaqla mən həm də bir məqsəd güdürəm:

Qoy xalqımız və gələcək nəsil Mehdi Hüseynzadə, Cavad Həkimov, Tağı Əlizadə, Mikayıl Qulubəyov, Ənvər Məmmədov, Qədir İsgəndərov, Şamil Bayramov, Şamil Süleymanov, Rza Orucov, Fərrux Sultanov, Məhər Məmmədov, Həmid Atayev, Firidun Hüseynov, İsə Alıxanov, İbrahim Bayramov, Kaoir Məcidov (Sabir Aslanov), Qədir Məmmədov, Cabbar Quliyev, Sadıx Nadirli və başqalan haqqmda yalnız həqiqətləri bilsinlər. Azərbaycan xalqının bu oğullanım hər biri haqqında sənədli povestlər yazmaq və filmlər çəkmək olar.

Cavad Həkimov
Keçmiş "Ruska Çeta"nın komandiri

МЕХТИ ПАРТИЗАН

Художественный фильм «На дальних берегах», рассказывающий о боевых подвигах славного сына азербайджанского народа Мехти Гусейнова, вызвал у воинов нашего округа живой интерес. В редакцию обратился ефрейтор. А Кондратьев с просьбой более подробного рассказать о жизни и героической гибели партизана-разведчика героя Советского Союза мехти Гусейнова.

В Николаеве живет Анатолий Игнатьевич Дьяченко, бывший командир первой Советской ударной бригады, югославской народно-освободительной армии, в которой Мехти Гусейнов начал свою партизанскую деятельность. Мы передаем его рассказ.

Начало «Чертовой» бригады положила группа советских военнопленных, волею судьбы оказавшихся в годы войны в Югославии. Все бойцы, вывавшись из лагерей, сражались в одном из итальянских партизанских отрядов. После капитуляции Италии они перебрались в югославскую Приморскую Словению . Путешествие без провизий, по безвестным горным тропам-заняло более месяца.Югославские партизаны приняли советских бойцов как родных братьев. Так в составе одного из подразделений 18 бригады югославской Народно-освободительной армии возникло первое советское отделение. Это было в сентябре 1943 года.

С каждым днем в Приморскую Словению, где действовала 18-ая бригада, стекалось все больше советских людей-военнопленных, а также юношей и девушек, угнанных гитлеровцами в Германию. Италию и Австрию и бежавших оттуда. Так пришел в бригаду и бывший зашитник Сталинграда, лейтенант Советской Армии Мехти Гусейнов.

Все югославские партизаны, в том числе и советские бойцы, носили в целях конспирайии клички. Мехти получил клучку-«Михайло».

Михайло был рослым, пчелистым хдоровяком с еле уловимыми восточными чертами лица и черными, как смоль, волосами. По своей внешности он скореее походил на типичного итальянца, чем на азербайджанца. К тому же Михайло до

войны учился в ленинградском институте иностранных языков и в совершенстве знал немецкий, французский и итальянский языки. Завидное здоровье, внешность привлекательность, широкий умственный характер, железная воля-все это очень скоро сделало его любимцем и прославленным партизаном-разведчиком.

22 февраля 1944 года в канун 26-й годовщины советской Армии, Михайло подобрал в ротной каптерке форму оберлейтенанта, прикрепил к мундиру колодку с орденскими планками, посмотрел в зеркало, подмигнул:

- кажется все в порядке.

Тут же наряжались еще трое партизан-словенцев и два советских бойца. Они подобрали себе поношенную гитлеровскую форму, чтобы создать впечатление бывалых вояк.

Вскоре переодетые партизаны спустились с гор и засели у дороги на местечке Гориция.

Через полчаса из-за поворот а выскочил одинокий грузовик. Михайло поправил надетую на всякий случай нарукавную повязку полевого комендатского патруля и взмахнул флажком. Грузовик натужно заурчал и остановился.

Шофер-гитлеровец попровал было перечить, но внушительный вид Бер-лейтенанта говорил сам за себя.

-разворачивай, поедем обратно пока ты сюда добирался, груз переадресован на другую часть и поскорее!-властно приказал Михайло на чистейшем немецком языке и сел в каину рядом с шофером. Остальные партизаны ловко вскочили в кузов.

Гитлеровец неохотно развернул грузовик, до отказа заваленный боеприпасами, и дал скорость. Тревога постепенно все больше овладела им. Михайло это заметил. Он опустил руку в карман. Перед глазами шофера засверкал новенький парабеллум, и гитлеровец окончательно присмирел.

В условленном месте машина свернула с асфальтированной дороги на проселочную в сторону хутора Бельведер.Первую осановку грузовик сделал у предгорного партизанского поста.

С тех пор Михайлом утвердилась слава храброго партизана-разведчика. Он появлялся со своими товарищами всюду, где надо разузнать самые достоверные сведения о противнике или нанести по нему очередной диверсионный удар. Какими бы трудными и рискованными ни были забиты солдатами

и офицерами.Михайло счел это обстоятельство самым подходящим для осуществления крупной и дерзкой выдлазки, то которой уже давно помышлял. Объектом для диверсии был избран кинотеатр дяля фашитских солдат и унтер-офицеров на одной из самых оживленных улиц города.

Михайло облачился в форму унтер-офицера. Таги Алиев и молодой антифашист немец Фриц, перешедший на сторону югославских партизан, нарядились ефрейторами.

Первый сеанс начинался обычно в восемь вечера. Вооружившись небольшими чемоданчиками с самодельными минами, партизаны влились в общий поток гитлеровцев, спешивших в кинотеатр.

Замелькали кадры порнографического фильма. Мехти и его товарищи оставили чемоданчики под креслами и незамеченными вышли из зала. В 9 часов раздался взрыв.

Через два дня Мехти снова появился в Вилла Опчина. На место большого и красивого здания кинотеатра он увидел груды развалин. Под ними были погребены сотни фашистов.

Вскоре группа Мехти передана в распоряжение разведотдела 9 корпуса югославской Народно-освободительной армии, в который входила 18-я бригада. К этому времени первое советское отделение насчитывало уже около полутороста бойцов и было преобразовано в роту. Изредка Мехти и его товарищи наведывались в роту, и тогда советские бойцы узнавали от них много нового о дерзких боевых делах разведчиков.

Немало шуму наделала в Триесте операция группы Мехти по реквизиции денежных сумм в местном Коммерческом банке. На этот раз партизаны надели форм итальянских арабинеров.

В здание банка они вошли солидно, стараясь ничем, не выдать своего намерения. Впереди шествовал Мехти, за нимдвое рядовых карабинеров.

Операционное отделение банка жило обычной суетливой жизнью. У входа стояло двое сторожей-карабинеров. Мехти на глазах у оторопевших посетителей одного из них, остальные-второго тут же были перерезаны телефонные провода, связывающие банк с городом. Мехти оставил одного партизана у входа, а с другими поспешил к главному кассиру.

-мне нужно пять миллионов лир!

-пригрозил он пистолетом и положил перед кассиром специально приготовленный березовый рюкзак.- И поскорее!

Тяжело заскрежетали банковские сейфы. Через несколько минут рюкзак был заполнен пачками ассигнаций. Деньги пригодились партизанам.

На второй день триестская газета «Иль-Пикколо» вышла с крупным заголовком на первой полосе: «Налет на Кам-мерчиский банк» спустя еще день в городе появились кричащие объявления.Тому, кто доставит властям партизана Михайла, живым или мертвым, обещалась кругленькая сумма-500000 лир!

И газета, и объявления вскоре попали в советскую роту 18-й ы. Советские бойцы от души посмеялись над посулами одураченных фашистов.

Еще больший страх внушила имя Михайла гитлеровцам и итальянским фашистам после уничтожения офицерского кафе на улице Виа Гегга вя Триесте.

Удачи сопутствовали Мехти одна за другой. Но дожить до победы ему не посчастливилось. Он погиб в неравной схватке с гитлеровскими карателями. Вот как это произошло.

После разведки в районе местечка Гориция группа Мехти возвращалась в штаб корпуса. Утомленные многодневным переходом, паартизаны остановились в горном селении Витовли их и предложили переночевать. Партизаны отказались, намереваясь поскорее добраться к своим. Но потом полил дождь. Не предупредив представителя партизанских властей в селении, разведчики забрались в сарай с сеном и уснули крепким сном. На рассвете в Витовли нагрянули каратели. Они оцепили селение. Завязалась ожесточенная перестрелка. До последнего патрона сражались разведчики, но силы были неравными. Погидли двое спутников Мехти обе ноги и эивот. Каратели хотели схватить партизана живым. Тогда он приставил пистолет к виску и последней пулей застрелился.

Враги надругались над телом партизана. Они искололи его штыками, отрезали уши, выкололи глаза.

Когда фашисты ушли из селения, местные жители похоронили Мехти и его товарищей. Через два дня о происшедшем узнали бойцы А.И.Дьяченко и тут же тридцать добровольцев во главе с командиром роты Шамалом Байрамовум (в это время рота уже была преобразована в батальон) и начальником штаба батальона Джавадом Акимовым отправиоись за телом Мехти.

Со всеми партизанскими почестями герой-разведчик был похоронен в селении Чапован.

... И вот через тринадцать лет А.И.Дьяченко в составе делегации Советского комитета ветеранов войны побывал в Югославии и посетил места, где сражались бойцы «Чкртовой» бригады. Заглянул он и горное селение Чапован в Приморской Словении. И как был тронут, увидев на могиле Мехти гранитный памятник, на котором высечено:

«Здесь погребен т. Мечти Гусейнзаде (Михайло). Родился 22 декабря 1919 г. в г. Баку. Погиб геройской смертью 2.ХЫ.1994 г.»

В апреле 1957 года Президиум Верховного Совета СССР посмертно присвоил Мехти Гусейнову почетное звание Героя Советского Союза.

Записал капитан
3 ранга И.ГЕЛЕВЕРЯ

ЗА ВОЗВРАЩЕНИЕ НА РОДИНУ

Издание комитета за возвращение на родину № 3
(402) 1 января 1960 года (год издания 6-й)

... Апрель 1944 г. К станции Постойна один за другим подходят фашистские эшелоны с боеприпасами и войсками, чтобы начать решительное наступление против местной партизанской бригады, в составе которого сражается русский батальон из числа бывших советских военнопленных-узников концлагерей.

Тщательно маскируясь в соседнем лесу, к станции осторожно пробираются три человека.

Стемнело. Весенний дождик барабанит по курткам партизан. Вот и железнодорожная насыпь. Вдали уже слышны свистки локомотива, гудят рельсы. Неожиданно на путях засветились карманные фонари. Со стороны моста подходит гитлеровский патруль. Люди в засаде пропускают немцев мимо себя и набрасываются сзади. С патрулем все кончено. Уже совсем близко гремит поезд. Две-три минуты уходят на то, чтобы заминировать пути и зажечь шнур. Люди стремглав

катятся с насыпи. Еще минута и огромный состав со страшным грохотом взлетает в воздух.

... В окупированном Фашистком Триесте на улице Виа Сан Джиакомо помещались типография и редакция газеты «Иль-Пиколо»- фашисткого листка, выступавшего с разнузданной клеветой против участников народно-освободительной борьбы. Решено было уничтожить редакцию и типографию вражеской газеты.

В один прекрасный день в редакцию пришли двое ремонтных рабочих в комбинезонах и с чемоданчиком для инструмента. Сославшись на личное распоряжение редактора газеты

Мизурелли, они свободно проникли в здание. Убедившись, что рабочие-печатники и наборщики ушли на обед, ремонтники принялись за дело.

Через пол-часа над зданием «Иль-Пикколо» стоял черный столб дыма.

Так действует в логове врага прославленный сын азербайджанского народа Мехти-Гусейн-заде, по партизанской кличке Михайло. Будучи ранен в боях Сталинградом, военный переводчик Мехти Гусейн-заде попал в плен, но вскоре бежал из концлагеря в Италию, к партизанам, где совершил много боевых подвигов.

Рассказанные выше эпизоды из боевой жизни партизана Мехти Гусейн-заде взяты из воспоминаний его соратника-советского офицера Григория Жиляева, описанных им в книге «Записки партизана» вышедшей недавно в Баку.

Интересна судьба Григория Жиляева. В первые годы войны его по возрасту не призвали в армию. Находясь на трудовом фронте под Смоленском, он попал в окружение и оказался в концлагере в Австрии. Жиляев сблизился с военнопленными, советскими офицерами Александром Ковалевым и Георгием Мирзоевым, а также с группой чехов и югославов. Вместе они совершили побег на территорию Италии, а затем перебрались к партизанам в Славенское Приморье.

Григорий Жиляев, который проживает сейчас в подмосковском городке Люблино, в течение всей своей партизанской деятельности вдали от родины вел дневник, занося в него только подлинные факты и имена. В них нет ни слова фантазии и литературного вымысла. С большим

интересом читаются страницы о создании партизанского отряда, сформированного в середине сентября 1943 г. в Словенском приморье из русских, украинцев, казахов, грузин, азербайджанцев и иных военнопленных, бежавших из концлагерей. Командиром батальона был назначен русский морской офицер-подводник Анатолий Игнатьевич Дьяченко, который до этого командовал диверсионной группой в тылу врага на оккупированной Советской территории, а также рейдовал с партизанами в горах Италии. В настоящее время Дьяченко-офицер запаса. Он работает на одной из крупных строек на Украине.

В советском батальоне были собраны люди двадцати национальностей-представителей Советской республики.

Однажды против русского батальона в районе станции Санта-Люция была брошена так называемая Туркестанская дивизия, куда были направлены насильно мобилизованные бывшие советские воины мусульмане из Закавказских республик. Из их числа формировались национальные легионы. Многие легионеры стремились на фронт, чтобы дождаться случая, перейти к партизанам, об этом узнали бойцы Дьяченко. Связавшись с легионером Кадыром Искендеровым, они подняли против гитлеровцев азербайджанский легион и в бою под городом Голмин совместно разгромили ударную группу фашистов.

Азербайджанский легион при 314 полку 162 «Туркестанской дивизии» формировался в немецком городе близ Берлина. Немцы надеялись, что они изменят Родине, но просчитались. Из этого легиона перешел к партизанам Мехти Гусейн-заде, Джавад Акимли, Микаил Кулимбеков, ныне научный работник в Кировобаде, Фридун Гусейнов, Мазир Гулиев, Акпер Бабаев, Сабир Асланов, Мирдамат Сеидов, Байрам Азизов, Джабар Алиев, Новруз Новрузов.

Самым близким другом партизана Мехти, участником почти всех предпринимаемых им партизанских операций был бывший бакинский нефтяник Таги Алиев. Не раз он вместе с Мехти совершал дерзкие налеты на склады, эшелоны. Этот замечательный человек пал смертью храбрых 4 апреля 1945 г. в гор. Горица во время схватки с карателями эмигранта генерала Даманова. С особой теплотой рассказывает Жиляев об одном из

видных партизанских вожаков Джаваде Акимли, об отважном враче-терапевте Рза Ага-заде, чутком, обстоятельством человеке любимце всего отряда. Рза Ага-заде был сражен вражеской пулей в бою под местечком. Корне 20 августа 1944 г. незадолго до победы, весной 1945 г. пали смертью героев батальонный комиссар музыкант Керим Алескеров, пулеметчик Байрам Азизов, минер Михаил Макеев и др.

В «Записках партизана» Г.Жиляева читатель узнает много интересного о своих земляках-героях, которые, оказавшись в плену не согнули спины перед врагом и, не щадя своей жизни, честно несли партизанскую службу вдали от Родины, во имя ее победы.

Г. Осипов
Адрес комитета и ред. газеты «За возвращение на Родину»; Берлин, Шадовштрассе, I б. для писем:

СОВЕТСКИЕ ЛЮДИ В ОСВОБОДИТЕЛЬНОЙ БОРЬБЕ ЮГОСЛАВСКОГО НАРОДА

Русские формирования и отдельные советские бойцы сражавшиеся в составе частей и подразделения НОАЮ, успешно проводили диверсионные деятельности. 14 марта 1044 г. бойцы Русского взвода Бришко-Бенечского партизанского отряда отличились в предпринятом нападении на фашисткий аэродром «Белвере», в диверсиях, осуществлявшихся 13 Пролетарский бригадой, принимали участие и в ходили в ее состав бойцы Русской роты. 10 октября 1944 г. Русская рота бригады «Франью Огулинац Селью» участвовала в дерзкой операции по уничтожению нефтехранилища ново место. Более 20 диверсий осуществил боец Русской роты 3-й Словенской бригады «Иван Градник» Мехти Гусейн-заде, известный среди югославских бойцов и населения под именем «Михайло».

Со слов Г.А.Жиляева: Бои приняли ожесточенный характер. Не раз мы попадали в окружение, по несколько суток голодали. Но и на этот раз фашистам не удалось осуществить свои замыслы. Они отыскали лишь один партизанский склад с оружием и уничтожили оружейную мастерскую. Зато в это же

Mehdi Hüseynzadə 1935-ci ilin yayında Bakıda İncəsənət muzeyində işləyərkən

время успешно действовали диверсанты 9-ого корпуса. На станции Постойна ими был взорвал огромный бензоклад, а в Триесте 22 апреля наш боец Мехти Гусейн-заде взорвал столовую вместе с находившимися там фашистскими офицерами.

Из воспоминания бывшего начальника штаба 31-й дивизии 9-го корпуса НОАЮ Станко Петелина-Войко: Когда заходит речь об успешных диверсионных действиях, осуществленнных 31-й дивизией весной 1944 г. то было бы несправедливо наряду с именами Тадека Садевски-Томо и Евгена Матейки-Пемца не упомянуть двух наиболее активных минеров 31-й дивизии – Марка Калашникова и Михайло – Мехти Гусейна.

Необычайных успехов достиг Михайло из 1-й роты 2-ого батальона Градниковской бригады. Переодеваясь в форму немецкого офицера, он проникал в те места, где собирались немецкие офицеры и солдаты, оставляя там пакеты со взрывчатками. Так случилось и 2/04-44-г. в Опчине под г. Триестом, когда во время демонстрации киносеанса, на котором присутствовали главным образом офицеры, он поставил две мины пластической по 6 кг каждый чемадан земельного действия: одну – под сиденья первого а другую-под сиденья второго ряда.

После этого он незаметно покинул зал. На киносеансе присуствовало около 350 зрителей. Взрыв причинил страшные разрушения: дверь сорвало с петель, окна были полностью выбиты, повреждена была и крыша. Из зрителей, по всей вероятности, не было никого, кто бы остался невредимым.

Позднее стало известно, что на месте взрыва погибло около 80 человек, а в госпитале умерло еще 35 немецких офицеров.

Это вполне понятно, так как взрыв произошел в закрытом помещении.

Помимо этих диверсий, Михайло совершил ряд других, не менее успешных. Полагают, что общий результат всех его действий составил около тысячи убитых фашистов, главным образом офицеров.

Вследствие этого, неудивительно, что немцы хотели любым способом захватить Михайло в свои руки. Это им удалось в июле 1944 г. Однако тогда Михайло, весь избитый, счастливо вырвался от них и вернулся к партизанам. И все-таки несколько месяцев спустя, 2/ XI-44 г. немцы вновь окружили его в Витовле, в Випавской долине. Там уже не было пути к спасению. Михайло сражался до последнего патрона, до тех пор, пока его не изрешетили фашитские пули.

Из книги: «Советские люди» в освободительной борьбе Югославского народа. Изд. «Наука» Москва-1973.на стр 41-81,189-190

IV FƏSİL

KÖNÜLLƏRİN NƏĞMƏSİNDƏ YAŞARSAN

Dostların arasında, Italiya torpağında
Səsləndi ən mübariz nəğmələr dodağında
Sən qoçaqlar içində qoçaqsan gözlərimdə,
Urəyi alov dolu bir dağsam gözlərində

Süleyman Rüstəm
Xalq şairi

İGİD ÖLƏR ADI QALAR

İtaliyanın dağlarında
Bir qəhrəman izləri var.
Qayalara həkk olunmuş
Azərbacan sözləri var.

Bir igidin səsi gəlir
O dağlardan zaman-zaman,
O rəssamdı, döyüşlərdə
Odlu igid bir partizan.

Əfsuslar ki döyüş düşdü
Omrünün gənc illərinə,
Onun qəhrəmanlıqın səsi
Çatdı doğma ellərinə.

Səngərləri – şiş qayalar,
Hey meşələr, dağlar oldu.
Qarşıdakı döyüş yolu:
Əsarətdən azadlığa gedən yoldu.

Yaraladı qəhrəmanı
Düşmən bir döyüş zamanı,
Dağlar qoynunda gizlətdi
Bu yaralı qəhrəmanı.

Səngərlərə səda düşdü:
Qartal uçmur, yaralıdır.
Uçan quşlar qanad çaldı
O, vətəndən aralıdır.

Oğlan durdu dizi üstə,
Şer dedi son nəfəsdə:

«Nə olar bir sarı yarpaq olaydım,
Ey xəzan yelləri alaydın məni!
Uca dağlar aşıb, dərələr aşıb,
Vətən torpağına salaydın məni».
O, rəssamdı,
O, şairdi,
Arzularla yaşayırdı.
Yetişmədi arzu sona,
Zalım düşmən qıydı ona
Yas saxladı qəhrəmana.
Soyutmaq üçün.
Ürəklərinin odunu,
Mehdi qoydu o analar
Körpələrinin adını.

İgid ölər, adı qalar,
Ürəklərdə odu qalar,
Övladlar öz vətənilə,
Vətən övladla ucalar.

Mirvarid DİLBAZİ,
Xalq şairi

ELOĞLUMA

Mehdi Hüseynzadənin əziz xatirəsinə

Mən səni çox görmüşəm cavanlıq çağlarında,
Bol əncirli, üzümlü Novxam bağlarında.
Ailənə yaxındım, bir qədər də qohumduq,
Sevərdi bacın, bibin səni canından artıq.
Sən bir od parçasıydın uşaqlar arasında,
Bədənin bərkiyirdi bağların havasında.
Başına toplayaraq dostları dəstə-dəstə
Oynardın, güləşərdin mirvari qumlar üstə,

Yaman qoçaqdın, qoçaq!
Boyuna baxmayaraq.

Dənizdə çarpışardın dağ boyda dalğalarla,
Sahildə əl-qol atıb gəzişərdin vüqarla.
E1oğlum, yadımdadır o dəmlər indiki tək,
Bağdakı uşaqlara, bir söz, ürəkdən ürək.
Bibin hərdən çatılmış gördümü qaşlarını,
Sənə şirin dil töküb oxşardı saçlarını.

Sən onun əziziydin,
Görən iki gözüydün,
Böyüdün, yaşa doldun,
Gözəl bir oğlan oldun.

Vətənin dar günündə atıldın ön səngərə,
On yara aldınsa da, uf demədin bir kərə.
Min bir əzaba dözdün, iradən sarsılmadı,
Qəlbinin hicran yükü daş kimi asılmadı.
Əyilmədi dizlərin, bükülmədi qolların,
Çəkməndə tozu qaldı uzun, qanlı yolların.

Dostların arasında, İtaliya torpağında
Səsləndi ən mübariz nəğmələr dodağında.
Vətən məhəbbətilə verdi sözü süngünə,
Dəyişməz bizim ellər bir günü min bir günə,

Qəlbində bir yetim tək qoymadın öz kamını,
Günahsız qurbanların aldın intiqamını.
Heyhat! Bir gün, nə deyim, eloğlum, düşdün dara,
Diri təslim olmadın şərəfsiz cəlladlara.
Dərdli cəbhə dostların bir təpənin başında
Cismini tapşırdılar torpağa gənc yaşında.
Səni candan sevənlər yas, matəm saxladılar,
Cavanlar ağladılar, qocalar ağladılar...

Sən qoçaqlar içində qoçaqsan gözlərimdə,
Urəyi alov dolu bir dağsan gözlərimdə.
Sən leninçi gəncliyin fəxrisən, zinətisən,
Vətənimin balası, Bakının şöhrətisən.
Əsrlər belə keçsə
Sovetlər ölkəsində
Adın çəkiləcəkdir dirilər cərgəsində.
Məncə deyilsən qərib o qürbət ellərdə sən,
Yaşayırsan əbədi azad könüllərdə sən.
Səni bizdən ayıran yollar uzaq olsa da,
Əziz məzar daşından qollar uzaq olsa da,
Qartal tək qanadlanır könlümün nəğmələri,
Gəlir ziyarətinə öpür yatdığın yeri!

Süleyman Rüstəm,
Xalq şairi

QOY RAHAT UYUSUN!

Sovet İttifaqı Oəhrəmam Mehdi Hüseynzadəyə ithaf olunur

Yenə dərələrdən çəkilir duman,
Güllər də şeh tutur öz əllərində.
Xəzər sahilində doğulan oğlan,
Yatır Adrianın sahillərində.

Tufanmı çağladı mavi dənizdə?
Ağaclar önümdə başını əydi!
Şahiddir meşə də, dərə də, düz də
Ona dəyən güllə, bax, burda dəydi.

O bahar oğlunun dörd yanım qışdı,
Ölməzdir şöhrəti, şərəfi onun!
O tüfəng tək ona tuşlanmamışdı,
Bütün dünya idi hədəfi onun.

Tüfəngı sıxmışdı düşmənin əli,
O əl bir kabusun qara əliydi;
O cani tətiyi çəkmişdi, bəli,
Güllə açılmışdı... o dəyməliydi!

Kədər dalğa-dalğa axdı qəlbimə,
Bildim nələr edib, nələr o güllə.
Kimə dəyəcəkdi, görəsən, kimə
Ona dəyməsəydi əgər o güllə?

Ona dəyməsəydi əgər ki, ona
Çöldə dinəcəkdi şaraqqaşaraq,
Səhər batacaqdi bəlkə də qana
Günəşdən qımışan məsum bir uşaq.

Oyadıb səsilə neçə mahalı,
Bəlkə düzənlərdən adlayacaqdı?
Buz bulaq üstünə gələn maralı
O güllə bir anda odlayacaqdı?

Bəlkə susacaqdı bir qız gülüşü,
Bəs onun qədrini kim biləcəkdi?
Cavan bir oğlanın ilkin görüşü
Bəlkə son görüşə çevriləcəkdi?

Duman tərk elədi mavi göyləri,
Dəniz öz səsini küləyə verdi.
Sovet torpağının qadir əsgəri
Köksünü o gələn gülləyə verdi.

Güllə vıyıldadı, güllə dəydi də,
Amma o dayandı, o yıxılmadı.
Min nəğmə dolaşdı dağda, dərədə,
An kimi səsləndi igidin adı.

Çağırdı elə bıl bağça, bağ onu,
Verdi sinəsini odlu gülləyə.
Elə bil çiyninə alaraq onu,
Dağlar heykəl kimi qaldırdı göyə.

Eşit İtaliya! Avropa, dinlə!
Tufan var könlümün gur ümmanında.
Danışım mən sənin qoy ürəyinlə,
Ölməz partizanın qəbri yanında.

Dünyaya səs saldı öz səsilə o,
O sərdi torpağa qanlı düşməni.
Özünün bahadır sinəsilə o
Həm səni qorudu, həm də ki, məni.

Hələ ölməmişdir canilər tamam,
Onlar da bu qədim torpaqda durur;
Nə səhər dincəlir, nə də ki, axşam,
Neçə min tüfənglər ayaqda durur.

Gəlin biz and içək, gəlin and içək!
Qoy yaşıl düzlərə od saçılmasın!
Dünən o əsgərə açılan tüfəng
Nə sənə, nə mənə qoy açılmasın!

... Yenə dərələrdən çəkilir duman,
Güllər də şeh tutur öz əllərində.
Xəzər sahilində doğulan oğlan
Yatır Adrianın sahillərində.

Tanış bir nəğmə var ağ ləpələrdə,
Sahildə qayalar: gözümə dəyir.
İndi uzaqlarda coşur Xəzər də:
Qoy oğlum səsimi eşitsin – deyir.

QAYITDIN

Dinlə ana torpaq, ey Vətən, eşit,
Xoş xəbər yayılsın dost ellərinə.
Xəzər sahilində doğulan igid
Qayıfdı Xəzərin sahillərinə.

İllərin üstündən o qanad çaldı,
Bir ömrün ilqarı, əhdi qayıtdı.
Orda əfsanəvi «Mixaylo» qaldı,
Bura əfsanəvi Mehdi qayıtdı.

Həsrəti o qürbət diyarda qoyub,
Baxırsan yenidən Xəzərə, qardaş.
Dostlarm gözünü yollarda qoyub,
Getmişdin nə uzaq səfərə, qardaş.

Sən getdin... Özünü odlara atdın.
Ölümə yollandın, ölməz qayıtdın.

Gedəndə cavandın, gələndə cavan...
Bu hünər ömürlü bir əfsanədir.

Xalqını ucaldıb
Ucalan insan
Dünyada bilməyir qocalıq nədir.
Üstünə səpilən doğma çiçəklər,
Hörmət nidasıdır
çölün-çəmənin
Sənin həsrətini çəkən
küləklər
İndi saçlarına
əl çəkir sənin.
Getdin milyonlann
biri kimi sən
Gəldin milyonların fəxri
kimi sən.
Dinlə ana torpaq,
ey Vətən, eşit,
Şad xəbər yayılsın dost
ellərinə.
Xəzər sahilində doğulan igid
Xoş gəlib Xəzərin
sahillərinə.

Nəbi Xəzri,
xalq şairi

MİXAYLO BALLADASI

Proloq əvəzi

Qoy qəlbim qələmlə versin səs-səsə,
Diz çökur önündə eşqin, niyyətin:
Mehdi bir ocağın oğlu idisə,
Mixaylo oğludur bəşəriyyətin.

Şair olasıydı... sevsinlər onu –
Yazdılar adını can dəftərində;
Rəsam olasıydı...
öz tablosunu
Asdılar ölməzlik sərgilərində...

O da qismətiydi qərinələrin,
Bir qəmli sazıydı,
çənli yazıydı;
Qüdrəti qəlbində gedən Xəzərin
Okeana çıxan bəxt dalğasıydı.

İki uzaq dəniz qovuşdu, daşdı,
Bir himə müntəzir olan söz kimi.
Sahil doğmalaşdı,
göy doğmalaşdı,
İllər həsrətlisi dolan göz kimi.

O dəniz də sudu,
bu dəniz də su –
Bəs niyə sudan da imtahan olur?
Oğlu mərd ölərsə – gözündə arzu,
Elə dənizlər də qəhrəman olur!

Yazdı dastanını öz dilində o,
Qorudu Xəzəri öz adı kimi.
Yurd saldı Adria sahilində o
Ad aldı azəri övladı kimi!

Sarı yarpaq, sarı yarpaq,
En küləyin qanadına –
Yolun düşsə, salam yetir
Bizim odlar elatına.

Sarı yarpaq, sarı yarpaq,
Ümidimi kəsmə belə;
Ürəyim qəm dəryasıdı,
Sarı simtək əsmə belə!

San yarpaq, san yarpaq,
Niyə məni oyadırsan?
Yazdığım son məktubsanmı
Öz üstümə qayıdırsan?

Sarı yarpaq, sarı yarpaq,
Qoyma yaxın gəlsin ölüm;
Yol gözləyən eşqimsənmi,
Saralırsan zülüm-zülüm?

Yol gözləyən bacımsanmı,
Dəsmal kimi yellənirsən?
Qəribsənmi, qaçqınsanmı,
Belə həzin dillənirsən?

Sarı yarpaq, sarı yarpaq,
Üstümə şeh səpmə,
usan!
Öpəcəyim sonuncu üz,
Çəkəcəyim son tablosan.

Sarı yarpaq, sarı yarpaq,
Səni sevib yarpaq oldum;
Xalqım çinar ağacıdı –
Ayağında torpaq oldum...

Göy tək dolar bacı qəlbi:
Qardaş, hardasan, hardasan?
Gül tok solar bacı qəlbi:
Qardaş, hardasan, hardasan?

Evim yanır boyun üçün,
Elim yanır toyun üçün,
Qolum yanır oyun üçün –
Qardaş, hardasan, hardasan?

Yola çixdım, daşa döndüm,
Qardaş dedim, qışa döndüm.
Bir qanadsız quşa döndüm,
Qardaş, hardasan, hardasan?

Ömür ötdü, qaş qaraldı,
Ayrılığın ocaq saldı,
Yan canım qürbət aldı,
Qardaş, hardasan, hardasan?

Küçəmizə yağış yağır,
Gözəl gözün bizə baxır,
Ötən anlar daşdan ağır,
Qardaş, hardasan, hardasan?

Qara saçı ağ hörmüşəm,
Sinəm üstə dağ hörmüşəm,
Sən ki məni sağ görmüşəm
Qardaş! Hardasan, hardasan?!

O yatır Adria sahillərində,
Qəlbini tapşırıb tər çiçəklərə.
Dünyadır Adria sahillərində
Həsrəti – guruba,– ?
eşqi – səhərə.

Göylər nə genişdir... Göylər bir dəniz,
Durnalar –
təklərin pənahlarıdır;
Düşən lələklərə toxunmayın siz –
Yaralı Mehdinin son ahlarıdır.

O yatır... Sükutu daş kimi ağır,
Önündə səcdəyə zamanlar gəlir.
Ustünə qızılı yarpaqlar yağır,
Ustünə nə qərib dumanlar gəlir!

Od oğlu ömrünü verdi odlara,
Odlara baş əyən dövran olarmış'
Vətən ünvan olub daim adlara,
Adlar da vətənə ünvan olarmış!

Eşqimiz bu andla axıb durulsun,
Niyə yurdu qoyub, can ataq göyə?
Oğul çiyinləri pyedestal olsun,
Vətəni dünyaya tanıdaq deyə.

Babək bayramıdı,
düşmən yasıdı –
Ölümü ölümə göndərib Mehdi.
Sanki atəşgahın bir parçasıdı,
Qürbəti tonqala döndərib Mehdi.

Eşitdim min dodaqdan –
Yaxınlardan, uzaqdan,
Hər səhər Günəşlə bir
Bir səs qopur torpaqdan:
Qəhrəmana eşq olsun!

O təmiz sular deyir,
Əziz arzular deyir,
Sinəmizə sığmayan
Dəniz duyğular deyir:
Qəhrəmana eşq olsun!

Sədası könül açan,
Sədaqəti gül açan,
Şerində, tablosunda
Məhəbbəti dil açan
Qəhrəmana eşq olsun!

Andı müqəddəs, ulu,
Qəlbi həsrətlə dolu,
Adı dillər əzbəri,
Xalqımın ölməz oğlu
Qəhrəmana eşq olsun!

Güntək əməli olan,
Mərdlik təməli olan,
Qürbətdə Vətənimin
Canlı heykəli olan
Qəhrəmana eşq olsun!

Epiloq əvəzi

Üzür «Mehdi» gəmisi
Dünya dənizlərində.
Üzür onunla qoşa
Vüsal haraylı qəlbi
Doğma, əzizlərin də.

Ey üfüq, gen dur görək,
O dayanmaz, ləngiməz.
Odlu, nəğməkar ürək
Sularda da səngiməz!

Üzür, üzür o gəmi,
Öz əbədi adıyla.
Qızındırır aləmi
Azərbaycan oduyla...

Səyavuş Sərxanlı

ƏBƏDİYYƏT NƏĞMƏSİ

Ömrü illərlə ölçmək məncə doğru deyildir,
Həyat var hər qətrəsi bir qərinə, min ildir.
Həyat var hər anına min həyat vermək olar.
Bu həyata qürurla
Əbədiyyət, igidlik, mərdlik ad vermək olar.
Həyat çox qəribədir:
Biri koramal kimi torpaqda sürünərək –
Ala qarğalar kimi üçyüzəcən əmr edir.
Biri köçür dünyadan otuzuna çatmamış,
Sevməmiş, yaratmamış...
Sən də getdin dünyadan ürəyində min arzu,
Sən də getdin dünyadan
Xəyalında buruqların görkəmi,
Çiçəklərin qoxusu.
Sən ayrıldın həyatdan
Ürəyində Xəzərin köpürən dalğaları.
Sən ayrıldın həyatdan
Xəyalında Göy gölün gözəlliyi,
Qarabağın baharı.
Sənin arzun oydu ki, dağları seyr eləyib,
Göylərdən rəng alasan.
Sən onu da bilmirdin ki, gərək şinel geyəsən,
Fırça tutan əlinə zağlı tüfəng alasan,

Lakin sənin arzunla dövr etmədi bu həyat,
Kağızın dağlar oldu, fırçan tüfəng, avtomat...
Vətənin taleyini düşünərək vuruşdun,
Sən vətənin yolunda vətəndən ayrı düşdün.
Uzaq-uzaq ölkələr oldu yurdun, məskənin,
Bir dastana çevrildi cavan həyatın sənin.

Sən Bakını görmədin Qələbə bayramında,
Sərin may axşamında.
Sən danışa bilmədin dostlarınla üz-üzə.
Sən öz igidliyindən söhbət açmadın bizə.
Lakin səni qoynunda dəfn etmədi nəsillər,
Səni bizə qaytardı uğrunda çarpışdığın
Mərd ellər, igid ellər.
Bizə səndən danışdı Adriatik suları,
Qoca Karpat dağları,
Bizə səndən danışdı Neapol qocaları,
Trıyest uşaqları.
Sənin qəhrəmanlığın mübariz nəğmələrə
Ölməz nəqərat oldu.
Səni bizə qaytaran
Uğrunda çarpışdığın coşğun bir həyat oldu.
Deyirlər son nəfəsdə «Ana», «Vətən» demisən,
Bəlkə də İtaliyada «Azərbaycan» sözünü
İlk dəfə sən demisən?

Sən həlak oldunsa da
Qoynunda qayaların, altında ulduzların,
Adın bir nəğmə kimi dolaşdı ağızında
Sənin nicat verdiyin oğlanların, qızların.
Sən onların qəlbində getdin əbədiyyətə,
Sən onlarla qayıtdın
Bu günəşli diyara, bu məğrur məmləkətə.
Ömrü illərlə ölçmək məncə doğru deyildir,
Gün var ki, hər saatı bir qərinə, min ildir.
Həyat var hər anına min həyat vermək olar.
Sənin gənc həyatının
Hər günündə bir zəfər,
Hər anında bir hünər,
Bir nifrət alovu var.
Budur insan həyatı!

Doğma elin yolunda
Yaşa, yarat, vuruş, öl!
Yeyib, yatmaq, danışmaq,
Axşam küsüb, səhər olcaq barışmaq
Məncə bir həyat deyil.
Sənin cavan həyatın zəfər dastanı oldu.
Sənin adın yurdumun şöhrəti, şanı oldu.
Sən rəssam olacaqdın, ola bilmədin, nə qəm!
Bu gün sənin adını rəssamların içində
Mən qürurla çəkirəm.
Çünki sənin əsərin
Italiyada sökülən
Qızıl dan yeri oldu,
Çünki sənin əsərin
Yurdumuzun şöhrəti, böyük zəfəri oidu.
Elə zənn etməsinlər nakam getdin dünyadan,
Yox, səni öz hünərin yetişdirdi kamına.
Sən coşğun həyatınla, ölməz arzularınla
Ölməz rənglər vermisən
Rəssamın fırçasına,
Polad qanad vermisən
Şairin ilhamına.

Adil Babayev

***

ƏZİZ XATİRƏ

Mavi Adriatikin sahillərində
Çiçəyə qərq olmuş tənha bir məzar.
Yarpağı tünd yaşıl zeytun ağacı
Burda ətir saçır hər qış, hər bahar.

Əllərində əklil hər axşam, səhər,
O qəbrə baş çəkir sadə kəndlilər.
Gəlir seyr etməyə həmin məzarı.
Rafael yurdunun gözəl qızları...

Mehdi ! Əziz qardaş, mehriban qardaş!
Sən ey şərəfimiz, sən ey şanımız!
Ey Babək qeyrətli, Koroğlu qəlbli,
Çapayev cürətli qəhrəmanımız!

O uzaq ellərdən əsən küləklər,
Sənin şöhrətindən gətirir xəbər.
Qoy bu gun fəxr etsin mehriban Bakı,
İgidlər yetirmiş qəhrəman Bakı!

Sən onun qoynunda qalxıb boy atdm,
Onun qucağında kamına çatdın.
Doğma Novxanının üzüm bağları,
Alagöz Xəzərin qayalıqlan,

Qumları sovrulan kiçik təpələr,
Ayağını yuyan gümüş ləpələr,
Yaxın həmdəm oldu sənə bir zaman
Dərdin ağ şanıdan, qara şanıdan.

...Qabağında molbert, əlində fırça
Dəniz günəşinə baxdm doyunca...

Xəzərin füsunkar sahillərində
Bəzən tək düşünər, yalqız gəzərdin.
Köksünə sığmayan arzularınla
Elə sən özündə coşğun Xəzərdin..
Vətənin üstünü bulud alanda,
Cavan gəlinlərin gözü dolanda,
«İntiqam» – deyərək fıraçını atdın,
Sarılıb silaha səngərə yatdın.

Qışda, çovğunda da döyüşdün bəzən,
Dedin ki, tez gəlsin zəfər baharı.
Faşist qatarını dağıtdın ki, sən
Yeni sürət alsın əsrin qatarı.
Deyirlər çox uca, dağ kimi uca
Bir təpə üstədir güllü məzarın.
Bəli, əzəl gündən ucadır yeri,
Xalqımın başını ucaldanların.
Mavi Adriatikin sahillərində,
Günəş qurub edir... Buludlar yanır.
Elə bil baş əyib sənin türbənə,
Üfüqdən qırmızı bayraq sallanır.
Min il, iki min il ömr edir zeytun
Yay ötür, qış gəlir, solmayır ancaq.
Sənin də xatirən o ağac kimi,
Ellərin qəlbində təzə qalacaq!

ÜFÜQLƏR YANAN YERDƏ

Sovet İttifaqı Qahrəmanı Mehdi Hüseynzadənin əziz xatirəsinə

Deyirlər, çox uca, dar kimi uca
Bir təpə üstədir güllü məzarın.
Bəli, əzəl gündən ucadır yeri
Xalqının baömg ucaldanların.

Mavi Adriatik sahillərində
Günəş qurub edir, buludlar yanır.
Elə bil baö əyib sənin türbənə
Üfüqdən qırmızı bayraq sallanır.

Uyu, rahat uyu, ey əziz insan! »
Adgnla fəxr edir Vətən torpağı.
Öləndən sonra da sən qaldırmısan ... ,
Azadlıq timsalı olan al bayrağı.
Xəlil Rza «Sevən gözlər» kitabı, 1959-cu il.

Xəlil Rza Ulutürk

ŞANLI ÖMRÜN ƏFSANƏSİ

İgid partizan Mehdi Hüseynzadəya

Uzaq -uzaq yolları
Yorub Bakıya dönmək
Ona hava, su idi
Bircə yarpaq şeriylə
Vətənə gəlib çatmaq
Böyük arzusu idi...
O, Xəzər övladıydı,
Həm Xəzərin rəssamı.
Ürəyinə sığmırdı
Coşan Xəzər ilhamı.
Çin-çin axan ləpələr
Yaratdığı lövhənin
Haşiyəsində zər idi.
Fırçasıyla Xəzərin
Ən uzaq sahillərin
Qumlarına sərərdi...
Bakı-Triyest arası
Xəyalının cövlanı
Tükənməyən əfsanə–
Saralmayan dastanı.
O, qartal görkəmiylə
Qanadını gen açdı,
Uçdu vətənə sarı
Yanar dağ alovunda
Yaxdı yarasaları.
Əbədi sakin oldu
Bir qaya zirvəsinə.
Çevrildi şanlı ömrün
Vətən əfsanəsinə!

İlyas Tapdıq



ADRİATİK SAHİLİNDƏ

Sovet İttifaqı Qəhrəmam Mehdi Hüseynzadənin əziz xatirəsinə

Göy Xəzərin sahilində doğulmusan,
Qəhrəmanlar beşiyində boy atmısan,
Hünərinlə bir ölkənin şöhrətini
Bayraq kimi ucaltmısan.
İlk laylanı Xəzər çaiıb,
Nazını da Xəzər çəkib,
Könlünü da Xəzər ahb.
Sən dənizdən öyrənmisən
Çoşmağı da, daşmağı da.
Ustadın da dəniz olub,
Dalğalardan öyrənmisən
Odlu nəğmə qoşmağı da.
Odlar oğlu, fəxrimizsən,
Heç bilmirəm bu gün sənə
Şair Mehdi, ressam Mehdi,
Ya qəhrəman Mehdi deyim!
Hünərindən, qeyrətindən
Ya qəhrəman Mehdi deyim!
Dönə-dönə söhbət üçün,
Xalqımızın zəfər dolu
Tarixini vərəqləyim.
Şair xalqın şair oğlu,
Qəlbimizə həkk olunub
Ölməz adın, nəğmələrin.
Xəsarətin, məhəbbətin,
Qol-qanadın, nəğmələrin.
Dəniz eşqi, dəniz gücü, ürəyində,
Qanlı hərbin işqəncəsi,
Ağrıları kürəyində,
Sən can atdın qələbəyə
Vətəninə nurlu səhər,
Düşmənlərə ölüm!–deyə.
Uzaq ölkə, Adriatik sahilləri...

Kim unudar ömrü boyu
Tələtümlü, fəlakətli
O ayarı, o illəri.
Mətanətlə qoruyurdu
Böyük, məğrur ölkəmizi.
Qələbəyə səsləyirdi
İnam bizi, cürət bizi.
Keçib oddan, fırtınadan
Yetişdin yad sahillərə.
Əfsanəyə döndü adın,
İlham verdi könüllərə.
Yad eyləyib babaları,
Unutmadın əcdadım.
Sən qorudun öz yurdunu,
Sən qorudun öz adım.
Yağılara qan ağladı,
Cəlladların həyatını
Bir-bir sonna yetirdin sən.
İlhamını eldən alıb,
Xəzərimi, Göy gölümü
Göz önünə gətirdin sən.
Bütün dünya söhbət açdı
Mitxaylonun qeyrətindən.
Hünərinin sədasıyla
Çaylar keçib, dağlar aşıb
Bu sahılə gəlmişəm mən.
Gostərdiyin qəhrəmanlıq
Bu yerlərlə bağlı olub,
Adriatik dənizinin
Ziyarətgah bilmişəm mən.
Cürətindən, şöhrətindən
Nələr dedi bu sahildə
Sular mənə.
Mixaylonun dastanını
Sona kimi nağıl etdi
Uzaq eldə sular mənə.

Ağır keçən o illərdə
Sabah üçün, bu el üçün vuruşmusan.
Nəhs aylarda, nəhs illərdə
Göy Xəzəri yad eyləyib
Bizim doğma sahil üçün vuruşmusan.
Bu gün üçün, bu el üçün vuruşmusan!

Əli VƏKİL
1980-ci il, Yuqoslaviya
Adriatik sahili

XATİRƏ

Qriqori JİLAYEV

Doğma yurdu Mehdinin
Çiçəkü Azorbaycan, -
Məni bir övlad kimi
Qarşıladı mehriban.
Mehdi! Unutmaram mən
Ömrüm boyu bu adı.
Ona candan əzizdi
Milyonların həyatı.
Dayanıb,düşündükcə
Ötən hər ayı, ili...
Canlanır gözlərimdə
Qəhrəmanın heykəli.
... Müharibə günləri!...
Od yağır göydən yerə
Boğuc bir duman çökür
Təpələrə, düzlərə...
Hər çətın tapşırığa
Mehdi: «Mən gedim!»- deyir.
«Ağlatmaqdır düşməni
Diləyim - əhdim!» - deyir.
O, çıxdıqca zəfərlə

Döyüş imtahanından,
Qaynar baxışlarında
Gülər gördüm hər zaman.
... Bu gün Mehdidən deyir
Böyük, kiçik
Ürəklərdə yurd salır
O, sevimli qəhrəman.
Ellərin xoş günüylə
O da daim boy atır,
Xalqın mərd övladmı
Tarix özü yaşadır.

Tərcümə edəni:
Hikmət ZİYA

P.S. Mehdinin cəbhə dostu Qriqori Jilyayev bu şeiri 1956-cı ilin noyabr ayının sonunda Bakıda olarkən qəhrəmanın ailəsinə bağışlamışdır. (Ş.Nəzirli)

Sadiq dost olan Q. Jilayev silah dostu Mehdinin xətirəsini əziz tutmuşdur. İlk dəfə o, Mehdiyə Sovet İttifaqı Qəhrəmanı kimi şərəfli ad verilməsi məsələsini hökümət qarşısında qaldırmış, ilk dəfə Mehdinin qeyri-adi bir kəşfiyatçı-partizan olması barədə.“Pravda*”* qazetində (31 may 1956-cı il № 152) “Tovariş Mixaylo*”* məqaləsi ilə çıxış etmişdir. Moskva vilayətinin Liybertsı şəhərində yaşayan Qriqori Aleksandrovic Jilayev “Parizanın qeydləri*”* adlı sənədli əsər yazmışdır. Yüz yetmiş beş səhifəlik əsər 1957-ci ildə, rus dilində Bakıda işıq üzü gömüşdür. Əsərdə xalqınıza böyük sevqi bəsləyən Q. Jilayev müharibə vaxtı çiyin-çiyinə vuruşduğu partizan oğullarımız ***Cavad Həkimlinin, Rza Orucov, Mikayıl Qulubəyovun, Əli Şıxəliyevin, Tağı Əlizadənin, Həmid Anayevin, Qədir İskəndərovun*** döyüş əməliyyatlarının şahidi kimi çox maraqlı epizodları oxuculara təqdim edir. Əsərin baş qəhrəmanı iqid Mixaylonun ona yazdığı nadir məktublar, Mehdi–Mixaylonun qəhrəmanlığı haqqında verilən əməliyyatlar hər bir azərbaycanlının qəlbində, varlıqında qurur hissi oyadır.

İnanıram ki, bugünkü gənclik də varlığında Mehdini yaşadır və əbədi olaraq sevəcəkdir.

Şəmistan Nəzirli

MEHDİ HAQQINDA BALLADA

Yurdumun min neməti var,
O görmədi, o dadmadı.
Əllərini öz bağında
Bir çiçəyə uzatmadı.
Xəzəri var, çimmədi bir
sularında doyunca o.
Axşamüstü dolaşmadı
Qumlu sahil boyunca o.
Sazı vardı, tarı vardı
Dinləmədi sinə dolu.
Vətəninin nemətindən
Çox dadmadı Vətən oğlu.
Bizim elli gözəllərdən
O seçmədi birini də,
O açmadı bir kimsəyə
Eşqini də, sirrini də.
Lakin dəniz söyləsəydin,
O deyərdi: tək Xəzərdir,
Əsl çiçək – o deyərdi
Bakıdakı çiçəklərdir.
Şəhərlərdə o Bakını
Ən birinci tanıyardı,
Nəğmələrdə ən gözəli
Soruşsaydın deyərdi ki,
Ya "Segah"dı, ya "Qatar"dı.
Gözəllərdən söz açsaydm
Deyərdi: gəz bütün yeri.
Gözəllərin gözəlidir
Azərbaycan gözəlləri!
Qara qaşlı, qara gözlü
Öz elindən uzaq getdi.

Əllərində fırça deyil,
Qələm deyil, yaraq getdi.
Getdi, düşmən sədlərini
Süngüsüylə yara-yara,
Getdi Xəzər sahilindən
Uzaqlara, uzaqlara...
Yerlə yeksan elədi o
Neçə düşmən qalasını,
Tez tanıdı bütün dünya
Azərbaycan balasını...
Məhəbbətin qədərini
Gözlə ölçmək olarmı heç?

Sinəsində nəfəs olan
Yad ellərdə qalarmı heç?
Bir insandır qəhrəman da,
Qara gözlüm üzdü qanda.
Sinəsindən oxlananda

Qartal qanad çalarmı heç?
Çoxdur gözü yoldaqalan,
Gözləyirik, gəl, qəhrəman!
Öz aram, dağı olan
Orda bina salarmı heç?

Bu çağırış, giley nədir,
Sən ordasan, mən vətəndə.
Sinəmdədir isti yerin
Sən gəlsən də, gəlməsən də...

Əliağa Kürçaylı,
1959-cu il

MEHDİNİN[7]

Bürüyüb güllü aləmi, tutub sədası Mehdinin,
Tək başına bir orduynan çoxdu davası Mehdinin
Karrantinin ürəyinə dərdi-bəlası Mehdinin,
Hitlerə qəbir qazdı alman libası Mehdinin.

Mina düzüb qərargaha, yağıları tora sahb,
Alay-alay qoşun qırıb, məhlüaxidara salıb.
Çox «hayl Hitler» deyənləri, yanar-yanar oda salıb
Qaniçən generalların ürəyinə yara salıb,
Qurd nədi ki, pəncəsinə aslan balası Mehdinin.

Dili ayrı, məsləki bir , partizan yoldaşları var,
Cavad, Tağı, Şami kimi bir elli qardaşları var.
Veselinlə Anjelika, halbilən sirdaşları var,
Neçə-neçə bələnlərdə şir kimi savaşları var.
Şultusu da mat elədi fəndi-zəkası Mehdinin.

Vətənin igid balası qorxmadı, keçdi canından,
Düşmənə təslim olmadı, çəkinmədi öz qanından.
Ölən zaman uca durdu ulu dağlar dumanından,
O, hər zaman qalib çıxdı, ağır döyüş meydanından,
Uzun zaman söylənəcək, cəngi, qovğası Mehdinin.

Bakıdan şığıyan qartal Triyestdə qanad çaldı,
Adriatik sahilində misilsiz bir tilan saldı.
Gestapoya divan tutdu, faşistlərdən qisas aldı,
Kəsəmənli Bayram deyir: tarixlər boyu mərd oldu,
Zalımlara divan tutdu, eli-obası Mehdinin!

Bayram Qıraqkəsəmənli

7. Müxəmməs *"Uzaq sahillərdə"* filminiıı təsiri ilə yazılıb.

CANLI HEYKƏL

Nə olar, bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni.
Aşıb həyaz qarlı hündür dağları,
Vatan torpağına salaydı məni,
Sahahın yeləri alaydı məni.

Mehdi Hüseynzadə

Dolaşıb yer üzünü
şirin bir xəyal kimi.
Qayıdıb yuvasına
o məğrur qartal kimi.
Saçlarını darayır
gah xəzri, gah gilavar.
Fırça tutan əlində
döyüş qumbarası var.
Onunla qucaqlaşır
Bakımıza gələrlər.
Hər səhər yeni müjdə,
ürək açan şad xəbər.
O hünər ordusuyla danışır iftixarla,
izdihama qoşulub.
Addımlayır vüqarla.
qəlpələnib bir anda
Əlindəki qumbara, –
Abşeron bağlarında
Qarışır boz qumlara.
Bacısı Bikəxanım
üzünü ona tutub, -
Soruşur: hanı, qardaş,
mənə çatası məktub?
Mehdi vəcdə gələrək
yazır təzə bir şeir.

Partizan dostlarından
xatirələr söyləyir.
Gəzir Mili, Muğanı,
aranda dünya dolur.
Sonra heykələ dönüb
meydanda tutur qərar.
Görüşünə gələnlər
onu canlandırırlar.
Quşlar yuvaya qayıdan kimi.

Teyyub Qurban



ÖLMƏZLİK

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəyə ithaf

Vətən səni səsləyəndə –
Adrianın sahilində
Qartallaşan Kəpəz oldun.
Şahdağ oldun,
Qoşqar oldun,
Dalğalanıb –
Coşqunlaşan Xəzər oldun.
Səcdəsinə gəldim bu gün
Mehdiləşən ürəklərin,
Səcdəsinə gəldim bu gün,
Mehdi əkən çiçəklərin.
... Cövlan edir fikirlərim
Hər an Mehdi sorağınca,
Onun ölməz adı yaşar
Qələbələr bayrağında.
Daş kitabım Qobustanın
Əzəmətli dağlarında,
Novxanının bər-bəzəkli,
Salxımlanan bağlarında
Bir kəhkəşan yetişirmiş,
Dünyamıza səs salacaq,
İz qoyacaq,
İgid insan yetişirmiş,
Doğma yurdun
Hər bir qarış Torpağında
Azərbaycan yetişirmiş,
Azərbaycan yetişirmiş!

Mübariz Allahverdiyev

MEHDİ

Mehdi Hüseynzaddyə ithaf

Qəhrəmanlar ara bir əhli-hünərdir Mehdi,
Çandan artıq Vətənin istəyən ərdir Mehdi.

Məhv edib düşməni qurban eləyib varlığını,
Vətənə, torpağa bir canlı sipərdir Mehdi.

Ruh alıb dostları ondan eləyib əzmi-hünər,
Damlası gur sel olan bəhri-Xəzərdir Mehdi.

Bənzəyən varmı igidlikdə bu dünyada ona,
Bu rəşadətdə elə Mehdi qədərdir Mehdi.

Yağdırıb atəşi düşmən başına mərdanə,
Gecəni məhv eləyən nurlu səhərdir Mehdi.

Gün bu gün düşməni məhv eyləməyə aləmdə,
Əməlilə bizə tarixi xəbərdir Mehdi.

Soltan, aləmdə o bir şanlı vüqardır Vətənə,
Qalibiyyət adı, ən ali zəfərdir Mehdı.

Axund Hacı Soltan Hüseynqulu
(Məsumnamə)

BİZİMDİR

Həmyerlimizi biz salırıq yada bizimdir,
Olmuşdur bütün ömrü boyu sadə, bizimdir.

Düşmənlərə qarşı həmişə biaman olmuş,
Çox şəhriləri eyləmiş azadə, bizimdir.

Partladı dəmadəm barıt ambarları bir-bir,
Düşmən külünü çox sovurub badə, bizimdir,

Dostu darə düşsə, ola bilməzdi o rahət,
Bir anda yetərdi ona imdada, bizimdır.

Verdi vətən uğrunda şirin canını qurban,
Məşhur elədi xəlqimi dünyada, bizimdir.

Ellər həmişə yad edəcək, xalqimin oğlu
Sail, Bakılı Mehdi Hüseynzadə bizimdir.

Məmmədəli Sail

ƏBƏDİYYƏT NƏĞMƏSİ

Sotet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin xatirəsinə

Mehdi, İtalyanın dost ellərində
Vətənə bəxş etdin gənc illərini.
Uzaq dənizlərin sahillərində
Qorudun Xəzərin sahillərini.

Deyirlər, genişmiş cavan ürəyin,
Sən geniş Muğandan keçmisən axı!
Deyirlər, təmizmiş arzun, diləyin,
Şirvanın suyundan içmisən axı!

Deyirlər, darda da qabaran sinən
Vüqarlı olarmış daglar sayağı.
Axı, öz vüqarlı doğma köksündən
Çiçəklər bəxş etmiş sənə Şahdağı.

Deyirlər, od tutub yanarmış düşmən
Ona zillənəndə hər an nəzərin.
Düşmənə od yağar bəbəklərindən
Odlar diyarında süd əmənlərin.

Sən rəssam doğuldun... Güllələr deşən
Sinəndə min tablo məhv oldu bəlkə.
İndisə bir rəssam axtarıram mən,
Alıb öz fırçanı rəsmini çəkə.

Yox, Yox! Axtarmasın heç kəsi gözüm
Sənin surətini çəksinlər deyə.
Sən öz hünərinlə elə, əzizim,
Şəklini çəkmisən əbədiliyə.

Əsgər İLHAM,
şair

MEHDİYƏ

Hüseynbala, İsrafil, Həzi kimi ol,
Yurdu qorumağı Mehdidən öyrən.
Babəki, Nəbini bir yadına, sal.
Məğrur dayanmağı Mehdidən öyrən.

Mehdidir düşmənə böyük təhlükə,
Mehdinin adına yaraşmaz ləkə.
Mehdidir düşməni salan pis kökə,
Qəhrəman olmağı Mehdidən öyrən.

Şahidlər, sübutlar dayanıb durur,
Mehdinin başı üçün məbləğ qoyulur.
Düşmənə çatınca döşündən vurur,
İntiqam almağı Mehdidən öyrən.

Mehdini həmişə salırıq yada,
Əhsən bu hünərə, əhsən bu ada.
İstər Sovetlərdə, istər İtalyada
Bir ad qazanmağı Mehdidən öyrən.

Həbib Balasadıqoğlu,
Novxanı kəndi

TUNC ÇİÇƏKLƏR

Qəhramanlar ölməyir.
Kim deyir ki, sönürlər?
Bir -birindən vüqarlı
Abidəyə dönürlər,
Heykəllərə dönürlər.

Bir heykələ baxıram,
Saçlarına düşüb dən.
Mehdidir, qonaq gəlib
Adriatik dənizin
Uzaq sahillərindən.

Ölməzlik qazanıbdır,
Ömrün bahar çağında.
Yox, yox, o heykəl deyil,
Tuncdan bir gül-çiçəkdir
Əbədiyyət bağında.

Tofiq Mütəllibov

UNUDULMAZ QƏHRƏMAN

Ey odlar ölkəsi, vüqarınla sən,
Gör necə igidlər yetişdirmisən?!
Fəxr et Babəkinlə, 26-la,
Mərd Mehdin, Çapayın, Hüseynbalanla.

Mehdi! Can qardaşım, səndəki vüqar,
Zəfər tarixindən qalmış yadigar.
Yorulmaq bilmədin sən hey vuruşdun,
Düşmən həyatını ölümdən sordun.

Binalar partladıb, körpü uçurdun,
Düşmən ürəyinə min yara vurdun.
Minlərlə oğlanı, cavan qızlan,
Qorudun ağ saçlı mərd anaları.

Uzaq sahillərin ölməz qartalı!
Mənim də qəlbimi etdin yaralı.
Fəqət fəxr edirəm əməllərinlə
Mixaylo adınla, cəsarətinlə.

Adınla dostların sevinərdilər,
Düşmənlər bu adı yüz bilərdilər.
Lakin yüz adamın hər siyasətin,
Bir başda olduğun unutmaz yəqin.

Səni gənc vaxtında sevən çox oldu,
Gözəl Anjelika sənə vuruldu.
Bildin Vasya sevir sevdiyin qızı,
Söndürdün eşqini, sevmədin qızı.

Gənclik həyatının ilk çağlarında
Gəzdin dostlarınla baharda, qarda,
Könül verməyərək, bu son sözünü:
Vətən! Sevgi!–deyib yumdun gözünü.

Adria sahili əlvan çiçəklər,
Ey coşğun dalğalı mavi ləpələr,
Verin barınızdan gənç qəhrəmana,
Sulansın əklillər, qoy gəlsin cana.

Səni unutmarıq inan heç zaman
Keçsə neçə bahar, neçə qış, boran.
Vətən həsrətilə ölən qəhrəman
Yad edərik səni daim mehriban!

Südabə Şəfa

ƏZİZİM ŞƏMİSTAN!

Şəmistan Nəzirliyə

Telefon dəstəyindən eşitdiyim iki kəlmə xoş sözünlə qəlbimin sarı siminə toxunmusan: "Torpaqdan səs gəlir poemanı çapa hazırladığım kitaba daxil etmişəm. Ona bir əlavən olacaqmı?–dedin. Xalqımızın bu igid oğlunun– unudulmaz Mehdi Hüseynzadənin–əzizimiz Mixaylonun ölməz xatirəsinə daha bir kitab həsr etdiyin üçün çox sağ ol! İnan ki, Vətən də sənə sağ ol! deyəcək!

Əzizim! Gör bu dünya nə qədər səbrli imiş. Düz 50 il əvvəl əsgərlikdə– Ukraynanın Poltava şəhərində yazmışam bu poemanı. O vaxt "Uzaq sahillərdə*"* kinosundan mən

də çox təcurlənmişdim. Mehdinin partizan yoldaşı Cavad Həkimovun xatirələrini də oxumuşdum. Əsgərlik həyatımın bir ili arxada qalmışdı. Vətən üçün hədsiz qəribsəyirdim. Dəmir yolu hərbi qospitalının yaxınlığından keçir bir az sonra əyilib meşədə görünməz olurdu. Mənim üçün bu da bir romantika idi:

...O çöldən bir qatar gedir
Bilməm nə dərdi var gedir.
... Oyan, Mehdi! Qatar getdi,
Sinəsində qubar getdi,

Poemanı 20 günə yazıb qurtardım; 1959-cu ildə Bakıda– Yazıçılar İttifaqında müzakirəsi ıığurla keçdi. Unudulmaz Xalq şairlərimiz Osman Sarıvəllli və Nəbi Xəzri poemaya çox yüksək qiymət vermişdilər. 1961-ci ildə əsəri indiki (1982-ci il) variantında çapa verdirn.

Məncə, poema elə bitgin alınıb ki, ona bir misra belə əlavə etmək mumkün deyil.

Yaz gəlir, il dolanır
Axar sular bulanır.
Ürəyimin başında
Elə bil od qalanır.

Günəş bu qəbrin üstə
Şəfəq çökərək doğar,
Belə qəhrəmanları
Analar tək-tək doğar...

Cavab verin sözümə,
Adria sahilləri,
Burdan çoxmu uzaqdır
Azərbaycan elləri?!

Osman Sarıvəlli bu misraları bədahətən yaranmış, kimi qiymətləndirmişdi. "Oyan, Mehdi! Qatar getdi"... Nəbi müəllimi kövrəltmişdi. Müəllifin 50 ildən sonra öz əsərini tərifləməsi təvazökarlıqdan uzaqdır, amma bu poema məni şair kimi təsdiq etmişdi.

Əlavəm odur ki, bu poemanı ııə vaxt oxııyuramsa, təzədən sarı simə dönürəm və baxıb görürəm ki, bizim Mixaylo bir Azərbaycanın eşqi ilə minbir qəhrəmanlıq göstərmişdir. Vətən eşqinə eşq çatmaz!

Sən də, mən də bu eşqin quluyuq.

Sağ ol!

Qardaş salamı ilə Əjdər Fərzəli.
4.04.2008.

TORPAQDAN SƏS GƏLİR
(poema)

Sovel İttifaqı Oəhramanı
Mehdi Hiiseynzadənin xatirəsinə ithaf edirəm

Vətənimdən aralı
Qürbət ellər görmüşəm,
Günü əsrə bərabər
Aylar, illər görmüşəm.
Gəzmişəm diyar-diyar,
Dünyanı dolaşmışam.
Gözlərimdə intizar
Yüz dərə, dağ aşmışam.

Dünən bir əsgər oldum,
Soyuq səngərlər yerim.
Məndən uzaq olmayır
Cəbhə xatirələrim.
Keçib getmiş o illər,
Çoxdan arxada qalmış.
Arzularım gəncləşib,

Xatirələr qocalmış.
O günləri bəs necə
Unuda bilərəm mən!

Beş il Vətən deməkdən
Dil-dodağım alışdı,
İtaliya torpağı
Al qanıma qarışdı...
Vətən dedim, ey ana,
Hər yerdə adın sənin
Həyat verir insana!
Gözlərimdə həsrətin,
Könlümdə məhəbbətin.
Dilimin əzbərisən,
Sözümün gövhərisən.

Dinləyin siz məni,
Dinləyin Cavadı,
Adria sahilləri.
Burdan çoxmu uzaqdır
Azərbaycan elləri?!

Cavad yavaş addımla
Bir təpə üstə çıxdı.
Gözləri həsrət dolu
Durub dörd yana baxdı.

Xeyli sakit dayandı.
Elə bil daşdı dəniz,
Yer başına dolandı...
Ürəyi bərk döyündü,
Köksü alışdı yandı.
Ah, bu necə döyüntü,
Bu necə həyəcandı?!
Dilə gəldi bir anda
Sanki əbədi sükut,
Dedi: “oğlan, adam ol,

Yerində bir qərar tut.
Gör kimindir bu məzar?
Qızıl günəş daşına
"Bahadır" sözü yazar.
Gör kimindir bu məzar?!
Elə bil ki, köksünə
Qəfil bir güllə dəydi,
Axı, həmin suala
Necə cavab verəydi?!
Necə deyəydi ki, mən
Əlimlə yazdım dünən
Bu qəbrin baş daşını.
Məgər tanımayırmı
Cavad öz qardaşını?!
Qayalar gəlib dilə
Ona söylədi belə:
"Burda bir qərib yatır,
Vaxtsız can verib vatır.
Burda bir cavan qartal
Köksünü gərib yatır...
Burda bır aslan yatır.
Köksü olub qan, yatır.
Koroğlunun nəvəsi,
Ölməz qəhrəman yatır.
O, bir bahadır idi,
Bir qızıl əsgər idi.
Onun qaya tək köksü
Polad bir səngər idi.
Onun həyata vurğun
Rəssam barmağı vardı.
Bayatılı, nəğməli
Şair dodağı vardı.
Nəğməsi şirin oldu,
Yuxusu dərin oldu.
Üstündə bir sərv bitdi,
Kölgəsi sərin oldu...
Günəş bu qəbir üstə

Şəfəq tökərək doğar,
Belə qəhrəmanları
Analar tək-tək doğar...

Cavad isə bayaqdan
Dərin düşüncədəydi,
O, dil açan dağlarm
Yoxsa xətrinə dəydi?!
Ağlımı çaşdı, nədir.
Bu yolçu daşdı nədir?

Qayaların nəğməsi
Dalğalara qarışdı.
Cavad diksindi birdən
Öz-özünə danışdı:
"Cavab verin sözümə
Adria sahilləri,
Burdan çoxmu uzaqdır
Azərbaycan elləri?
Mehdi orda doğulmuş,
O torpaqda boy atmış,
Öz məğrur ölümüylə
Heykəlini ellərin
Ürəyində yaratmış!
Dağlar, ay ulu dağlar,
Qoynu gül dolu dağlar,
Sinəndə nərim yatır,
Köksü Babək qalası,
Elimin gül balası,
İgid sərvərim yatır.
Həmişə oyaq olun,
Ondan göz-qulaq olun...
Çeşmə olub axaram.
Şimşək olub çaxaram.
Mən anamın borcundan
Axı, necə çıxaram?..
O, beləmi oxudu,

O, beləmi danışdı?
Bu yanıqlı bayatı
Mənə çoxdan tanışdır...
Bu dağlara çən gələr,
Qayalarla tən gələr.
Mehdinin səs-sorağı
Uzaq ellərdən gələr...
Cavab verin sözümə
Adria sahilləri!
Burdan çoxmu uzaqdır
Azərbaycan elləri?
Elə bilirəm ki, mən
Bu təpənin üstündən
Uzatsam əllərimi
Birbaş Kəpəzə çatar...
Başı göylərdən uca,
O ağ çalmalı qoca
Murovdur, yoxsa Qoşqar?
Yaz gəlir, il dolanır,
Axar sular bulanır.
Ürəyimin başında
Elə bil od qalanır...
Eşidin, a sahillər!
Düşməzdiniz bəlkə heç
Ağıza, dilə siz də,
Yatmasaydı elimin
Nər oğlu köksünüzdə!
Qədim Roma torpağı,
Gəl yaxşı eşit məni!
Qoynu cənnət qucağı,
Ey dahilər vətəni!
Vətənimin, elimin
Ölməz mərd oğulları,
Faşizmin pəncəsindən
Qurtarıb bu diyarı
Oldu qanına qəltan,
Getdi ellərə qurban!

İndi bilirsinizmi
A dağlar, mən hardanam
Mən hansı diyardanam?!
Bilin indi kim yatır
Bax bu tənha qəbirdə.
Söyləməyiniz bir də:
“Ağlımı çaşdı, nədir?
Bu oğlan daşdır, nədir?
Babəklərin yurdundan,
Səttarxanın elindən
Ziyarətə gəlmişəm
Bu gün “Mixaylonu mən...

Cavad köks ötürüb düşündü yenə,
Əyilərək öpdü məzar daşından.
Baxdı, sual verdi çölə, çəmənə,
O necə ayrılsın öz qardaşından?
Elə bir səs gəldi soyuq məzardan...

Mehdinin səsi:

Ey vətən! Adının qurbanı olmuşam!
Gecələr yuxuma gir, şirin-şirin...
Eşqinlə alışıb, yanan olmuşam!
Əssin küləklərin qoy sərin-sərin...

Qəbrimin başma. pərvanələr tək
Dolanar Günəş də,Ay da, ey anam!
Fəqət səni sorar sinəmdə ürək...
Mən ki əzəl gündən sənin oğlunam!

Bülbüləm, gülümdən ayrı düşmüşəm.
Əs, külək, gülümün qoxusu gəlsin.
Elimdən, obamdan ayrı düşmüşəm,
Mehdinin bəs necə yuxusu gəlsin?..

Bir şirin bayatı həsrətindəyəm,
Pıçıldar dodağım hey asta-asta.
İstərəm qəlbimdə nə varsa, deyəm,
Qardaşım dayanıb başımın üstə!

A Cavad, haradır səfərin sənin?
Bu qərib torpaqda gör nə zamandan
Yanıram eşqiylə ana Vətənin.
De görüm haradır səfərin sənin?
Bu mənəm, Mehdiyəm, səsimdən tanı!
Dayan! Bir anlığa məni də dinlə!
Gəzib dolanırsan geniş dünyanı.
Qardaşlıq eşqiylə vuran qəlbinlə
Dayan, bir anlığa məni də dinlə.
Danışıb yoruldun bu dağlarla sən,
Sakit dinləyirdim səhərdən bəri,
Neçə yol, neçə yol Mehdi demisən!
Ürəyindən axan şirin sözləri,
Sakit dinləyirdim sənərdən bəri.
Tərlantək uçmusan yenə yuvadan,
Çoxdanmı ayrısan eldən, obadan?
Niyə danışmırsan, fikir edirsən?
De, hardan gəlirsən, hara gedirsən?!

Cavad:

Can Mehdi! Nə yaxşı səslədin məni!
Nə yaxşı eşitdim doğma səsini!
Bilməzdim heç sənin dünyalar qədər
Çox imiş, qardaşım, səbrin, qərarın!
Məzarın sanki bir qiymətli gövhər,
Düşmüş qucağına bu yad diyarın!
And içib könlümün sədaqətinə,
Gəlmişəm mən sənin ziyarətinə!

Mehdinin səsi:

Məni tərifləmə, a qardaş, yenə,
Danış, barı doğma ellərdən danış.
Quş olum xəyalən uçum Vətənə,
Mənə o ceyranlı çöllərdən danış.
Uşaqlıq çağımdan söhbətim, sazım –
Mənim Samur çayım, Kürüm, Arazım,
Bir də mərcan gözlü mavi Xəzərim!
Bilirsən, onlardan yoxdur xəbərim!
Artırıb-əksiltmə bir həqiqəti.
Ellərin yoxdur ki, dərdi, möhnəti?
Məndən sonra nələr yaratmışsmız?
Siz çoxmu uçalıb boy atmışsınız?
Sözümə cavab ver....

Cavad:

Bəli, Mehdican!
Dəyişmiş tamam o gördüyün yerlər!
Adına hər yerdən tərif deyirlər!
Heç xəbərin yoxdur Mingəçevirdən;
Görsən tanımazsan Sumqayıtı sən!
Bakı da olub bir nazəndə gözəl!
Səsləyir dünyanı Tamaşaya, gəl.
Neft daşlarında da şəhər salmışıq.
Biz çox böyümüşük, çox uçalmışıq!

Mehdinin səsi:

Bəs mənim dostlarım indi hardadır?
Söylə, yaşayırmı, sağdırmı onlar?
Bəlkə Vasilidən bir xəbərin var?
Könlum onsuz yaman intizardadır...

Cavad:

Keçən il o, qonaq gəlmişdi bizə,
Yaman həvəskardır söhbətə, sözə.
Dilindən düşmürdü "Mixaylo adı!

Mehdinin səsi:

Bəs Anjelikadan söylə nə xəbər?

Cavad:

Eh, faşistlər onu çox incitdilər,
Öldü min əzabla, satmadı bizi
"Mehdi deyə-deyə yumuldu gözü.

Mehdinin səsi:

Qatillər!
Onları çox doğradım mən!
Deyirəm heyif ki, bu Yer üzündən
Onların kökünü qazıb atmağa
Sonra da torpaqda rahat yatmağa
Bivəfa ömürüm vermədi aman.
Onları qırmamış getdim dünyadan.
Söylə, yenədəmi o canavarlar,
Bəşərin üstünə diş qıcadırlar?
Hər güllə dəyəndə bir qəhrəmana,
Mənim məzarım da boyanır qana!

Cavad:

Yox, Mehdi! Keçmişi biz unutmarıq!
Dünənki düşməni biz dost tutmarıq!
Əbədi rahat yat məzarında sən,
Almış öz payını onsuz da düşmən.

Mehdinin səsi:

A qardaş, söylə, bəs Tağı hardadır?
Könlüm ondan ötrü intizardadır.
Eşitmək istərəm onun səsini,
Onun öz yanıqlı şikəstəsini.
O, "Rast" oxuyanda mənim yadıma
Bizim Xan əminin səsi gələrdi.
Tamam unudardım hicranı, dərdi...
Bircə yol yanıma gəlmir də barı.
O, nə tez unudub əhdi, ilqarı?

Cavad:

Tağıda bir günah yoxdur, Mehdican,
Etdilər onu da qanına qəltan.
Sənin məzarından bır az aralı,
Vətən həsrətindən könlü yaralı
Əbədi yuxuya getmişdir o da,
Elə qurban getdi həkim Rza da.

Mehdinin səsi:

Ox, Cavad, bu necə bəd xəbər oldu?
Daha birdəfəlik söylə ki, mənə
Adria sahili qurbanla doldu...
Deyirsən ki, yoxdur heç xilas olan?
Təkcə sən özünsən məgər sağ qalan?
Bəs Ənvər, bəs Şamil?
Sağdırmı onlar?!

Cavad:

Sənə hamısının xoş salamı var!
Hələ Mikayıl da, Əkbər da durur,
Onlar da Vətəndə yaradır, qurur,
Adınla göstərir onlar hünəri,
Adınla açırlar hər gün səhəri!
Unut həmişəlik dərdi, möhnəti,
Bir də xəzan olmaz ömrün gülşəni!
Deyirəm, qoy bir də Vətən həsrəti,
Yandırıb yaxmasın qardaşım, səni!
Sən bütün elləri qardaş bilmisən,
Yaşatmaq eşqiylə deyib gülmüsən.
Kim deyər, kim deyər axı, ölmüsən?!
Eşqinlə çağlayan bulaqlar oldu,
Canından ellərə can verəndə sən,
Yaralı köksündən qan verəndə sən.
Dünya qara geydi can verəndə sən,
Demə son mənzilim torpaqlar oldu.

Sənինlə fəxr edən vüqarlı dağlar,
Bizim ellər kimi ilqarlı dağlar,
Bu dərin dərələr, bu qarlı dağlar
Yenə məhəbbətlə "Mixaylo*"* deyir!

Şirin nəğməsisən mərd insanların,
Ekiz qardaşısan qəhrəmanların.
Bu gün doğma elin, doğma diyarın
Şərəflə, şöhrətlə "Mixaylo!*"* deyir!

Hünərin tarixə yazdı min zəfər!
Qəbrinin üstündə hər axşam-səhər
Sənə layla çalıb sərin küləklər
İzzətlə, hörmətlə "Mixaylo*"* deyir!
Ölsən də qalmadı ömrün yarıda,

Orta əsrlərin barbarları da,
Reyxstaqın yanmış divarları da
Hiddətlə, dəhşətlə "Mixaylo!" deyir!

Mehdinin səsi:

Mən ki öz borcumu verdim ellərə,
Burda nə var axı, düşsün dillərə?

Cavad:

Bunu mən demirəm, mərd ellər deyir!
Səni unutmayan nəsillər deyir!
Demə Qarasaqqal əmoğlun coşub.
Adına şairlər dastanlar qoşub!
Bir ləl parçası tək yerdə qalmadı
Sənin qazandığın o şərəf, o şan!
Qəlblərdə yaşayır "Mixaylo adı,
Sən böyük bir elin qəhrəmanısan!
Mehdi köks ötürdü bu dəm dərindən...
Görəsən yadına yenə nədüşdü?
Sanki oir vərəa də qəm dəftərindən
Qopub məzarının üstünə düşdü...
Söylədi:

Mehdinin səsi:

A Cavad, eşit səsimi,
Qəriblik yandırır od nəfəsimi.
Torpaqdan duyuram görməsəm də mən,
Bilirəm hər yanda yenə bahardir.
Düşür xəyalıma yenə çöl, çəmən,
Ürəyimdə çoxlu xatirəm vardır...
Bilirsən, könlümün nədir həvəsi?
İstərəm eşidəm Vətən nəğməsi
Bircə aqız "Zabul" oxusan əgər,

İnan, mənim üçün dünyaya dəyər!
Tağıda yanıqlı bir şeirim vardı,
Onu "Zabul" üstə çox oxuyardı...
Yadına düşmürsə, qulaq as, deyim,
Axı, boşalmamış mənim ürəyim!..

Ötər aylar, keçər illər, o dağlardan xəbər yoxdur,
Ömrüm-günüm, canım gözüm, nazlı yardan xəbər yoxdur.
Xəzan oldu göy baxçalar, ilk bahardan xəbər yoxdur,
Bülbül kimi qəfəsdəyəm, çəmənzardan xəbər yoxdur.

Ay dolanar buludlarda, gözüm qalar şüasında,
Coşar könlüm, alovlanıb yanar eşqin havasında....
Sevən ürək cəfa çəkər məhəbbətin sevdasında
Şikayətim budur yalnız–düz ilqardan xəbər yoxdur.

Susar xəzan, gələr bahar, laləzara dönər dağlar,
Gül yanaqlı qonağının səcdəsinə enər dağlar.
O qız dərin bir ah çəksə, insan kimi dinər dağlar,
O dağların göz yaşları–bulaqlardan xəbər yoxdur.

Daşar çaylar, çoşar sellər, yamaclardan axar gedər,
Buludlardan buludlara ildırımlar çaxar gedər,
Ovçu gəzər maralımı, daldalardan baxar gedər,
Maralların seyrəngahı–yaylaqlardan xəbər yoxdur.

Göy dağların o əlçatmaz zirvələri qoy qar olsun,
Meşələrə, dərələrə o dağlar bir vüqar olsun.
İlk eşqim də, ilk nəğmə də ellərə– yadigar olsun,
Gecə-gündüz mahnı deyən nəğməkardan xəbər yoxdur.

Sevib könül bağladığım mələyimdən aralandım,
Baharımdan, çəmənimdən çiçəyimdən aralandım,
Mən Vətəndən ayrılarkən, ürəyimdən aralandım,
O şairlər torpaqından, o diyardan xəbər yoxdur.

Yenidən sükuta qərq oldu hər yan,
Elə bil yuxuya getdi qəhrəman.
O danışan məzar susdu, lal oldu,
O səs, o muğamat bir xəyai oldu.

Cavad:

–Ay Mehdi!..
Məzardan bir səs gəlmədi,
Bu bir yuxudurmu görən, ya nədir?
Yox, yox! O ki, özü səslədi məni,
O özü soruşdu eli, vətəni!
Cavad haray çəkdi; ”Ay Mehdi!” –deyə,
Qayada əks oldu titrəyən səsi.
Tamam kəsilincə axır nəfəsi
Qışqırdı, yalvardı o, yerə, göyə.
Bir ildırım vurdu onu elə bil,
Nəydi o həyəcan, nəydi o həvəs?!
Yalnız indi bildi məzardan deyil,
Onun öz qəlbindən gəlirmiş bu səs.
Sanki ürəyinə bir dağ çəkdilər,
Hönkürüb ağladı o, uşaq kimi.
Nə dözülməz imiş görün bu kədər,
Nə yaman olurmuş ayrılıq dəmi!

Cavad yaman qəhərləndi,
Üz tutaraq tək məzara
Haray saldı göy dağlara.
Sükut etdi birdən-birə
O dag başı, o göy dərə.
Susdu əsən ruzigar da,
Susdu göydə buludlar da,
Sükut etdi o qəbir də,
Sükut etdi göy də, yer də...

Soyuq tərə bata-bata,
Dözmək üçün bu sükuta
Cavadda heç qərarmı var?
O ki, həyat aşiqidir,
Elə bil ki, lal qayalar
Birdən üstünə yeridi...
O baxdı məzar daşına,
Gözlərində yaş dayandı.
Elə bildi ki, başına
Bu anda aləm dolandı.
Pıçıldadı yana-yana:
–Əriməsin döşdə qarın,
A danışan, dinən dağlar!
Gecə-gündüz bu məzarın
Səcdəsinə enən dağİar!
Köksün niyə alışmadı?
Mehdim niyə danışmadı?...
Oyan, Mehdi! Oyan qardaş!
Vətən səndən aralıdır!
Əsmə, külək, a bağrı daş,
Mənim qəlbim yaralıdır!

Uçan bulud, bir anlığa
Karvanını sən də əylə!
Bu ölməz qəhrəmanlığa
Qüdrətin var, nəğmə söylə!..

Bir qatar keçirdi bu dəm o yerdən,
Səmtini tutmuşdu Şimala sarı.
Adamlar baxırdı pəncərələrdən,
Salamlamaq üçün o tək məzarı.
Bəlkə Mixaylodan min bir hekayət
Danışırdı onlar biri-birinə.
Ölməz qəhrəmanlıq, ölməz sücaət
Yaşayar, keçsə də neçə qarinə!

...Qatar ağır-ağır keçib gedirdi.
Günəş də ufuqdə qürub edirdi...
Qatarın ardınca boylanıb bu an,
Bir şikəstə dedi Cavad ucadan:

O çöldən bir qatar gedir.
Bilməm nə dərdi var, gedir...
Gedir o, fit çala-çala,
Gedir haray sala-sala.

Nə qəmlidir o fit səsi,
Nə qəribədir qatarın
Oxuduğu yol nəğməsi.
Oyan, Mehdi, qatar getdi,
Sinəsində qübar getdi...

O çöldən bir qatar gedir,
Bilməm nə dərdi var, gedir.
Fırlandıqca təkərləri,
Uğuldayır, inildəyir.
Elə bil ki, "ey, Mixaylo,
Dur bizimlə gedək"–deyir.
Oyan, Mehdi! Qatar getdi.
Sinəsində qubar getdi...

O çöldən bir qatar gedir,
Bilməm nə dərdi var, gedir.
Dayan! Sən ey qəm karvanı!
Axıb getmə bu həvəslə!
Bizim ölməz qəhrəmanı
Yenə çağır, yenə səslə!
Ey sürücü, söylə sən də,
Biləcəyəm deməsən də,
Bu qatarın hara gedir?
De, hansı diyara gedir?!

Oyan, Mehdi! Qatar getdi,
Sinəsində qübar getdi...

Qatar uzaqlaşıb görunməz oldu,
Qəhərdən Cavadın gözləri doldu.
Son dəfə əyilib öpdü məzarı,
Dedi: Salamat qal, ey dost diyarı!
Bu ağ günlər üçün axıbdır qanım,
Uyuyur qoynunda öz qənrəmanım.
Onu unutmasın barı ellərin,
Çalsın laylasını əsən yellərin.
Sonra yavaş-yavaş düzəldi yola,
Elə bil yenə də yaşıl təpədən
O tənha məzardan səs gəldi birdən:
Get Cavad, get, sənə uğurlar olsun,
Məndən salam apar Azərbaycana,
Mənsiz qəmlənməsin o böyük ana!...
O gedir, qəlbində alışıb yanan,
Qardaş məhəbbəti, qardaş həsrəti.
Qızıl şəfəqindən göylər boyanan .
Bir eşqin fönməyən gücü, qüdrəti!
Köksü həyəcandan dönür ümmana,
Bir anda gözundən min illər keçir.
Sanki alqış deyib bu qəhrəmana,
O qəbrin önündən nəsillər keçir!
O gedir, dilində Mehdi dolanır,
O gedir, ürəyi alışır, yanır.
Mehdisiz hayana gedə bilər o,
Mehdisiz şad olub, neçə gülər o?
Mehdisiz heç onun qərarı varmı?
Mehdisiz də Cavad bir gün yaşarmı?!
Bu gün hər baxanda doğma Vətənə,
Belə pıçıldayır o dönə-dönə:
–Sorağı gəlsə də qərib diyardan,
Uzaq Adriatik sahillərindən,

Oğlunun yerini, ey Azarbaycan!
Məndən sor, düzünü söyləyərəm mən!
Qoy şahid olsun bu sözumə cahan,
Arzusu arzunda, diləyindədir!
Bil ki, doğma Mehdin hər vaxt, hər zaman
Həyat sevənlərin ürəyindədir!..

1961-ci il

Əjdər Fərzəli

***

ŞİMŞƏK

Sovet Ittifaqt Qəhrəmam
Mehdi Hüseynzadənin xatirəsinə

Çox da ki, şimşəyin ömrü bir anlıq,
Ömrə yox, fikir ver anda qüdrətə.
Çaxanda diksinib, qaçır qaranlıq,
Yeri də, göyü də salır heyrətə.

Oda dözə bilməz yoxsa cürəti,
Ürək məhəbbətin odundan keçir.
Uzaq sahillərin şanı - şöhrəti
Gəlib ana yurdun adından keçir.

Sevən bir ürəyin mehribanlığı
Döyüş meydanının ox kəsəridir.
Partizan Mehdinin qəhramanlığı
Sənətkar Mehdinin şah əsəridir.

İgid yol seçəndə bir dəfə seçər.
Necə ki, yolunu dəyişmir bahar.
Uzaq sahildə də canından keçər,
Vətən sevgisini uca tutanlar.

Qanıyla torpağı naxışladı ki,
Torpaq da igidlik, mərdlik bitirsin.
Göylər də şimşəyi alqışladı ki,
Çaxanda torpağa alqış gətirsin.

2005-ci il

Babək Aruslu

***

SƏN BİZİMSƏN

Sən getdin döyüslərə,
Cavanlaşan ölkənin
Ey cavan vətəndaşı!
Qəhrəmanlar yurdunun
Qəhrəman vətəndaşı!

Ağsaçlı dağlarını
Qorumaqçin Qafqazın,
Karpatm ağ örpəkli
Dağlarında vuruşdun.
Nizamilər yurdunun
Şərəfinə, şanına
Dantenin, Petrarkanın
Diyarında vuruşdun.
Sən özün gülmədin ki,
Xəzərin sahilində
Dalğalarla oynasan
Məsum körpələr gülsün!
Sən özün gülmədin ki,
Tər laləli, reyhanlı
Yaşıl təpələr gülsün.
Sən özün gülmədin ki,
Qanadsız göyərçinlər–
Mavi ləpələr gülsün!

Sənin igidlıyinə Rafaelin diyarı,
O mavi Adrianın suları şahid oldu.
Onlar bizə dedi ki:
İnsanlıq gülsün deyə,
Burda mətin bir insan,
Döyüşdə şəhid oldu.
Səni qəhrəman edən
Bakının ürək açan
Aylı gecəsi oldu,
Neçə gəlin, ananın
Beşik nəgməsi oldu.
Səni qəhrəman edən
Dodaqlarda, gözlərdə
Kilidlənmiş söz oldu;
Bəlkə son nəfəsdə də
Xatirindən çıxmayan

Bir cüt ala göz oldu...
Mehdi, sən istəyirdin
Rəssam oğlu olasan
Bizim ana Vətənin,
Neçə-neçə rəssamın
Gözəl əsəri oldu
Ancaq həyatın sənin.
İstəyirdin fırçanla
Min bir bəzək vurasan
Neçə gülə, yarpağa,
Ancaq öz hünərinlə
Ən gözəl bəzək oldun
Bizim ana torpağa!
Mehdi, bizə deyirlər,
Uca dağ başındadır
Bu gün sənin məzarın,
Bəlkə baxırsan ordan
Görünürmü Vətənin,
Doğma ana diyarın?
Sanki yatıb səngərə,
Yenə keşik çəkirsən
Çiçəklərə, güllərə;
Titrəşən söyüdlərə,
Oxuyan bülbüllərə.
Mehdi, sən ölməmisən,
Yanırsan qəlbimizdə
Odlu nəğmələr kimi!
Hər zaman bizimləsən
Qızaran üfüq kimi
Ağaran səhər kimi!

Əlisa Nicat
1956-cı il,

MEHDİ[8]

Əziz və unudulmaz silahdaşım, Sloveniya dağlarında faşizmə qarşı döyüşlərdə həlak olan qəhrənıan Mehdi Hüseynzadəyə

Mənim torpağımın qəhrəman oğlu,
Yayılıb ölkəyə şöhrətin, Mehdi.
Sənlnlə fəxr edir odlar ölkəsi,
Heç vaxt tükənməsin cürətin, Mehdi.

Əzdin faşistləri, dağlar tərlanı,
Töküldü daşlara düşmənin qanı.
Hansı xalq yetirib bir belə canı
Adınla şadlanır millətin, Mehdi.

Atıldın meydana, sən oldun qoçaq,
Xayın düşmənlərə kəsildin bıçaq.
Əsrlər keçsə də yadda qalacaq,
Qəlblərdə qalacaq hörmətin, Mehdi.

Qul ola bilmədin şeytana, cinə,
Vurdun zərbələri, qati düşmənə.
Hayqırıb cumanda yağı üstünə,
Aslandan itidir sürətin, Mehdi.

Xəyalım atlandı sən ölən yerə,
Bükdüm xəyalımla səni güllərə.

8. 1944-cü il, Şimali İtaliyanın Udine dağlarında yazılıb. Şeirin müəllifi Vəli Məmməd oğlu Ləzgiyev (1909-1968) Mehdi Hüseynzadə ilə 1944- cü ildə İtaliyada birgə fəaliyyət göstərmişdir. Səyyar təxəllüsii ilə ilk gəncliyindən lirik şeirlər yazan Vəli Qazax Seminariyasını (1923-1928) bitirdikdən sonra Azərbaycanın müxtəlif bölgələrində miiəllim işləmişdir. 1941-ci ildə cəbhəyə gedən Vəli Ləzgiyev 1943- cü ildə Krımda əsir düşmüş, faşistlər onu əvvəlcə Avstriyaya, sonra isə Italiyaya aparmışlar. Bıırda da Mehdi ilə görüşmüşdür–Ş.N..

Arzum budur keçsin dildən–dillərə,
Ağla sığışmayan qeyrətin, Mehdi.

Getsin qayıtmasın o ağır illər,
Vəlinin fikrindən çıxmır o günlər.
Mehdinin qəbrindən oyansın güllər,
Gəzsin dodaqlarda söhbətin, Mehdi.

Vəli Ləzgiyev
1944-ci il

***

Sizdən ayrılalı vuruşuram mən,
Yaxşı gəlir bizə sədalar səndən.
Heç xəbərin varmı əziz vətəndən,
Bir kömək göndərin bizlərə, Mehdi,

Dəstəmiz qarışsın sizlərə, Mehdi,
Bir tərəfdən bizi faşistlər vurur.
İsrafil, Miralay qurğular qurur,
Ulaqay hayqırır, birdən qudurur,

Özün yetiş indi imdada, Mehdi,
Qanlı düşmənləri tut oda, Mehdi.
Düşmüşük dəryaya tapılmır ada,
Dəstəmiz faşisti tutublar oda.

Mehdinin dəstəsi çatacaq dada,
Gör nə qiyamətdə saldı bu dağlar,
Kimləri yadıma saldı bu dağlar.
Şair Vəli sizdən istəyir kömək

Bihudə getməsin çəkdiyim əmək.
Cumuruq düşmənə biz ildırım tək,
Getməsin əməyin, heç zaya, Mehdi,
Qoy adın yayılsın dünyaya, Mehdi.



Səyyar Vəli 1945-ci il

ƏGƏR YAŞASAYDIN

Əfsanəvi qəhrəman Mehdi Hüseynzadəyə

Xəzərdən, Bakıdan uzaq ölkədə,
Dünyaya tanıtdın Azərbaycanı.
Əgər yaşasaydın indi bəlkə də,
Min qat artıq idi şöhrətin, şanın.

Düşməni lərzəyə salan hünərin,
Qoymazdı vətənə girə yağını.
Toplayıb başına mərd igidləri,
Azad eyləyərdin Qarabağımı.

Hünər dastanından örnək alaraq,
Yüzlərlə Mehdilər doğulacaqdır.
Tarixi keçmişə sadiq qalaraq,
İgidlər döyüşə atılacaqdır,
Düşmən öz qanında boğulacaqdır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının şöbə müdiri, şair-publisist Xuraman Xanım

***

QƏLƏBƏ GÜNÜNDƏ...

Sovet İttifaqı Qəhrəmanı Mehdı Hüseynzadənin əziz xatirəsinə

Sən bir bulaq kimi daşardın, canım,
Yaşatmaq eşqiylə yaşardın, canım!
Yaşardın elinə, obana bağlı,
Xəyalı müjdəli, fikri soraqlı.
Yaşardın, eşqinlə aşıb-daşardın,
Gözəl diyarında gözəl yaşardm.
Necə yaraşardı yaşamaq sənə,
Qohumlar, tanışlar bu gün deyirlər,
Şeirlər yazardın onda, şeirlər.
Rəssamlıq eşqiylə alovlanardın,
İşıqlı rənglərlə cilovlanardın.
İlhamın var idi, təbin var idi,
Qəlbləri dindirən qəlbin var idi.
Valeh olmuş idin Azərbaycana,
Fərəhlə çıxardın onu seyrana.
Eşqin aləm idi, təbiət idi,

Könlünü yaşadan məhəbbət idi.
Hitler Almaniyası tüğyan edəndə,
Bizə müharibə elan edəndə,
Sən də cəbhələrə səfərbər oldun,
Milyoniar içində bir əsgər oldun.
O vaxt kimliyini kim nə biləydi,
Ki düşüb ardınca vəcdə gələydi?!
Bilənlər olsaydı, səsləyərdilər,
səni göz üstündə bəsləyərdiiər.
Tale doğma eldən qopardı səni,
Uzaq sahillərə apardı səni.

Sən İtaliyada sel kimi daşdın,
Yuqoslaviyada cahandan qovulsun dedin,
Zərbələr altında ovulsun dedin.
Dedin: uzaq olsun cahan ölümdən,
Qandan. işgəncədən, dərddən, zülümdən!
Ellərin üzünə gülsün abadlıq,
Azadlıq, azadlıq, ancaq azadlıq!
Bir dastan yaranar şücaətindən,
Qardaş ölkələrə sədaqətindən.
Görüb öz arxanda doğma yurdunu,
Geriyə döndərdin neçə ordunu.
Səsinə səs verdin mərd insanların,
Ucaldın gözündə partizanların.
Bir an da çıxmadı vətən yadından,
Şimşəklər saçıldı avtomatından.
Qeyzin faşistləri odladı bir-bir,
Silah anbarları partladı bir-bir.
«Mixaylo şəhərdə!» dəhşətləndilər,
Vəhşilər daha da vəhşiləndilər.
«MixayIo şəhərdə!» Xəbər yayıldı,
Mixaylo ən böyük bəla sayıldı.
«Mixaylo tapılsln!» –çox darıxdılar,
Axtara-axtara yoxa çıxdılar.
Bütün divarlara elan vuruldu,
Şəklinə baxanlar heyranın oldu.
Başının «qiyməti» dillərdə gəzdi,
Qərəz, mərəzləri başqa qərəzdi.

Onlar nə biləydi sənin qiymətin
Eynidir misilsiz əbədiyyətin!
Alçaq faşistlərin bu yer üzündə
Şərəfi, mənliyi, qeyrəti yoxdur.
Onlar nə biləydi, elin gözündə
Vicdanın, namusun qiyməti yoxdur!
Hər şeyi pul ilə ölçən rəzillər,
Pul ilə hər şeydən keçən rəzillər
Varlanmaq eşqinə yaraqlandılar,
Sənin kimliyinlə maraqlandılar.
Yuxuya getdilər, gördülər səni,
Yuxuda Hitlerə verdilər səni,
Sərvət həsrətini çökən faşistlər
Ev-ev, həyət-həyət ölkəni gəzdi.
Kölgəni görəndə ürkən faşistlər
Qamçı əllərində kölgəni gəzdi.
«Mixaylo tutulsun!» –qəhqəhə saçdın,
Atdın, alınlarda pəncərə açdın.
Əcəli yay kimi gəlmiş kimiydin,
Olümlə baş-başa vermiş kimiydin.
Ölüm nə şeydir ki, igid yanında,
Yurdunun atəşi vardı canında.
Orduya bərabər bir nəfər idin,
Sən qələbə idin, sən zəfər idin.
Qəlbini əlində gəzdirmədəydin,
Ulu məşəi kimi göstərmədəydin.
Ucalar sənինlə ucalırdılar,
Alçaqlar önündə alçalırdılar,
Gəl, bu gün yurduna, igid qardaşım,
Xalqının səsini eşit, qardaşım!
Qələbə günündə deyib-güləndə,
Söhbətin gedəndə, adın gələndə,
Sanma tutuluruq, qəhr edirik biz!
Sənin qüdrətinlə fəxr edirik biz!
Bu iftixar sənin, bu vüqar sənin,
Heykəlin ucalan bu diyar sənin...

Rəfiq Zəka Xəndan

HEYKƏL

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənnin əziz xatirəsinə

Qar yağır, yel əsir
Göylər durulur.
Yuyulur yağışla qranit, mərmər.
Bir uca postament üstündə durur
Küləkdə, tufanda cavan bir əksi.

Elə bir qartaldır-vüqarlı, sərvaxt,
Bu yalzın qranit üzərində o.
Elə bil indicə qanad azacaq
Vətənin günəşli güylərində o.

Şair olmaq idi muradı onun-
Qəlbinin ən şirin diləkləriylə.
Tale sazlarını daradı onun
Odlu mərmilərin küləkləriylə.

Dağlarda vuruşdu
Bir əfsanətək-
Deyirlər hələ də o dağlardadır...
Yox, qızıl məşələ dünən o ürək
Şəfəqlər qoynunda, uzaqlardadır.

Onun həmyaşları qocalıb zoxdan,
Lakin o, cavandır, cavan qalacaq!
Yerlər də, güylər də qocalsa bir an,
Onun tunc sazları ağarmayacaq!

Nəsillər dünyaya gəlib-gedəcək,
O, gənclik timsalı olacaqdır hey.
O, bütün aləmə sübut edəcək,-
Həyat başqa şeydir, ülüm başqa şey!

Əhməd Cəmil
1975-ci il

Adria, layla çal...

Xalq şairi Nəbi Xəzriyə

Niyə qayıtmadı o,doğma yurda?
Yollara baxmaqdan yorğunam, a dost.
Adria, sən oxu dinləyim burda:
"Mən öz xəzərimə vurğunam a dost...

Adria, tanışmı sənə bu süzlər?
Köhnə yaddaşını təzələ barı.
Süylə, yadındamı o çılğın qüzlər?
Xatirə dükcəni gözələ barı...

Təşnəyəm-əlacımı laylalı Mehdi,
Adria, layla zal, soyuyum bir az.
Bəlkə qonaq gəldi yuxuma Mehdi,
Adria, layla zal, uyuyum bir az.

Düşmən qova-qova dost ellərində
Adria, o harda gəzib dolaşdı?
Mehdiydi Xəzərin sahillərində,
Səni qorumaq üçün "Mixaylolaşdı...

Amandı, çıxmasın əsla yadından:
Qıyma, qürbət eldə qəlib inləsin.
Ağbirçək anamız xəzər adından
Adria, layla de, Mehdi dincəlsin:

"Lay-lay, a tufanım-boranım
Lay-lay!
Lay-lay, düşmən bağrı yaranım,
Lay-lay!
Lay-lay, həsrət balam, intizar balam,
Lay-lay, ayrılığı yoranım,
Lay-lay!...

1978-ci il
Vilayət Rüstəmzadə

Mehdi haqqında ballada

Vladimir Qafarov

Mehdi, əziz qardaşım,
Söylə, yadında varmı:
Bizim doğma şəhəri
Bir dolaşıb-gəzərdik.
Zümrüd donlu Xəzəri
Məhəbbətlə süzərdik.
Bir ümmantək daşardı
Vətənə eşqin, odun.
Sən Vətəndən uzaqda –
Triyest şəhərində
Öz Bakını qorudun,
Moskvanı qorudun!
Dedilər itkin düşdün...
Bu söz hara, sən hara?
İtkin demək olarmı
Gecə-gündüz Vətən üçün
Oda atılanlara?!
Mənim əziz qardaşım,
Həmyaşım,
İndi mən
İki dəfə böyüyən
O zamanki Mehdidən.
Sənsə, igid qəhrəman,
Ömrün üfüqlərində
Əbədi işıq saçan
Sönməz günəş olmusan!
Səni gördüyümüz tək
Elə cavan qalmısan!

Mən gizlədə bilmirəm
Sevincimi, qəmimi .
Sevincdən uzuram mən,

Qəm sıxır ürəyimi.
Fəxr edirəm, qardaşım,
Yenə aramızdasan.
İstiqbala yollanan
Möhkəm sıramızdasan!
Əriyirəm qüssədən:
Sənin igid adını
Daşıyan bir küçədə
Sənsiz dolaşıram mən...

Sən nə ömür sürdün ki!
Qəhrəmanlar həyatdan
Belə tez doymur, Mehdi!
Anaların gözünü
Yollarda qoymur, Mehdi!
İgid döyüşməlidir,
İgid vuruşmalıdır!
Çünki Vətən igidin
Sevən qəlbi, canıdır,
Ülvi idealıdır!
Fəqət igid ölsə də,
Adı-sanı, şöhrəti
Can dediyi torpağa
Bir gün qayıtmalıdır.
Mütləq qayıtmalıdır!

Gəl, qardaşım, gəl ki, sən,
Bacın səni gözləyir,
Anan səni gözləyir,
Gülün səni gözləyir,
Oban səni gözləyir,
Elin səni gözləyir,
Bağçadakı qızılgül –
Sənin intizarında.
Coşqun nəğməli bülbül –
Sənin intizarında,

Gəl, qardaşım, gəl ki, sən,
Budaqda düymələnən
Qönzə səni gözləyir.
Yarımzıq şəkil üstdə
Fırza səni gözləyir.
Doyunca yazmadın sən,
Doyunca zəkmədin sən,
Doyunca sevmədin sən,
Doyunca gülmədin sən...
Fəqət bir təsəllim var:
Hüseynzadə adını
Daşıyan bir küzədə
Addımlayan balalar
Sənin övladlarındır,
Sənin arzularındır! –
Bu dünyaya sığmayan
Sərvətindir, varındır!

Mehdi əziz qardaşım,
Bizə candan əzizdir
Qanımız bahasına
Qazandığımız bahar!
Bu baharın yolunda
Ağarmış qara saçlar.
Bu bahar qalacaqdır
Nəsillərə yadigar.
Bu bahar qalacaqdır
Ana Vətənlə birgə.
Bu baharla öyünür
Qəlbi günəşli ölkə,
Gözləri gülşən diyar!
Bu baharzin vuruşub
Torpağın üstəkilər,
Torpağın altdakılar!

Tərcümə edəni Əhəd Muxtar

MEHDİ SALAM

Mehdi Hüseynzadənin abidəsi önündə düşünələr

Fateh Şodiyev (Tacikstan)

Abidənin önündə mən
sanki lalam.
Od yurdunun heykəl
oğlu,
Mehdi salam!
Mən Pamirin
sinəsində
Boy atmışam,
Heykəlini ürəyimdə
Yaşatmışam.
Sən üfüqsən, bu üfüqdə
Mən bir xalam,
Mehdi, salam!
Qartal gördüm, elə
bildim,
Ürəyindi.
Əbədiyyət göylərində
Uçur indi.
Mən öpürəm boy
Atdığın
Bu torpağı.
Mən gəzirəm sən
gəzdiyin
Bağça-bağı.
Sən keçdiyin
çəmənlərdən
Keçirəm mən.
Sən içdiyin
Bulaqlardan
İçirəm mən.

Sən sevdiyin
Bağçalardan
Gül dərirəm.
Ürəyimi bir məşələ
Döndərirəm.
Abidənin üzərində
Qoy yansın o.
Gecə-gündüz
keşiyində
Dayansın o.
Sənsən mənim tunc
iradəm,
Polad qalam,
Mehdi salam!
Bir ölməzlik
nəğməsisən
Hər dildə sən,
Səslənirsən həm
bəmdə sən,
Həm zildə sən.
Heykəl qardaş, bu
nəğməni
Gərək çalam,
Mehdi salam!
Üzərinə tül salıbdır
Günəş zərdən.
Ünvanını soruşdum
mən
Göy Xəzərdən,
Əzəmətli
Qoşqarından,
Kəpəzindən.
Mehdiabad cavab
Verdi
Əvəzindən.

Göy gölün saf
aynasına
Şəkilin düşdü.
Nə qəribə təsadüfdü,
Nə görüşdü.
Mən dağların
zirvəsində
Bir dağ oldum.
Xəyalında Lənkəranda
Qonaq oldum.
Gözəlliklər əllərimi
Sıxdı bir-bir.
Elə bildim dəmir
Ağac
İradəndir.
Təbiətin qızıl yazı
Dəli gəldi,
Əzəmətli Qız qalası
Dilə gəldi,
Elə bil ki, dağlar
coşdu,
Çaylar dindi:
-Bu torpaqda
Heykəlləşib
Mehdi indi.
Fərəhimdən elə
bildim.
Bir qartalam,
Mehdi salam!

Tərcümə edəni: T.Mütəllibov

BALƏLİ QƏDİMOV

Baləli Qədimov 1936-cı ildə Bakının Maştağa qəsəbəsində anadan olmuşdur.

Bədbəxt bir hadisə nəticəsində illərdən bəri xəstə olan Baləli mütaliə edir, öz biliyini artırır, müasir və klassik ədəbiyyatımızı dərindən öyrənir.

Baləli Qədimov şeir yazmağa 1953-cü ildən başlamışdır. Onu yaşadan: möhkəm iradə, şeirə-sənətə olan həvəs və gələcəyə bəslədiyi böyük inam hissidir. Oxucularımız adından ona yaradıcılıq nailiyyətləri və can sağlığı arzu edirik.

ÖLMƏZ QƏHRƏMAN

(Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə)

O zaman ki, yad ayaqlar taptaladı ana yurdu.
O zaman ki, üstümə qılınç zəkib ölüm durdu.
O zaman ki, "qalxın!- deyə harayladı bizi Vətən.
Fırza tutan əllərinə çağlı silah qötürdün sən.

Tufanlara sinə qəldin ürəyinə odlu bir kin.
Zaxdın odlu şimşək kimi başlarına faşistlərin.
Xalqımız şöhrətini uca tutdun sən hər erdə.
Bu ecazkar igidliyə həcəd zəkdi düşmənlər də.

Sən, el oglum, ölümünlə elimə də çaldın zəfər.
Bəxtiyardır el yolunda mərd yaşayıb, mərd ölənlər.
Sənin əziz xatirəni əziz tutur əl hər zaman.
Sən ölməz bir qəhrəman tək tarixlərdə qalacaqsan!

Partizan Mehdi

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəyə ithaf edirəm

Doğma yurdumun qəhrəman oğlu,
Səni mərd doğubdu mərd anan, Mehdi.
Böyük arzularla sən boy atırdın,
Vətənə, xalqına mehriban, Mehdi.

Hələ məktəbdəykən qazandın hörmət,
Şerlərin verdi qəlbinə ziynət.
Seçmişdin özünə gözəl bir sənət,
Ustad rəssam olmaq ey cavan, Mehdi.

41-ci ildə o yağı düşmən,
Etdi yurdumuza basqın qəflətən.
Təhsili yarımçıq buraxaraq sən,
Sarıldın silaha qəhrəman, Mehdi.

Oldun bir komandir, qorxmaz bir əsgər,
Cəbhədə ilk gündən göstərdin hünər,
Ayrı saldı səni gərgin döyüşlər,
Doğma vətənindən, yurdundan, Mehdi.

Gəldi uzaqlardan səsin bir zaman,
Triestdə oldun igid partizan.
Əzdin faşistləri vermədin aman,
Mixaylo adilə partizan, Mehdi.

Şahiddi Triest, bütün o şəhər,
Hər tinin başında göstərdin hünər.
Vurdun faşistlərə ağır zərbələr,
Döyüş meydanında pəhlivan, Mehdi.

Bir gün əməliyyat yerində yenə,
Yağdı dörd tərəfdən güllə üstünə.
Səadət eşqinə, Vətən eşqinə,
Verdin öz canını sen qurban, Mehdi.

Keçsə qərinələr, keçsə yüz illər,
Unutmayacaqdı səni nəsillər.
Adına yazılan yüzlərlə əsər,
Olacaq dillərdə bir dastan, Mehdi.

Xalq öz ürəyində səni hər bir an,
Möhkəm yaşadacaq, ey cəsur insan,
Soltan, iftixarla mərd Azərbaycan,
Deyir ki, oğlumdu hər zaman, Mehdi

Aşıq Soltan Katuxlu (Dağıstan)

SƏNİ

Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadə ithaf

Yaydı xəbərini əsən küləklər,
Yetirdi ellərə, vəfadar səni.
Keçsə də əsirlər, min uzun illər,
Söylə unudarmı bu diyar səni?!

Noxanı bağının sərin havası,
Vətən göylərinin dərin səması.
Bizim Koroğlunun doğma anası,
Bəxş etdi ölkəmə xoş nübar səni.

Qolun polad imiş, iradın mətin,
Deyirlər dostuydun şerin-sənətin,
Yaşarsan qəlbində əbədiyyətin,
Anar əlimdəki bu saz, tar səni.

Adil Yəhyayev

Мехти Ганифа оглу Гусейнзаде (22.12.1918-16.11.1944) – участник Движения Сопротивления, известный партизан, посмертно ставший героем трёх народов (редчайший, а может и единственный случай) – Италии, Югославии и Советского Союза. Родился Мехти Гусейнзаде в Баку. Закончив здесь художественное училище, он продолжил учебу в ленинградском институте иностранных языков. В связи с началом войны Мехти, как и сотни тысяч его сверстников, был призван в армию и направлен на фронт. В 1942 году, при Сталинградской битве, Мехти Гусейнзаде получает тяжёлое ранение и попадает в плен. Побывав в лагерях для военнопленных на Украине, в Польше, Италии, Югославии, в 1944 ему удается бежать из плена и примкнуть к партизанскому Движению Сопротивления.

О его храбрости ходили легенды. Переодевшись в форму немецкого офицера, Михайло, как его называли товарищи, добывал ценные данные, участвовал в подрывах и освобождении военнопленных. Красноречивее всего о вкладе Мехти Гусейнзаде в разгром фашизма говорит цена, которую гитлеровцы назначили за его голову. Эта цена возрастала день ото дня: 40 тысяч лир – после взрыва ресторана для немецких солдат, где погибли около 300 фашистов, 300 тысяч – после взрывов публичного дома, где погибли около 80 фашистов, а также редакции и типографии газеты, где публиковались объявления о розыскемпартизана Михайло, 400 тысяч – после уничтожения гаража с 25 военными машинами. И это за голову того, кто, уходя 21-летним на фронт, писал старшей сестре: «Вчера мне дали автомат и новую военную форму. Интересно, смогу ли я, Мехти, из этого автомата убить человека? Ведь я никогда не мог принять смерть ни одного живого существа, получил такое воспитание...». Погиб Мехти Гусейнзаде в неравном бою при выполнении очередного задания, и был похоронен в югославском селе Витовле.

В 1952 году в Москву на XIX съезд КПСС приехал лидер итальянских коммунистов Пальмиро Тольятти. Он-то и рассказал Сталину о героизме советского воина, проявленном в борьбе с фашизмом в горах Италии и Югославии. Сталин дал указание спецорганам уточнить его боевую биографию с тем, чтобы увековечить память Мехти Гусейнзаде. Несмотря на факт пленения Мехти, следователи КГБ столкнулись с такими беспримерными фактами героизма, перед которыми можно было склонить головы. Лишь к 1957 году были собраны все доказательства, и Мехти Гусейнзаде был представлен к званию Героя Советского Союза. В 1958 году о бесстрашном партизане был снят фильм «На дальних берегах».



Heykəltaraş Fuad Əbdürrəhmanov,
arxitektor Mikayıl Hüseynov.
Heykəl 1973-cü ildə qoyulmuşdur

V FƏSİL

Kaş ki, bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni
Aşaraq o qarlı, uca dağları,
Vətən torpağında salaydı məni.

Mehdi Qürbətzadə
13 noyabr 1943-cü il, Qrats şəhəri

MƏN ÖZ XƏZƏRİMƏ VURĞUNAM ...

(Mehdi Hüseynzadənin Qürbətzadə təxəllüsü ilə yazdığı şeirləri)

VƏTƏN

Od tutur bədənim, yanır ürəyim,
Qovuşur varlığım, eşqinlə vətən.
Bu uzaq ölkədə səni anaram,
Andıqca yanaram sevginlə, Vətən!

Doğuldum, böyüdüm, səndə boy atdım,
Günəşinlə durub, ayınla yatdım!
Qəlbimi eşqinlə, nurla boyatdım,
Məzara gedərəm, sənинlə, Vətən!

Kim deyər qəlbimdə kinim sönəcək,
Kim deyər ürəyim səndən dönəcək!
Ağlayan gözlərim, bil, sevincək,
Tarixlər dolanar sənинlə, Vətən!

Eşitsin qoy məni yarım, yoldaşım,
İftixar eyləsin torpağım, daşım.
Adımı səsləsin qohum, qardaşım,
Qollarım güclüdür elinlə, Vətən!

Almaniya, 1943-cü il

AND

Ey ana, ey həyat, ey böyük Vətən!
İnan ki, sənincün yaşayıram mən.
Həsrətin çəkmişəm mən uzun zaman
İndi bambaşqadır gördüyüm dövran.
Göylərin də ağlar, yerin də ağlar,
Bu böyük hicranın qəlbimi dağlar!
Mənim də bir böyük Vətənim vardır,
Mənim də gülüm var, gülşənim vardır!
Bilirəm çiçəyin rəngi solğundur,
Bilirəm anamın gözü yorğundur!
Ağlaraq səsləyir oğlu hardasan?
Anacan ölməyib hələ bu insan,
Onun vətən adlı bir dərdi vardır.
And içirəm sənin böyük adından,
Düşmən hasar çəksə bir dəniz qandan,
Gözlərimi örtsə ölüm pərdəsi,
Vətən uğrunda sönməz həvəsim!
And olsun, xalqımın namus varına!
And olsun vicdanın xilqət yarına!
And olsun bəşərin var qüvvətinə!
And olsun göylərin şah hikmətinə!
Elimin yolunda meydan eylərəm,
Döyüş cəbhəsində al qan eylərəm.
Ya ölüm, ya Vətən, budur son sözüm!
Bu yolda parlar mənim ulduzum!

Pola Italiya, 4 aprel, 1944-cü il

NƏ OLAR, BİR SARI YARPAQ OLAYDIM

Nə olar, bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni.
Aşıb bəyaz qarlı hündür dağları,
Vətən torpağına salaydı məni, -
Sabahın yelləri alaydı məni…

Əzizim ellər ayrısı,
Bülbüləm güllər ayrısı,
Bir gününə dözmədim yar
Olmuşam illər ayrısı.

TƏRLANIM

Nə müddətdir ayrı düşdüm vətəndən,
Dözmək olmur bu hicrana, tərlanım.
Nə gedən var, nə gətirən bir xəbər -
Əlim çatmır heç bir yana, tərlanım.

Dan sökülüb, səhər şehlər düşəndə,
Şeyda bülbül fəğan eylər gülşəndə.
Qəlbim sızlar el yadıma düşəndə
Qanad çalıb, get vətənə, tərlanım.

Saralıbdır növbaharı Gülgəzin,
Adətimdir bülbül kimi gül gəzim.
Söylə gəlsin mənim nazlı Gülgəzim
Mən düşmüşəm bu tufana, tərlanım.

İndi şığı, qalx havaya, var yeri,
Çal qanadın buludlara, yar yeri!..
Düşərgədir mən Mehdinin dar yeri
Söylə bunu Mehribana[9], tərlanım!

Faşist hərbi düşərgəsində yazılmışdır,
1943-cü il.

9. Gəncliyində Mendinin sevdiyi qızın adıdır -Ş.N

AĞLARAM

Yuxuda görmüşəm nazlı sonamı,
Mən heç unutmaram doğma anamı!
İtirdim Vətəni, candan yananı,
Qürbətdə yadıma salıb, ağlaram.

«Mixaylo»yam dedim sözü düzünə,
Süngümü batıram düşmən gözünə!
Dörd ildir həsrətəm Vətən üzünə -
Qəmlər yuvasına qonub, ağlaram.

Düşmənin başını bürümüş duman,
Vətəndən əlimi üzmərəm bir an!
Gələcək bizimdir, yaxın bir zaman -
Sevincdən, fərəhdən, gülüb, ağlaram.

Yuqoslaviya

A DOST

Ömrüm kam almayıb çatmadı başa,
Könlümün şüşəsi dəyibdir daşa.
Bir namə yazmadım yara, yoldaşa,
Xəzan yarpağı tək solğunam, a dost.

Gecə ay üzünə salırkən işıq,
Verir camalına hərdən yaraşıq.
Adria! Bil sənə olmaram aşıq,
Mən öz Xəzərimə vurğunam, a dost.

18.XI -1943 - Qrats şəhəri

YAR GƏLİR DEDİM

(Aşıqvavi)

Əsincə sabahın sərin yelləri,
Baxıb uzaqlara-yar gəlir, dedim...
Töküb gərdəninə qara telləri,
Bəlkə bir məqsədi var, gəlir, dedim!...

Bəyaz üfüq al qana bulananda,
Pərvanələr başıma dolananda,
Könül həyacanından coşub yananda,
Yaxın uzaqlardan yar gəlir, dedim!...

Nə edim aldanıb, oldum naşı mən,
Fərhad tək qopardım hər bir daşı mən.
Nə olar görəydim qara daşı mən,
Mənə mehman olub, yar gəlir, dedim...

Neylərəm nəşəni o nazlı yarsız,
Sevginiz olarsa bunu duyarsız.
Baxıb qəhqəhəmə söyləmə: "arsız!
Bəlkə uzaqlardan yar gəlir, dedim...

Legionçu Qürbətzadə

GÖRƏN OLSAYDI

Qərib bir ölkədə təkcə qalanda,
Baxıb üfüqlərə ilham alanda,
Acıqlanma məni yada salanda,
Vətəndə qoyduğum nazlı dilbəri.

Bir ördək yerişli, bir incə belli,
Tumarlar başını, sabahın yeli,
Hərdən ağ sinəyə düşəndə teli,
Bir görən olsaydı nazlı dilbəri!

Gözləri can alan, sözü məzəli,
Sanki bir lalədir, görməz xəzəli,
Nə deyim, bəlkə də dünya gözəli,
Bir görən olsaydı nazlı dilbəri!

Hərdən gözlər gəl-gəl deyərkən,
Yar coşub özündən dilin yiyərkən,
Bir gedib, bir baxıb gülümsəyərkən,
Bir görən olsaydı nazlı dilbəri!

Onunla olsaydım, olmazdım xəstə,
Dili badam içi, dodağı püstə,
Barı heç olmazsa qəbrimin üstə,
Bir görən olsaydı nazlı dilbəri!

Dekabr, 1945

DEYİNİZ SEVGİLİMƏ

Neçin matəmlidir dağlar, dərələr,
Dəyişmiş rəngini o mənzərələr,
Hətta sürünərək kərtənkələlər,
Küskün taleyindən şikayətçidir.

O ki, o dağlarda minərdi atı,
Keçərdi çaylardan deyib bayatı,
İndisə könlünün sınmış qanadı,
İntizar əlindən şikayətçidir.

Neçin o bağları turubdur xəzan,
Taledir onu bu dərdə yazan?
Görüm gün görməsin yolları qazan,
Çünki dövran ondan şikayətçidir.

Yanvar, 1944

MƏNİM

(Aşıqvari bir təcnis)

Xəbər alma bu dərdimi özümdən,
Qəmli yaşlar ayrılmayır gözümdən.
Nə fikrim var aydın olur sözümdən,
Aşıqvari öz sazımı çalıram.

Tərlan könlüm uçub qonub budağa,
Dolğun gözlə göz gəzdirir bu dağa,
Qərib yerdə tab etmirəm bu dağa,
Düşər xəyalıma o diyar mənim.

O həsrətdən ömrüm indi yarıdır,
Yardan xəbər alsam, məni yarıdır,
Çünki hər qız bir oğlanın yarıdır,
Oxlamış qəlbimi nazlı yar mənim.

Gülə aşiq bülbül rəngi sarıdır,
Onun məhəbbəti gülə sarıdır,
Hər görüşdə yaraların sarıdır,
Olubdur sirdaşım ahu zar mənim.

O vəfalı yarım Qarabağlıdır,
Onun yeri çiçəklidir-bağlıdır,
Ömrü boyu sevgisinə bağlıdır,
Vəfasına çox ümidim var mənim.

Yardan ayrı qalsam ömrüm qaralar,
Küskün xəyalımı dağ tək qar alar,
Bəxtımın səhifəsin fələk qaralar,
Çürüdər ömrümü intizar mənim.

Fevral, 1944

AY QIZ

Mən sənə aşiqəm, gəzmə aralı,
Nazlı baxışından oldum yaralı.
Bu zümrüd yamacın sənsən maralı,
Mən sənin heyranın olaydım, ay qız!

Gözlərin can alan, qaşın qaradır,
Qəlbimin çöhrəsi sənsiz yaradır,
Bir düşun zavallım, bura haradır,
Mən sənin qurbanın olaydım, ay qız!

Mənə üz verəcək yenə yüz kədər,
Çəkdiyim zəhmətlər olarsa hədər,
Yazığın gəleydi mənə bir qədər,
Yanında mehmanın olaydım, ay qız!

Uzaq bir üfüqdə günəş batanda,
Sənsə evə gəlib yorğun yatanda,
Üstünə bir güllü yorğan atanda,
O güllü yorğanın olaydım, ay qız!

Vəfasız dünyaya uyma yalandır,
Tanrı verdiyini geri alandır,
Dünyada yaxşılıq bircə qalandır,
Mən sənin qadan alaydım, ay qız!

DƏLİ CEYRAN

Sən məni salmısan böyləcə dərdə,
Mən dura bilmərəm böylə kədərdə,
Könlüm nə istərsə, incimə ver də,
Düşməyim çöllərə, dəli ceyranım!

İndi anladım ki, nə çəkdi Fərhad!
Bu dərdə düşəni, eyləyirəm yad,
Onlar yalan olmuş, mən almışam ad,
Düşmüşəm dillərə, dəli ceyranım!

Sənsiz bu dərd mənə olacaq ağır,
Odur gözlərimdən bədbinlik yağır,
Baxıb bu dərdimə, aç qolun, çağır,
Qaçaq o çöllərə, dəli ceyranım!

Bülbüləm indi mən gülsüz, çəmənsiz,
Qərarım gəlməyir inan kı, sənsiz,
Çıxma o yerlərdə seyrana mənsiz,
Gəlləm o ellərə, dəli ceyranım!

Fevral, 1944

ADRİYA SAHİLLƏRİNDƏ

Gecə ay üzünə salırkən işıq,
Dalğalı suyuna verir yaraşıq.
Burax bu qəmzəni, olmaram aşiq,
Çünki o Kaspinin vurğunuyam mən.

Bütün varlığımla onun varıyam,
Müqəddəs eşqinin səcdəkarıyam,
Yazıq ki, halım yox, gəzəm, arayam,
Keçdiyim yolların yorğunuyam mən.

Nədir bu dalğalar, nədir, bu qəmlər?
Mənim tək ürəyin inan vərəmlər,
Qoy sənə desinlər ordan gələnlər,
O coşğun çayların durğunuyam mən.

Mən artıq heyranam ağ üzdə xala,
Az qalır ağlımı başımdan ala,
İstərəm afət ol, özün yırğala,
Vəfalı eşqimin dolğunuyam mən.

Desəm gözəllərdən geri qalırsan,
Sən də bir pərisən, geri qalırsan,
Bu qərib könlümü yada salırsan,
Açılmış güllərin solğunuyam mən.

Onun sahilində bir diyarım var,
Hicrana can verən nazlı yarım var,
Ondan dodağımda yadigarım var,
İtirmiş sevgimin sorğunuyam mən.

Gənclik həyatıma qədəm qoyunca,
Gəzmədim suyunda mən də doyunca,
Qurbanı olaydım sahil boyunca,
Çünki o Kaspinin vurğunuyam mən.

Fevral, 1944

RÜBAİLƏR

Dolandın baxmadın kimin səsinə.
Dövranda azalan kimin səsi nə?
Xeyir verməmişəm demə, təbiət
Hətta yaşadığım yer kürəsinə

Duyğu, hiss sənətin canı deyilmi?
Şöhrəti deyilmi, şanı deyilmi?
Dərdiyim o gülün rəngi ki, vardır -
Bir sarı bülbülün qanı deyilmi?

31 mart 1937-ci il

Soldan 2-ci Mehdi Hüseynzadə
və tələbə dostları

AĞ QOYUNUN MACƏRASI
(poema)

Dinləyin siz məni əziz uşaqlar,
Danışacam sizə bəzi nağıllar.
Söylədiyim nağıl danışır kənddən,
Zülm artıq idi olduqca həddən.
Bu kənddə var idi bir zalım qarı,
Olduqca artıqdı dövləti, malı.
Qalmamışdı əsər o dövlətindən,
Baxan yoxdu ona doğma elindən.
Bir neçəsi dindirməyirdi onu,
Dövlətindən qalmış bircə qoyunu.
Neçə günlər ilə qoyun qalar ac,
Axtarırdı özünə tapsın əlac.
Hər gün səhər südünü içirdilər,
Döyüb, söyüb, sonra incidirdilər.
Hərdən gizlin çölə gedib ot yeyir,
Əhvalatı dostlarına söyləyir.
Bir gün yenə getdilər otlamağa.
Dostların görmək üçün çıxdı dağa.
Yıxıldı zavallı, sındı ayağı.
O geri qayıda bilmədi dağı.
Bir neçə dəqiqə qalır orda da,
Axır yoldaşları çatır imdada.
Kömək edib apardılar evinə.
Bir münasib ağac verib əlinə,
Dedilər ki, sağlıq ilə qalasan,
Bəlkə, bu tez zamanda sağalasan.
Öpüşdülər, qucaqlaşıb getdilər,
Hər kəsən öz evinə yetdilər.
Bir neçə gün keçdi bunun üstündən,

Qarı məhrum idi qoyun südündən.
Bir dəfə qarı söylədi kişiyə,
“Gəl qovaq bunu getsin meşəyə.
Qoy qurdlar onun yesinlər ətin,
İndi ki, görmürük mənfəətin.
Onda bizim xeyrirmizi anlayar,
Bəlkə orda bundan yaxşı dolanar.
Qoca güldü, söylədi ona, gülüm,
Bizsiz ona lazımdır, əlbət, ölüm.
Dedi, əlbəttə, razıyam sözünə,
Gedək bu sözləri deyək özünə.
Qurtardılar hər cür əməllərin,
Açdılar qapısın o dəm tövlənin.
Qarı irəllədi, gəldi yanına,
Bu sözləri söylədi o qoyuna.
Dedi iki gündür ərim xəstədir,
Könlünə düşübdür, o, süd istəyir.
Sözünü saxladı, söylədi qoyun,
Əymək istəməzdim sözünə boyun.
Fəqət indi xəstəyəm, yoxdu südüm.
Görürsünüz, necə keçmədə günüm.
Bu sözlərə qarı gətirmədi tab.
Əlində var idi süd üçün bir qab.
Hirslənib o qabı tulladı yerə,
Dedi, artıq lazımsan, söylə, nəyə?
Qoyun maraqlandı, bir qədər güldü,
Qarının məqsədin o saat bildi.
Dedi: - zalım qarı bircə anda bil,
Sənin təki zalım indi az deyil.
Söylə, artıq nə istəyirsən məndən,
Bu qanlı pis günlər gedir ömrümdən.
Onda ki, var idi mənim südüm,

Yanınızda var idi mənim hörmətim.
İndi isə südüm bir az azalıb,
Hamı məndən o dəm narazı qalıb.
Neçə dəfə məni söyüb, döymüsən,
Demişəm, böyüksən, əcəb etmisən.
Neçə dəfə ərin yunumu qırxıb,
Bax, gör, dağ bədənim necə sınıxıb.
Bir çox qoyunları kəsib yemisiz,
Məndən ötrü necə sözlər demisiz.
Məni sanmayınız ki, mən qoyunam,
Niyə qoymayırsız azad dolanam.
Mənim sizdən yoxdur heç bir minnətim,
Və sizə yoxdur mənim əziyyətim.
Neçə dəfə məni siz ac qoydunuz,
Bəsdir artıq daha məni soydunuz.
Hərdən qovub meşələrə göndərdin,
Bu cavan ömrümü muma döndərdin.
Qarı o zaman öz ərini tovladı,
Yenə o yazıq qoyunu qovladı.
Bu qovlamaq əsər etmədi ona,
Gülümsədi o dəm çıxdı eyvana.
İndi söyləyəcəkdir oxuyanlar,
Daim əziyyətdə olur qoyunlar.
Qulaq asan hekayənin dalına,
Bələd olacaq o hər kəsin halına.
Düşdü pilləkənləri o dəm qoyun,
Məyus olub durdu getməyə yolun.
Bir qədər getmişdi, çıxdı bir yerə,
Gördü ətrafında enli bir dərə.
O axşam bir təhər dərədə qaldı,
Səhər getməyini qərara aldı.
Bir az getdi, keçdi dərə, düzləri,

Yaxında bir kəndi gördü gözləri.
Yaxınlaşdı o kəndin qırağına,
Bir neçə heyvanlar gəldi yanına.
Söylədi: - mehriban, əziz dostlarım,
İstəyirəm sizdən icazə alım,
Üç gün olar qarı inciyib məndən,
Nəticədə məni qovdu evindən.
Mən də incimişəm bir neçə kərə,
İstəyirəm indi gedəm şəhərə.
Yoldaşları söylədi, əzizimiz,
Bizim də getməyə vardı fikrimiz.
Gedək ağamızdan icazə alaq,
Heç olmasa bu günü burda qalaq.
Fikrimizi söyləyək biz onlara,
Səhər isə dağılaq bu yollara.
Şəfəqləri yayılmış idi günün,
Səhər açılmışdı çoban düdüyün.
Çalarkən yaxınlaşdılar çobana,
Getmək fikirlərin dedilər ona.
Çoban məyuslaşdı, gözünü sildi,
Yaxında duran keçi bunu bildi.
Dedi, əzizim nə lazım ağlamaq,
Zülm əlində gərək aciz qalmamaq.
Bir əməl vasitəsilə bunları,
Yer üzündən məhv edək zalımları.
İndi isə tələsirik, gedirik,
Dediyimiz sözlərə əməl edirik.
Çoban dedi, sağlıq ilə gediniz,
Bütün məzlumlara kömək ediniz.
Bəzi yerdə mən də kömək edərəm,
Göndərdiyiniz qulluğa əməl edərəm.
Ağacını dayaq verdi qoluna,

Bunlar isə düzəldilər yoluna.
Az getdilər, çox getdilər, müxtəsər,
Başqa kəndə çatdılar sabah səhər.
Gördülər bu kəndin yaxınlığında,
Bir köhnə uçulmuş evin dalında,
Qızıl pipikli bir xoruz dənlədi.
Bunları görən təki o əl eylədi.
Var idi təxminən bir qədər ara,
Xoruz işarə etdi, dedi, hara,
Yaxınlaşıb keçi dedi qoyuna,
Gəl bu sirrimizi söyləyək ona.
Onu da bu zülmdən eyləyək xilas.
İstəyirsən çağıraq burda iclas.
Yaxınlaşdılar, xoruza dedilər,
Sabah iclas olduğunu bildilər.
Onunla bir qədər söhbət etdilər.
Axşam xoruzgilə qonaq getdilər.
Səhər tezdən xoruz çıxdı daşlara,
İclas olacaq banladı hər yana.
Bütün kəndi nə ki, var qoyunları,
Gülə-gülə qarşıladı onları.
Bu kəndin toyuğu, iti, həm atı,
Gəldilər alsınlar bu məlumatı.
Kəndin qırağında olan bir evdə,
Heyvanlardan qalmamışdı pişik də.
Xoruz dedi, bura gələn qonaqlar,
Mənim sizdən balaca təklifim var.
Bu kəndi qurtarsaq başqa kənd də var,
Orda da əzilir məzlum, yoxsullar.
Gəzərək çölləri biz diyar-diyar,
Onlara da etməliyik biz imdad.
Zalımların əlindən edək azad,

Afərin dedilər xoruz yoldaşa,
Kömək edib aparaq işi başa.
Bütün cinsdən nümayəndə gəldilər,
İclas açılmışdı, sədr seçdilər.
İclasda hər işi məlum etdilər.
Çatmayan işləri deyib bildilər.
Qoyun sədr idi, durdu ayağa,
Dedi məzlumları salaq bir yada
Burda olanlar ayağa durdular.
Kömək etmək üçün plan qurdular.
İclası qurtarıb girib qol-qola,
Sevinib, gülüşüb düşdülər yola.
Çox getdilər, az getdilər, müxtəsər,
Başqa kəndə çatdılar sabah səhər.
Burda da yığdılar bir qədər yoldaş,
Sevindiklərindən tökürdülər yaş.
Yolda nə ki var bunlarla gedənlər,
Məhəbbətlə deyib bir-birin dinlər.
Hər kəsə danışır olan zülümdən,
Səslər möhkəm çıxır biri-birindən.
Biri deyir, məni necə döydülər,
Biri deyir, məni necə söydülər,
Qoyun dedi bilirəm arkadaşlar,
Yoldaşlarınız tökür necə yaşlar.
Nə ki var hamıya kömək etməli,
Harda məzlum varsa ora getməli.
Məqsədimiz odur gözəl bir həyat,
Zavallı məzlumlar açsınlar qanad.
Keçi dedi: - a yoldaş qoyun, dayan,
Ən ağırı kəndin o zalımları,
Bizi bu günə qoydular axırı.
Bax qardaşım oldu, şahiddir bunlar,

Mənim yerim sürgündür qarlı dağlar.
Çox sağ olun sizi azad etdiniz,
Avamlıqdan bizi xilas etdiniz.
Ən axır oxuyub həmin bilərik,
Bax o zalımlara gülüb deyərik.
İndi bizə məlum oldu arkadaş,
Bu yazıq yoxsullar tökmüş çoxlu yaş.
O xainlərin əməlin anladım,
Bax gör sevincimdən necə ağladım.
Çox getdilər, keçdilər ağacları,
Bir çox dərə, düzləri, yamacları.
Yolları uzundur, çox danışdılar,
Qoyun dedi, dayanın arkadaşlar.
Məqsədimiz aydın olmaqçün bizə,
İki kəlmə söz deyəcəyəm sizə.
Ən əvvəl qarıdan alaq intiqam,
Məhv edək, götürək onu dünyadan.
Ondan artıq dövlətli yoxdur kənddə,
Almalıyıq ələ bu cür fürsətdə.
İki kəlmə söz yadigar məndən,
İstifadə etməliyik fürsətdən.
Biri dedi, yoldaşımız bu düzdür,
Fəqət indi mümkün deyil, gündüzdür.
Bu işi bax etməliyik gör necə,
Kənddə elan yaymalıyıq bu gecə.
Bizimlə getməyənlər də bilsinlər,
Bəzi yerdə bizə kömək etsinlər.
Gözlədilər, bir qədər axşam oldu,
Hamı yaxınlıqda bir evə doldu.
İşləri olmasın axırı hədər,
Söz yaymağa göndərdilər bir nəfər.
Qarı bu işlərdən oldu xəbərdar,

Acıqlandı, yenə gəlibmi onlar?
Yenəmi gəliblər bura dolmağa,
Gəlirdi kənddən onları qovmağa.
Uzaqdan onlar qarını gördülər,
Əcəb gözəl bir fürsətdir dedilər.
Sevindilər, bir az daha güldülər,
Qoyun durub verdi belə əmrlər.
Yoldaş pişik dırman bu pəncərəyə,
Sən də dayça çəkil bir az geriyə.
Xoruz sən də verərsən işarəsin,
İşə başlamağı hamısı bilsin.
Qarı bir az yaxınlaşmışdır evə,
Söylədi hamınız çıxın eşiyə.
Bir az durdu səs gəlmədi içərdən,
Təpik vurub açdı qapını birdən.
Gülümsədi, dedi ki, əxlaqsızlar,
Məni görən kimi necə qaçdılar.
Özünü beləcə öydüyü bir an,
Duydu pəncərədən bir səs bu zaman.
Döndərərkən o tərəfə üzünü,
Bir şey qamaşdırdı onun gözünü.
Dedi, əlbət, pəncərədə çıraqdır,
Qoy söndürüm, nahaq yerə o yanır.
Yaxınlaşıb, götürsün ki, çırağı,
Pişiyin işarə duydu qulağı.
Atıldı o dəm qarının üzünə,
Caynaqların ilişdirdi gözünə.
Qoç yüyürüb daldan bir kəllə vurdu,
Qarı çaşdığından yerə yıxıldı.
Dayça isə gözləyirdi bayırda.
Vursun təpik ilə qarının qarnına.
Məzlumu incitmək düşsün yadına.

Yanda duranlar da eylədi imdad,
Qarı isə bağırdı bərk fəryad.
Pişik bığların burub ona dedi,
Maraqlandı hamı bu işə güldü.
Kim sənə imdad edəcək, söylə sən,
Yorulmadın sən bizə zülm etməkdən.
Qarı durdu qaçmaq üçün bayıra.
Ki, çağırsın yoldaşların fəryada.
Dayça zərbəsilə vurdu təpiyin.
Sındırdı qarının o dəmdə belin.
Qarı yıxıldı, uzandı can verməyə,
Bunlar isə başladılar gülməyə.
Xoruz dedi, anla bunu ey quldur,
Zülm edənin axır günü bax budur.
Sevişdilər, ura-ura dedilər,
Al bayraqla o kəndə yetişdilər.
Axtardılar tapsınlar zalımları,
Dövlətlilərdən kim gördü onları?
Kimisi qaçdılar, çoxun tutdular.
Ta ölənə qədər çoxlu vurdular.
Burda olan zalımları qovdular,
O kəndin sahibi onlar oldular.
Bu kəndə etdilər böyük arayış,
Bu gündən başlandı yeni yaşayış.
Köhnəliyə böyük zərbə vurdular.
Azadlığa dair həyat qurdular.
Bir-birinə can deyib eşitdilər.
İttifaqla iş görüb işləyirlər.
Qoyun dedi, bilin siz, arkadaşlar,
Bu kənddə məhv oldu bütün zalımlar.
Bu günkü bu həyat yeni həyatdır.
Bu olan yoxsullar, hamı azaddır.

Başqa kəndə etməliyik biz imdad,
Onları da zülmdən edək azad.
İndi isə azadsız, a qullarım,
Artıq qandallı deyildir qolların.
Bu gündən quruldu yeni bir həyat,
Zavallı məzlumlar açdılar qanad.
Mehriban uşaqlar bunu bilin siz,
Zalımın əlində deyilik gücsüz.
Gördünüz, necə işlər etdilər,
Nə tədbirlər töküb plan çəkdilər.
O yazıq qoyun ki, deyirdi imdad,
İndi bizim kimi yaşayır azad.

Mehdi Hüseynzadə

Başladım: 25.III.1935
Qurtardım: 24.IV.1935

KİTABIN İÇİNDƏKİLƏR

Sən şöhrət yarandın Azərbaycana

Müəllifdən 5
Qəhrəman partizan ("Pravda qəzeti 12.04.1957-ci il) 11
Y.Kornilov və A.Krasikov. Geq küçəsində 14
Şəmistan Nəzirli. Mixaylonun silahdaşları 19
Partizanın hədiyyəsi 38
Bacılarla görüş 42
Bir şəkilin izi ilə 58
Vasili Sokolov. Ələkeçməz partizan 63
Yevgeni Şevadzıtski. Mehdi haqqında 68
Cavad Həkimli. Odlar yurdunun qəhrəman oğlu 72
Mikayıl Qulubəyov. O həm də şair idi 81
Qədir İskəndərov. Biz onunla fəxr edirik 86
V.Makarenko. Mehdinin döyüşdüyü yerləri gəzdim 89
Əli Vəliyev. Ölməz qəhrəman 124
Mehdi Məmmədov. Onun həyatı bir dastandır 125
Qaraş Mədətov. Mixaylo haqqında yeni sənədlər 126
Mehdi və onun döyüş dostları 130
Sovet adamları Yuqoslaviya xalqının azadlıq hərəkatında
Nodar Şaşıqoğlıı ilə müsahibədən 139
Kazım Abdullayev. Müəllif Mehdi Hüseynzadədir 140
M. Hüseynzadənin döyüş dostu Q. Jilyayevin 1956-cı il noyabrın 23-də Azərbaycan zəhmətkeşləri ilə görüşü 144
Akademik Bəkir Nəbiyev. Od-adov içində yazılan şeirlər .....
.....147
Əziz Mirəhmədov. Mehdidən yadigar 152
Həmid Atayev. Onu heç vaxt unutmayacağam 154
Əliağa Yasinzadə. Mehdi burda yaşamışdır 157
Əmir Mustafayev. Vətən torpağına salaydı məni 166
Rza Orucov. Rəşadətli intiqamçı 170
İmran Qasımov. Qəhrəmanların xatirəsi yaşayır 172
Məmməd Cəfərli. Azərbaycan legion ədəbiyyatı 176

Həsən Seyidbəyli. Gördüyüm yerlər 177
Tahir Aydınoğlu. Mixaylo sözü Bakıdan getmişdi 183
Oruc Qoşqarlı. Saat beş tamamda 186
Cabbar Quliyev. Mehdiyə borcluyam 192
Teyyub Qurban. Mehdiyə məktub gəlir 193

II FƏSİL
Sən bir od parçasıydın

Bikəxanım Əlizadə. Mən qardaşımla fəxr edirəm 198
Hürriyyət Əzizbəyova. Sağ ol, əziz qardaşım! 207
Səid Rüstəmov. Sevimli şagirdim 215
Mürsəl Nəcəfov. Səni unutmaq olmaz, əzizim! 217
Kazım Kazımzadə. Tələbə yoldaşım 232
Tağı Tağıyev. Dostumu xatırlayıram 234
Məmmədağa Tərlanov. Sədaqətli dostum 236
Törəxanım Babayeva. Bir şəkilin tarixi 246
V. Mnasakan. Əbədiyyət ulduzu 247
Mehdi Əzizbəyov. Bir səfər haqqında 253

III FƏSİL
Mehdi qəlbimizdədir

Григори Жиляев. *"*Товариш Михайло*"*.....256
Məmməd Bağırov *"*İvan Russki kimdir*"* 257
Григори Жиляев. Дутая слава 260
İlham Əmiraslanov. Mehdi Qədbimizdədir 265
C. Həkimli. Mehdi Hüseynzadə əbədi qəhrəman rəmzidir 267
И.Гелеверия. Мехти, партизан 279
Г.Осипов. За возвращение на родину 283
ИЗ КНИГ: Советские люди в освободительной борьбе Югославского народа 286

IV FƏSİL
Könüllərin nəğməsinə yaşarsan

Mirvarid Dilbazi. İgid ölər adı qalar 290
Süleyman Riistəm. E1oğluma 292
Nəbi Xəzri. Qayıtdın. Qoy rahat uysun 294
Səyavuş Sərxanlı. Mixaylo balladası 298
Adil Babayev. Əbədiyyət nəğməsi 304
Xəlil Rza Ulutürk. Əziz xatirə 307
Üfüqlər yanan yerdə 309
İlyas Taptıq. Şanlı ömrün əfsanəsi 310
Əli Vəkil. Adriatik Sahilində 311
Qriqori Jelyayev. Xatirə 313
Əliağa Kürçaylı. Mehdi haqda ballada 315
Bayram Qıraqkəsəmənli. Mehdinin 317
Teyyub Qurban. Canlı heykəl 318
Mübariz Allahverdiyev. Ölməzlik 320
Axund Hacı Sultan Hüseynqulu oğlu. Mehdi 321
Məmmədəli Sail. Bizimdir 322
Əsgər İlham. Əbədiyyət nəğməsi 323
Həbib Balasadıqoğlu. Mehdiyə 324
Tofiq Mütəllibov. Tunc çiçəklər 324
Südabə Şəfa. Unudulmaz qəhrəman 325
Əjdər Fərzəli. Əzizim Şəmistan! 326
Əjdər Fərzəli. Torpaqdan səs gəlir (poema) 328
Babək Aruslu. Şimşək 345
Əlisa Nicat. Sən bizimləsən 346
Səyyar Vəli. Mehdi 349
Xuraman xanım. Əgər yaşasaydın 351
Rəfiq Zəka. Qələbə günündə (poemadan parça) 352
Əhməd Cəmil. Heykəl 355
Vilayət Rüstəmzadə. Adria, layla çal 356
Vladimir Qafarov. Mehdi haqqında ballada 357
Fateh Şodiyev (Tacikistan) Mehdi, Salam! 360

Baləli Qədimov. Ölməz Qəhrəman 363
Aşıq Soltan Katuxlu. Partizan Mehdi 364
Adil Yəhyayev. Səni 365

V FƏSİL
Mən öz Xəzərimə vurğunam
(Mehdinin şeirləri və poeması)

1. Vətən 368
2. And 369
3. Nə olar, bir sarı yarpaq olaydım 370
4. Tərlanım 370
5. Ağlaram 371
6. A dost 371
7. Yar gəlir dedim 372
8. Görən olsaydı 372
9. Deyiniz sevgilimə 373
10. Mənim 374
11. Ay qız 375
12. Dəli ceyranım 376
13. Adriya sahillərində 377
14. Yanıma Gələndə 378
15.Ağ qoyunun macərası (poema) 379